# AZƏRBAYCAN DİLİ

*dövlət dili*

**MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT**

# 6







## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi **Üzeyir Hacıbəylinin,***
*sözləri **Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

LAYİHƏ

HƏVVA ABDULLAYEVA,
İRADƏ ƏFƏNDİYEVA,
MƏLAHƏT ƏLƏSGƏROVA

# AZƏRBAYCAN DİLİ 6

Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
dərsliyin metodik vəsaiti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

**"KÖVSƏR" NƏŞRİYYATI**
**BAKI – 2021**

LAYİHƏ

# MÜNDƏRİCAT

Giriş........................................................................................................ 4
Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ümumi
təlim nəticələri..................................................................................... 6
Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün
Azərbaycan dili (dövlət dili kimi) dərslik dəsti ........................................ 8
Dərslərin illik tematik planlaşdırılması .................................................. 13
1-ci dərs. § 1. Birinci zəng (1 saat) ......................................................... 17
2-ci dərs. § 2. Həyat güzgüsü (1 saat) ..................................................... 19
3-cü dərs. § 3. Mən də təyyarəçi olacağam! (1 saat) ................................ 21
4-cü dərs. § 4. Gözəl Vətən (1 saat) ........................................................ 23
5-ci dərs. § 5. Əmir və loğman (1 saat) .................................................. 25
6-cı dərs. § 6. Min bir dərdin dərmanı (1saat) ........................................ 27
7-ci, 8-ci dərslər. § 7. Səbrin olmasa, heç nə öyrənə bilməzsən! .................. 29
9-cu dərs. § 8. Azadlıq (1-ci hissə- 1saat) ............................................... 32
10-cu dərs. §9. Azadlıq (2-ci hissə -1saat) ............................................... 34
11-ci dərs. § 10. Ucalmışıq (1saat) .......................................................... 36
12-ci dərs. § 11. Deyəsən, tapmışıq... (1saat) .......................................... 38
13-cü dərs. § 12. Ölkəmin çiçəkləri (1saat) ............................................. 40
14-cü dərs. § 13. Küçə fənərinin nağılı (1saat) ......................................... 42
15-ci dərs. § 14. Gerbim, himnim, bayrağım (1saat) ................................ 44
16-cı dərs. Özünüzü yoxlayın! (1saat) ..................................................... 48
17-ci dərs. § 15. Bakı Opera Teatrının tarixi (1saat) ................................. 49
18-ci dərs. § 16. Şərqdə ilk opera yazan qadın bəstəkar (1saat) ................... 51
19-cu dərs. § 17. Qarışqanın sərgüzəşti (1saat) ........................................ 53
20-ci dərs. § 18. Cırcırama və qarışqa (1saat) .......................................... 55
21-ci dərs. § 19. Aqilin hədiyyəsi (1saat) ................................................ 57
22-ci dərs. § 20. Qoca tramvayçı (1saat) .................................................. 59
23-cü dərs. § 21. Pul tapmışdım (1-ci hissə -1saat) ................................... 61
24-cü dərs. § 22. Pul tapmışdım (2-ci hissə -1saat) ................................... 63
25-ci dərs. § 23. Nil sularında (1-ci hissə-1saat) ....................................... 65
26-cı dərs. § 24. Nil sularında (2-ci hissə -1saat) ...................................... 67
27-ci dərs. § 25. H.Z.Tağıyev necə milyonçu oldu? (1saat) ......................... 69
28-ci dərs. § 26. Yaxşı yoldaş (1saat) ....................................................... 71
29-cu dərs. § 27. Bu gün təzə il gəlir! (1saat) ............................................ 74
30-cu dərs. Özünüzü yoxlayın! (1saat) ..................................................... 76
31-ci dərs. § 28. Balaca aşpaz (1-ci hissə - 1saat) ...................................... 78

LAYİHƏ

32-ci dərs. § 29. Balaca aşpaz (2-ci hissə -1saat) ........................................ 80
33-cü dərs. § 30. Uşun qoca oğlu Səgrək boyu (1-ci hissə-1saat) ................ 82
34-cü dərs. § 31.Uşun qoca oğlu Səgrəyin boyu (2-ci hissə-1saat) .............. 84
35-ci dərs. § 32. Uşun qoca oğlu Səgrəyin boyu (3-cü hissə - 1saat) ........... 86
36-cı dərs. § 33. Vətən əbədi qoruqdur (1saat) .............................................. 88
37-ci, 38-ci dərslər. § 34. Güclü oğlan (2saat) ............................................... 91
39-cu dərs. § 35. Atın belindəki Kərəm idi ... (1saat) .................................... 93
40-cı dərs. § 36. Qəhrəmandır Azərbaycan! (1saat) ...................................... 96
41-ci dərs. § 37. Qarğa dili (1saat) ................................................................. 98
42-ci dərs. § 38. Balaca girovlar (I hissə - 1saat) ....................................... 101
43-cü dərs. § 39. Balaca girovlar (2-ci hissə -1saat) ................................... 102
44-cü dərs. § 40. Peşmançılıq (1saat) .......................................................... 104
45-ci dərs. § 41. Hophop (1saat) .................................................................. 106
46-cı dərs. § 42. Faydalı məsləhət (1saat) ................................................... 108
47-ci dərs. § 43. Qara şanı (1saat) ............................................................... 110
48-ci, 49-cu dərslər. § 44. Bahar gəlsin! (2saat) .......................................... 111
50-ci dərs. Özünüzü yoxlayın! (1saat) .......................................................... 113
51-ci dərs. § 45. Pələng ovu! (1saat) ........................................................... 114
52-ci dərs. § 46. Qırqovulam, təkəm mən... (1saat) ...................................... 115
53-cü dərs. § 47. Daşyığan əmi (1 hissə - 1saat) ......................................... 118
54-cü dərs. § 48. Daşyığan əmi (2 hissə - 1saat) ......................................... 119
55-ci dərs. § 49. Gəlin elə edək ki... (1saat) ............................................... 121
56-cı dərs. § 50. Çəkil, İlan gəlir! (1ci hissə – 1saat) ................................... 123
57-ci dərs. § 51. Çəkil, ilan gəlir! (2 hissə - 1saat) ...................................... 125
58-ci dərs. § 52. Səttar Bəhlulzadə (1saat) ................................................... 126
59-cu dərs. § 53. Milli Ordumuz (1saat) ......................................................... 129
60-cı dərs. § 54. Xilaskar (1-ci hissə – 1saat) ............................................... 130
61-ci dərs. § 55. Xilaskar (2-ci hissə -1saat) ................................................. 132
62-ci dərs. § 56. Ən qiymətli hədiyyə (1saat) ................................................ 134
63-cü dərs. § 57. Gül (1saat) ........................................................................ 136
64-cü dərs. Özünüzü yoxlayın! (1saat) .......................................................... 137
I. Özünüzü yoxlayın ...................................................................................... 138
II. Özünüzü yoxlayın ..................................................................................... 142
III. Özünüzü yoxlayın .................................................................................... 145
IV. Özünüzü yoxlayın .................................................................................... 149
Fənlərarası inteqrasiya .................................................................................. 154
Qiymətləndirmə cədvəllərindən nümunələr ................................................... 156

LAYİHƏ

# GİRİŞ

Müstəqillik dövründə ölkəmizdə başlanan təhsil islahatı öz prioritet mövqeyini hələ də qoruyub saxlayır və uğurla davam etdirilir. Əsaslı təhsil quruculuğu siyasəti hələlik ümumi orta təhsilin bütün pillələrini əhatə etməsə də, müsbət səmərə verdiyi artıq hiss edilməkdədir.

Azərbaycanda təhsil islahatının başlanmasından keçən dövr göstərdi ki, şagirdyönümlülük və inkişafyönümlülük istiqamətində qurulan və şagird şəxsiyyətinin formalaşdırılmasında nəticəyönümlülüyü hədəf alan hazırki təhsil islahatı qarşıya qoyduğu əsas məqsədlərə addım-addım yaxınlaşmaqdadır.

Şagirdyönümlülük, inkişafyönümlülük və bütün təhsil alanlar üçün bərabər imkanların yaradılmasının nəticəsidir ki, artıq şagird təhsil prosesinin subyektlərindən biri kimi çıxış edir. Tədris prosesi onunla əməkdaşlıq üzərində qurulur. Şagird tədris prosesinin fəal iştirakçısıdır; o özünə lazım olan bilikləri əldə etməyin yollarını bilir: müxtəlif mənbələrdən istifadə etməklə, tədqiqat aparmaqla, resurslardan yararlanmaqla öyrənir, biliklərini artırır; bacarıqlarını təkmilləşdirmək üzərində düşünür və fəal əməkdaşlıq mühitində yaradıcı fəaliyyət nəticəsində buna nail olur. Butün bu proses müəllimin nəzarəti altında həyata keçirilsə də, burada müəllimin bələdçilik və istiqamətvericilik fəaliyyəti, şagirdin köməkçisi kimi, ona öyrənməyin yolunu öyrədən funksiyası daha qabarıq nəzərə çarpır.

Tədris prosesinin hədəf aldığı nəticələrin reallaşdırılması isə təhsilin məzmun və formasının, qiymətləndirmə mexanizminin yeni əsaslar üzərində qurulmasını şərtləndirir ki, kurikulum islahatının ümumi orta təhsil səviyyəsində sistemli şəkildə davam etdirilməsi zərurəti də məhz bunlarla müəyyənləşir.

"Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) kurikulumu" da, öz növbəsində, bu fənn üzrə ümumi təlim nəticələrində, məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə məsələlərində məhz yuxarıda qeyd olunan imkanların reallaşdırılmasını nəzərdə tutur və ona istiqamətləndirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsi demokratik prinsiplərdən çıxış edərək əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsi və inkişafını təmin etməklə bərabər, milli mənsubiyyətindən asılı olmayaraq, dövlət idarələrində vəzifə tutan bütün vətəndaşların (o cümlədən, müxtəlif xalqların nümayəndələrinin) öz vəzifələrini məhz Azərbaycan dilində icra edəcəkləri tələbini qarşıya qoyur. Odur ki, Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə uyğun olaraq ("Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir") dövlət təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili tədrisini həyata keçirməklə dövlət dili kimi, bu dilin öyrənilməsinə hər cür şəraiti təmin edir.

İnkaredilməz faktdır ki, Azərbaycan dilini öyrənməklə şagirdlər yalnız ümumi həyati bacarıqlar əldə etmir, həm də dünyada geniş yayılmış türk dillərinə bələd olur, türkdilli ölkələrdə də fəaliyyət göstərmək üçün zəruri ünsiyyət bacarıqlarına yiyələnirlər. Ümumtəhsil məktəblərində Azərbaycan dili (dövlət dili kimi) təliminin məqsədi də məhz bu imkanların rellaşdırılması üçün şagirdlərdə dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq bacarıqlar formalaşdırmaqdan ibarətdir.



LAYİHƏ

Müxtəlif məzmun xətləri üzrə Azərbaycan dilindən ibtidai təhsil pilləsində şagirdlərdə formalaşdırılan ilkin bacarıqların ümumi orta təhsil pilləsində inkişafı və təkmilləşdirilməsi təmin olunmadan, ədəbi dilimizin tükənməz imkanlarından lazımınca və düzgün istifadə ilə bağlı fəaliyyət sahəsini genişləndirmək, müxtəlif mənbələrdən zəruri informasiyaları əldə etmək tələbatının ödənilməsi qeyri-real görünür.

Təsadüfi deyildir ki, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı"nda (23 may 2012-ci il tarixli ) Azərbaycan dilindən istifadə zamanı bir çox nöqsanlara yol verildiyi, ədəbi dilin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsinə diqqət çəkilir və müvafiq qurumların, o cümlədən Təhsil Nazirliyinin qarşısında mühüm vəzifələr qoyulur. "Sərəncam"da deyilir: "Ana dilimiz öz ifadə imkanlarının zənginliyi, səs quruluşunun səlisliyi və qrammatik strukturunun sabitliyi ilə səciyyələnir. Müasir Azərbaycan ədəbi dili siyasi-ictimai, elmi-mədəni sahələrdə geniş işlənmə dairəsinə malik, yüksək yazı mədəniyyəti olan və daim söz ehtiyatını zənginləşdirən bir dildir.

... Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır.

Bununla yanaşı, son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqəti çəkir. ... Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir.

Dilin böyük ictimai-siyasi hadisə və mənəvi həyatımızın mühüm amili olduğunu çox zaman nəzərdən qaçıran bəzi mətbuat orqanlarında, radio və televiziya kanallarında ədəbi dil normalarının pozulması adi hal almışdır. Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir. Küçə və meydanlardakı reklamlarda, afişalarda Azərbaycan dilinin ən adi leksik və qrammatik qaydalarının pozulması təkcə dil mədəniyyətinin deyil, ümumi mədəni səviyyənin də arzuedilməz göstəricisinə çevrilmişdir..."

Azərbaycan Respublikası Prezidentinin "Sərəncamı"ında vurğulanan bu məsələlər bir çox hallarda birbaşa orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin təlimi ilə bağlanır. Bu baxımdan, "Sərəncam" ümumtəhsil məktəblərində Azərbaycan dili (dövlət dili kimi) tədrisinin qarşısında da bir sıra çox mühüm vəzifələr qoyur.

Bu vəzifələrin yerinə yetirilməsi və qloballaşma şəraitində Azərbaycan dilindən zamanın tələblərinə uyğun istifadənin təmin olunması üçün Azərbaycan dilindən hazırlanan tədris vəsaitlərinin müasir dövrün tələblərinə cavab verməsinə xüsusi diqqət yetirilməli, tədris prosesində öyrənənlərin ehtiyaclarının ödənilməsinə hər cür şərait yaradılmalıdır.

Fikrimizcə, VI sinif üçün hazırladığımız Azərbaycan dili (dövlət dili kimi) dərslik dəsti (dərslik və müəllim üçün metodik vəsait) bu ehtiyacı ödəmək üçün üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək və tədris prosesində müəllim

LAYİHƏ

və şagirdlərin ən yaxın köməkçisi olacaqdır. Ümumtəhsil məktəblərin VI siniflərində tədris işini planlaşdıracaq müəllimlərin ehtiyacını nəzərə alaraq burada ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üçün nəzərdə tutulan məzmun standartlarını verməyi məqsədəuyğun hesab edirik.

### Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ümumi təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:***

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;
- şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir;
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir.

### 2. Məzmun xətləri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Dinləyib-anlama**

Şagird:

- dinlədiyi söz, ifadə, cümlə və mətnin mənasını anladığını nümayiş etdirir;
- dinlədiyi fikirlərlə bağlı mühakimələr yürüdür.

**Danışma**

Şagird:

- nitqində düzgün tələffüz qaydalarına əməl edir;
- nitqində müxtəlif yardımçı vasitələrdən (uyğun səs tonu, jest, mimika, nitq etiketləri) istifadə edir;
- fikirlərini nitqin müxtəlif formalarında (monoloji, dialoji) ardıcıl ifadə edir.

**Oxu**

Şagird:

- mətndəki söz və ifadələrin kontekstə uyğun mənalarını izah edir;
- elmi-kütləvi və bədii mətnləri düzgün və ifadəli oxuyur;
- elmi-kütləvi və bədii mətnləri məzmun və strukturuna görə təhlil edir.

**Yazı**

Şagird:

- mənbələrdən istifadə etməklə müxtəlif formalı (inşa, esse, hekayə) rabitəli mətnlər yazır;
- özünün və başqasının yazısını təkmilləşdirir;
- yazısında orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq edir;
- əməli yazılar (elan, məktub, teleqram, izahat, ərizə, tərcümeyi-hal, arayış, protokol, hesabat, akt) yazır.

LAYİHƏ

## 3. Siniflər üzrə təlim nəticələri və məzmun standartları

## VI sinif

***VI sinfin sonunda şagird:***

- dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir; nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən məqsədəuyğun istifadə edir;
- fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır və mətnin hissələrinə müvafiq qruplaşdırır;
- mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki sözləri düzgün vurğu ilə oxuyur;
- mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir;
- mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir və mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir;
- əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

## Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama**

Şagird:

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir;

1.1.1. Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir;

1.1.2. Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir.

**2. Danışma**

Şagird:

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir;

2.1.1. Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir;

2.1.2. Nitqində ritm və tempdən istifadə edir;

2.1.3. Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır;

2.1.4. Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır.

**3. Oxu**

Şagird:

3.1. Mətni mənimsədiyini nümayiş etdirir;

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;

3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur;

3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir.

**4. Yazı**

Şagird:

4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir;

4.1.1. Mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir;

4.1.2. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir;

4.1.3. Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;

4.1.4. Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır.

LAYİHƏ

## Ümumtəhsil məktəblərinin
## 6-cı sinfi üçün Azərbaycan dili (dövlət dili kimi) dərslik dəsti

Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Azərbaycan dili (dövlət dili kimi) dərsliyi dinləyib-anlama, danışma, oxu və yazı məzmun xətlərinin ehtiva olunduğu (13 alt-standart üzrə) ümumi təlim nəticələrinin reallaşdırılması üçün şagirdləri zəruri təlim materialları ilə təmin edir. Müəllim üçün metodik vəsaitdə isə həmin didaktik materiallar əsasında şagirdlərdə müvafiq bacarıqların formalaşdırılmasını nəzərdə tutan dərslərin təşkili (motivasiyaların qurulması, tədqiqat sualının formalaşdırılması, müzakirələrin və debatların aparılması, tədqiqat üçün materialların seçilməsi və sistemləşdirilməsi və s.) və aparılması ilə əlaqədar müəllimlərə əməli kömək göstərilir və müəyyən zəruri tövsiyələr verilir.

6-cı siniflər üçün hazırlanmış Azərbaycan dili (dövlət dili kimi) dərsliyi 64 dərsin reallaşmasını təmin edən 57 paraqrafdan ibarətdir. Bunlardan 7, 34 və 44-cü paraqrafların hər biri iki dərs saatı üçün nəzərdə tutulmuş, qalan dərslərin hər biri üçün isə şagirdlərin yaş səviyyələrinə uyğun ayrıca bədii və elmi-kütləvi mətnlər, şeirlər, əlavə tədris materialları verilmiş, həmin mətnlər üzrə seçilmiş alt-standartların reallaşdırılmasına istiqamətləndirilmiş rəngarəng çalışmalar tərtib olunmuşdur. 16, 30, 50 və 64-cü dərslər summativ qiymətləndirmə üçün ayrılmışdır. Summativ qiymətləndirmə üçün nəzərdə tutulmuş materiallar isə məqsədli şəkildə dərsliyə daxil edilməmiş, müəllim üçün vəsaitdə verilmişdir.

Dərslikdəki təlim materialları üzərində şagirdlərin məqsədyönlü işini təşkil etmək üçün, ilk növbədə, dərsliyin metodik sistemi ilə tanışlıq tələb olunur ki, burada onlardan bəziləri üzərində dayanmağı və müəllimlərin diqqətinə çatdırmağı məqsədəuyğun hesab edirik.

Dərsliklə tanışlıq forzas səhifəsindən başlamalıdır. Burada bütün dərslik boyu istifadə olunan şərti işarələr yerləşdirilmişdir. Mühüm əhəmiyyət kəsb etdiyindən müəllim, birinci növbədə, şagirdlərin həmin işarələrlə tanış olmalarını təşkil etməli, onların mahiyyətinin qavranılmasına diqqət yetirməlidir.

Müəllimlərin nəzərinə çatdırırıq ki, dərslikdə bu işarələrdən ən çox sistemli şəkildə istifadə olunanı mətndə işlənmiş sözlərin və söz birləşmələrinin qırmızı rənglə fərqləndirilməsidir. Bu üsulla mənasının mənimsənilməsi üzərində iş aparılması nəzərdə tutulan dil vahidləri bütün mətnlərdə seçilib ayrılaraq şagirdlərin nəzərinə çatdırılır. Qeyd edək ki, mətndə işlənmiş müəyyən sözlərin, ifadələrin və söz birləşmələrinin mənasının izahı üzərində iş aparılması bütün dərslərin ana xəttini təşkil etdiyindən bu dil vahidlərinin dərslikdə məhz qırmızı xətlə fərqləndirilməsi bir metodik üsul kimi diqqətə alınmalıdır. Nəzərə almaq lazımdır ki, artıq şagirdlərin lüğət ehtiyatında müəyyən miqdar söz və ifadələr vardır. Onlar oxuduqlarını başa düşür, anladıqlarını dəqiqləşdirmək üçün suallar verir, fikirlərini istər şifahi, istərsə də yazılı formada ifadə edə bilirlər. Bütün bunları nəzərə alaraq düşünürük ki, üzərində iş aparılan mətnlərin və şeirlərin məzmununun başa düşülməsi üçün artıq onların cümlə-cümlə tərcümə edilməsinə ehtiyac yoxdur. Elə bu səbəbdən də mətndə elə söz və ifadələr fərqləndirilmək üçün seçilmişdir ki, şagirdlər əvvəlki siniflərdə həmin söz və ya söz birləşmələri ilə tanış edilmişlər. Həmin sözlərin mənalarının izahı

LAYİHƏ

prosesində şagirdlərin onların mənalarına nə dərəcədə bələd olduqları müəyyənləşir. Bu yolla sözlərin ifadə etdikləri mənalara bir daha diqqət yetirilir. Bu iş müxtəlif yollarla həyata keçirilə bilər. Belə ki, şagird həmin dil vahidlərinin ifadə etdiyi mənanı başa düşdüyünü göstərmək üçün onu tədris dilinə tərcümə edə, onların sinonimlərini və ya antonimlərini səsləndirə, yaxud da sadəcə olaraq mənalarını təsvir yolu ilə izah edə bilər. Bu yolla həm üzərində iş aparılması nəzərdə tutulan mətnlərin mənası mənimsədilir, həm də şagirdlərin lüğətində olan bir sıra sözlərin mənaları dəqiqləşdirilir və fəallaşdırılır. Bir daha vurğulamaq istərdik ki, hər dərsdə bu işlərin aparılması imkanlarını və zəruriliyini nəzərə alaraq dərslikdəki bu və ya digər bir paraqrafda bu məqsədlə ayrıca çalışmalar tərtib edilməmişdir. Ona görə də hər bir dərsdə qırmızı rəngdə verilmiş sözlərin izahı xüsusi çalışma növü kimi qəbul edilməli və diqqətdən kənarda qalmamalıdır.

Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi və dəqiqləşdirilməsi istiqamətində işlər bununla məhdudlaşmır. Bu istiqamətdəki işləri dərsliyin metodik sistemində özünəməxsus yeri olan "Kəlmələrin dili"ni öyrənək!" rubrikası ilə də həyata keçirmək planlaşdırılır. Bu rubrikada ilkin mənaları şagirdlərə məlum olan müəyyən sözlər təmsil olunur. Məqsəd dilin lüğət tərkibinin zənginliyinə maraq oyatmaq, həmin sözlərin digər çoxişlək mənalarına, məna çalarlarına şagirdlərin diqqətini cəlb etməklə onların lüğət ehtiyatının genişləndirilməsinə şərait yaratmaqdır.

Bunlardan başqa, məxsusi olaraq şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə imkan yaradacaq çoxsaylı rəngarəng çalışmalar da hazırlanmış və dərsliyə daxil edilmişdir. Bu istiqamətli çalışmaların yerinə yetirilməsi, bir tərəfdən, şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, digər tərəfdən isə onların mühakimə bacarıqlarını inkişaf etdirir. Çalışma mətnlərinə daxil edilən belə sözlər əsas tədris mətnlərindən seçilir və mətnin üzərində xüsusi işarələrlə fərqləndirilir. Sözlərin omonim mənaları, sinonimləri, məcazi məna imkanları, çoxmənalılığı, quruluşu, digər sözlərlə əlaqə və münasibətləri şərh yolu ilə mənimsənilir. Dərslikdəki bir sıra çalışmalarda eyni bir kökdən müxtəlif sözlərin düzəldilməsi, verilmiş eyniköklü sözlər arasındakı əlaqə və münasibətlərin müəyyənləşdirilməsi, eyniköklü sözlər cərgəsinin bu və ya digər nitq hissəsinə mənsub sözlər hesabına genişləndirilməsini nəzərdə tutan çalışmalarla da şagirdlərdə lüğət ehtiyatına şüurlu münasibət formalaşdırılır.

Ümumi təlim nəticələrində nəzərdə tutulmuş bir sıra zəruri bacarıqların şagirdlərdə formalaşdırılması dərslikdəki rabitəli mətnlər üzərində işlərlə reallaşdırılır. Hər bir mətnin oxusu zamanı şagirdlərin sözləri orfoepik normaları gözləyərək düzgün tələffüz etmək, düzgün vurğu ilə oxumaq, oxu zamanı ritm və tempə əməl etmək bacarıqları inkişaf etdirilir. Rabitəli mətnlər şagirdlərin oxuduqlarını və ya eşitdiklərini dəqiqləşdirmək üçün suallar tərtib etmələrinə, fikirlərini mətndəki hadisələr üzərində qruplaşdırmağa, mətnin tərkib hissələrini müəyyənləşdirmələrinə, fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına, əsas faktları ikinci dərəcəli olanlardan seçib ayırmalarına və digər bir sıra bacarıqların formalaşdırılmasına, təkmilləşdirilməsinə imkan verir. Rabitəli mətnlər əlverişli nitq situasiyaları ilə zəngin olduğundan sözün, ifadənin mənasının kontekstdə qavranılması üçün də münbit öyrənmə şəraiti yaradır. Odur ki, dərslikdəki çalışmaların böyük əksəriyyəti məhz mətnlərdə işlənmiş sözlərin leksik və qrammatik mənasının mənimsənilməsini, söz birləşmələri və cümlə qurmaq

LAYİHƏ

bacarıqlarının təkmilləşdirilməsini vəhdətdə həyata keçirməyi nəzərdə tutur. Bu isə dilin qrammatik quruluşunun praktik yolla mənimsənilməsini təmin edir.

Şagirdlər üçün sözün qrammatik və ya leksik mənasının mətndə qavranılması o qədər də çətinlik törətmir və təlimə marağı artırır. Odur ki, dərslik hazırlanarkən mətnlərdəki hər bir imkandan maksimum istifadə edilmiş, hər bir mətn üzrə 10-15 çalışma tərtib edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, bəzən çalışmaların sayının çoxluğu müəllimlərdə ciddi narahatçılıq yaradır, onlar həmin çalışmaların hamısının icra edilməsinin mümkünsüzlüyü fikrini irəli sürürlər. Bununla əlaqədar bir məsələyə diqqət yetirmək lazım gəlir: Məlumdur ki, hər bir sinifdəki şagirdlər dilə praktik bələdlik səviyyələrinə görə müxtəlif oıur. Hər bir sinifdə həm bu dilin daşıyıcıları, həm də digər xalqların nümayəndələri təhsil ala bilər. Çalışmaların çoxluğu müəllimə seçim imkanı verir, diferensial yanaşma tətbiq etməyə şərait yaradır. Digər tərəfdən, eyni istiqamətli çalışmaların müxtəlif qruplar tərəfindən yerinə yetirilməsi şagirdlərin müstəqil tədqiqat aparmalarını, ədəbi dilimizin normalarının müxtəlif imkan və yollarla mənimsənilməsini nəzərdə tutur, sinifdə yarış əhvalı-ruhiyyəsi yaradır, şagirdləri fəallaşdırır. Praktik dil bilgisi olan, eləcə də təlimdə mənimsəmə səviyyəsi yüksək olan şagirdlərin ehtiyaclarının ödənməsi, onların təlimə marağının artırılması baxımından da şalışmaların sayının çoxluğu narahatlıq doğurmaqdansa, təqdir olunmalıdır. Tutaq ki, hər hansı bir paraqrafda sözlərin məna imkanları üzərində iş aparmaq üçün 4 -5 çalışma verilmişdir. Bu çalışmalar çətinlik dərəcəsinə görə qruplaşdırılmalı və şagirdlərin səviyyəsi nəzərə alınaraq onlara təklif edilməlidir. Bu, səviyyəyə görə qruplar təşkil etməyə də imkan verir. Ola bilər ki, müəllim bu çalışmalardan məsləhət bildiyi hər hansını fərdi qaydada şagirdlərə təklif etsin. Odur ki, hər hansı bir sinifdə dərslikdəki bu və ya digər çalışmanın yerinə yetirilməməsi hələ bu çalışmaların lazımsızlığı anlamına gəlməməlidir.

Dərslikdə çalışma mətnləri kimi konstitusiya maddələrindən, atalar sözlərindən, alqış və dualardan, sınamalardan, tapmaca və lətifələrdən də istifadə olunmuşdur. Bu cür materialların seçilməsi təlim məqsədi daşıyır və eyni zamanda, şagirdlərdə bir sıra bacarıqların formalaşdırılmasına, onların dünyagörüşünün genişləndirilməsinə xidmət edir. Atalar sözləri üzərində hər hansı bir tapşırıq yerinə yetirərkən şagirdlər yeni-yeni atalar sözləri ilə tanış olur, dilimizin bu zəngin sərvətinə yiyələnir, yeri gələndə onlardan nitqlərində istifadə edir, bəzi hallarda isə onlar bildikləri atalar sözlərində yol verilmiş səhvləri aşkara çıxarır, onları aradan qaldırmaqla atalar sözlərinin ilkin formalarını bərpa edirlər. Bunları hər hansı lətifə və ya tapmaca barəsində də demək olar.

Azərbaycan Respublikası Konstitusiyasının bəzi maddələri ilə də şagirdlər çalışma mətnlərində tanış olurlar. Onlar bu yolla öz hüquq və vəzifələri barədə müəyyən təsəvvür əldə edir, iki-üç cümlədən ibarət olan maddələrin dili üzərində hər hansı bir tapşırıq yerinə yetirməklə praktik dil bacarıqlarına yiyələnir, həm də müəyyən mövzular ətrafında əlavə fakt və hadisələrlə fikirlərini əsaslandırmaq imkanı qazanırlar.

Dərsliyin metodik sistemundə diqqəti cəlb edən cəhətlərdən biri də "Hikmət xəzinəsindən" rubrikasıdır. Bu rubrikada verilən aforizmlər daha çox əxlaqi səciyyə daşıyır, şagirdlərin həyata hazırlanmasına, onların mənəvi tərbiyəsinə xidmət edir,

LAYİHƏ

tərbiyəvi iş aparmağa vəsilə olur. Bu aforizmlər üzərində aparılan müzakirə və debatlar şagirdlərin şifahi nitq bacarıqlarına yiyələnmələrinə, sərbəst fikir mübadiləsi etmələrinə əhəmiyyətli kömək göstərir. Şagirdlər üçün aforizmlər və müdrik kəlamlar seçilməsində mənəvi zənginliyə üstünlük verən Şərq müdrikliyinə daha çox yer verilmişdir.

“Bunları bilirsinizmi?” rubrikası ədəbi dilin qrammatik, orfoqrafik, orfoepik normaları ilə şagirdləri tanış etmək və müvafiq dil hadisələrinə onların diqqətini cəlb etmək vəzifəsini yerinə yetirir. Şagirdlər rubrikada təqdim olunan məlumatlarla tanış olur, onların dil hadisələrinə praktik tətbiqi üzərində işləyir, nəticədə nəzərdə tutulmuş bacarıqların formalaşdırılmasına nail olunur. Əsas nitq hissələrinin bəziləri ilə əlaqədar şagirdlərin 5-c i sinifdə praktik yolla əldə etdikləri bacarıqlar 6-cı sinifdə inkişaf etdirilir və təkmilləşdirilir. Bundan əlavə, fel və zərf kimi əsas nitq hisələrinin qrammatik mənalarına şagirdlərin diqqətini cəlb etmək üçün “Bunları bilirsinizmi?” rubrikasında tanışlıq məqsədi daşıyan yığcam məlumat verilir, verilmiş məlumatların mənimsədilməsi isə praktik işlərlə reallaşdırılır.

Çalışma növlərindən biri kimi, sualların mətnin məzmununu əks etdirmədiyinin əsaslandırılmasına həsr olunmuş tapşırıqların yerinə yetirilməsi şagirdlərin maragına səbəb olur, onlarda fikirlərini fakt və hadisələrlə əsaslandırmaq bacarığını inkişaf etdirir.

Azərbaycan dili dərsliyində ayrı-ayrı dərslər üçün verilmiş tədris materialları bir-birini təkrar etmir, ancaq həmin materiallar qoyulmuş mövzu baxımından bir-birini tamamlayır və şagirdlərin mövzu ilə əlaqədar problemləri müxtəlif tərəflərdən görmələrinə, dərk etmələrinə istiqamətləndirilir. Dinləyib-anlama, danışma, oxu və yazı üzrə zəruri bacarıqların formalaşdırılması işi forma və məzmunca son dərəcə rəngarəng, üslubca fərqli mətnlər üzrə aparılır. Bu materialların içərisində bədii, elmi-kütləvi mətnlərlə yanaşı, uşaqların yaş və bilik səviyyələrinə uyğun nəzm nümunələri, xatirələr, lətifələr, tapmacalar, atalar sözləri və dialoqların olması təsadüfi səciyyə daşımayıb dərslərdə öyrənmə mühitini canlandıracaq emosionallığın təmin edilməsi üçün düşünülmüşdür.

Dərslik tərtib edilərkən nitq fəaliyyəti üzrə bütün bacarıqların rabitəli mətnlər əsasında formalaşdırılmasına diqqət yetirilmişdir. Uşaqların praktik dil bacarıqları üçün nəzərdə tutulmuş mətnlər əsas vəzifə ilə yanaşı, onlarda məntiqi, yaradıcı və tənqidi təfəkkürün formalaşdırılmasını da nəzərdə tutur ki, bunlarsız dilin şüurlu mənimsənilməsini həyata keçirmək mümkün deyildir. Bu mətn və şeirlər, eyni zamanda, tərbiyəvi əhəmiyyət daşıyır, ailənin, məktəbin dəyəri və insan həyatında əvəzedilməz rolu, Vətənin müqəddəs olması və onun heç bir şeylə əvəz edilə bilməməsi fikrinin aşılanması, mənəvi dəyərlərin qorunub saxlanılması, bir sıra insani keyfiyyətlərin, o cümlədən düzlüyün, mərdliyin, dostluğun təbliği və dəyərləndirilməsi, təbiətə şüurlu münasibətin formalaşdırılması, ekologiyanın insan həyatına təsiri, xalqımızın tarixi keçmişinə və müasir inkişaf səviyyəsinə maraq yaradılması kimi bir sıra məsələlərə diqqəti cəlb etməyə imkan verir.

Dərslik dəsti hazırlanarkən varislik nəzərə alınmış, əvvəlki siniflərdə məzmun xətləri üzrə şagirdlərin təlim nəticələri və bunlarla bağlı bacarıqların səviyyəsi təlim materiallarının xarakterində öz ifadəsini tapmışdır. 5-ci sinifdə nitq hisələri üzrə

LAYİHƏ

aparılan praktik işlər həmin nitq hissələri ilə bağlı maraqlı çalışmalar tərtib etməyə, qazanılmış bacarıqların təkmilləşdirilməsinə şərait yaratmışdır. 6-cı sinifdə əsas nitq hissələrinin qrammatik mənasının dərk edilməsi və onlardan nitq prosesində şüurlu istifadə edilməsinə istiqamətləndirilən çalışmalar dilin qrammatik normalarının mənimsənilməsini asanlaşdırır.

Mətnlərin məzmunu əsasında söz birləşmələri və cümlə qurmaq, tərcümə üzrə işlər aparılmasını nəzərdə tutan çalışmalar da öz rəngarəngliyi ilə seçilir.

Müəllim üçün metodik vəsaitdə şagirdlər üçün hazırlanmış təlim materiallarının xarakterik xüsusiyyətləri müəllimlərin diqqətinə çatdırılır, verilmiş tədris materialları üzrə işlərin təşkili yolları barədə müəyyən tövsiyələr verilir.

Kurikulum islahatının həyata keçirilməsi sahəsində məktəblərin və müəllimlərin artıq xeyli təcrübəyə malik olduqlarını nəzərə alaraq, metodik vəsaitdə kurikulumla bağlı anlayışların şərhinə yer verilməsi məqsədəuyğun hesab edilməmişdir.

Metodik vəsaitdə hər bir mövzu üzrə motivasiyanın qurulması nümunəsi verilmiş, müvafiq resurslara diqqət yönəldilmişdir. Müəllimlərin motivasiya qurmaqda sərbəst hərəkət etmələrini təşviq etmək məqsədilə hər hansı bir mövzu üzrə bəzən hətta iki-üç motivasiya nümunəsi də verilmişdir. Bununla dərsin uğurlu təşkilində maraqlı və düşünülmüş motivasiyanın mühüm əhəmiyyəti olduğu vurğulanır.

Metodik vəsaitdə seçilmiş alt-standartların reallaşdırılmasına hansı didaktik materiallarla nail olmağın yolları müəyyənləşdirilmiş və tədris materialları bu baxımdan qruplaşdırılmaqla təqdim olunmuşdur.

Metodik vəsaitin sonunda verilmiş "Özünüzü yoxlayın" rubrikası summativ qiymətləndirmə aparmaq üçün nəzərdə tutulmuşdur. Hər bir summativ üçün ən azı 30 tapşırıq nümunəsi verilmişdir ki, müəllimlər bunlardan sinfin səviyyəsinə uyğun şəkildə istifadə edə bilərlər. Qiymətləndirmə üçün tərtib olunmuş materiallar dərslikdə məqsədli şəkildə verilməmişdir. Bəzən şagirdlər həmin materiallarla əvvəlcədən tanış olur və yoxlama formal xarakter daşıyır. Bunun qarşısını almaq və şagirdlərin təlim nəticələrinin obyektiv qiymətləndirilməsini həyata keçirmək məqsədilə yoxlama materiallarının dərslikdə deyil, müəllim üçün vəsaitdə verilməsi qərara alınmışdır.

Vəsaitin sonunda müəllimlərə kömək məqsədilə ayrı-ayrı fənlər üzrə fənlərarası inteqrasiya yaradılması üçün müraciət edilmiş məzmun standartları da verilmişdir.

LAYİHƏ

## Dərslərin illik tematik planlaşdırılması

| Sıra | Mövzu | Saat | Dərslik (səh.) | Metodik vəsait Səh. | Standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|---|---|
| 1 | Birinci zəng | 1 | 5 | 17 | 2.1.3.; 3.1.2.; 4.1.2.; 4,1,3. | R.d. -1.2.3. X.d.-2.1.1. A.t.-1.1.1. |
| 2 | Həyat güzgüsü | 1 | 7 | 19 | 1.1.1.; 2.1.1.; 3.1.1.; 3.1.2. | R.d.-2.2.3. A.t.-1.3.1. |
| 3 | Mən də təyyarəçi olacağam! | 1 | 9 | 21 | 1.1.2.; 2.1.4.; 3.1.3.; 4.1.1.; 4.1.3. | R.d.-2.2.2. Coğ.-2.1.3 |
| 4 | Gözəl Vətən | 1 | 12 | 23 | 2.1.2.; 2.1.3.; 3.1.1.; 3.1.2.; 4.1.1. | R.d. -1.1.2. A.t. -2.1.2. Coğ.-3.1.2. |
| 5 | Əmir və loğman | 1 | 14 | 25 | 1.1.2.; 2.1.4.; 3.1.3.; 4.1.2. | R.d. -2.2.1. A.t.-4.1.1. Biol.-2.1.2. |
| 6 | Min bir dərdin dərmanı | 1 | 17 | 27 | 1.1.1.; 1.1.2.; 3.1.1.; 3.1.2.; 4.1.3. | R.d. -4.1.2. Biol.-3.2.1. |
| 7 | Səbrin olmasa, heç nə öyrənə bilməzsən | 2 | 19 | 29 | 1.1.1.; 1.1.2.; 2.1.2.; 3.1.1.; 3.1.3.; 4.1.2. | R.d.-1.2.3. Biol.4.1.1. |
| 8 | Azadlıq 1-ci hissə | 1 | 23 | 32 | 1.1.1.; 2.1.1.; 3.1.1.; 3.1.2.; 4.1.3. | R.d.-4.1.2. A.t.-1.1.2. |
| 9 | Azadlıq 2-ci hissə | 1 | 26 | 34 | 1.1.2.; 2.1.4.; 3.1.1.; 4.1.3. | R.d.-4.1.2. A.t.-1.1.2. |
| 10 | Ucalmışıq | 1 | 28 | 36 | 1.1.2.; 2.1.1.; 2.1.2.; 2.1.3.; 4.1.1. | R.d. -2.2.1. A.t.-3.1.1. |
| 11 | Deyəsən tapmışıq | 1 | 30 | 38 | 1.1.1.; 2.1.4.; 3.1.1.; 4.1.4. | R.d.-4.1.2. A.t.-4.1.1. Mus.-1.1.1. |
| 12 | Ölkəmin çiçəkləri | 1 | 34 | 40 | 2.1.1.; 2.1.3.; 2.1.4.; 3.1.3.; 4.1.1. | R.d. -2.2.1. A.t.-5.1.1. |
| 13 | Küçə fənərinin nağılı | 1 | 36 | 42 | 1.1.1.; 2.1.4.; 3.1.1.; 4.1.2.; 4.1.3. | R.d.-4.1.4. A.t.-1.1.2. |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 14 | Gerbim, himnim, bayrağım | 1 | 39 | 44 | 2.1.1.; 2.1.2.; 2.1.3.; 3.1.2.; 4.1.1. | R.d.-1.2.1. A.t.-1.1.1. T.i.-2.1.1. Coğ.-3.2.1. |
| 15 | Özünüzü yoxlayın! | 1 | | 48 | 1.1.1.; 1.1.2.; 2.1.1.; 2.1.2.; 2.1.3.; 3.1.1.; 3.1.2.; 4.1.3. | |
| 16 | Bakı opera teatrının tarixi | 1 | 40 | 49 | 1.1.1.; 2.1.4.; 3.1.1.; 3.1.3.; 4.1.3. | R.d. -2.2.1. A.t.-1.2.2. Mus.-1.1.1. |
| 17 | Şərqdə ilk opera yazan qadın bəstəkar | 1 | 44 | 51 | 1.1.1.; 2.1.3.; 3.1.1.; 4.1.3. | R.d. -4.1.2. Mus.-1.1.1. A.t.-4.1.1. |
| 18 | Qarışqanın sərgüzəşti | 1 | 46 | 53 | 1.1.2.; 2.1.2.; 2.1.4.; 3.1.1.; 3.1.3. | R.d.-3.1.3. Biol.-4.1.1. |
| 19 | Cırcırama və qarışqa | 1 | 49 | 55 | 1.1.1.; 2.1.3.; 3.1.1.; 4.1.3. | A.d.-4.1.4. Biol.-4.1.1. |
| 20 | Aqilin hədiyyəsi | 1 | 52 | 57 | 2.1.1.; 2.1.4.; 3.1.2.; 4.1.2.; 4.1.4. | R.d.-2.2.2. Tex.-4.2.1. |
| 21 | Qoca tramvayçı | 1 | 54 | 59 | 1.1.1.; 2.1.4.; 3.1.1.; 3.1.3.; 4.1.1. | R.d. -2.2.2. |
| 22 | Pul tapmışdım 1-ci hissə | 1 | 58 | 61 | 1.1.2.; 3.1.1.; 3.1.2.; 4.1.2.; 4.1.3. | R.d. -4.1.2. |
| 23 | Pul tapmışdım 2-ci hissə | 1 | 61 | 63 | 2.1.1.; 2.1.4.; 3.1.1.; 4.1.1.; 4.1.2. | R.d.-2.1.2. |
| 24 | Nil sularında 1-ci hissə | 1 | 63 | 65 | 2.1.4.; 3.1.2.; 3.1.3.; 4.1.2. | R.d.- 3.1.3. Coğ.-3.1.1. Biol.-4.1.1. |
| 25 | Nil sularında 2-ci hissə | 1 | 66 | 67 | 1.1.1.; 2.1.3.; 2.1.4.; 4.1.1.; 4.1.3. | R.d.-3.1.3. Coğ.-3.1.1. Biol.-4.1.1. |
| 26 | H.Z.Tağıyev necə milyonçu oldu | 1 | 68 | 69 | 1.1.2.; 2.1.1.; 2.1.3.; 2.1.4.; 3.1.1. | R.d. -2.2.1. A.t.-4.1.1. |
| 27 | Yaxşı yoldaş | 1 | 71 | 71 | 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.4. | R.d. -4.1.2. X.d.-2.1.2. |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 28 | Bu gün təzə il gəlir! | 1 | 74 | 74 | 2.1.1.; 2.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.2. | R.d.- 1.2.3. Coğ.-3.1.1. Mus.-3.2.1. |
| 29 | Özünüzü yoxlayın! | 1 | | 76 | 1.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.2.; 4.1.2.; 4.1.4. | |
| 30 | Balaca aşpaz 1-ci hissə | 1 | 75 | 78 | 1.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.3. | R.d.- 2.2.1. Tex.-1.3.3. |
| 31 | Balaca aşpaz 2-ci hissə | 1 | 78 | 80 | 1.1.1.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 4.1.1. | R.d.- 2.2.1. Tex.-1.3.3. Biol.-3.2.1. |
| 32 | Uşun Qoca oğlu Səgrək 1-ci hissə | 1 | 80 | 83 | 2.1.1.; 2.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.2. | R.d.-1.2.3. A.t.-2.1.1. |
| 33 | Uşun Qoca oğlu Səgrək 2-ci hissə | 1 | 82 | 84 | 1.1.2.; 2.1.3.; 3.1.1.; 4.1.2.; 4.1.3. | A.d.-2.2.3. A.t.-2.1.1. |
| 34 | Uşun Qoca oğlu Səgrək 3-cü hissə | 1 | 85 | 86 | 1.1.2.; 2.1.1.; 2.1.3.; 3.1.1.; 3.1.3. | R.d.-2.2.2. A.t.-2.1.1. |
| 35 | Vətən əbədi qoruqdur | 1 | 88 | 88 | 1.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.2.; 4.1.1. | R.d.-3.1.2. A.t.-2.1.2. Coğ.-3.1.2. Mus.-2.2.1. |
| 36 | Güclü oğlan | 2 | 91 | 91 | 1.1.1.; 2.1.3.; 2.1.4.; 4.1.2.; 4.1.3. | R.d. -3.1.3. |
| 37 | Atın belindəki Kərəm idi | 1 | 94 | 93 | 1.1.1.; 2.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.1. | R.d.-2.2.2. A.t.-5.1.2. |
| 38 | Qəhrəmandır Azərbaycan | 1 | 97 | 96 | 2.1.3.; 2.1.4.; 3.1.1.; 4.1.1.; 4.1.4. | R.d.- 1.2.3. A.t.-1.1.2. X.d.-3.1.2. |
| 39 | Qarğa dili | 1 | 100 | 98 | 1.1.2.; 2.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.2. | R.d.- 3.1.2. X.d.-3.1.4. |
| 40 | Balaca girovlar 1-ci hissə | 1 | 102 | 101 | 2.1.1.; 2.1.4.; 3.1.1.; 4.1.3.; | R.d. -4.1.2. A.t.-1.1.2. |
| 41 | Balaca girovlar 2-ci hissə | 1 | 105 | 102 | 1.1.1.; 1.1.2.; 2.1.3.; 3.1.3.; 4.1.1.; 4.1.3. | R.d. -4.1.4. A.t.-4.1.2. |

Layihə

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 42 | Peşmançılıq | 1 | 108 | 104 | 2.1.1.; 2.1.2.; 3.1.1.; 3.1.2.; 4.1.2. | R.d. -3.1.2. Biol.-4.2.1. |
| 43 | Hophop | 1 | 110 | 106 | 1.1.2.; 2.1.1.; 2.1.2.; 2.1.3.; 4.1.2. | Biol.-4.2.1. X.d.-2.1.1. |
| 44 | Faydalı məsləhət | 1 | 112 | 108 | 1.1.1.; 3.1.1.; 3.1.2.; 3.1.3.; 4.1.2. | R.d.-4.1.1. Biol.-4.2.1. |
| 45 | Qara şanı | 1 | 115 | 110 | 1.1.1.; 2.1.4.; 3.1.1.; 4.1.3. | R.d.-2.2.2. Biol.-4.2.2. |
| 46 | Bahar gəlsin! | 2 | 118 | 111 | 2.1.1.; 2.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 4.1.1.; 4.1.3. | R.d.-4.1.2. Mus.-2.2.1. |
| 47 | Özünüzü yoxlayın | 1 | | 113 | | |
| 48 | Pələng ovu | 1 | 121 | 114 | 1.1.2.; 2.1.4.; 3.1.1.; 3.1.2.; 4.1.1.; 4.1.2. | R.d.-2.2.1. Biol.-4.2.1. |
| 49 | Qırqovulam, təkəm mən... | 1 | 124 | 115 | 1.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.3.; 4.1.4. | R.d.-3.1.2. Biol.-4.2.1. |
| 50 | Daşyığan əmi 1-ci hissə | 1 | 127 | 119 | 1.1.1.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 4.1.1.; 4.1.2. | R.d.-3.1.2. Biol.-4.1.1. |
| 51 | Daşyığan əmi 2-ci hissə | 1 | 130 | 119 | 2.1.1.; 2.1.2.; 3.1.2.; 3.1.3.; 4.1.2.; 4.1.3. | R.d.-3.1.2. Biol.-4.1.1. |
| 52 | Gəlin elə edək ki... | 1 | 132 | 121 | 2.1.1.; 2.1.2.; 2.1.3.; 2.1.4.; 3.1.2.; 4.1.1. | R.d.-1.2.3. Biol.-4.1.1. |
| 53 | Çəkil, ilan gəlir! 1-ci hissə | 1 | 134 | 123 | 1.1.2.; 2.1.3.; 3.1.1.; 4.1.4. | R.d.-4.1.2. |
| 54 | Çəkil, ilan gəlir! 2-ci hissə | 1 | 136 | 125 | 1.1.1.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 4.1.3. | R.d.-3.1.2. Biol.-4.1.1. |
| 55 | Səttar Bəhlulzadə | 1 | 139 | 126 | 1.1.1.; 1.1.2.; 3.1.1.; 3.1.3.; 4.1.3. | R.d. -1.2.3. T.i.-1.3.1. |
| 56 | Milli ordumuz | 1 | 141 | 129 | 2.1.1.; 2.1.3.; 3.1.1.; 3.1.2.; 4.1.1.; 4.1.3. | R.d. -1.2.3. A.t.-1.1.1. |

LAYİHƏ

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 57 | Xilaskar 1-ci hissə | 1 | 143 | 130 | 1.1.2.; 2.1.2.; 2.1.4.; 3.1.1.; 4.1.2. | R.d.- 4.1.2. Biol.-3.1.1. |
| 58 | Xilaskar 2-ci hissə | 1 | 146 | 132 | 1.1.2.; 2.1.2.; 2.1.4.; 3.1.1.; 4.1.3. | R.d. -1.2.3. Biol.-3.1.1. |
| 59 | Ən qiymətli hədiyyə | 1 | 149 | 134 | 1.1.2.; 2.1.3.; 3.1.1.; 3.1.3.; 4.1.3. | R.d. -3.1.2. Biol.-3.2.1. |
| 60 | Gül | 1 | 152 | 136 | 2.1.1.; 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.2.; 4.1.3. | R.d. -3.1.2. Biol.-3.2.1. |
| 61 | Özünüzü yoxlayın | 1 | | 137 | | |

## 1-ci dərs.
## § 1. Birinci zəng (1 saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Şeirin mövzusu üzrə fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | R.d. -1.2.3; X.d.-2.1.1. A.t.-1.1.1., |
| 2. | Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 3. | Şeirin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |
| 4. | Sonu “q” və “k” samitləri ilə bitən isimlərin yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük qrupla və cütlərlə iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.
***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter.

***Motivasiya:*** Müəllim kompüterdə əvvəlcədən hazırladığı videoçarxı işə salır. Uşaqlar quşların şən nəğmələr oxuyaraq cəh-cəh vurmasını, gur dağ çaylarının axmasını, şəlalənin köpüklənərək tökülməsini, yağışın şırıltı ilə yağmasını seyr edirlər. Nümayiş dayandırılır və sinfə müraciət olunur:

***Köməkçi sual:***

1) Göstərilən lövhələri seyr edərkən xəyalən özünüzü harada hiss etdiniz?
2) Eşitdiyiniz səslər sizə necə təsir bağışladı?
3) Bu səsləri, adətən, harada eşitmək mümkündür?

LAYİHƏ

Cavablar dinlənilir.

Birdən müəllimin əvvəlcədən qurduğu zəngli saat işə düşür. Zəng səsi sinfi başına götürür.

***Köməkçi sual:*** 1) Bu səs əvvəl eşitdiyiniz səslərdən nə ilə fərqlənir? 2) Buna bənzər zəng səslərini hansı məqamlarda eşitmək olar? 3) Hansı quşların səsi sizə zəng səsini xatırladır?

Cavablar dinlənilir.

***Tədqiqat sualı:*** "İlk zəng" və "Son zəng" müxtəlif məqamlarda eşitdiyiniz zənglərdən nə ilə fərqlənir? Bu iki zəng səsi hər kəsin həyatında niyə xüsusi hisslər oyadır və insanı bütün həyatı boyu təqib edir?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Birinci zəng" şerinin oxunması ilə başlayır. Şeirin sözlüyünün mənimsədilməsi üzrə iş aparılır. Çətin söz və ifadələrin mənası izah edilir və cümlə içərisində işlədilir. Sonra müəllimin köməyi ilə şagirdlər şeiri nəsrə çevirərək danışırlar.

Şeirin oxusu prosesində məzmun üzrə işlə yanaşı, "3.1.2" alt-standartının reallaşdırılması qarşıya qoyulur. Bu məqsədlə müəllim şagirdlərin diqqətini sözlərin düzgün vurğu ilə oxunmasına cəlb edir. Nəzərə almaq lazımdır ki, şeirdəki sözlərin bir neçəsində (tanışdır, mahnıtək, səsidir, nəğməsidir, unutmamışdır, bilirəm, yollanıram, dolanıram, odur, zəngidir, gəlirsən və s.) vurğu əvvəlki hecalara düşür (şəxs, inkar şəkilçiləri vurğu qəbul etmədiyindən) və şagirdlər, adətən, bu sözlərin vurğusunu düzgün tələffüz etmirlər. Şeirin nəsrlə danışılması prosesində də bu məqam diqqətdən kənarda qalmamalıdır. Standartın reallaşdırılması şeirin oxusu prosesi ilə məhdudlaşdırılmamalı, 5 və 9-cu çalışmalar üzrə iş zamanı da davam etdirilməlidir.

Müəllim cütlərə iş vərəqləri paylayır və şagirdlərə qoyulmuş suallar ətrafında fikirlərini iki-üç cümlə ilə ifadə etməyi tapşırır.

***İş vərəqlərinin məzmunu:***

I. 1) Neçə növ zəng səsi tanıyırsınız?
   2) Hansı zəng səsi sizi oyadır?

II. 1) Hansı zəngin səsi üçün insan darıxa bilər?
    2) Hansı zəng səsi sizi tələsdirir?

III. 1) Hansı zəng səsi sizi qorxudur?
     2) Ilk zəng səsini necə xatırlayırsınız?

IV. 1) Hansı peşə sahibləri davamlı olaraq zəng səsi eşidirlər?
    2) Hansı zəng səsi sizə təsir etmir?

V. 1) Hansı zəngin səsini insan qocalanadək eşidir?
   2) Nə vaxt zəng səsinə sevinirsiniz?

VI. 1) Hansı zəngin səsini insan uşaqlıqda və gənclikdə daha çox eşidir?
    2) Nə vaxt zəng səsinə kədərlənirsiniz?

Verilən vaxt bitdikdən sonra şagirdlər cavabları təqdim edirlər. Fərqli cavablar qiymətləndirilir.

Dərslikdəki çalışmalar üzərində iş seçilmiş alt-standartlar üzrə bacarıqların formalaşdırılmasına şərait yaradır. Mövzu ilə bağlı hazırlanmış 1, 4, 7, 8, 9, 14-cü çalışmalar mətnin məzmununun qavranılmasına və mətnin hissələri arasında əlaqələri müəyyənləşdirməyə istiqamətlənmişdir. Həm bu çalışmaların icrası, həm də müəllimin özünün hazırladığı iş vərəqləri **2.1.3** alt-standartının tələblərini reallaşdırmağa imkan verir. Bu çalışmaların icrası eyni zamanda şagirdlərin müstəqil fikir yürütmək, fikirlərini rabitəli şəkildə ifadə etmək bacarığının təkmilləşdirilməsinə də kömək edir.

**4.1.2** alt-standartının reallaşdırılması şeirin oxusu prosesində və 5-ci çalışmanın icrası ilə həyata keçirilir.

10, 11, 13-cü çalışmaların icrası əsas nitq hissələri ilə əlaqədar şagirdlərin V sinifdə



LAYİHƏ

tanış olduqları anlayışları yada salmaqla əldə edilmiş bacarıqların səviyyəsini üzə çıxarmağa xidmət edir. Bu çalışmalar üzrə iş aparmaqla şagirdlərdə seçilmiş **alt-standartda (4.1.3)** nəzərdə tutulan müvafiq bacarıqların təkmilləşdirilməsi həyata keçirilir.

"Kəlmələrin dili"ni öyrənək!" rubrikası və 10, 12, 14-cü çalışmalar şagirdlərin nitq ehtiyatlarını zənginləşdirilməsinə xidmət edir. 14-cü çalışma həmçinin şagirdlərin şifahi nitq bacarıqlarının inkişafına şərait yaratmaqla bərabər (**"Hikmət xəzinəsindən"** rubrikası), həm də tərbiyəvi əhəmiyyət kəsb edir.

***Məlumat mübadiləsi:*** Şagirdlər tədqiqat apararkən məktəbə səsləyən ilk zəngin və bütövlükdə təhsilin onların həyatında mühüm rol oynaması haqqında məlumat əldə edir, seçilmiş alt-standartların reallaşmasına yaxınlaşırlar.

***Nəticə:*** Şagirdlər tədqiqat sualına cavab axtararkən başa düşürlər ki, məktəbdə eşitdikləri ilk zəngin səsi onları təkcə dərsə səsləmir, o həm də gələcək həyat yolunu seçməyə kömək edən bir çağırışdır. Çünki məktəb cəmiyyət üçün lazımlı şəxsiyyətlər, vətəndaşlar yetişdirir ki, hər gün zəng səsi eşidən şagirdlər də onların arasındadır. Şagirdlər hər gün eşitdikləri zəng səsini adi qarşılasalar da, məktəbi bitirmək rəmzi kimi səslənən "son zəng" onlarda çox kövrək duyğular oyadır. Şeirin məzmunu əsasında onlar başa düşürlər ki, gələcəkdə alim, şair, mühəndis, həkim, hətta dövlət xadimi olsalar belə, onları hər il dərsə səsləyən zəngin səsini unuda bilməyəcəklər. Hər hansı məktəbin yanından keçdikdə və bu səsi eşitdikdə xəyalən məktəb illərinə qayıdacaq, qayğısız uşaqlıq illərini kövrək hisslərlə xatırlayacaqlar.

Şeirin məzmununun mənimsənilməsi ilə yanaşı, oxu prosesində şagirdlər həm də sözləri düzgün vurğu ilə oxumaq, şeirdə işlənmiş sonu "q" və "k" ilə bitən sözləri düzgün yazmaq bacarıqlarını da nümayiş etdirirlər.

***Yaradıcı tətbiqetmə:*** İlk zəng səsinin oyatdığı təəssürat haqqında qısa esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək. Söz ehtiyatındakı ifadələri və onların sinonimlərini cümlələrdə işlətmək.

## 2-ci dərs.
## § 2. Həyat güzgüsü (1 saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətndən dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.-2.2.3. A.t.-1.3.1. |
| 2. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | |
| 3. | Mətndə və tapmacada işlənən əsas nitq hissələrinin qrammatik mənasını izah edir. | 3.1.1. | |
| 4. | Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

LAYİHƏ

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri.

***Motivasiya:*** Müəllim əlində top içəri daxil olur. O, topu yerə atır. Top yenə ona qayıdır. Bu hərəkət bir neçə dəfə təkrar olunur. Uşaqlar təəccüblənirlər.

***Köməkçi sual:*** 1) Topu yerə atdığımız və ya divara vurduğumuz zaman nə üçün yenidən özümüzə qayıdır?

2) Həyatda etdiyimiz hərəkətlər yenidən özümüzə necə qayıdır?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

***Tədqiqat sualı:*** Əks-səda nədir? Bəs "Həyat bir təsadüf deyil, etdiklərimizin aynadakı əksidir" fikrini necə başa düşürsünüz?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Həyat güzgüsü" mətninin oxunması ilə başlanır. Mətnin məzmununun və sözlüyünün mənimsədilməsi üzrə iş aparılır: qırmızı rəngdə verilmiş sözlərin mənası izah edilir, müəllimin tövsiyə etdiyi sözlər cümlələrdə işlədilir.

Mətnin oxusu prosesində "3.1.2" alt-standartının reallaşdırılması istiqamətində əvvəlki dərsdə aparılan iş davam etdirilir. Bu məqsədlə sözlərin düzgün vurğu ilə oxunması (indiki zamanda 3-cü şəxsin təkində və ismin müxtəlif hallarında işlənən sözlərin) izlənilir. Mətndəki sözlərin bir neçəsində (kimsən, qorxaqsan, anlamayan, heyranam, möhtəşəmsən, düşməmişdi, özüdür, aynasıdır, istəyirsənsə, parçasıdır, gərəklidir, əksidir, deyirlər) vurğu əvvəlki hecalara düşdüyündən (şəxs, inkar şəkilçiləri ilə işlənən sözlərdə) bu sözlərin tələffüzünə xüsusi diqqət yetirilməlidir. Yeri gəlmişkən, qeyd edək ki, şagirdlərdə sözləri düzgün vurğu ilə oxuya bilmək bacarığı bir-iki dərsdə formalaşdırıla bilən bir bacarıq deyil. Bunu nəzərə alaraq alt-standartın seçilib-seçilməməsindən asılı olmayaraq, müəllimlər hər bir dərsdə qeyd olunan bacarığın formalaşdırılması istiqamətində işlərə hökmən yer ayırmalı və bunu diqqətdə saxlamalıdırlar.

Standartın reallaşdırılması mətnin oxusu prosesi ilə məhdudlaşdırılmamalı, 5, 6, 7, 8-ci çalışmalarla iş zamanı da davam etdirilməlidir.

Mətnin məzmununun daha şüurlu qavranılmasına (1.1.1 alt-standartı) kömək məqsədi ilə qruplar üzrə iş aparıla bilər. Bu məqsədlə müəllim mətnin məzmunu üzrə əvvəlcədən hazırladığı iş vərəqlərini qruplara paylayır və tapşırığın şərtini izah edir: qruplara verilmiş cümlələri mətnin məzmunu əsasında tamamlamaq və həmin fikirlər ətrafında öz mülahizələrini 2-3 cümlə ilə qısaca qeyd etmək tövsiyə olunur.

**1-ci iş vərəqinin məzmunu:** Əks-səda nədir və o, necə yaranır?

**2-ci iş vərəqinin məzmunu:** Daha çox sev! Daha çox qayğı gözlədiyin zaman ...

**3-cü iş vərəqinin məzmunu:** Hörmət istəyirsənsə, ...

**4-cü iş vərəqinin məzmunu:** İnsanların səbirli olmasını istəyirsənsə, ...

Şagirdlərə fikirləşmək üçün vaxt verilir. Sakitlikdən istifadə edən müəllim "Həyat, söylə sən kiminsən?" mahnısının melodiyasını səsləndirə bilər. Vaxt bitdikdə şagirdlərin cavabları dinlənilir. Fərqli cavablar təhlil edilir. Şagirdlərin nitqindəki həm qrammatik, həm də tələffüz və vurğu ilə bağlı səhvlər (2.1.1. alt-standartının tələbi) düzəldilir. Maraqlı cavablar qiymətləndirilə bilər.

1-ci çalışma vasitəsilə təşkil edilən debat və 2-ci çalışmadakı söz birləşmələrinin tərcüməsi mətnin məzmununun daha yaxşı mənimsənilməsinə təkan verir.

3, 5, 7-ci çalışmalar 3.1.1. alt-standartının tələbləri istiqamətində iş aparmağı nəzərdə tutur. Bu tapşırıqları düzgün yerinə yetirməklə şagirdlər əsas nitq hissələrinin qrammatik mənasını başa düşdüklərini nümayiş etdirirlər, dilin qrammatik normalarını mənimsəyirlər.

3, 4, həmçinin 8-ci çalışmalar şagirdlərin lüğət ehtiyatının genişlənməsinə kömək edir. 4-cü çalışma həm də fənlərarası inteqrasiyaya şərait yaradır. Şagirdlər Azərbaycan Respublikası Konstitusiyasından 42-ci maddəni oxumaqla, bir tərəfdən, "Təhsil hüququ" ilə

Layihə

tanış olur, digər tərəfdən isə maddələrin sözlüyü üzrə lüğət ehtiyatlarının zənginləşməsi və dəqiqləşdirilməsi işi həyata keçirilir.

“Hikmət xəzinəsindən” rubrikasında verilmiş aforizmlər sinifdə mənəvi-tərbiyəvi işlər aparılmasına imkan verir. Aforizmlərin keçilən mətnlə əlaqələndirilməsi şagirdlərdə müsbət mənəvi keyfiyyətlərin formalaşdırılmasına kömək etməklə yanaşı, mətnin mənasının başa düşülməsini də asanlaşdırır.

***Məlumat mübadiləsi:*** Şagirdlər oxuduqları mətnin məzmunu və yerinə yetirilmiş çalışmalar vasitəsilə sözlərin qrammatik mənaları, düzgün vurğu ilə oxunması və tələffüzü üzərində fikir mübadiləsi edirlər.

***Nəticə:*** Şagirdlər öyrənirlər ki, insanın həyatı onun əməllərinin güzgüsüdür. O, həyata nə verirsə, onlar yenidən özünə qayıdır. Bir sözlə, “həyat etdiklərimizin aynadakı əksidir”. Təəssüf ki, bu həqiqəti hər kəs düzgün qiymətləndirmir. Hər birimiz özümüzə qarşı xüsusi hörmət, qayğı, diqqət gözləyirik, ancaq unuduruq ki, bizdən də bunu gözləyənlər var! Gəlin biz də ünsiyyətdə olduğumuz insanlara qarşı diqqətli, qayğıkeş və mərhəmətli olaq, insanların yaddaşında yaxşı işlərimizlə qalmağa çalışaq!

***Yaradıcı tətbiqetmə:*** Mətndən aldığınız təəssürat əsasında “Nə əkərsən, onu da biçərsən”, yaxud “Nə tökərsən aşına, o da çıxar qaşığına” başlıqlı kiçik bir esse yazın, yoldaşlarınıza oxuyun.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. Yaxşılıq, yamanlıq, hörmət mövzusunda aforizmlər və ya atalar sözləri tapıb yazmaq.

## 3-cü dərs.
## § 3. Mən də təyyarəçi olacağam! (1 saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Suallara cavab verməklə dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2 | R.d.-2.2.2.<br>Coğ.2.1.3 |
| 2. | Mətni hissələrə bölür, hissələri adlandırır və fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4 | |
| 3. | Oxuduğu mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3 | |
| 4. | Mövzuya uyğun inşa və ya hekayə yazır. | 4.1.1 | |
| 5. | Durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.
***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, videoçarx, proyektor.

LAYİHƏ

***Motivasiya:*** Müəllim proyektorda 26 iyun Silahlı Qüvvələr günü münasibətilə keçirilən hərbi paraddan kadrlar nümayiş etdirir. Kadrlarda daha çox hərbi hava qüvvələrinə məxsus qırıcı təyyarələrin göstəriş uçuşları öz əksini tapır. Sonra paraşüt tullanma səhnələrinə aid kadrlar göstərilir.

***Köməkçi sual:*** 26 iyun Silahlı Qüvvələr günü münasibətilə keçirilən parada baxmısınızmı? Paradda hansı qüvvələrin nümayişi daha çox xoşunuza gəlib? Nə zaman daha çox qürur hissi keçirmisiniz?

Cavablar dinlənilir.

***Tədqiqat sualı:*** Təyyarəçi olmaq istərdinizmi? Bu peşə haqqında nə bilirsiniz?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Mən də təyyarəçi olacağam" mətninin oxusu ilə başlayır. Mətnin sözlüyü (qırmızı rəngdə verilmiş sözlərin izahı) və məzmununun mənimsədilməsi üzərində iş eyni zamanda aparılır: çətin sözlər izah edilir; "söz ehtiyatı"ndakı sözlərin daha yaxşı qavranılması üçün onlar cümlələrdə işlədilir.

1, 2, 8, 9-cu çalışmalar mətnin məzmununun qavranılmasına xidmət edir. Bu istiqamətli çalışmalar həm də şagirdlərdə dilin normalarına əməl etməklə fikirlərini sərbəst ifadə etmək, danışmaq bacarığının inkişafına şərait yaradır. Şagirdlər mətn üzrə tərtib edilmiş suallara cavab verir, planın mətnin məzmununa uyğun olub-olmadığını araşdırır, mətn üzrə sərbəst suallar tərtib edirlər ki, bütün bunlar 1.1.2., 2.1.4., 3.1. 3. alt-standartlarında nəzərdə tutulmuş tələblərin qarşılıqlı şəkildə həyata keçirilməsini təmin edir.

**1-ci iş vərəqi:** Necə düşünürsünüz, paraşütdən istifadə bacarığına yiyələnmək lazımdırmı? Paraşütçülərdən nə zaman nə məqsədlə istifadə oluna bilər? Suallarla bağlı bildiklərinizi qısaca yazın.

**2-ci iş vərəqi:** Azərbaycan Hərbi Hava Qüvvələri haqqında nə bilirsiniz? 2-3 cümlə ilə yazın.

**3-cü iş vərəqi:** Ölkəxarici və ya ölkədaxili uzaq məsafələrə səyahət zamanı hansı nəqliyyat vasitəsini daha əlverişli hesab edirsiniz? Səbəbini göstərin.

**4-cü iş vərəqi:** Kamalın gördüyü çətirlə yağışlı havalarda istifadə edilən çətirlər arasında fərq varmı? Bu fərq nədən ibarətdir? Qısaca yazın.

Təqdimat üçün vaxt verilir. Vaxtın tamamında şagirdlər yazdıqlarını təqdim edirlər. Müəllim dinləyir. Fərqli cavablar qiymətləndirilir.

8-ci çalışmanın yerinə yetirilməsi məzmunun qavranılmasına kömək etməklə yanaşı, həmçinin qrammatik cəhətdən düzgün sual cümlələri tərtib etmək və onlarda durğu işarələrindən yerində istifadə (4.1.3.) bacarığının formalaşdırılmasına da xidmət edir.

3-cü çalışma 4.1.1. alt-standartının reallaşdırılmasına istiqamətləndirilir. Şagirdlər arzularına əsasən mövzuya uyğun inşa və ya hekayə yazırlar. Bu iş forması, eyni zamanda, yazıda durğu işarələrindən istifadə bacarıqlarının tətbiqinə də (4.1.3.) şərait yaradır.

5, 6, 8, 11-ci çalışmalar dilin qrammatik normalarının mənimsədilməsinə, 11, 12-ci çalışmalar şagirdlərin lüğət ehtiyatının genişlənməsinə və fəallaşdırılmasına, 3-cü çalışma üzrə aparılan işlər isə rabitəli nitq bacarıqlarının inkişafına kömək edir. Dərsin imkanlarına uyğun olaraq bu çalışmalardan hansı üzərində iş aparılmasını müəllim özü müəyyənləşdirməli, sinfin səviyyəsinə və şagirdlərinin dilbilmə imkanlarına uyğun olaraq diferensasiya aparmalıdır.

"Bunları bilirsinizmi? " rubrikası ilə tanışlıq nəticəsində şagirdlər qoşa "yy" ilə yazılan sözlərin tələffüz şəkli ilə tanış olurlar; müvafiq tapşırıqlar vasitəsilə düzgün tələffüz bacarıqlarına yiyələnirlər.

"Tap görək" rubrikasındakı tapmaca təyyarə ilə mətnin məzmunu arasında əlaqə müəyyənləşdirilir, həmçinin şagirdlərin məntiqi təfəkkürü inkişaf etdirilir. Müəllimlər bu tapmacadan motivasiya yaratmaq üçün də istifadə edə bilərlər.

Məlumat mübadiləsi: Şagirdlər mətnin məzmunu üzərində işləmək və tapşırıqları



LAYİHƏ

yerinə yetirməklə əldə etdikləri fikirləri mübadilə və müzakirə edirlər; təyyarəçiliyin şərəfli peşə olması ilə bağlı fikirlərini bölüşürlər.

***Nəticə:*** Bütün peşələr faydalıdır, hər kəs istədiyi peşəni seçə bilər. Hər sahənin öz gözəlliyi və çətinlikləri var. Seçdiyiniz peşədən, tutduğunuz vəzifədən asılı olmayaraq, həmişə, hər işdə mübariz olun. Peşə seçməyə hazırlaşarkən, müdrik atalar sözlərini, xalqın və dünya mütəfəkkirlərinin nəsihətlərini dönə-dönə xatırlamağı unutmayın.

Vətənimizin hava sərhədlərini qoruyan, uzaq məsafələrə insanların təhlükəsiz uçuşunu təmin edən təyyarəçilərimiz çox cəsur insanlar olduqları üçün böyük alqışa layiqdirlər. Hər kəs bu peşə sahibləri ilə fəxr edir.

Mətn və tapşırıqlar üzərində işləməklə şagirdlər həm rabitəli nitq, həm də düzgün tələffüz bacarıqlarını paralel olaraq inkişaf etdirir, dilin müəyyən qrammatik normalarına yiyələnirlər.

***Yaradıcı tətbiqetmə:*** Paraşüt və paraşütçülər haqqında kiçik təqdimat hazırlayın və yoldaşlarınıza oxuyun.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu öyrənmək.

## 4-cü dərs.
## § 4. Gözəl Vətən (1 saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Şeiri oxuyarkən ritm və tempə əməl edir. | 2.1.2. | R.d. -1.1.2;<br>A.t. -2.1.2.<br>Coğ.3.1.2 |
| 2. | Mövzu ilə bağlı fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Şeirdə fərqləndirilmiş əsas nitq hissələrini qrammatik mənasına görə izah edir və sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4. | Şerin mövzusu əsasında esse yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, rollu oyun.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, Azərbaycanın xəritəsi, kompüter, videorolik, proyektor.

***Motivasiya:*** Müəllim lövhədən Azərbaycanın xəritəsini asır və eyni zamanda proyektorda Səməd Vurğunun "Azərbaycan" şeirinə çəkilmiş videorolikdən slaydlar nümayiş etdirir. Slaydlarda Vətənimizin təbii gözəllikləri, zəhmətkeş insanları, mədəni sərvətləri, tarixi abidələri öz əksini tapır.

***Köməkçi sual:*** 1) Siz musiqi sədaları altında bu slaydları seyr edərkən hansı hissləri yaşadınız? 2) Bu slaydları seyr edərkən hansı atalar sözlərini xatırladınız?

Şagirdlər "Vətənə gəldim, imana gəldim. Qürbət görməyən adam Vətən qədri bilməz. Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır. Gözsüz yaşamaq olar, Vətənsiz yox" və s.

LAYİHƏ

kimi atalar sözlərini səsləndirirlər. 3) Bu slaydları seyr edərkən hansı bayatı yadınıza düşdü?

Cavablarda şagirdlərin əzbər bildikləri bayatılardan nümunələr deyilir:

| | |
|---|---|
| Əzizim vətən yaxşı, | Gəzməyə qərib ölkə, |
| Geyməyə kətan yaxşı. | Ölməyə vətən yaxşı! |

***Tədqiqat sualı:*** "Özüm qürbətdəyəm, gözüm Vətəndə", – deyib babalarımız.

Deyə bilərsinizmi, Vətəni bizə doğma edən nədir? İnsan daim niyə öz vətəni ilə fəxr edir?

***Tədqiqatın aparılması:*** Dərslikdən "Gözəl Vətən" şeiri şagirdlərə oxutdurulur, şeirin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır: lüğətdəki və şeirdə qırmızı rənglə fərqləndirilmiş sözlər izah edilir.

Şagirdləri öz nitqlərində ritm və tempdən düzgün istifadə bacarıqlarına yiyələndirmək məqsədilə (alt-standart 2.1.2.) şeirin oxusu üzrə bu istiqamətdə iş aparılır, nöqsanlar aradan qaldırılır. Oxu prosesində həmçinin 3.1.2. alt-standartının reallaşdırılması da təmin olunur.

2.1.3. alt-standartının reallaşmasını müəllim cütlərlə iş formasında da təşkil edə bilər. Yaxşı olar ki, cütlərlə işə keçməzdən əvvəl dərslikdəki 4-cü – müvafiq Konstitusiya maddəsi əsasında tərtib edilmiş çalışma icra edilsin. Sonra müəllim cütlərə iş vərəqləri paylayır. İş vərəqlərinin məzmunu:

1. "Doğma Vətənim Azərbaycandır" mövzusunda təsviredici 3 cümlə yazın.
2. "Doğma Vətənimin təbiəti" mövzusunda təsviredici 3 cümlə yazın.
3. "Doğma Vətənimin tarixi" mövzusunda təsviredici 3 cümlə yazın.
4. "Doğma Vətənimin mədəniyyəti" mövzusunda təsviredici 3 cümlə yazın.
5. "Vətənimin layiqli övladları" mövzusunda təsviredici 3 cümlə yazın.
6. "Vətənimizin bizə qayğısı" mövzusunda 3 cümlə yazın.
7. "Bizim Vətənimizə borcumuz" mövzusunda 3 cümlə yazın.

Şagirdlərə təqdimat üçün ayrılan vaxt bitir. Müəllim cütləri dinləyir. Şagirdlərin nitqlərində ritm və tempdən istifadə ilə bağlı nöqsanlar aradan qaldırılır. Ən yaxşı təqdimat müəllim tərəfindən fərqləndirilir.

2, 3, 4, 5-ci çalışmalar şagirdlərin lüğət tərkibinin zənginləşdirilməsi baxımından əhəmiyyət daşıyır. Hansı alt-standartın seçilməsindən asılı olmayaraq, hər bir dərsdə şagirdlərin lüğətinin zənginləşdirilməsi və dəqiqləşdirilməsi üzərində işlər aparılmalıdır.

Konstitusiyanın maddəsi əsasında tərtib edilmiş 4-cü çalışma fənlərarası inteqrasiyanı təmin etməklə həm də tərbiyəvi əhəmiyyət daşıyır, şagirdlərin dünyagörüşünü inkişaf etdirir, qanunlara hörmətlə yanaşmaq hissləri aşılayır.

"Gülək və düşünək!" rubrikasında verilmiş lətifənin oxunması da tərbiyəvi əhəmiyyət kəsb etməlidir. Şagirdlər lətifədəki əsas fikri müəyyənləşdirərkən qarşıya qoyulmuş məqsədə nail olunur. Lətifədəki sözlərin və söz birləşmələrinin mənasının izahı şagirdlərin nitqinin zənginləşməsinə kömək edir.

"Kəlmələrin dili"ni öyrənək!" rubrikası şagirdləri dilimizdə olan sözlərin məna imkanları ilə tanış etmək baxımından əhəmiyyət kəsb edir.

Şagirdlər gözəl Vətənimiz haqqında düşüncələrini esse formasında yazmaqla (4.1.1.) rabitəli nitq bacarıqlarını inkişaf etdirirlər. Essenin yazılmasını müəllim qruplarla iş formasında da təşkil edə bilər.

***Məlumat mübadiləsi:*** "Gözəl Vətən" şeirinin məzmunu və digər tapşırıqların yerinə yetirilməsi şagirdləri "Vətən hamı üçün əziz və müqəddəsdir" tezisi ətrafında fikir mübadiləsinə gətirib çıxarır. Şagirdlər yoldaşlarının fikirlərinə hörmətlə yanaşır, mövzu ətrafında öz düşüncələrini söyləyirlər.

***Nəticə:*** Uşaq bağçaya və məktəbə gedir. Onun tərbiyə aldığı bağçadan, məktəbdən Vətən başlanır. Uşaqlar böyüdükcə onun Vətən anlayışı da böyüyür, yeni-yeni mənalar kəsb

LAYİHƏ

edir. Məktəbdə tədris olunan müxtəlif fənlər vasitəsilə o, Vətənin tarixi, coğrafiyası, maddi və mənəvi sərvətləri haqqında məlumatlara yiyələnir, onun təbii gözəlliklərinə heyran olur. Vətənin uğurlarına sevinir, problemləri isə onu narahat etməyə başlayır. Hər bir şagird böyüdükcə başa düşür ki, bu Vətən onundur! Vətəni isə doğma və əziz olan bir nemət kimi sevərlər, qoruyarlar, daha da gözəlləşdirərlər. Vətəninə sahib çıxmayanların Vətəni olmaz!

***Yaradıcı tətbiqetmə:*** "Vətənim mənim -- varlığım mənim" mövzusunda kiçik esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək. Vətən mövzusunda atalar sözü, aforizmlər yazmaq.

## 5-ci dərs.
## § 5. Əmir və loğman (1 saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2 | R.d. -2.2.1.<br>A.t.4.1.1.<br>Biol.2.1.2. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.3. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, təqdimat.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim şagirdlərə proyektorda "Bir qalanın sirri" filmindən fraqment (kitablar Elşənlə danışır) göstərir.

***Köməkçi sual:*** 1) Sizcə, Həkim babanı və Mətanəti xilas etməkdə Elşənə gücü, qüvvəsi, yoxsa oxuduğu kitablar kömək etdi?

2) Sizə desələr ki, bir nəfər ona təklif edilən vəzifənin əvəzinə, kitabxanada kitab oxumağa icazə istəyir, təccüblənərsiniz, yoxsa yox? Bu adam haqqında nə düşünərsiniz?

3) Necə düşünürsünüz, kompüter bütün hallarda kitabı əvəz edə bilərmi?

Cavablar dinlənilir, nitq səhvlərinə düzəlişlər edilir.

***Tədqiqat sualı:*** Kitabların insan həyatında rolu nədən ibarətdir? Kitab oxumadan istədiyimiz biliklərə yiyələnmək mümkündürmü?

***Tədqiqatın aparılması:*** Dərslikdəki "Əmir və loğman" mətninin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı söz və ifadələrin mənası izah edilir.

Mətnin oxunmasından sonra dərslikdəki 1, 2, 3-cü çalışmalar vasitəsilə şagirdlər suallara cavab verməklə mətndəki əsas fakt və hadisələri seçir (1.1.2.) fikirlərini mətnin hissələrinə müvafiq şəkildə quruplaşdırırlar (2.1.4.). 2-ci çalışmada şagirdlərdə mətndəki fakt

LAYİHƏ

və hadisələri müəyyənləşdirə bilmək qabiliyyəti formalaşdırmaq məqsədilə qəsdən sualların içərisinə mətnin məzmununa aid olmayan suallar daxil edilmişdir. Şagirdlər bu sualları müəyyən edib əsaslandırmalı, həmçinin fakt və hadisələri müəyyənləşdirmək üçün əlavə suallar tərtib edib yoldaşlarına verə bilərlər.

1, 2, 6-cı çalışmaların icrası da mətnin məzmununun qavranılmasına kömək edir.

Sonra mətnin tərkib hissələrinin (3.1.3.) və onun tərkib hissələri arasındakı əlaqələrin müəyyənləşdirilməsi (4.1.2.) istiqamətində işlər aparılır. Mətnin tərkib hissələrinin (giriş, əsas hissə və nəticənin) müəyyənləşdirilməsi üzrə aparılan işlər şagirdləri fəallaşdırmaq üçün qruplarla iş formasında təşkil edilir. Qruplardan biri mətnin giriş, digəri əsas, üçüncüsü isə nəticəsinin müəyyənləşdirilməsi üzərində işlədilir. Şagirdlərin fəallığı ilə proses sona çatır və liderlər qrupun gəldiyi qənaət barədə məlumat verirlər. Nəticələr müzakirə edilir. Bu proses tərkib hissələr arasındakı əlaqələrin müəyyənləşdirilməsində də əsas rol oynayır.

Tədqiqat sualı ətrafında şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına şərait yaratmaq məqsədi ilə müəllim qruplara əvvəlcədən hazırlanmış iş vərəqlərini paylayır və tapşırığın şərtini izah edir.

**1-ci iş vərəqinin tapşırığı:** “Hansı elm sahəsinə aid olan kitablar insanları dünyada baş verən hadisələrlə tanış edir? ” Nümunələrlə izah edin.

**2-ci iş vərəqinin tapşırığı:** “Hansı elm sahəsinə aid olan kitablar insanları canlı və cansız aləmlə tanış edir?” Nümunələrlə izah edin.

**3-cü iş vərəqinin tapşırığı:** “Hansı elm sahəsinə aid olan kitablar insanlarda müəyyən duyğular oyadır, həyatı obrazlı şəkildə dərk etməyə kömək edir?” Nümunələrlə izah edin.

Şagirdlər iş vərəqlərində fikirlərini yazırlar. Qrupun lideri təqdimatı oxuyur. Qrupların üzvləri bir-birlərinin fikirlərinə münasibət bildirirlər. Müəllim onların nitqlərindəki səhvlərin aradan qaldırılmasında iştirak edir. Qrupların təqdimatları qiymətləndirilir.

4, 5, 7, 8-ci çalışmalar şagirdlərin lüğətinin genişlənməsi və dəqiqləşməsinə, 9 və 10-cu çalışmalar isə dilin qrammatik normalarının mənimsənilməsinə imkan və şərait yaradır.

4-cü çalışma, bir tərəfdən, şagirdlərin məntiqi təfəkkürünün inkişafına kömək edir, digər tərəfdən isə onların nitqini hazır dil vahidləri ilə zənginləşdirir.

6-cı çalışma mətnin məzmununun qavranılmasına şərait yaratmaqla bərabər, həm də şagirdlərin məntiqi təfəkkürünün inkişafına kömək edir.

“Hikmət xəzinəsindən” rubrikasında “Qabusnamə”dən verilmiş fikrin müzakirəsi həm şagirdlərin şifahi nitqinin inkişafına, həm də əxlaqi keyfiyyətlərin formalaşmasına xidmət etməlidir.

***Məlumat mübadiləsi:*** Böyük loğman Əbu-Əli İbn-Sinanın həyatı nümunəsində şagirdlər kitabın insan həyatında rolu barədə fikir mübadiləsi edirlər. Şagirdlərin fikirləri dinlənilir, müzakirə aparılır.

***Nəticə:*** Elm, savad insanı başıuca edir. Biliyini artırmaq isə insanın öz əlindədir. Bilik, dünyagörüşü isə kitablar vasitəsilə əldə edilir. Kitablar bizim bilik mənbəyimizdir. Onların dəyəri oxunduqdan sonra bəlli olur. Hekayənin qəhrəmanı Hüseyn kitabxanadakı kitabları oxumaqla dahi bir şəxsiyyət səviyyəsinə yüksəlmiş, əsrlər keçsə də, unudulmamışdır. Doğru demişlər ki, elm ağlın çırağıdır.

***Yaradıcı tətbiqetmə:*** Mətndəki Hüseyni səciyyələndirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. Əbu-Əli İbn-Sina haqqında məlumat toplamaq.

LAYİHƏ

## 6-cı dərs.
## § 6. Min bir dərdin dərmanı (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətndən dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.-4.1.2. Biol. 3.2.1 |
| 2. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | |
| 3. | Müəllimin mətndən seçdiyi sözləri qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 5. | Sonu "q" və "k" ilə bitən isimlərin yazılış qaydalarına əməl edir. | 4.1.3 | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, rollu oyun, BİBÖ.
***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim zeytun ağacının və meyvəsinin, yaxud da müxtəlif cür qablaşdırılmış zeytun yağının görüntüləri olan slaydlar nümayiş etdirir.

İmkan olsa, müəllim sinfə əlində zeytun ağacının kiçik bir budağı ilə də daxil ola bilər. Budağın üstündə zeytun meyvələri də olsa, yaxşı olar (süni budaq da ola bilər).

***Köməkçi sual:*** 1) Slaydlarda gördüyünüz bu ağac necə adlanır? Onun haqqında nə bilirsiniz? Canlı olaraq zeytun ağacı görmüsünüzmü? 2) Deyə bilərsinizmi, ananız xörəkləri hansı yağla bişirir? Bunun səbəbi barədə ananıza sual vermisinizmi?

***Cavablar dinlənilir.*** Şagirdlərin nitqində olan səhvlər düzəldilir.

***Tədqiqat sualı:*** Zeytun meyvəsinin faydası haqqında nə bilirsiniz? Azərbaycanda zeytun becərilirmi?

***Tədqiqatın aparılması:*** "Min bir dərdin dərmanı" mətni oxunur. Mətnin məzmununun və sözlüyünün mənimsədilməsi üzrə iş aparılır: "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər izah edilir, cümlələrdə işlədilir.

Mətnin oxusu prosesində sözlərin düzgün vurğu ilə oxunmasına (3.1.2.) xüsusi diqqət yetirilir, tələffüz qüsurları yerindəcə aradan qaldırılır, lazımi tövsiyələr verilir.

Mətnin məzmununun daha yaxşı qavranılması üçün şagirdlər dinlədikləri fikirləri dəqiqləşdirmək üçün bir-birinə suallar verirlər (1.1.1.). Bu işi müəllim qruplar şəklində apara bilər. Şagirdlər qruplara bölünür və hər qrup mətnin məzmunu üzrə tərtib etdiyi suallarla müəllimin tövsiyə etdiyi qrupa müraciət edir. Bir qrupun üzvləri cavab verə bilmədikdə suallar digər qrupun üzvlərinə də yönəldilə bilər. Bu iş həm qrupları fəallaşdırır, həm də sual cümlələrini dilin qrammatik normalarına uyğun düzgün tərtib etmək bacarıqlarının təkmilləşməsinə şərait yaradır.

Şagirdlər dinlədikləri fikirləri dəqiqləşdirmək üçün suallar verməklə və cavab almaqla mətndəki fakt və hadisələrə xüsusi diqqət yetirilir. Mətn özlüyündə faktlarla zəngin olduğundan şagirdlərin onları seçib ayırması çətinlik törətmir.

Mətnin məzmununun qavranılması imkanlarını genişləndirmək üçün müəllimin tövsiyəsi əsasında müəyyənləşdirilmiş sözlərin mətnə uyğun qrammatik mənasının izahına (3.1.1.)

LAYİHƏ

da yer verilir. Bu məqsədlə mətndə yaşıl rəngdə verilmiş sözlər də seçilə bilər, müəllimin özünün məsləhət bildiyi sözlər üzərində də işlər aparıla bilər. Dərslikdəki 5-ci çalışmanın icrası vasitəsilə bu bacarıqların formalaşdırılması imkanları daha da genişlənmiş olur.

4.1.3. alt-standartının dərslikdəki 3 və 9-cu çalışmaların yerinə yetirilməsi ilə reallaşdırılması nəzərdə tutulmuşdur. Şagirdlər mətndə yaşıl rənglə fərqləndirilmiş sözlər üzərində müşahidə aparmaqla, onların kökünü müəyyənləşdirməklə əvvəllər öyrəndikləri və tez-tez qarşılaşdıqları orfoqrafiya qaydasını izah edirlər. Bununla da qeyd olunan qayda ilə əlaqədar bacarıqlar şüurlu surətdə formalaşmış olur. 4-cü çalışmanın icrası da dolayısı ilə şagirdlərdə qeyd olunan orfoqrafik bacarığın təkmilləşdirilməsinə imkan verir.

6-cı çalışmada verilmiş lətifə şagirdlərə oxutdurulur. Lətifə ilə əsas mətn arasında əlaqə yaradılır. Lətifənin oxusu zamanı şagirdlərin düzgün tələffüz bacarıqlarına xüsusi diqqət yetirilir. Fərqləndirilmiş sözlərin düzgün tələffüz şəklinin deyilməsi təmin olunur.

Çalışma 6, 7, 8-i yerinə yetirməklə şagirdlər fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırırlar. Şagirdlərin düzgün tələffüz və şifahi nitq bacarıqlarının təkmilləşdirilməsini təmin etmək məqsədilə çalışma 9 şagirdlərə oxutdurulur. Sonra şagirdlər sınamaları müzakirə edirlər. Müəllim onların cavablarını istiqamətləndirir.

9-cu çalışma şagirdlərin orfoqrafik bacarıqlarının təkmilləşdirilməsi üçün nəzərdə tutulsa da, onların dilimizdə işlənən sınamalarla tanış olmalarına da xidmət edir.

Dərslikdəki 7, 8, 9-cu çalışmalar əsas vəzifələri ilə yanaşı, şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə də kömək göstərir.

Müəllim şagirdlərin rabitəli nitq bacarıqlarının inkişafına şərait yaratmaq və onları daha da fəallaşdırmaq üçün qruplar şəklində iş aparır. İş vərəqləri paylanır.

**1-ci iş vərəqinin məzmunu:** Məişətimizdə zeytundan necə istifadə olunur?

**2-ci iş vərəqinin məzmunu:** Zeytun meyvəsindən tibdə necə istifadə olunur?

**3-cü iş vərəqinin məzmunu:** Zeytundan kosmetik sənayedə necə istifadə olunur?

**4-cü iş vərəqinin məzmunu:** Zeytun ağacını və onun meyvəsini bir neçə cümlə ilə təsvir edin.

Şagirdlər təqdimat hazırlayırlar və cavablar dinlənilir.

***Məlumat mübadiləsi:*** Mətn üzərində aparılan işlər nəticəsində şagirdlər zeytun meyvəsi haqqında bir sıra məlumatlar əldə edirlər. Zeytunun insan orqanizmi üçün son dərəcə faydalı bir meyvə olduğu haqqında aldıqları yeni məlumatları müzakirə edirlər.

***Nəticə:*** Dünyadakı 11 iqlim 9-u ölkəmizdə olduğundan Vətənimiz təbii sərvətlərlə olduqca zəngindir. Bu zənginliklərdən biri də zeytunla bağlıdır. Əgər 30-40 il bundan qabaq 3-4 min hektar ərazidə zeytun bağı salınmışdısa, indi vəziyyət tamamilə dəyişib. Əgər əvvəllər zeytunu Azərbaycanda çox az adam tanıyırdısa, indi zeytunu tanımayan adama rast gəlmək olmaz. Hamı zeytunun əhəmiyyətini başa düşür və ona görə də məişətimizdə zeytundan geniş istifadə olunmağa başlamışdır. Təəssüf ki, bu qiymətli bitkiyə hələ lazımi qədər qayğı ilə yanaşılmır, onun meyvələrindən səmərəli istifadə olunmur. Mətndən aldığımız məlumatlar göstərir ki, bu qiymətli bitkinin qədrini bilməli və onun yetişdirilməsinə, qorunmasına diqqəti artırmalıyıq.

***Qeyd. Müəllimlər üçün:***

Azərbaycandakı yerli zeytun sortları: Armudu zeytun, Azərbaycan zeytunu, Buzovna zeytunu, Qara zeytun, Şirin zeytun, Bakı zeytunu.

***Yaradıcı tətbiqetmə:*** Zeytunun məişətdə, qida sənayesində, kosmetik sənayedə və tibdə nə məqsədlə işlədildiyi barədə qısa təqdimat hazırlamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Zeytun ağacı, zeytunun tarixi, növləri və s. haqqında əlavə məlumat toplamaq.

LAYİHƏ

## 7-ci, 8-ci dərslər.
## § 7. Səbrin olmasa, heç nə öyrənə bilməzsən! (2saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətnin məzmunu ilə əlaqədar suallar verir. | 1.1.1. | R.d.-1.2.3. Biol.4.1.1. |
| 2. | Oxuduğu mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | |
| 3. | Danışarkən və oxuyarkən nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 4. | Mətndən seçilmiş sözlərin qrammatik mənasını izah edir. | 3.1.1. | |
| 5. | Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.3. | |
| 6. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Kiçik qruplarla, cütlərlə iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, təqdimat, müzakirə, rollu oyun.
***Resurslar:*** Dərslik, dəftər, lüğət, iş vərəqləri, kompüter, proyektor.
***Motivasiya:*** Müəllim aşağıdakı atalar sözləri yazılmış slaydı ekrana gətirir və səsləndirir:

1) Gücün çatmayan işdən yapışma.
2) Bacarmadığın bir işi bacarıram demə!
3) Uzaqdan baxana döyüş asan gələr.

***Köməkçi sual:*** Bu atalar sözlərində ifadə olunan fikirləri necə başa düşmək lazımdır?
Cavablar dinlənilir.

Sonra müəllim Səməd Vurğunun aşağıdakı aforizmi yazılmış slaydı monitorda göstərir və səsləndirir:

Birinci addımda lovğalananlar,
İkinci addımda yıxılacaqdır.

***Köməkçi sual:*** 1) Bu aforizmdə ifadə olunan fikri necə başa düşmək lazımdır?
2) Bu aforizmdəki fikirlə yuxarıdakı atalar sözləri arasında əlaqə varmı?
Cavablar dinlənilir. Müəllim şagirdlərin tələffüzündə özünü göstərən səhvləri düzəldir.

***Tədqiqat sualı:*** Yersiz lovğalıq, yoxsa öz imkanlarını düzgün qiymətləndirməklə uğur əldə etmək olar?

***Tədqiqatın aparılması:*** Tədqiqata başlarkən nəzərə almaq lazımdır ki, bu mətn iki dərs saatı üçün nəzərdə tutulmuşdur. Birinci dərsdə "Səbrin olmasa, heç nə öyrənə bilməzsən!" mətni sual qoyulmuş hissəyə qədər şagirdlərə oxutdurulur. Mətnin 1-ci hissəsinin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır: mətndə qırmızı rəngdə verilmiş sözlərin mənasının izahı şagirdlərin lüğətində olan sözlərin fəallaşdırılmasına xidmət edir. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir, lazım gəldikdə cümlələrdə işlədilir.

Oxu prosesində şagirdlərin nitqinin temp və ritmi izlənir (2.1.2.), müşahidə olunan nöqsanlarla bağlı tövsiyələr verilir.

Mətnin məzmununun qavranılmasını asanlaşdırmaq, diqqəti mətndəki əsas fakt və hadisələrə cəlb etmək üçün şagirdlərə mətn üzrə suallar tərtib etmək tapşırılır (1.1.1.). Bu

LAYİHƏ

iş qruplarla aparılır. Hər qrup mətnin məzmunu üzrə suallardan ibarət təqdimat hazırlayır (çalışma 1); tərtib edilən suallar çalışmanın tələblərinə uyğun şəkildə qiymətləndirilir. Bu tapşırığın icrası 1.1.2. alt-standartının tələblərinin həyata keçirilməsini də asanlaşdırır. Adətən, suallar daha çox mətndəki fakt və hadisələrin müəyyənləşdirilməsinə xidmət edir.

3.1.1. alt-standartı əvvəlcə 2-ci çalışmanı icra etməklə reallaşdırılır. Mətndə göy rənglə fərqləndirilmiş sözləri sualları əsasında nitq hissələri üzrə qruplaşdırarkən şagirdlər onların qrammatik mənasını dərk edirlər. Bu istiqamətdə aparılan işlər sonra 5, 6-cı çalışmalar vasitəsilə davam və inkişaf etdirilir. Mətndə işlənmiş feillərin qrammatik mənasının mənimsədilməsinə başlanılır. İstər 2-ci, istərsə də sonrakı çalışmalar qruplar şəklində də icra etdirilə bilər.

Şagirdlərə dilin qrammatik normalarının mənimsədilməsi işi sual cümlələri qurmaq və onları düzgün yaza bilmək şəklində aparılır. Bu çalışma öz növbəsində əvvəlki dərslərdə formalaşdırılan müvafiq bacarığın inkişafına xidmət edir.

"Kəlmələrin dili"ni öyrənək!" rubrikasındakı sözlərin məna imkanları ilə hərtərəfli tanışlıq şagirldərin lüğət ehtiyatının şüurlu şəkildə zənginləşdirilməsində əhəmiyyətli rol oynayır. 4-cü çalışmanın icrası şagirdlərin bildikləri atalar sözlərinin onların nitqində fəallaşdırılmasına və unudulmamasına imkan verir.

"Hikmət xəzinəsindən" rubrikası isə tərbiyəvi iş aparmaq üçün nəzərdə tutulmuşdur.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətndən oxunmuş hissə, icra edilmiş tapşırıqlar əsasında toyuğun uğursuzluğunun səbəbinin lovğalıqla bağlı olduğu fikrini müzakirə edirlər.

***Nəticə:*** Toyuq ona görə heç bir uğur əldə edə bilmir ki, o özündən çox razıdır. Kifayət qədər zəhmət çəkmək istəmir. Hər şeyi çox asanlıqla əldə etməyin mümkünlüyünə inanır. Yersiz lovğalıq ona istədiyinə nail olmağa mane olur.

Hər bir şagird bu hekayədən lazımi nəticəni çıxarır. Əgər toyuq öz imkanlarını düzgün qiymətləndirsə və yersiz lovğalıq etməsə idi, uğursuzluqla da qarşı-qarşıya qalmazdı. Böyük şairimiz S.Vurğunun aşağıdakı misraları burada çox yerinə düşür:

Birinci addımda lovğalananlar,
İkinci addımda yıxılacaqdır.

***Yaradıcı tətbiqetmə:*** Toyuğu səciyyələndirin.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətni danışmaq. Mövzuya uyğun atalar sözü və aforizmlər toplamaq.

## Mövzu üzrə 2-ci dərsin motivasiyası:

Müəllim Nizami Gəncəvinin aşağıdakı aforizmi yazılmış slaydı monitorda göstərir və səsləndirir.

"Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan".

Köməkçi sual: 1) Bu aforizmdə ifadə olunan fikri necə başa düşmək lazımdır?

Cavablar dinlənilir.

Sonra müəllim aşağıdakı atalar sözləri yazılmış slaydı ekrana gətirir və səsləndirir:

1) Hər yana baxan çaş qalar.
2) Dad yarımçıq əlindən.

***Köməkçi sual:***

1) Bu atalar sözlərində ifadə olunan fikirləri necə başa düşmək lazımdır?
2) Bu atalar sözlərindəki fikirlə yuxarıdakı aforizm arasında əlaqə varmı?

Cavablar dinlənilir. Müəllim şagirdlərin tələffüzündə özünü göstərən səhvləri düzəldir

LAYİHƏ

***Tədqiqat sualı:*** İnsan səbirli olmasa, istədiklərinə nail ola bilərmi?

Tədqiqata mətnin davamının oxudulması ilə başlanılır. Mətnin 2-ci hissəsinin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır: mətndə qırmızı rəngdə verilmiş sözlərin mənasının izahı şagirdlərin lüğətində olan sözlərin fəallaşdırılmasına xidmət edir. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir, lazım gəldikdə cümlələrdə işlədilir.

Oxu prosesində şagirdlərin nitqinin temp və ritmi izlənir (2.1.2.), müşahidə olunan nöqsanlarla bağlı tövsiyələr verilir.

Mətnin oxusu başa çatandan sonra 3.1.3. və 4.1.2. alt-standartlarının tələblərinə uyğun iş aparılır. Şagirdlər mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi üzərində işləyirlər. Bunu qruplarla iş formasında da aparmaq olar. Şagirdlər əvvəlki dərslərdə belə tapşırıq üzərində işlədiklərindən onlar buna hazırdırlar. Qruplardan biri mətnin giriş, ikincisi əsas, üçüncüsü isə nəticə hissəsinin müəyyənləşdirilməsi üzərində müzakirələr aparır və hər lider öz qrupunun fikrini təqdim edir. Təqdimatlar dinlənilir və nöqsanlar düzəldilir. Təqdimat edən şagirdlərin nitqində ritm və tempdən istifadəyə diqqət yetirilir. Sonra tərkib hissələr arasındakı əlaqələrin müəyyən edilməsi üzərində iş gedir.

Sözlərin qrammatik mənasının izahı ilə əlaqədar birinci dərsdə aparılan işlər davam etdirilir. Mətnin ikinci hissəsində fərqləndirilmiş sözlərin qrammatik mənası izah edilir.

8-ci çalışmada verilmiş lətifə oxunur, əsas fikir müəyyənləşdirilir. Lətifənin rollarla oxunması və səhnələşdirilməsi yaxşı nəticə verir. Lətifədə fərqləndirilmiş sözlərin qrammatik mənasının izahı üzərində iş aparılır (çalışma 9). Bu tapşırığın icrası feil haqqında "Bunları bilirsinizmi?" rubrikasında verilmiş məlumatın asan qavranılmasına zəmin yaradır.

Şagirdlərin lüğət ehtiyatının genişləndirilməsi və dəqiqləşdirilməsi istiqaməti dərslikdəki 3, 10, 11-ci çalışmalarla təmin edilir.

Dilin qrammatik normalarının mənimsədilməsində dərslikdəki 7, 12, 13-cü çalışmalar əhəmiyyətlidir.

Dərsdə cütlərlə iş təşkil edilə bilər. Cütlərə tövsiyə olunur ki, verilmiş aforizmləri təhlil edib, münasibət bildirsinlər. Bu məqsədlə hazırlanmış iş vərəqlərində aşağıdakı aforizmlər yazılmışdır.

**1-ci iş vərəqinin məzmunu:** Yalnız əmək fəaliyyəti nəticəsində sağlamlıq əldə etmək, biliyə sahib olmaq, həyatı təmin etmək olar. (A. Bakıxanov)

**2-ci iş vərəqinin məzmunu:** Alt-üst eləməsən hərgah torpağı,
Nə zəmi yaranar, nə də gül bağı. (Cəlaləddin Rumi)

**3-cü iş vərəqinin məzmunu:** Həyatın cövhəri yalnız əməkdir,
Zəhmətsiz bir insan nəyə gərəkdir? (Nizami Gəncəvi )

**4-cü iş vərəqinin məzmunu:** Dünyada ən gözəl şah əsərləri
Yaratdı zəhmətin cəsur əlləri. (M. Şəhriyar)

**5-ci iş vərəqinin məzmunu:** Bəxtiyarsan, əgər çəkdiyin əmək
Cahan süfrəsinə versə, bir çiçək. (H.Cavid)

Şagirdlər onlara verilən vaxt ərzində iş vərəqlərindəki aforizmləri təhlil edir və təqdimata hazırlaşırlar. Müəllim onları istiqamətləndirir. Cavablar dinlənilir. Fərqli cavablar qiymətləndirilir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətnin məzmunu, dərsdəki şəxsi fəaliyyətlərinin qiymətləndirilməsi əsasında əməyin insan həyatında rolu, lovğalıqdan uzaq olmağın əhəmiyyəti, səbrin müvəffəqiyyətin açarı olması fikrini müzakirə edirlər.

***Nəticə:*** İnsan həyatda yaranmışların ən güclüsüdür. İstədiyi hər bir şeyi əldə etməyi bacarır. Bunun üçün isə səbirli, təmkinli olmaq, öz imkanlarını doğru qiymətləndirməyi bacarmaq lazımdır. Atalarımız nahaq deməyiblər: "Səbr elə, halva bişər, ey qora, səndən. Bəsləsən, atlaz olar tut yarpağından".

Layihə

Hər gün bir fikrə düşmək, bir işi layiqincə başa çatdırmadan başqa işdən yapışmaq axırda peşmançılıqla nəticələnir. Burada əvvəldə deyilən atalar sözləri yerinə düşür: 1) Hər yana baxan, çaş qalar. 2) Dad yarımçıq əlindən.

***Yaradıcı tətbiqetmə:*** Mətn üzrə plan tərtib etmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 9-cu dərs.
## § 8. Azadlıq (1-ci hissə- 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətndəki fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.-4.1.2.<br>A.t.-1.1.2. |
| 2. | Danışarkən nitqində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 5. | İsimlərin və məsdərin yazılış qaydalarına əməl edir. | 4.1.3 | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor, şəkillər.

***Motivasiya:*** Motivasiya: Müəllim qəfəsdə saxlanılan və sərbəst şəkildə istədiyi yerə uçan quşları təsvir edən rolik göstərir. Bunu şəkillərlə də göstərmək olar.

***Köməkçi sual:*** 1) Sizcə, qəfəsdəki quşlar öz vəziyyətlərindən razıdırmı?

2) Görəsən, qəfəsdəki quşlar qəfəsdən çıxıb azad uçmağı arzulayırmı?

***Tədqiqat sualı:*** Necə düşünürsünüz, qəfəsdəki, yoxsa sərbəst uçan quşlar özlərini daha rahat hiss edirlər?

***II Motivasiya:*** Müəllim şagirdlərə "Tacir və bülbül" nağılının qısa məzmununu danışır:

Bir tacir bazardan bülbül alır. Bülbülü qızıl qəfəsə salaraq gözəl bağında saxlayır. O hər gün bağa gəlir ki, bülbülün nəğməsini dinləsin. Lakin bülbül oxumur. Tacir çox təəccüblənir. O, bir ağıllı qocadan bunun səbəbini soruşur. Qoca ona bildirir ki, qızıl qəfəsdə, güllü-çiçəkli bağçada bülbül oxumayacaq. Sən onu qəfəsdən azad etsən, o oxuyacaq.

Tacir bülbülü azad edir. Quşun dalınca atlıları göndərir. Atlılar xəbər gətirirlər ki, bülbül meşədə bir ağaca qonub oxumağa başladı.

***Köməkçi sual:*** 1) Quşun meşədə oxumağının səbəbi nə idi?

2) Bəs nə üçün bülbül qəfəsdə oxumurdu?

***III Motivasiya:*** III Motivasiya: Müəllim əvvəlcə 1990-cı illərin əvvəllərində Kəlbəcərdən, Laçından evlərini tərk etmək məcburiyyətində qalan insanlarla (kadrlarda

LAYİHƏ

uşaqların olmasına xüsusi diqqət yetirməklə) bağlı,  sonra isə torpaqlarımızın azad edilməsi uğrunda 2-ci Qarabağ müharibəsindən  hazırladığı videoçarxı  nümayiş etdirir.

***Köməkçi sual:*** 1) I videoçarxda gördükləriniz sizə hansı hadisələri xatırlatdı?

2) Necə düşünürsünüz, kadrlarda gördüyünüz insanların hansı haqları pozulub?

***Tədqiqat sualı:*** Doğulduğu torpaqda yaşamaq  hüququndan məhrum edilmiş insanlar (o cümlədən uşaqlar) həmin torpaqlara qayıtmaq üçün nə etməli idilər?

***Tədqiqatın aparılması:*** "Azadlıq" mətni oxutdurulur. Oxu prosesində məzmunun dərk edilməsinə kömək və şagirdlərin lüğətinin fəallaşdırılmasna imkan yaratmaq üçün qırmızı rəngdə verilmiş sözlər və söz birləşmələrinin izahı verilir; "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir və cümlələrdə işlədilərək mənimsədilir.

3.1.2. alt-standartının reallaşdırılmasını təmin etmək məqsədi ilə mətnin oxusu həyata keçirilir. Mətndəki mürəkkəb sözlərin və qrammatik formaların düzgün vurğu ilə oxusu diqqətdə saxlanılır. Lazım gəldikdə düzəlişlər edilir.

Dərslikdəki 1, 2, və 3-cü çalışmalar müvazi olaraq 1.1.1. və  2.1.1. alt-standartlarının reallaşdırılmasını təmin edir. Şagirdlər mətndəki əsas fikri müəyyənləşdirərkən və fikirlərini əsaslandırarkən, dinlədiyi fikirləri anladığını göstərmək üçün suallar və suallara cavab verərkən,  plan əsasında mətnin məzmununu danışarkən nitqlərində sözlərin düzgün vurğu ilə tələffüz etmələri izlənilir və lazımi metodik kömək göstərilir, müvafiq qiymətləndirmə aparılır.

5, 6, 10, 12, 13-cü çalışmalar 3.1.1. və 4.1.3. alt-standartlarının tələbləri əsasında iş aparmağa istiqamətlənmişdir.  Bu çalışmalar müəyyən nitq hissələrinin qrammatik mənasını dərk etməyə imkan verir. Çalışmaların sözlüyü elə seçilmişdir ki, şagirdlər eyni zamanda sözləri düzgün yazılışı ilə bağlı zəruri orfoqrafik bacarıqlara yiyələnirlər.

Şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə (çalışma 9, 10, 11), düzgün orfoepik normalara yiyələnmələrinə (çalışma 7), dilin qrammatik quruluşunun mənimsənilməsinə (çalışma 4, 8) istiqamətlənmiş çalışmalar, eyni zamanda, mətnin məzmununun qavranılmasına və digər alt-standartlarda nəzərdə tutulmuş müəyyən  tələblərin yerinə yetirilməsinə də xidmət edir ki, eyni çalışmanın bir neçə yerdə göstərilməsinin səbəbi bununla bağlıdır. Müəllim bu tipli çalışmalardan istədiyi məqsədlə istifadə edə bilər və buna qanunauyğun bir hal kimi yanaşmaq lazımdır.

Vaxt imkan verdiyi halda müəllim aşağıda verilmiş iş vərəqləri əsasında da qruplarla iş təşkil edə bilər. Müəllimin hazırladığı iş vərəqlərində verilmiş aforizmlərə münasibət bildirmək tələb olunur.

**1-ci iş vərəqinin tapşırığı:** Verilmiş aforizmdəki fikrə münasibət bildirin.

Azadlığı sevməyən adam qüdrətli ola bilər, lakin heç vaxt böyük insan ola bilməz. (Volter)

**2-ci iş vərəqinin tapşırığı:** Verilmiş aforizmdəki fikrə münasibət bildirin.

Azadlıqdan gözəl bir nemət yoxdur, onun qədrini bilin.  ((Xaqani Şirvani)

**3-cü iş vərəqinin tapşırığı:** Verilmiş aforizmdəki fikrə münasibət bildirin.

"Bir gün azad yaşamaq, 40 il qul kimi yaşamaqdan yaxşıdır". (Babək)

Şagirdlərə tədqiqat üçün vaxt verilir. Vaxt bitdikdən sonra işlər təqdim edilir. Tədqiqat zamanı müəllim  onları istiqamətləndirir. Fərqli cavablar qiymətləndirilir.

***Məlumat mübadiləsi:*** Şagirdlər "Azadlıq" mətninin məzmunu ilə tanış olduqca  yumşaq qəlbli Həsənin tacirin yanında qulluq göstərən  zaman ürəyinin azadlıq eşqi ilə çırpındığını başa düşürlər və bu hadisəni dərsin motivasiya mərhələsində söylədikləri fərziyyələrlə əlaqələndirirlər. Dərs boyu aparılan işlər nəticəsində tədqiqat sualına tapılan cavablar müzakirə olunur.

***Nəticə:*** Həsənin burada gördükləri (quşları alıb azadlığa buraxan  rəhmli, azadlıqsevər insanlarla qarşılaşması,  bəzi quşların acınacaqlı vəziyyəti, qəfəsdən azad olan quşların tez

Layihə

uçub uzaqlara getməsi) onun azadlığa can atdığını, azad olmaq istəyini daha da artırır. Bu istək onu bayramlıq üçün verilən pula bir quş alıb azad etməyə sövq edir. Həsən hələlik arzu etdiyi azadlığa qovuşa bilməsə də, bu arzunu bir quşu azad etməklə reallaşdırır.

Buradan həm də belə bir nəticəyə gəlmək olar ki, həyatda azad yaşamaq, pozulan hüquqların bərpası üçün mübarizə aparmaq lazımdır. Ancaq heç bir mübarizə başqalarının haqqını tapdamağa haqq qazandırmamalıdır. Hər bir mübarizənin müxtəlif yolları vardır. Öncə nəyin uğrunda və niyə mübarizə aparmalı olduğumuzu bilməliyik. Əgər insanın azad yaşamaq hüququ pozulursa, onun evi, torpağı əlindən alınırsa, öz yurd-yuvasına, gəzib-dolandığı yerlərə sərbəst gedib-gələ bilmirsə, o, azadlığı əldə etmək üçün bir an belə mübarizəni dayandırmamalı, bu yolda bütün əziyyətlərə hazır olmalıdır. Əbəs yerə deyilməmişdir: "Bir gün azad yaşamaq, 40 il qul kimi yaşamaqdan yaxşıdır".

***Yaradıcı tətbiqetmə:*** Mətnə aid plan tərtib etmək. Hekayəni davam etdirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Qəfəsdə olan bir quş şəkli çəkmək.

## 10-cu dərs.
## § 9. Azadlıq (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d.-4.1.2.<br>A.t.-1.1.2. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki feilləri qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Əsas nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor, şəkillər.

***Motivasiya:*** Müəllim lövhəyə üzərində Yer kürəsini əllərində tutmuş uşaqlar və səmada uçan göyərçinlər təsvir olunmuş tablo asır.

***Köməkçi sual:*** 1) Bu bu şəkli necə başa düşürsünüz?

2) Uşaqlar nə üçün Yer kürəsinin şəkli təsvir olunmuş tablonu əllərində göyə qaldırırlar?

3) Sakit, azad yaşamaq üçün hansı şərait yaradılmalıdır?

Şagirdlərin cavabları dinlənilir. Onların tələffüzündəki səhvlər düzəldilir.

***II Motivasiya:*** Müəllim qəfəslərə baxıb zövq alan insan əks olunmuş şəkil, yaxud slayd göstərir.

***Köməkçi sual:*** 1) Kimin evində qəfəsdə quş var?

2) İstərdinizmi ki, sizin də qəfəsdə quşlarınız olsun?

***Tədqiqat sualı:*** Necə bilirsiniz, Həsən quşu azadlığa buraxacaqmı, yoxsa fikrini dəyişib onu öz yanında balaca bir qəfəsdə saxlayacaqmı?



LAYİHƏ

***Tədqiqat sualı:*** Azad dünyanı necə təsəvvür edirsiniz? "Hürriyyət" sözünün mənasını bilirsinizmi?

***Tədqiqatın aparılması:*** "Azadlıq" mətninin 2-ci hissəsi oxudulur. Oxu prosesində məzmunun dərk edilməsi və sözlüklə bağlı əvvəlki dərslərdə aparılan işlər davam etdirilir.

Mətnin məzmunu üzərində aparılan iş diqqəti mətndəki əsas fakt və hadisələrə cəlb etməyə imkan verir (1.1.2.). Mətndəki fakt və hadisələri müəyyənləşdirmək məqsədilə müəllim qruplarla iş apara bilər. Qruplara mətndəki əsas fakt və hadisələri müəyyənləşdirmək və qeyd etmək tapşırılır. Tapşırığın yerinə yetirilməsi üçün vaxt verilir. Şagirdlərə istiqamətləndirilir.

Verilən vaxt başa çatandan sonra liderlər təqdimatı oxuyurlar. Müzakirə nəticəsində əsas fakt və hadisələr müəyyənləşdirilir. Qiymətləndirmə aparılır.

1-ci çalışmanı yerinə yetirməsi də mətndəki fakt və hadisələrə diqqəti cəlb etməyə imkan verir. 2-ci çalışmada şagirdlər mətnin hissələri arasındakı əlaqələr üzərində düşünürlər.

Dərslikdəki 3-cü çalışma mətnin tərkib hissələrini müəyyənləşdirməyə, 2.1.4. alt-standartının tələblərinin yerinə yetirilməsinə şərait yaradır. Şagirdlər verilmiş planın mətnin məzmununu əks etdirmədiyini əsaslandırmaq üçün mətnin tərkib hissələrinə diqqət yetirməli olurlar ki, nəticədə nəzərdə tutulan bacarığın formalaşdırılması həyata keçirilir. 4 və 5-ci çalışmalar da dolayısı ilə bu bacarığın inkişaf etdirilməsinə xidmət edir.

6, 7, 8-ci çalışmaların icrası 3.1.1. alt-standartında nəzərdə tutulan bacarığı inkişaf etdirməyə *yönəldilir. Çalışmalar üzərində işi qruplarla da aparmaq olar.*

**1-ci iş vərəqinin tapşırığı:** *Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərdən biri fel olmaq şərti ilə eyniköklü sözlər düzəldin.*

**2-ci iş vərəqinin tapşırığı:** *7-ci çalışmadakı hər bir cərgədən hərəkət bildirən sözləri sualların köməyi ilə müəyyənləşdirin və həmin sözlərin quruluşunu izah edin.*

**3-cü iş vərəqinin tapşırığı:** *Qara şriftlə verilmiş məsdərlərin ismin hansı halında olduğunu müəyyənləşdirin .*

**4-cü iş vərəqinin tapşırığı:** *Mətndə altından xətt çəkilmiş sözlərdə hərəkətin hansı zamanda icra edildiyi barədə mülahizələrinizi söyləyin.*

*"Bunları bilirsiniz*mi?" rubrikası ilə tanışlıqdan sonra 8-ci çalışmanın əsas hissəsi üzərində bütün qruplar işlədilməlidir. Qrupların təqdimatı əsasında nəticələr müzakirə olunur və qiymətləndirmə aparılır.

6-cı çalışma vasitəsi ilə feillərin orfoqrafiyası üzərində iş aparılır. Digər çalışmalardan da bu məqsədlə istifadə etmək olar.

4, 5-ci çalışmalar mətnin məzmununun qavranılması ilə yanaşı, dilin qrammatik quruluşunun mənimsənilməsinə, 7, 9, 10-cu çalışmalar şagirdlərin lüğətinin dəqiqləşdirilməsinə istiqamətlənmişdir.

***Məlumat mübadiləsi:*** Şagirdlər oxuduqları mətnin məzmunu əsasında azad dünya barədə qənaətlərini müzakirə edirlər, insanların ehtiyaclarının ödənməsinə, hüquqlarının qorunmasına diqqət yetirirlər. Şagirdlər öyrənirlər ki, sülh, əmin-amanlıq şəraitində insanlar arasında əməkdaşlıq, dostluq yaranır.

***Nəticə:*** Şagirdlər belə nəticəyə gəlirlər ki, Həsənin quşu azad etməsi rəmzi məna daşıyır. Onlar Həsənin vəziyyəti ilə qəfəsdəki quşun vəziyyətini müqayisə edərək azad dünya haqqında fikir yürüdürlər. Quşun azadlığa qovuşması Həsənin istəklərinin əyani göstəricisi hesab olunur. "Azad dünya" quşun budaqdan-budağa qonub oxuması, sonra istədiyi səmtə uçaraq gözdən itməsi şəklində şagirdlərin gözləri qarşısında canlanır. Həsən kimi hər bir uşağın öz vətənində azad yaşamaq, təhsil almaq hüququ vardır. Bu isə azad, müharibələrsiz dünyada, sülh şəraitində mümkündür.

***Yaradıcı tətbiqetmə:*** Həsəni indiki uşaqlarla müqayisə edin.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** "Vətənimizin azad uşaqları" mövzusunda esse yazmaq.

LAYİHƏ

## 11-ci dərs.
## § 10. Ucalmışıq (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi şeirdəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d. -2.2.1.<br>A.t.-3.1.1. |
| 2. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1 | |
| 3. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 4. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 5. | Mövzuya uyğun inşa yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, debat.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor, plakat.

***Motivasiya:*** Müəllim şagirdlərə belə bir sualla müraciət edir:

1) "Vətən" anlayışı sizin üçün nə deməkdir?

2) Vətən dedikdə gözləriniz qarşısında nə canlanır?

Şagirdlər müxtəlif cavablar verirlər.

Müəllim "Vətən" anlayışına aid fikir yazılmış plakatı lövhədən asır:

Vətən - insanın qoynunda doğulub boya-başa çatdığı, yaşadığı, maddi nemətləri ilə qidalandığı, bir sözlə, bütün həyatı üçün borclu olduğu torpaqdır.

Şagirdlər bu anlayışı necə başa düşdüklərini izah edirlər.

Müəllim monitorda aşağıdakı şeir bəndi yazılmış slaydı göstərir və səsləndirir:

Sən ey evim, ana torpaq,
Sən bir tarix, sən bir kitab.
Çevirdiyim hər bir vərəq
Min suala verir cavab.

***Köməkçi sual:*** Şairin ana torpağa həm də "evim" deyə müraciət etməsinə necə baxırsınız?

Fərziyyələr dinlənilir.

***Tədqiqat sualı:*** 1) "Doğma diyar", "Ana torpaq" ifadələrinin mənasını izah etməyə çalışın.

2) Şair deyir: "Sən ey evim, ana torpaq,
Sən bir tarix, sən bir kitab".
Necə düşünürsünüz, Ana torpağı tarix kitabı hesab etmək olarmı?

***Tədqiqatın aparılması:*** Müəllim şagirdləri 4 qrupa bölür və hər qrupa işçi vərəqləri paylayır.

**1-ci iş vərəqi:** Şəkildə hansı abidə təsvir olunmuşdur? Bu abidə haqqında bildiklərinizi yazın. (Qız qalasının şəkli)

**2-ci iş vərəqi**: Şəkildə hansı abidə təsvir olunmuşdur? Bu abidə haqqında bildiklərinizi

LAYİHƏ

yazın. (Şəki xan sarayının şəkli)

**3-cü iş vərəqi:** Şəkildə hansı abidə təsvir olunmuşdur? Bu abidə haqqında bildiklərinizi yazın. (Əlincə qalasının şəkli)

**4-cü iş vərəqi:** Şəkildə hansı abidə təsvir olunmuşdur? Bu abidə haqqında bildiklərinizi yazın. (Şirvanşahlar sarayının şəkli).

Şagirdlərə təqdimat hazırlamaq üçün vaxt verilir. Vaxt bitdikdən sonra liderlər təqdimatları oxuyurlar. Təqdimatlar qiymətləndirilir.

Tədqiqat dərslikdəki "Ucalmışıq" şeirinin oxusu ilə davam etdirilir. Oxu prosesində şagirdlərin düzgün intonasiyaya və orfoepik tələblərə əməl etməklə oxumalarına diqqət yetirilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlərin mənası izah edilir. Yeni söz və ifadələr cümlələrdə işlədilməklə mənimsədilir. Sonra çalışmalar üzrə işə keçilir.

Şeirin oxusu və 1, 3, 4-cü çalışmaları yerinə yetirməklə şagirdlər şeirdəki fakt və hadisələri seçir (1.1.2.), əsas fikri müəyyənləşdirir, öz mülahizələrini söyləyir, debata qoşulub fikirlərini əsaslandırırlar. Bu prosesdə şagirdlərin nitqi üzərində müşahidə aparılır və onların şifahi nitqlərində sözlərin vurğusunu düzgün tələffüz etmə, ritm və tempdən istifadə bacarıqları izlənilir, müvafiq bacarıqlar inkişaf etdirilir və təkmilləşdirilir (2.1.1., 2.1.2. alt-standartları).

8, 10-cu çalışmaların icrası 2.1.3. alt-standartı üzrə bacarıqların inkişafına kömək edir. Bu çalışmaların tapşırıqları şagirdləri Azərbaycan Xalq Cümhuriyyəti, onun tarixi, 18 oktyabr Müstəqillik Günü ilə bağlı əlavə faktlar toplamağa sövq edir ki, nəticədə onlar toplanan faktlardan istifadə etməklə fikirlərini əsaslandırmağı öyrənirlər. 18 oktyabr Müstəqillik Günü ilə əlaqədar "Müstəqilliyimiz əbədidir" mövzusunda inşa yazmaqla şagirdlər 4.1.1. alt-standartı ilə bağlı bacarıqlarını nümayiş etdirirlər.

2, 5, 6, 7-ci çalışmaları yerinə yetirmək və "Kəlmələrin dilini öyrənək!" rubrikasındakı sözlərin mənasını öyrənməklə şagirdlərin söz ehtiyatı zənginləşir.

2, 6, 9-cu çalışmalar şeirdəki əsas nitq hissələrinin qrammatik mənasını mənimsəməyə şərait yaradır.

***Məlumat mübadiləsi:*** Şagirdlər şeirin məzmunundan əldə etdikləri məlumatlar əsasında xalqımızın minbir əziyyətə qatlaşaraq, ağır mübarizələrdən keçərək xoş günlərə qovuşmasını, bugünkü müstəqil Azərbaycan dövlətinin qurulması yolundakı çətinlikləri müzakirə edirlər.

***Nəticə:*** 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Bununla da Azərbaycan dövləti özünün 1918-ci ildə qurulan və Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin (cəmi 23 ay sürən) varisi olduğunu bütün dünyaya elan etdi. Biz özümüz artıq dövlətimizin, sərvətlərimizin tam sahibiyik və bununla gürur duyuruq. Bu gün parta arxasında oturan hər bir məktəbli sabahın əsgəri, dövlətinin qurucusu və qoruyucusudur. Hər bir şagird qan bahasına əldə edilən və ona əmanət olan torpağın qədrini bilməli, babaları kimi, ondan güc alaraq, zirvələrə ucalmağı bacarmalıdır.

***Yaradıcı tətbiqetmə:*** "Dövlət müstəqilliyimiz" mövzusunda informasiya toplamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək. (Şeirin əzbərlənməsində çətinlik çəkənlər bir neçə bəndi əzbərləyə, yaxud onu nəsrə çevirib danışa bilərlər).

LAYİHƏ

# 12-ci dərs.
# § 11. Deyəsən, tapmışıq... (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Oxunan mətndən dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.-4.1.2.<br>A.t.-4.1.1.<br>Mus.1.1.1. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Əməli yazı – teleqram yazır. | 4.1.4 | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, təqdimatlar, müzakirə.
***Resurslar:*** Dərslik,  şagird  dəftəri, proyektor, film diski, iş vərəqləri.
***Motivasiya:*** Ü.Hacıbəyov haqqında çəkilmiş "Uzun ömrün akkordları" filmindən bir fraqment elektron lövhədə canlandırılır. Bu fraqmentdə Ü.Hacıbəyovun Azərbaycan bölgələrini gəzərək istedadlı uşaqların musiqi təhsili almalarına çalışması təsvir olunur.

***Köməkçi sual:***
1) Gördüyünüz bu şəxsiyyət kimdir?
2) Onun haqqında nə bilirsiniz?

Cavablar dinlənilir. Şagirdlərin düzgün cümlə qurmaq bacarığına nəzarət edilir.

Müəllim telekanallarda təşkil edilən musiqi yarışmalarından birindən franqmentlər göstərir: Münsiflər heyəti oturur, yarışmaçılardan biri öz nömrəsini təqdim edir. Digər yarışmaçılar olan yer də görüntüdə olmalıdır ki, təsəvvür tam olsun.

***Köməkçi sual:*** 1) Ekranda gördüyünüz franqmentlər barədə nə deyə bilərsiniz? 2) Televiziyada hər hansı bir seçim turuna, yaxud musiqi müsabiqəsinə baxmısınızmı? Bilirsiniz ki, indi istedadlı gənclərin üzə çıxarılması və onların  inkişafına kömək məqsədilə televiziya kanallarında bir çox musiqi müsabiqələri təşkil edilir. 3) Hansı musiqi müsabiqələrinin adını çəkə bilərsiniz?

Cavablar dinlənilir.

***Tədqiqat sualı:*** Necə düşünürsünüz, televiziya olmadığı vaxtlar istedadlı musiqiçilər necə üzə çıxarılırdı?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki "Deyəsən, tapmışıq..." mətninin oxusu ilə başlanır. Yeni söz və ifadələrin mənası izah edilir. "Sözlük" və "Söz ehtiyatı"nda verilmiş sözlər cümlələrdə işlədilir. Sözlərin cümlə içərisində işlədilməsini cütlərlə iş formaısnda təşkil etmək tövsiyə olunur.

Dərslikdəki 1, 2, 3, 6-cı çalışmalar mətnin məzmununun qavranılmasına xidmət edir. Şagirdlər dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir (1.1.1.), dərslikdəki suallara cavab verməklə mətnin məzmununu, mətndəki ardıcıllığı bir daha yada salırlar. Mətnə aid olmayan suallar seçilib səsləndirilir və əsaslandırılır. Nəticədə həm mətnin məzmunu hərtərəfli mənimsənilir, həm də dilin qrammatik normalarına əməl etməklə şagirdlərin sual cümlələri qurmaq və onlardan məqamında istifadə bacarığı formalaşır.

LAYİHƏ

Mətnin məzmununun mənimsənilməsi isə şagirdlərin fikirlərini mətnin hissələrinə uyğun qruplaşdırmaq bacarığının formalaşmasına ( 2.1.4.) imkan yaradır. 4, 5-ci çalışmalar bu istiqamətli bacarıqların tətbiqinə xidmət edir.

Şagirdlərdə müvafiq bacarıqların inkişafına şərait yaratmaq məqsədilə müəllimlər mətnə plan tərtibi üzrə qruplarla iş apara bilərlər. Hər qrupun tərtib etdiyi plan dinlənilir, müzakirə olunur və qiymətləndirilir.

Müəllim şagirdləri 4 qrupa bölüb iş vərəqləri paylayır. Hər iş vərəqində şagirdləri düşünməyə sövq edən suallar yazılıb.

**1-ci iş vərəqinin sualı:** M. Ə. Sabirin müəllimlik fəaliyyəti haqqında nə danışa bilərsiniz? (bu barədə V sinifdə keçmişsiniz: "Müəllimin sevinci" mətni).

**2-ci iş vərəqinin sualı:** Azərbaycanlı xeyriyyəçilərdən təhsilə, maarifə xüsusi qayğı göstərənlərdən kimləri tanıyırsınız?

**3-cü iş vərəqinin sualı:** Dövlətimizin məktəblərə, təhsilə göstərdiyi xüsusi diqqət barədə nə deyə bilərsiniz?

**4-cü iş vərəqinin sualı:** Xalqın övladlarının maariflənməsinə köməklik göstərən hansı şəxsiyyətləri tanıyırsınız?

Şagirdlər bu suallar ətrafında düşünüb təqdimatlar hazırlayırlar. Təqdimatlar dinlənilir. RNİ üzərində iş aparılır.

Dərslikdəki 7, 8, 9, 10, 13-cü çalışmalar və "Bunları bilirsinizmi?" rubrikası hərəkət bildirən, 11-ci çalışma isə əlamət bildirən sözlərin qrammatik mənasının mənimsənilməsi üçün (3.1.1.) nəzərdə tutulmuşdur. Qeyd olunan tapşırıqların icrası müvafiq bacarıqların inkişafını təmin edir. Şagirdlər çalışmalar üzərində işləyərkən müxtəlif formalarda işlənən feillər üzərində müşahidə aparır, cümlədə feilləri müxtəlif zamanlar üzrə dəyişərkən müvafiq şəkilçilərə ehtiyac duyulduğunu praktik yolla mənimsəyirlər. Hərəkətin keçmiş zamanda baş verdiyini bildirmək üçün hansı şəkilçilərdən istifadə etmək lazım olduğunu öyrənir və tətbiq edirlər.

3, 8-ci çalışmalar mətnlə bağlı lüğətin dəqiqləşdirilməsini, 7, 12-ci çalışmalar isə dilin qrammatik normalarının praktik yolla mənimsənilməsini həyata keçirmək üçün nəzərdə tutulmuşdur.

14 və 15-ci çalışmalar şagirdlərdə əməli yazı bacarıqlarının formalaşdırılmasını həyata keçirmək üçün (4.1.4. alt-standartı) nəzərdə tutulmuşdur. Bu işlərə xüsusi diqqətlə yanaşılmalı, teleqram yazmağın xüsusiyyətləri praktik yolla öyrədilməlidir.

***Məlumat mübadiləsi:*** şagirldər S.Vurğun və Ü.Hacıbəyov haqqında əvvəlki biliklərinə və mətndən oxuduqlarına əsasən fikir mübadiləsi edirlər. Müəllimin köməyilə S.Vurğunun yazdığı şeirlər, Ü.Hacıbəyovun musiqi əsərləri xatırlanır, hər iki şəxsiyyətin Azərbaycan xalqının həyatında önəmli yer tutduğu qeyd olunur.

İki böyük şəxsin mətnin sonundakı sevinc hisslərinin səbəbi, "Deyəsən, tapmışıq..." ifadəsi ilə nəyə işarə etmələri ətrafında fikir mübadiləsi və müzakirə aparılır.

***Nəticə:*** Vətən, xalq üçün istedadlı, qabiliyyətli insanlar yetişdirmək çox mühümdür. Bu missiyanı hər dövrdə xalqın qabaqcıl fikirli ziyalıları təmənnasız olaraq öz üzərlərinə götürmüşlər. Mətnin məzmunu ilə tanış olmaqla şagirdlər anlayırlar ki, Vətənin çiçəklənməsi, xalqın inkişafı, elmin, incəsənətin yüksəlişi fədakar şəxsiyyətlərin səyi nəticəsində başa gəlir. Şagirdlər oxuduqları mətndən öyrənirlər ki, S.Vurğun və Ü. Hacıbəyov məhz belə bir missiyanı həyata keçirmək üçün doğma Vətənimizin ayrı-ayrı bölgələrini gəzir, musiqi istedadı olan gəncləri təhsil almaq üçün paytaxta gətirirdilər. Bununla da onlar Azərbaycan mədəniyyətinin inkişafına xidmət edirdilər.

Daim hər birimizi "Mən Vətənim üçün nə etdim?" sualı müşayiət etməlidir.

Hər kəs bu cür dahi şəxsiyyətlərin əməllərindən nümunə götürməli, Vətənin uğurlu gələcəyi üçün müəyyən işləri həyata keçirməyə çalışmalıdır.

LAYİHƏ

***Yaradıcı tətbiqetmə:*** Azərbaycan musiqi mədəniyyətinin inkişafı tarixində çox böyük xidmətlər göstərmiş dahi bəstəkar Ü.Hacıbəyov haqqında material toplamaq və təqdimat hazırlamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. (Öz həyatlarını elmə, təhsilə, Vətən övladlarının maariflənməsinə həsr etmiş şəxsiyyətlərdən biri haqqında material toplamaq və təqdimat hazırlamaq).

## 13-cü dərs.
## § 12. Ölkəmin çiçəkləri (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Şeiri oxuyarkən və şifahi nitqində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Fikirlərini şeirin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | R.d. -2.2.1.<br>A.t.-5.1.1. |
| 4. | Şeirin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3 | |
| 5. | Mövzuya uyğun inşa yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, təqdimat, Venn diaqramı.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, çiçəklər.

***Motivasiya:*** Müəllim sinfə çiçəklər gətirir. Uşaqlara bu çiçəklərin faydası barədə danışmağı təklif edir. Sonra müəllim çiçəklərlə uşaqları müqayisə etməyi tapşırır. Çiçəklərlə uşaqların oxşar və fərqli cəhətləri söylənilir. Müəllim Venn diaqramından istifadə edir.




***Köməkçi sual:*** Sizcə, nə üçün uşaqlar məhz çiçəklərlə müqayisə edilir?

***Qeyd.*** Motivasiyanı "yadigar" sözü üzərində də qurmaq maraqlı olar. Köməkçi suallarla insanlara verilən yadigarların nə üçün əzizlənib saxlanılması, heç kəsə verilməməsinə diqqət cəlb edilir və tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** Çiçəklər Vətənimizi gözəlləşdirir. Bəs uşaqların Vətənimizin çiçəklənməsində nə kimi rolu ola bilər?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Ölkəmin çiçəkləri" şeirinin oxusu ilə başlayır. Oxu zamanı sözlərin orfoepiyası və vurğusuna, sait və samitlərin düzgün tələffüzünə diqqət

LAYİHƏ

yetirilir, nöqsanlar düzəldilir. “Sözlük” və “Söz ehtiyatı”nda verilmiş çətin sözlərin mənası izah edilir, şagirdlər yeni söz və ifadələri cümlələrdə işlədirlər (cütlərlə iş üsulundan istifadə oluna bilər).

Şeirin məzmununun mənimsənilməsi üzərində iş 1, 3, 9, 12, 13-cü çalışmalar vasitəsilə həyata keçirilir. Bu çalışmaları yerinə yetirərkən şagirdlər fikirlərini əsaslandırmaq üçün əlavə fakt və hadisələrə müraciət edir (2.1.3.), fikirlərini izah edərkən şeirin müvafiq hissələrinə istinad edirlər (2.1.4.). Şeirin məzmunu üzərində iş aparılarkən bir dərs əvvəl keçilmiş “Ucalmışıq” şeirinin məzmununu xatırlatmaq yerinə düşər. Şagirdlərin diqqətini hər iki şeirin məzmununa cəlb etməklə “Ölkəmin çiçəkləri” şeirinin əvvəlkinin sanki davamı olduğunu şagirdlərin müəyyən edə bilməsinə nail olmaq lazımdır. Şagirdləri bu istiqamətli tapşırıqlar üzərində işlətmək yaxşı nəticə verir, onların fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına, nitqin predmeti barədə müqayisəli fikir yürütmələrinə, səbəb və nəticə arasındakı əlaqələri müəyyənləşdirmələrinə imkan yaranır. Hər iki şeirin məzmununa diqqət yetirildikdə məlum olur ki, “Ucalmışıq” şeirində bugünkü nəsillərə Vətənimizin keçib gəldiyi tarixi yol, onun qorunub saxlanması üçün çəkilən əzablar barədə məlumat verilir, “Ölkəmin çiçəkləri” şeirində estafeti alanlara babalardan qalan bu yadigarı əziz bir əmanət kimi, göz bəbəyi kimi qoruyub saxlamaq tövsiyə olunur.

Müəllimin hazırladığı iş vərəqlərinin məzmunu da 2.1.4. alt-standartı üzrə bacarıqların inkişafına xidmət edir, eyni zamanda qruplarla iş şagirdləri fəallaşdırır.

**1-ci iş vərəqinin sualı:** “Uşaqlar Vətənimizin gələcəyidir” fikrini necə izah edərsiniz?

**2-ci iş vərəqinin sualı:** “Mən uşaq olsam da, ...” cümləsini davam etdirməklə mövzuya uyğun olaraq öz fikirlərinizi qısa şəkildə ifadə edin.

**3-cü iş vərəqinin sualı:** “Ölkəmizin çiçəklənməsi üçün biz məktəblilər nə etməliyik” mövzusunda fikirlərinizi qısaca yazın.

Ayrılmış vaxt başa çatdıqdan sonra qrupların təqdimatları lövhədən asılır. Cavablar dinlənilir. Nitq səhvləri düzəldilir. Fərqli cavablar qiymətləndirilir.

Şeirdən 2-ci çalışmada verilmiş hissənin yerini (şeirin nəticəsi kimi) müəyyənləşdirmək üçün şagirdlər onun giriş və əsas hissələri ilə də bağlı fikir yürütməli olurlar ki, bu da seçilmiş alt-standartın ( 3.1.3) reallaşdırılmasına şərait yaradır.

13-cü çalışmada qoyulmuş tapşırığı yerinə yetirməklə şagirdlərin diqqəti müstəqilliyimizin simvollarından biri olan Azərbaycan bayrağının əlamətlərinə cəlb edilir. Bu çalışma vasitəsilə bayrağa sevgi aşılanır, eyni zamanda, şagirdlərin şifahi nitqinin inkişafına şərait yaranır. 14-cü çalışmada qoyulan tapşırığın icrası (bu mövzuda inşa yazmaq) şagirdlərin yazılı rabitəli nitqinin formalaşmasına imkan verir, həm də növbəti dərsdə keçiləcək mövzuya zəmin rolu oynayır.

Dərslikdə verilmiş 4, 5, 6, 7, 8-ci çalışmalar şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə, 7, 11, 12-ci çalışmalar isə dilin qrammatik quruluşunun, o cümlədən əvəzliklərin mənimsənilməsinə yönəldilir. Nəzərə almaq lazımdır ki, bütün çalışmalar şerin sözlüyü və məzmunu əsasında tərtib edilmişdir. Odur ki, bu çalışmalardan hər birinin icrası məzmunun daha yaxşı qavranılmasına, şerin qrammatik quruluşu vasitəsilə dilin müəyyən qrammatik normalarının praktik yolla mənimsənilməsinə, şagirdlərin lüğət ehtiyatında olan sözlüyün mənasının müxtəlif vasitələrlə izahına imkan və şərait yaradır.

***Məlumat mübadiləsi:*** Mübadilə çalışma № 14-də verilənlərin izahı ilə keçirilə bilər. Şagirdlər Azərbaycan bayrağındakı rənglərin mənalarını izah edir, “Bir kərə yüksələn bayraq bir daha enməz” sözlərinin kimə aid olduğunu söyləyirlər. Vətənimizin gələcəyinin gənc nəslin nümayəndələrindən asılı olduğu fikrinə gəlirlər. Şagirdlər ölkəmizin çiçəkləri olan uşaqların təhsil almaları, layiqli şəxsiyyət kimi böyümələri üçün hal-hazırda dövlətimizin hər cür şərait yaratdığını söyləyirlər.

LAYİHƏ

***Nəticə:*** Şəhidlər qanı ilə suvarılmış Vətən torpağı bizə babalarımızdan qalan ən qiymətli yadigardır. Bu mirasın sahibləri – ölkəmizin çiçəkləri, əslində, onun gələcəyi olan uşaqlardır. Yerüstü, yeraltı sərvətlərimiz, milli-mənəvi dəyərlərimiz onlara məxsusdur. Uşaqlar da, öz növbəsində, zəhmətə qatlaşaraq, öz ağılları, bilikləri, bacarıqları ilə ölkəmizi daha da abadlaşdırmaq qayğısına elə uşaqlıqdan qalmalıdırlar. Çünki bütün elin ümid, güvənc yeri ölkəmizin çiçəkləri – uşaqlardır. Gələcək isə onlarındır.

***Yaradıcı tətbiqetmə:*** Bu mövzuda süjetli bir rəsm kompozisiyası işləmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeirin məzmununu öyrənmək və ya əzbərləmək .

## 14-cü dərs.
## § 13. Küçə fənərinin nağılı (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.-4.1.4.<br>A.t.-1.1.2. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, sual-cavab, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, "Azərbaycan nağılları" kitabı, bayraq, kompüter.

***Motivasiya:*** Müəllim sinfə "Azərbaycan nağılları" kitabını, bir fanar və bayraq gətirir və diqqəti cəlb edən bir yerdə yerləşdirir. Bayram günlərində şəhərin bayraqlarla bəzədilməsi əks olunan slaydları monitorda nümayiş etdirir və ya videoçarx işə salınır və bu mənzərələr göstərilir. Nümayiş dayandırılır və fanar göstərilərək sinfə suallarla müraciət olunur:

***Köməkçi sual:*** 1) Fanarın funksiyası nədən ibarətdir?

2) Bəs fanar nağıl danışa bilərmi?

3) Fanardan başqa daha nə işıq sala bilər?

4) Bəs bayrağın funksiyası nədən ibarətdir?

5) Bayraq küçələrə işıq sala bilərmi?

Fərziyyələr dinlənilir.

***Tədqiqat sualı:*** Əlinizdəki bayraqların həyatımızda nə kimi rolu vardır? Onlar insanların həyat yolunu işıqlandıra bilərmi?



LAYİHƏ

***Tədqiqatın aparılması:*** Tədqiqat “Küçə fənərinin nağılı” mətninin oxusu ilə davam etdirilir. Mətn oxutdurulur, məzmunun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. Çətin söz və ifadələrin tərcüməsi verilir və mənaları izah edilir. “Sözlük” və “Söz ehtiyatı”nda olan söz və ifadələr cütlərlə iş formasında cümlələrdə işlədilir.

Mətnin məzmununun hərtərəfli mənimsədilməsi üçün şagirdlər suallara cavab verir, 2-ci çalışmadakı sualların içərisindən mətnin məzmununa uyğun olmayanları seçib səsləndirir və fikirlərini əsaslandırırlar (1.1.1.). Müəllim şagirdlərin mətnin məzmunu üzrə bir-birinə sual verməlerini, özlərinin istədikləri sualları tərtib etmələrini də qruplarla iş formasında təşkil edə bilər.

Dərslikdəki 3-cü çalışmanın icrası şagirdlərə fikirlərini mətnin hissələrinə uyğun qruplaşdırmağa və onlarda müvafiq bacarığın inkişafına imkan verir (2.1.4.).

Mətnin məzmunu üzərində iş, suallardan istifadə və plan əsasında fikirlərini təqdim etmək isə, öz növbəsində, mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsinə (4.1.2.) şərait yaradır.

Dərslikdəki 8-ci çalışma mətndəki cəmdə olan isimlərin, 9, 13-cü çalışmalar və “Bunları bilirsinizmi?” rubrikası feillərin qrammatik mənasının mənimsədilməsi üçün (3.1.1.) nəzərdə tutulmuşdur .

7 və 11-ci çalışmalar isimlərin orfoqrafiyası ilə bağlı bacarıqların təkmilləşdirilməsinə yönəldilməlidir (4.1.3.).

5, 6, 9, 10, 12-ci çalışmalar və “Kəlmələrin dili”ni öyrənək!” rubrikası şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi və dəqiqləşdirilməsinə kömək məqsədilə tərtib edilmişdir. Müəllimlər həmin çalışmalar üzərində həm böyük və kiçik qruplarla, həm də cütlərlə iş apara bilərlər.

5-ci çalışma şagirdlərdə tərcümə bacarıqlarının formalaşdırılmasına kömək etməklə yanaşı, dilin qrammatik quruluşunun praktik tətbiqinə də şərait yaradır.

***Məlumat mübadiləsi:*** Mətndəki bayrağın “Heç bilirsən, körpə balaların dilindən bu sözləri eşidəndə nə qədər sevinirəm?!” cümləsi ətrafında fikir mübadiləsi aparılır. Bayrağımızın, xüsusən Müstəqillik Günündə dalğalanmasının qürurverici bir hal olması barədə fikirlər söylənilir. Azad Azərbaycanımızda Müstəqillik bayramının təntənə ilə qeyd olunması fikri təsdiqlənir.

***Nəticə:*** Bayrağımız dövlətçiliyimizin rəmzidir. Ona görə də Dövlət Bayrağı rəsmi dövlət idarələrinin üzərində dalğalanır. Müstəqil dövlətimizin atributlarından biri kimi bayrağımıza sevgi əlaməti olaraq Azərbaycanın paytaxtında xüsusi Dövlət Bayrağı Meydanı salınmışdır. Xarici ölkələrdən gələn yüksək səviyyəli rəsmi qonaqlar oranı mütləq ziyarət edirlər. Bir çox dövlət əhəmiyyətli tədbirlər Bayraq Meydanında keçirilir. Təkcə Bakı şəhərində deyil, respublikamızın bir çox rayonlarında artıq bayraq meydanı salınmaqdadır. Dövlət rəhbərimizin xarici ölkələrdə rəsmi qarşılanma mərasimlərində, qalib idmançılarımızın beynəlxalq yarışlarda qalibiyyəti şərəfinə bayrağımızın xarici ölkələrdə dalğalanması bizi bütün dünyaya tanıdır. Beləcə, bayrağımız insanların ömür yolunu işıqlandırır, bizi qələbələrə səsləyir.

***Yaradıcı tətbiqetmə:*** Əvvəllər Azərbaycanda istifadə olunan bayraqlar haqqında axtarış aparmaq və internetdən əlavə məlumat toplamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Dövlət Bayrağı Meydanı və Dövlət Bayrağı Günü barədə internetdən ətraflı məlumat toplayıb təqdimat hazırlamaq.

LAYİHƏ

## 15-ci dərs.
## § 14. Gerbim, himnim, bayrağım (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Danışarkən sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | R.d.- 1.2.1.<br>A.t.-1.1.1.<br>T.i.-2.1.1.<br>Coğ.3.2.1. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 4. | Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 5. | Mövzuya uyğun esse yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, müzakirə, təqdimat, BİBÖ.

***Resurslar:*** Dərslik, kiçik ölçüdə bayraqlar, iş vərəqləri, dəftər, proyektor.

***Motivasiya:*** Müəllim sinfə bir neçə ölkənin kiçik ölçülü bayrağını gətirir və stolun üzərinə düzür. Sinifdəki uşaqlara kiçik bayraqlar paylayır. Elektron lövhədə “Çırpınırdı Qara dəniz” mahnısının melodiyası altında Azərbaycan Respublikasının Dövlət Bayrağı canlandırılır. Sonra melodiya dayandırılır və şagirdlər bayrağın dalğalanmasını seyr edərək müəllimin təklifi ilə Azərbaycan Respublikasının Dövlət Himnini oxuyurlar. Şagirdlər suallara cavab verərkən digər ölkələrin bayraq və gerbləri də nümayiş etdirilir.

***Köməkçi sual:***

1) Azərbaycan dövlətinin rəmzləri hansılardır?
2) Nə üçün biz bayrağımızı həmişə başımızdan yuxarıda tuturuq?
3) Bu bayraq və gerblərdən hansılar sizə tanışdır?

Cavablar dinlənilir. Şagirdlər bayraqların asıldığı məkanları sadalayırlar. Müəllim köməkçi suallarla çalışmalıdır ki, şagirdlər bayraqların rəsmi yerlərdə, dövlət əhəmiyyətli idarə və müəssisələrdə asıldığına diqqət yetirsinlər.

***Tədqiqat sualı:*** Azərbaycan dövlətinin rəmzlərinin hansı konstitusiya maddəsi ilə təsbit olunduğunu bilirsinizmi? Necə bilirsiniz, Dövlət bayrağını istənilən yerdən asmaq olarmı?

***Tədqiqatın aparılması :*** Müəllim səs assosiasiyasından istifadə edərək şagirdlərə suallar verir:

1. Azərbaycan bayrağının rəngləri barədə nə bilirsiniz?
2. Mavi rəng nəyin simvoludur?
3. Qırmızı rəng nəyin simvoludur?
4. Yaşıl rəng nəyin rəmzidir?
5. Ən çox hansı bayramlarda küçələrə bayraq sancılır?
6. İlk dəfə üçrəngli bayraq nə vaxt qəbul edilib?
7. “Bir kərə yüksələn bayraq bir daha enməz” sözləri kimə məxsusdur?
8. Müstəqillikdən əvvəlki Azərbaycan bayrağı haqqında nə bilirsiniz?
9. Bayrağımızın üzərindəki səkkizguşəli ulduz nəyə işarə edir?
10. Bayrağımızın üzərindəki aypara işarəsi nəyin rəmzidir?

Şagirdlər cavab verən zaman onların nitqində sözlərin düzgün vurğu ilə tələffüzü izlənir (2.1.1.).

LAYİHƏ

Tədqiqat şeirin oxusu ilə davam etdirilir. Şeirin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. “Sözlük” və “Söz ehtiyatı”nda olan söz və ifadələrin mənaları izah edilir, cütlərlə iş formasında cümlələrdə işlədilir.

Oxu zamanı sözlərin düzgün vurğu ilə tələffüzünün formalaşdırılması (3.1.2.) şeirin oxusu ilə həyata keçirilir. Oxu prosesində sözlərin düzgün vurğu ilə tələffüzünə, ritm və tempə əməl edilməsinə (2.1.2.) xüsusi diqqət yetirilir, müşahidə olunan nöqsanların düzəldilməsi üzərində iş aparılır. Sonra müəllimin köməyi ilə şagirdlər şeiri nəsrə çevirib danışırlar. Şagirdlərin şifahi nitqində vurğudan, həmçinin ritm və tempdən yerində və düzgün istifadə üzərində müşahidə aparılır, yol verilən nöqsanlar aradan qaldırılır( 2.1.1. , 2.1.2.).

Müəllim şagirdləri qruplara bölür. Onlara iş vərəqləri paylayır (2.1.3.).

**1-ci iş vərəqinin məzmunu:** Azərbaycan Respublikasının Dövlət Himni haqqında bildiklərinizi yazın.

**2-ci iş vərəqinin məzmunu:** Azərbaycan Respublikasının Dövlət Gerbi haqqında bildiklərinizi yazın.

**3-cü iş vərəqinin məzmunu:** Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında bildiklərinizi yazın.

**4-cü iş vərəqinin məzmunu:** Azərbaycan Respublikasının ərazisi və dövlət sərhədləri haqqında bildiklərinizi yazın.

**5-ci iş vərəqinin məzmunu:** Dövlət Bayrağı Meydanı və Dövlət Bayrağı günü haqqında bildiklərinizi yazın.

Təqdimata hazırlaşmaq üçün şagirdlərə vaxt verilir. Hazırlıq zamanı müəllim şagirdləri istiqamətləndirir. Verilmiş vaxt bitdikdə təqdimatlar oxunur və qiymətləndirilir.

Şeirin məzmununu daha yaxşı mənimsətmək, şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına şərait yaratmaq məqsədilə dərslikdəki 1-6 və 10-12-ci çalışmalar üzərində iş aparılır.

7, 8-ci çalışmalar şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək, 9-cu çalışma isə feilin qrammatik mənasının mənimsənilməsini həyata keçirmək üçün hazırlanmışdır.

***Məlumat mübadiləsi:*** Şagirdlər oxuduqları şerin məzmunu və yerinə yetirilmiş çalışmalar əsasında gerbimiz, himnimiz, bayrağımız, onlara verilən dəyər haqqında fikir yürüdür, “Aləmə salıbdı səs
Gerbim, himnim, bayrağım!” misralarını müzakirə edir, mülahizələrini söyləyirlər.

***Nəticə:*** Tədqiqat və müzakirələr nəticəsində şagirdlər belə nəticəyə gəlirlər ki, dövlətimizi tanıdan, ilk növbədə, onun rəmzləridir. Hər bir uğurumuzda, nailiyyətimizdə başımızın üzərində üçrəngli bayrağımız dalğalanır, dövlət himnimiz səsləndikdə qəlbimiz qürur və vətənpərvərlik hissləri ilə döyünür. Şagirdlər öyrənirlər ki:

• Azərbaycan dövlətinin rəmzləri Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsi ilə müəyyənləşdirilmişdir.

• Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi, Azərbaycan Respublikasının Dövlət HimniAzərbaycan Respublikasının müstəqillik rəmzidir;

• Gerbimizin Şərq qalxanı üzərində təsvir edilməsi Azərbaycanın Şərq dövləti olduğunu, Şərq sivilizasiyasına mənsubluğunu təsdiq edir. Qalxanın ortasında yerləşən səkkizguşəli ulduz isə Günəşin simvoludur. Günəş simvolunun ağ rəngdə verilməsi əmin-amanlıq, sülhsevərlik, barış mənalarını verir. Günəşin mərkəzindəki alov təsviri “Odlar yurdu”nu, Azərbaycanı simvolizə edir.

• 2007-ci il noyabrın 17-də AR Prezidenti İ.Əliyev Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalamışdır. Dövlət Bayrağı Günü 2010-cu ildən etibarən hər il noyabrın 9-u təntənə ilə qeyd olunur.

LAYİHƏ

Konstitusiyamızın 75-ci maddəsini oxuyarkən şagirdlər öyrənirlər ki, Azərbaycan Respublikasının dövlət rəmzlərinə -- bayrağına, gerbinə və himninə hörmət etmək hər bir vətəndaşın borcudur.

***Yaradıcı tətbiqetmə:*** Müstəqillikdən əvvəlki Azərbaycan bayrağının rəsmini tapın və indiki bayrağımızı onunla müqayisə edin.

Təlim nəticələri yüksək olan şagirdlərə "Anam Azərbaycandı!
Gerbim, himnim, bayrağım!" başlıqlı esse yazmaq tapşırıla bilər.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı***: Şeiri əzbərləmək. 10, 12-ci çalışmalardan biri üzrə təqdimat hazırlamaq.

**QEYD.** Tədqiqat sualı ətrafında şagirdlər işləyərkən ("Necə bilirsiniz, Dövlət bayrağını istənilən yerdən asmaq olarmı? " ) şagirdlərin səhv etməməsi üçün müəllim diqqətli olmalıdır. Bu məqsədlə "Azərbaycan Respublikası Dövlət Bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı QAYDALARI"ından bəzi maddələri aşağıda veririk:

Azərbaycan Respublikası Dövlət Bayrağının qaldırılması (asılması), endirilməsi, saxlanılması və istehsalı

## QAYDALARI

3. Azərbaycan Respublikasının Dövlət Bayrağı dövlət hakimiyyət orqanları tərəfindən keçirilən rəsmi tədbirlər və mərasimlər zamanı da qaldırılır (asılır).

4. Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının binaları üzərində, habelə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqlarının başçılarının iqamətgahları üzərində qaldırılır:

a) Azərbaycan Respublikasının bayram və matəm günlərində;

5. Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq Azərbaycan Respublikasının gəmi reyestrlərindən birində qeydiyyata alınmış gəmilərin üzərində aşağıdakı qaydada qaldırılır:

a) gəminin hərəkət etdiyi və dayanacaqlarda durduğu zaman Azərbaycan Respublikasının Dövlət bayrağı hər gün saat 8-də qaldırılır və gün batdıqda endirilir;

6. Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində aşağıdakı hallarda qaldırılır:

a) Azərbaycan Respublikasının bayram və matəm günlərində;

b) hərbi andiçmə mərasimi zamanı;

c) hərbi hissələrə dövlət mükafatları təqdim edilən zaman;

ç) hərbi hissələr (bölmələr) xarici dövlətin ərazisində olduğu müddətdə;

Azərbaycan Respublikasının Dövlət Bayrağı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi hissələrində onların qərargahlarının binalarında qaldırılır.

8. Azərbaycan Respublikasının Dövlət Bayrağı yerli özünüidarə orqanlarının, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, müəssisələrin və idarələrin binaları üzərində və ya bu mümkün olmadıqda, binanın fasadında əsas giriş qapısının üstündə, habelə yaşayış evləri üzərində təşkilatların rəhbərlərinin icazəsi ilə və ya hüquqi və fiziki şəxslərin arzusu ilə bayram və matəm günlərində və ya hər gün qaldırıla (asıla) bilər.

10. Dərs ilinin birinci günü təhsil müəssisələrində Azərbaycan Respublikasının Dövlət Bayrağı müəssisənin yerləşdiyi binanın fasadında əsas giriş qapısının üstündə dərslər

LAYİHƏ

başlamamışdan qaldırılır (asılır), qurtardıqdan sonra endirilir.

11. Azərbaycan Respublikasının bayram günlərində, qanunvericiliklə nəzərdə tutulmuş və ya Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan olunmuş matəm günlərində Azərbaycan Respublikasının Dövlət Bayrağı şəhər və qəsəbələrin mərkəzi küçələrində işıq dirəyindən və meydanlarda asılır. Bu günlərdə Dövlət bayrağının asılması yerli icra hakimiyyəti orqanları tərəfindən təşkil edilir.

**QEYD.** İnternet imkanları olmayanlar üçün əlavə materiallar:

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ÇIXIŞINDAN

... Dövlət Bayrağı Meydanının açılışı həqiqətən tarixi və unudulmaz bir hadisədir. Bu meydan özlüyündə gözəl bir memarlıq abidəsidir. Meydanın üst hissəsinin sahəsi 3 hektara bərabərdir. Bütövlükdə ərazi isə 60 hektardır. Burada Azərbaycanın dövlət rəmzləri – gerbi, himninin mətni, xəritəsi təsvir edilibdir. Dövlət Bayrağı Muzeyi də fəaliyyət göstərəcəkdir. Meydanın ortasında isə Azərbaycanın dövlət bayrağı ucalacaqdır. Bu bayraq dünyada ən böyük və ən uca bayraqdır. Bayrağın hündürlüyü 162 metrdir və bu bayraq şəhərimizin hər bir yerindən görsənəcəkdir. Məhz bu məqsədlə bu yer seçilmişdir. Bu yer, bu ərazi abadlaşdı. Gələcəkdə burada böyük parklar, dənizkənarı bulvar salınacaq, istirahət üçün gözəl şərait yaradılacaqdır. Artıq bu işlər başlanmışdır. Gələcəkdə burada salınacaq bulvar Bakı bulvarı ilə birləşəcəkdir.

... Meydanın yaradılması haqqında sərəncam mənim tərəfimdən 2007-ci il noyabrın 17-də imzalanmışdır. Ondan dərhal sonra bütün işlər başlanmışdır. O gündən iki il sonra, 2009-cu il noyabrın 17-də Azərbaycan Dövlət Bayrağı Günü təsis edilmişdir.

... İnşa olunmuş dayağın hündürlüyü 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə təqribən 350 kiloqramdır. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir.

Dövlət Bayrağı Meydanının açılışı






LAYİHƏ

## 16-cı dərs.
## Özünüzü yoxlayın! (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | |
| 2. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | |
| 3. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir.<br>Nitqində ritm və tempdən istifadə edir.<br>Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.1.<br>2.1.2.<br>2.1.3. | |
| 4. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.<br>Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** Deduktiv.

***Dərsin forması:*** Böyük qrupla iş, fərdi iş.

***Dərsin üsulu:*** Beyin həmləsi.

***Resurslar:*** Dərslik, proyektor, elektron lövhə.

***Motivasiya:*** Müəllim elektron lövhədə keçilmiş mətnlərin və şeirlərin əksi olan slaydları işıqlandırır. Növbə ilə slaydlardan birini lövhədə saxlayıb hansı mətnə aid olduğunu soruşur.

Şagirdlərin cavabları dinlənilir. Nitq səhvləri qeyd edilir.

***Tədqiqat sualı:*** Gördüyünüz bu slaydlardakı mətnləri xatırılayırsınızmı? Bu mövzularla tanışlıq sizdə hansı bacarıqları formalaşdırdığını müəyyənləşdirə bilərsinizmi?

***Tədqiqatın aparılması:*** Müəllim "Özünüzü yoxlayın" bölməsindəki tapşırıqlardan seçib şagirdlərə təqdim edir, tapşırıqların yerinə yetirilməsi üçün müəyyən vaxt təyin edir. Tapşırıqların sayı kifayət qədər olduğu üçün sinifdə şagirdlərin sayından asılı olaraq hər şagirdə tapşırıqlar verilir. Tapşırıqlar aşağıda qeyd olunan bacarıqları müəyyənləşdirməyə imkan verir:

Öyrənilən mətndəki əsas fakt və hadisələri seçmək, fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmaq, mətndəki əsas fikri müəyyənləşdirmək üçün çalışma № 2, 3, 8, 13, 18, 19, 20, 21, 22, 24, 25, 36;

- Şagirdlərin sözləri vurğu və orfoepik cəhətdən düzgün tələffüz bacarıqlarını müəyyənləşdirmək üçün 6, 7, 12, 27;
- Əsas nitq hissələrinin qrammatik mənalarını izah etmək № 1, 5, 10, 12, 27, 28, 29, 30, 31, 35;
- Əsas nitq hissələri ilə bağlı düzgün yazılış və durğu işarələrindən istifadə bacarıqlarının müəyyənləşdirilməsi üçün çalışma №1, 5, 10, 11, 36, 12; 37;
- Şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək məqsədilə çalışma № 4, 9, 10, 14, 15, 16, 26;
- Cümlə qurmaq və tərcümə bacarıqlarının səviyyəsinin müəyyənləşdirilməsi üzrə

LAYİHƏ

çalışma № 8, 10, 14, 15,26, 32.

● Tərcümə bacarıqlarının səviyyəsinin müəyyənləşdirilməsi üzrə çalışma № 17, 23, 34.

Bəzi çalışmaların təqdimatında bütün sinif şagirdləri iştirak edirlər, hər kəs verilən cavablar əsasında öz mülahizələrini bildirib əlavələr edə bilərlər. Müəllim bütün cavabları istiqamətləndirir, tələffüz zamanı yol verilən səhvlər diqqətə çatdırılır. Cavablar qiymətləndirilir.

Müəllim çalışmalıdır ki, bir dərs saatı müddətində sinifdə olan bütün şagirdlərin fəaliyyəti təmin edilsin. Bu dərs saatı təkrar məqsədi daşıdığı üçün müəllim dili praktik cəhətdən zəif bilən şagirdlərin səviyyəsinə uyğun əlavə tapşırıqlar da tərtib edib verə bilər.

***Nəticə:*** Şagirdlər öyrəndikləri mətnləri mənimsədiklərini nümayiş etdirirlər. Keçilmiş mövzulara, yeni söz və ifadələrə, qrammatik materiallara aid öz mülahizələrini sərbəst şəkildə ifadə etməyi bacarırlar. Öyrəndikləri sözləri cümlələrdə işlədir, nitqlərində sinonimlərdən, antonimlərdən, sadə, düzəltmə və mürəkkəb sözlərdən istifadə edirlər. Qrammatik materialların mənimsədilməsi üzrə aparılan işlərin nəticəsində sərbəst cümlə qurmağı, cümlələrdə sözləri düzgün əlaqələndirməyi bacarırlar.

Təkrar nəticəsində şagirdlərin rabitəli nitqlərinin inkişafında müəyyən irəliləyiş müşahidə olunur.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

## 17-ci dərs.
## § 15. Bakı Opera Teatrının tarixi (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d. -2.2.1.<br>A.t.-1.2.2.<br>Mus.1.1.1. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.3. | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Əqli hücum, müzakirə, təqdimat.

***Resurslar:*** Dərslik, iş vərəqləri, proyektor.

***Motivasiya:*** Ü.Hacıbəyovun "Koroğlu" operasının sədaları altında Bakı şəhərindəki Opera Teatrının binasının görüntüləri elektron lövhədə canlandırılır (google.az. operateatrı, youtube).

Opera teatrında gedən hər hansı bir operadan ("Koroğlu", "Leyli və Məcnun" və s.) bir hissə göstərilir.

LAYİHƏ

***Köməkçi sual:*** Deyə bilərsinizmi, baxdığınız bu opera hansı konsert salonunda keçirilir?

Fərziyyələr dinlənilir.

***Tədqiqat sualı:*** Bakı Opera Teatrı binasının tarixi ilə bağlı hər hansı bir məlumatınız varmı? Bu bina necə tikilib və onu kim tikdirib?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Bakı Opera Teatrının tarixi" mətninin oxusu ilə başlanır. Mətn oxutdurulur, məzmunun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. Çətin söz və ifadələrin tərcüməsi verilir və mənaları izah edilir. "Sözlük" və "Söz ehtiyatı"nda olan söz və ifadələr cütlərlə iş formasında cümlələrdə işlədilir.

Şagirdlərin dinlədiyi fikirləri dəqiqləşdirmələrinə imkan yaratmaq üçün onlar 1-ci çalışmada qoyulan suallara cavab verir, bəzi sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırırlar ( 1.1.1.). Bu çalışmanın icrası şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına şərait yaradır (2.1.4.). Belə ki, hər bir suala cavab vermək üçün şagirdlər fikirlərini məhz qoyulan sual ətrafında cəmləşdirirlər. Təbiidir ki, suallar mətnin müəyyən hissələri üzrə qoyulduğundan düzgün cavab da həmin hissəyə müvafiq olur. Müvafiq bacarıqların formalaşdırılması üçün müəllim şagirdləri qruplar formasında da işlədə bilər. Şagirdlər qruplara bölündükdən sonra onlara belə bir tapşırıq verir:

1-ci çalışmadakı sualları mətnin tərkib hissələrinə müvafiq qruplaşdırın və fikrinizi əsaslandırın.

Verilmiş vaxt başa çatdıqdan sonra təqdimatlar dinlənilir və müzakirə olunur.

Yerinə yetirilmiş bu iş isə, öz növbəsində, mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi ilə nəticələnir (3.1.3.). Müəllim bu bacarığın formalaşdırılmasını həyata keçirmək üçün qruplara mətnin ayrı-ayrı hissələrini müəyyənləşdirmək tapşırığı da verə bilər. Qruplardan biri mətnin giriş , digəri əsas, 3-cü qrup isə nəticə hissəsi üzrə təqdimat hazırlaya bilər.

Mətndəki əsas nitq hissələrinin qrammatik mənalarının müəyyənləşdirilməsi 2, 3, 8, 9-cu çalışmaların yerinə yetirilməsi və "Bunları bilirsinizmi?" rubrikası vasitəsi ilə reallaşdırılır. 3-cü çalışma sayların məna növlərinin, digər çalışmalar isə feillərin zamanlarının mənimsənilməsini təmin edir.

5-ci çalışma xüsusi isimlərin, 7-ci çalışma indiki zamanda 3-cü şəxsin cəmində işlənən feillərin orfoqrafiyası ilə bağlı bacarıqların təkmilləşdirilməsinə yönəldilir (4.1.3.). 11-ci çalışma da, öz növbəsində, nitq hissələrinin yazılışı ilə bağlı bacarıqların tətbiqi ilə paralel yerinə yetirilir.

Müəllim aşağıdakı iş vərəqləri əsasında da qruplarla iş təşkil edə bilər.

**1-ci iş vərəqinin məzmunu:** - Bakıdakı hansı teatr binalarını tanıyırsınız? Tanıdığınız teatr binalarının görünüşünü təsvir edən bir neçə cümlə yazın.

**2-ci iş vərəqinin məzmunu:** - Opera Teatrında olmusunuzmu? Əgər olmusunuzsa, onu xaricdən və daxildən təsvir edən bir neçə cümlə yazın (Əgər uşaqlardan heç birinin Opera Teatrı barədə məlumatı yoxdursa, tanıdıqları bir teatr binası (klub) haqqında yaza bilərlər).

**3-cü iş vərəqinin məzmunu:** - Hansı azərbaycanlı opera müəlliflərinin adlarını bilirsiniz? Siz artıq bir neçə opera bəstəkarı haqqında müəyyən məlumata maliksiniz. Bir neçə operanın adını yaza bilərsiniz. Özünüzü yoxlayın və yazın.

**4-cü iş vərəqinin məzmunu:** Operalardan biri haqqında bir neçə cümlə yazın (Onun adı, qəhrəmanları, bəstəkarı və s.).

Təqdimatlar dinlənilir. Müəllim şagirdlərin nitqindəki səhvləri düzəldir.

"Kəlmələrin dilini öyrənək!" rubrikasındakı sözlərin mənaları ilə tanışlıq və 4, 6, 11, 12-ci çalışmaların tapşırıqları şagirdlərin lüğətinin zənginləşdirilməsini nəzərdə tutur. 12-ci çalışmanı yerinə yetirməklə şagirdlər həm konstitusiya maddəsi ilə tanış olur, dünyagörüşləri genişlənir, həm də sözlük üzərində işləməklə söz ehtiyatları zənginləşir. 10-cu çalışma dilin



LAYİHƏ

qrammatik quruluşunun praktik yolla mənimsənilməsinə, tərcümə bacarıqlarının inkişafına xidmət edir.

“Yadda saxlayın” rubrikasındakı indiki zaman şəkilçilərindən sonra (-lar)2 şəkilçisinin tələffüz fərqləri şagirdlərə əyani surətdə izah edilir. Şagirdlərə lövhədə müxtəlif nümunələr yazdırılır. Tələffüzün öyrədilməsi onun orfoqrafiyasının daha şüurlu mənimsənilməsini təmin edir.

***Məlumat mübadiləsi:*** Şagirdlər Bakı şəhərinin gözəl memarlıq nümunəsi sayılan Opera Teatrı binasının tarixi barədə oxuduqları mətndən aldıqları məlumatları müzakirə edir, əvvəlcədən bildikləri, yeni öyrəndikləri barədə fikir mübadiləsi aparırlar.

***Nəticə:*** Şagirdlər öyrənirlər ki, Bakı Opera Teatrı 1910-cu ildə Bakı milyonçusu Mayılov tərəfindən xanəndə xanımın şərəfinə səkkiz aya tikdirilib. Bu binanın paytaxt şəhərimizin arxitekturasında öz yeri vardır. Bina maraqlı bir təsadüf nəticəsində tikilsə də, indi şəhərimizi bəzəyən ən gözəl sənət əsərlərindən hesab oluna bilər.

***Yaradıcı tətbiqetmə:*** İnternetdən istifadə etməklə Bakı şəhərindəki konsert və teatr binalarının şəklindən ibarət “sərgi” – slayd şou hazırlamaq.

Yaxud da Bakı şəhərindəki və ya respublikamızın istənilən bölgəsindəki hər hansı bir tarixi bina haqqında məlumatdan ibarət təqdimat hazırlamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətni tərkib hissələrinə (giriş, əsas hissə, nəticə) ayırıb danışmağı öyrənmək.

## 18-ci dərs.
## § 16. Şərqdə ilk opera yazan qadın bəstəkar (1saat)

<table>
<tr><th>№</th><th>Təlim nəticələri</th><th>Məzmun standartı</th><th>Fənlərarası inteqrasiya</th></tr>
<tr><td>1.</td><td>Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir.</td><td>1.1.1.</td><td rowspan="4">R.d. -4.1.2.<br>Mus.1.1.1.<br>A.t.-4.1.1.</td></tr>
<tr><td>2.</td><td>Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır.</td><td>2.1.3.</td></tr>
<tr><td>3.</td><td>Mətndəki sayları və feilləri qrammatik mənasına görə izah edir.</td><td>3.1.1.</td></tr>
<tr><td>4.</td><td>Sayların düzgün yazılış qaydalarına və xüsusi isimlərdə, o cümlədən cümlələrdə durğu işarələrindən düzgün istifadəyə əməl edir.</td><td>4.1.3.</td></tr>
</table>

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, suallar.

***Resurslar:*** Dərslik, dəftər, proyektor, elektron lövhə.

***Motivasiya:*** Elektron lövhədə Ş.Axundovanın görüntüləri olan kadrlar canlandırılır. Ş.Axundova piano arxasına keçəndə müəllim köməkçi sual verir.

LAYİHƏ

***Köməkçi sual:*** 1) Sizcə, bu qadın hansı peşənin sahibidir? 2) Onun kim olduğunu deyə bilərsinizmi?

Şagirdlərin fərziyyələri dinlənilir.

***Tədqiqat sualı:*** Bu bəstəkar qadın haqqında nə bilirsiniz?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki mətnin oxusu üzərində işlə başlanır. Müəllim tədqiqat sualına cavab tapmaq üçün mətni şagirdlərə oxutdurur. Onların sözləri orfoepik və vurğu cəhətdən düzgün oxumalarına diqqət yetirilir. "Sözlük" və " Söz ehtiyatı"ndakı sözlərin mənaları izah edilir, cümlələrdə işlədilir.

Sonra sinif 3 qrupa bölünür. Mətni mənimsətmək, seçilmiş alt-standartların bütün sinif tərəfindən mənimsədilməsinə şərait yaratmaq məqsədilə qruplarla iş aparmaq yaxşı nəticə verir. Qrupların hamısı eyni tapşırıqları (çalışma 1, 7, 9) yerinə yetirirlər ki, bu da 1.1.1., 3.1.1., 4.1.3. alt-standartları üzrə bacarıqların formalaşdırılmasını səmərəli təşkil etməyə şərait yaradır.

Vaxt bitdikdən sonra təqdimatlar müzakirə edilir və qiymətləndirmə aparılır. Bu tapşırıqların qruplarla icrası vaxtdan səmərəli istifadəyə imkan verməklə yanaşı, şagirdləri əməkdaşlıq şəraitində işləməyə də alışdırır.

Seçilmiş 2.1.3 alt-standartı həm mətnin oxusu üzərində iş aparmaq, həm də 1-ci və 5, 6-cı çalışmaların icrası ilə reallaşdırılır.

Bundan əlavə, dərslikdəki 4, 5, 11-ci çalışmalar 1.1.1.; 2, 10, 12, 13-cü çalışmalar 3.1.1.; 8-ci çalışma 4.1.3. alt-standartının bilavasitə həyata keçirilməsini təmin etmək baxımından əhəmiyyətlidir. Bu çalışmalar yalnız seçilmiş alt-standartlar üzrə bacarıqların formalaşdırılmasına xidmət etmir. Onlar, eyni zamanda, şagirdlərdə məntiqi və tənqidi təfəkkürün formalaşmasına, folklor nümunələrimizlə tanışlığa (çalışma 12, 13 – tapmaca, layla), şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə, onlarda tərcümə bacarıqlarının yaradılmasına ( 11), şagirdlərin məlumat səviyyəsinin yüksəldilməsinə və dünyagörüşlərinin genişlənməsinə, fənlərarası inteqrasiya yaradılmasına da şərait yaradır.

***Məlumat mübadiləsi:*** Şagirdlər Ş.Axundovanın azərbaycanlı ilk opera yazan qadın bəstəkar olduğunu öyrənirlər. Tarixi Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası ilə başlayan Azərbaycan opera sənəti haqqında fikir yürüdürlər. Şagirdlər musiqi ilə məşğul olan, musiqi məktəbinə gedən şagirdlərin söylədikləri əlavə faktlar ətrafında fikir mübadiləsi edir, Azərbaycan operaları barədə bildiklərini müzakirə edirlər.

***Nəticə:*** Tədqiqat sonunda belə bir nəticəyə gəlinir ki, Şərqdə ilk operanın müəllifi azərbaycanlı bəstəkar Ü.Hacıbəyovdur. Şərqin ilk opera yazan qadın bəstəkarı Ü.Hacıbəyovun tələbəsi Şəfiqə Axundovadır. Deməli, Azərbaycan bütün Şərqin ilk operalarının beşiyi hesab edilə bilər. Ş.Axundova isə yalnız opera müəllifi olaraq qalmadı, biz onu musiqinin bir çox sahələrində özünəməxsus yer tutan sənət əsərlərinin müəllifi kimi də tanıyırıq. O həm də uşaqlar üçün bir sıra mahnıların müəllifi kimi uşaqlar tərəfindən sevilir. İlk opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, 500-dən artıq mahnının müəllifi olan bəstəkar xanım 1998-ci ildə Azərbaycan Respublikasının xalq artisti adına layiq görülmüş, 2004-cü ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

***Yaradıcı tətbiqetmə:*** Mətnin planını tərtib etmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. Şəfiqə Axundovanın bəstələdiyi mahnılardan birini öyrənmək və ifa etmək.

LAYİHƏ

## 19-cu dərs.
## § 17. Qarışqanın sərgüzəşti (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d.-3.1.3.<br>Biol.-4.1.1. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir.<br>Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.2.<br>2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, təqdimat.
***Resurslar:*** Dərslik, iş vərəqləri, cizgi filminin diski, proyektor.
***Motivasiya:*** Ekranda "Tıq-tıq xanım" cizgi filmindən bir hissə nümayiş etdirilir.
***Köməkçi sual:*** Tıq-tıq xanımın səyahətə çıxmaqda məqsədi nə idi?

Fərziyyələr dinlənilir. Şagirdlər Tıq-tıq xanımın dost axtarmaq üçün səyahətə çıxdığı fikrinə gəlirlər.

***Tədqiqat sualı:*** "Dostluq üç almadır: gah ikisi səndə, biri məndə, gah ikisi məndə biri səndə" – atalar sözünün mənasını necə başa düşmək lazımdır? Sizcə, yaxşı dost olmaq üçün insanda hansı xüsusiyyətlər olmalıdır?

***Tədqiqatın aparılması:*** Tədqiqat sualı üzərində işə "Qarışqanın sərgüzəşti" mətninin oxusu ilə başlanır. Çətin sözlərin mənası izah edilir. Lüğət üzrə iş aparılır: sözlər və ifadələr ayrı-ayrı cümlələrdə işlədilir. Mətnin oxusu prosesində şagirdlərin nitqində ritm və tempdən düzgün istifadəyə diqqət yetirilir, nöqsanların aradan qaldırılması üzərində əməli iş aparılır (2.1.2.) . Oxu prosesində paralel olaraq məzmun üzərində aparılan iş mətndəki əsas fakt və hadisələrin müəyyənləşdirilməsinə imkan yaradır (1.1.2.).

1-ci çalışma əsasında aparılan cütlərlə iş (parta yoldaşları birlikdə mətnin məzmununa əsasən ən azı beş sual tərtib edirlər) də mətnin məzmununun mənimsənilməsinə, fakt və hadisələrin seçilməsi üzrə bacarıqların formalaşdırılmasına (1.1.2.) istiqamətləndirilir.

Suallar oxutdurulur. Müəllim sualların düzgünlüyünə diqqət yetirir. Qiymətləndirmə aparılır.

Mətnin məzmununu daha yaxşı mənimsətmək məqsədilə dərslikdəki 2-ci çalışmada verilmiş plan nəzərdən keçirilir: verilən fikirlərin düzgün ardıcıllığı müəyyənləşdirilir, fikirlərini mətnin tərkib hissələrinə uyğun qruplaşdırılır ( 2.1.4.).

3-cü çalışmada qoyulmuş tapşırıqların yerinə yetirilməsi (atalar sözləri üzrə iş) şagirdlərin nitqinə hazır ifadələr verməklə yanaşı, mətnin məzmununun qavranılmasına da kömək edir. Bu istiqamət qruplarla iş formasında davam etdirilə bilər. Müəllim şagirdləri 4 qrupa ayırır. Hər qrupa iş vərəqi paylayır.

LAYİHƏ

**1-ci iş vərəqinin tapşırığı:** "Dost dostu dar gündə sınayar", – atalar sözünün mənasını necə izah edərsiniz?

**2-ci iş vərəqinin tapşırığı:** "Zəhmətsiz bal yeməzlər", – atalar sözünün mənasını necə izah edərsiniz?

**3-cü iş vərəqinin tapşırığı:** Verilmiş aforizmdə ifadə olunan fikrə öz münasibətinizi bildirin.

Çətinlik görməsə, dünyada heç kəs,
Xoş keçən günlərin qədrini bilməz. (Sədi Şirazi)

**4-cü iş vərəqinin tapşırığı:** Verilmiş aforizmdə ifadə olunan fikrə öz münasibətinizi bildirin.

Çox gözəl olsa da, eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək. (Nizami Gəncəvi)

Qruplara verilən vaxt tamam olanda təqdimatlar dinlənilir. Cavablar qiymətləndirilir.

Mətndəki feillərin qrammatik mənasının mənimsədilməsi üzərində iş 6, 10-cu çalışmalar və "Bunları bilirsinizmi?" rubrikası (burada şagirdlər hərəkətin hansı şəxs tərəfindən yerinə yetirildiyini bildirmək üçün feillərə şəxs şəkilçilərinin artırılması barədə məlumat alırlar) vasitəsilə həyata keçirilir.

Mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi bacarığının inkişafını təmin etmək məqsədilə əvvəlki dərslərdəki kimi, qruplarla şagirdləri işlətmək yaxşı nəticə verir. Hər bir qrupa mətnin bir və ya iki mərhələsi üzrə tapşırıq vermək olar.

4, 5, 6, 8, 9-cu çalışmalar şagirdlərin lüğətinin genişləndirilməsi və dəqiqləşdirilməsini, 7-ci çalışma dilin qrammatik normalarının praktik yolla mənimsənilməsini nəzərdə tutur və lazımi material verir.

***Məlumat mübadiləsi:*** Mətnin məzmunu ilə tanışlıqdan sonra şagirdlər "Hikmət xəzinəsindən" rubrikasında verilmiş:

"Çətinlik görməsə, dünyada heç kəs,
Xoş keçən günlərin qədrini bilməz" (S. Şirazi), – aforizmi ətrafında fikir mübadiləsi edir, müzakirə aparırlar. Həmin aforizmin mətnin məzmunu ilə bağlılığını müəyyənləşdirməyə çalışırlar.

***Nəticə:*** Mətnin məzmunu və yerinə yetirilmiş çalışmalar üzərində işlə şagirdlər öyrənirlər ki, həyatda nə yaxşı şey varsa, əmək, zəhmət sayəsində başa gəlir: "Zəhmət çək, bəhrəsini görərsən". Özünə rahat, xoş gün, xoşbəxt həyat qurmaq istəyirsənsə, başqalarının əməyindən sui-istifadə etməməlisən. Tüfeyli həyat sürüb başqalarının rahatlığını pozmamalısan. Əks halda hər hansı bir formada bunun cavabını bir gün alacaqsan. Bir gün sənə dost olan insanlar bezib səndən üz döndərəcəklər.

***Yaradıcı tətbiqetmə:*** Mətnin məzmununu əsasında kiçik bir hekayə yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Zəhmət, çalışqanlıq barədə atalar sözləri öyrənmək. Mətnin məzmununu danışmaq.

LAYİHƏ

## 20-ci dərs.
## § 18. Cırcırama və qarışqa  (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | A.d. -4.1.4.<br>Biol.-4.1.1. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Şeirdəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | İsimlərin və feillərin yazılış  qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər,  proyektor, “Тайная сила природы” filminin diski, iş vərəqləri, şəkillər.

***Motivasiya:*** Müəllim proyektorla elektron lövhədə qarışqalardan bəhs edən “Тайная сила природы (2005” – www.youtube.com/watch?v=Yu3fpiopE2E) filmindən fraqmentlər nümayiş etdirir. (Filmi əldə edə bilməyənlər qarışqaların həyatından bəhs edən slaydlar nümayiş etdirə və ya qarışqaların şəkillərini göstərə bilərlər. Dərslikdə verilmiş tapmacalardan da motivasiya yaratmaq üçün istifadə oluna bilər). Sonra qarışqa haqqında aşağıdakı əfsanəni danışır:

**Teymurləng və qarışqa**

Uğursuz bir döyüşdən sonra Teymurləng qaçıb bir daşın dalında gizlənir. Ətrafına göz gəzdirir. Görür ki, bir qarışqa buğda dənini başıyuxarı qaldırıb öz yuvasına aparmağa şalışır. Dən 69 dəfə aşağı düşür. Yetmişincidə qarışqa dəni apara bilir. Bunu görən Teymurləng utanır, bir dəfə məğlub olmaqla geri çəkilməyin doğru olmadığını başa düşür. O, gizləndiyi yerdən çıxır, qoşunu toplayıb yenidən döyüşə girir və qalib gəlir.

***Köməkçi sual:*** 1) Teymurləng qarışqadan niyə utanır?

2) Teymurləng qarışqadan nəyi öyrənir?

3) Arılar və qarışqalar hansı cəhətdən oxşardır?

Şagirdlərin cavabları dinlənilir. Müəllim onların fikirlərinə diqqətlə yanaşır. Şagirdlərin düzgün cümlə qurmaq bacarıqlarına nəzarət edir.

***Tədqiqat sualı:*** Bilirsiniz ki, göyərçin sülh rəmzi sayılır. Bəs qarışqa sizin üçün nəyi simvolizə edir? Qarışqadan söhbət gedərkən daha çox onun hansı xüsusiyyəti yada düşür?

***II Motivasiya:*** Müəllim bal arılarının fəaliyyətini: şamlara bal toplamalarını, kəşfiyyatçı arılarının bal toplamaq üçün çiçəklərin axtarışında olmasını əks etdirən kadrları nümayiş etdirir.

***Köməkçi sual:*** Bal arılarının işi,  onların insanlara xeyri barədə nə bilirsiniz?

***Tədqiqat sualı:*** Siz təbiətdə daha hansı zəhmətkeş  həşəratları tanıyırsınız?

***Tədqiqatın aparılması:*** Dərslikdəki “Cırcırama və qarışqa” şeiri oxutdurulur. “Sözlük”

LAYİHƏ

və "Söz ehtiyatı"ndakı sözlər izah edilir, cümlələrdə işlədilməklə mənaları mənimsədilir.

Şagirdlər oxunan şeirin məzmunu üzrə fikirlərini dəqiqləşdirmək məqsədilə suallara cavab verir (çalışma № 1), atalar sözlərinin içərisindən şeirin məzmununa uyğun olmayanı seçib səsləndirir (çalışma №2), mətndəki əsas fikri müəyyənləşdirmək üzrə işləyir, danışarkən fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırırlar ki, (3, 4, 5-ci çalışmalar) bütün bunlar şeirin məzmununun hərtərəfli mənimsənilməsini asanlaşdırır və müvafiq bacarıqların (1.1.1., 2.1.3.) inkişafını təmin edir.

Mövzu üzrə məzmunun şüurlu mənimsədilməsi və şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandıra bilmələrinə şərait yaratmaq məqsədilə müəllim qruplarla iş formasından da istifadə edə bilər. Şagirdlər 4 qrupa bölünür. Hər qrupa bir atalar sözünü təhlil etmək tapşırığı verilir.

**1-ci qrupun tapşırığı:** "İstəyirsən bal-çörək, al əlinə bel-kürək" atalar sözünün mənasını izah edin.

**2-ci qrupun tapşırığı:** "Cəfa çəkməsən, səfa görməzsən" atalar sözünün mənasını izah edin.

**3-cü qrupun tapşırığı:** "İşləyən inci taxar, işləməyən yandan baxar" atalar sözünün mənasını izah edin.

**4-cü qrupun tapşırığı:** "Çalışqan əl nəyə dəysə, qızıl olar", yaxud "İş bacaranın, aş yeyənindir!" atalar sözlərinin mənasını izah edin.

Şagirdlərin hazırladıqları təqdimatlar liderlər tərəfindən oxunur. Cavablar qiymətləndirilir.

Şeirdəki əsas nitq hissələrinin qrammatik mənalarını mənimsətmək üçün şagirdlərin dərslikdəki 7, 8, 9, 10, 11-ci çalışmalar üzərində işlədilməsi məsləhətdir. Bu çalışmaları yerinə yetirərkən onlar feilin zaman və şəxs şəkilçilərindən, həmçinin ismin hallarından istifadə üzrə zəruri praktik bacarıqlara yiyələnir, haqqında danışılan nitq hissələrinin qrammatik mənalarını başa düşür və izah edirlər (3.1.1.). Bu tapşırıqların yerinə yetirilməsi prosesində , eyni zamanda, müvafiq yazı qaydaları da mənimsədilir. 8, 9-cu çalışmalar isə bilavasitə isimlərin orfoqrafiyası ilə bağlı bacarıqların təkmilləşdirilməsini nəzərdə tutur (4.1.3.).

**Qeyd.**11-ci tapşırıqdakı tapmaca əsasında aşağıdakı iş vərəqləri üzrə qruplarla iş aparmaq da məqsədəuyğun olar:

**I qrupun tapşırığı:** Necə düşünürsünüz, tapmacada iki söz niyə yaşıl rəngdə verilmişdir? Bununla bağlı hər hansı fikriniz varmı?

**II qrupun tapşırığı:** Tapmacada altından xətt çəkilmiş sözlərin əvəzinə başqa hansı sözləri işlətmək olar? Həmin sözlərlə tapmacanı yenidən oxuyun.

**III qrupun tapşırığı:** Tapmacada işlənmiş feilləri seçib hər üç zamanda işlədin. Fellərdən birini keçmiş, birini indiki, birini isə gələcək zamanda şəxslər üzrə dəyişin.

"Kəlmələrin dilini öyrənək" rubrikasında şagirdlər tez-tez rast gəldikləri sözlərin əlavə mənaları ilə tanış olub söz ehtiyatlarını zənginləşdirirlər. 6-cı çalışma da şeirdəki sözlük hesabına şagirdlərin lüğətinin dəqiqləşdirilməsinə kömək edir. 12-ci çalışmanı yerinə yetirməklə şagirdlər öz lüğət ehtiyatlarında olan sözlərdən yerində istifadə edə bilmək bacarıqlarını nümayiş etdirirlər ki, bu zaman formalaşdırılan bacarıqların səviyyəsi əyani şəkildə görünür.

***Məlumat mübadiləsi:*** Şagirldlər "Cırcırama və qarışqa" şeiri ilə tanış olduqdan sonra əməyin, zəhmətin nəinki yalnız insanlar, həm də bütün canlılar üçün əhəmiyyət daşıması fikrini müzakirə edir, müəyyən nəticələrə gəlirlər.

***Nəticə:*** Şeirin məzmunu, eyni zamanda mövzu ətrafında aparılan tədqiqat nəticəsində şagirdlərə bir daha aydın olur ki, vaxtında zəhmətlə məşğul olmayan, gününü yalnız əyləncə ilə keçirmək istəyənlər axırda çox pis duruma düşür, başqalarına möhtac olur, çətinlikdən çıxış



LAYİHƏ

yolu tapa bilmirlər. Qarışqa kimi zəhmətkeş və tədbirli olanlar isə həyatda heç bir çətinliklə qarşılaşmır, həyatlarını normal davam etdirirlər; çətinlik qarşısında qaldıqda isə ondan qorxmur, əməksevərlikləri sayəsində bütün problemlərini həll edirlər.

***Yaradıcı tətbiqetmə:*** Qarışqalar haqqında əlavə məlumat toplamaqla təqdimat hazırlayın (Təqdimat şəkillər, esse, hekayə, inşa, təsnifat və s. şəklində də ola bilər).

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək. Yeni sözlüyü cümlələrdə işlətmək.

## 21-ci dərs.
## § 19. Aqilin hədiyyəsi (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Danışığında sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1 | R.d. -2.2.2.<br>Tex.-4.2.1. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətni oxuyarkən sözləri düzgün vurğu ilə tələffüz edir. | 3.1.2 | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |
| 5. | Təbrik teleqramı yazır. | 4.1.4. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük qrupla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, təqdimat, müzakirə, rollar üzrə oxu, karusel.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, açıqca.

***Motivasiya:*** Müəllim şagirdlərə müraciət edir: Təsəvvür edin ki, yoldaşlarınızdan birinin ad günüdür və siz "Təsviri incəsənət", yaxud da "Texnologiya" dərsindəsiniz.

***Köməkçi sual:***

1) Əlinizdə olan ləvazimatlardan (kağız, rəngli flamasterlər, karton, parça, ağac məmulatları və s.) hədiyyə etmək üçün nəsə hazırlaya bilərsinizmi?

2) Heç kiməsə hədiyyə etmisinizmi?

3) Hədiyyə almağı sevirsinizmi?

Müəllim şagirdləri qruplara bölür, onlara ağ kağızlar paylayır və deyir:

1) Bunlardan açıqca düzəldə bilərsinizmi?

2) Sizcə, yaxınlarınıza hansı açıqca daha xoş ola bilər? Özünüz hazırladığınız, yoxsa mağazadan aldığınız?

3) Bacarığınızı sübut etmək üçün tez maraqlı bir açıqca düzəldin və düzəltdiyiniz açıqcada kiməsə yeni il münasibətilə təbrik teleqramı yazın.

Şagirdlər fəaliyyətə başlayırlar. Müəllim fərqli açıqcaları nümayiş etdirir. Liderlər yazdıqları teleqram mətnini oxuyurlar.

Şagirdlərin cavabları qiymətləndirilir..

LAYİHƏ

***Tədqiqat sualı:*** Əlinizdə olan materiallardan özünüz maraqlı bir şey (bu gəlincik üçün paltar, toxunmuş ayaqqabı, corab və s., maraqlı bir rəsm, taxtadan oyma, yapma, müəyyən bir əşyanın düzəldilməsi və s.ola bilər) düzəltmisinizmi? Öz əməyinizin bəhrəsi olan bir şeylə kimisə sevindirmisinizmi?

***Tədqiqatın aparılması:*** Müəllim tədqiqata başlamaq üçün sinfə müraciət edir:

1) Sizcə, yalnız bayram günlərində nəsə hazırlayıb insanlara hədiyyə etmək, onları sevindirmək olar? 2) Gözləmədiyin halda edilən hədiyyələr niyə maraq doğurur?

Şagirdlərin cavabları dinlənilir və tədqiqat “Aqilin hədiyyəsi” mətninin oxusu ilə davam etdirilir.

Mətn rollar üzrə şagirdlərə oxutdurulur. Rol bölgüsü apararkən aparıcı, Aqil, anası, Gülsüm xala (qonşu qadın) rolları müəyyənləşdirilir. Mətn oxunur. Çətin sözlər izah edilir. “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlər cümlədə işlədilir.

Mətnin oxusu prosesində sözlərin düzgün vurğu ilə oxunması, 1, 2, 3, 4, 5, 10-cü çalışmalar yerinə yetirilərkən isə vurğudan düzgün istifadə bacarıqları izlənilir, lazımi korreksiyalar edilir (2.1.1., 3.1.2.).

Fikirlərini mətnin hissələrinə müvafiq quplaşdırma bacarıqlarının inkişafını təmin etmək və beləliklə, mətnin məzmununun qavranılmasını həyata keçirmək üçün 1, 2-ci çalışmalardakı tapşırıqların yerinə yetirilməsi tövsiyə olunur (2.1.4.). Bu işləri qruplarla iş formasından, karusel üsulundan istifadə yolu ilə də həyata keçirmək olar.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, suallara cavab tələb edən tapşırıqlarda karuseldən istifadə yaxşı nəticə verir. Belə ki, istər cütlərlə, istərsə də qruplarla işləyən şagirdlər mətn üzrə suallar yazılmış vərəqlərdə əvvəlcə qrupunun adını, cütlüyün nömrəsini qeyd edir, sonra isə öz cavab variantını yazaraq onu bir-birinə ötürürlər. Vərəqlər dövr edib qayıtdıqda cavablar oxunur və müzakirə edilir.

Suallara cavab və mətnin oxusu yolu ilə mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsi üzərində iş aparılır.

4, 5, 10-cu çalışmalarda qoyulmuş tapşırıqları yerinə yetirməklə şagirdlər Azərbaycan dilində işlənən nitq etiketləri, həmçinin alqışlarla tanış olur, nitqlərində onlardan yerində istifadə bacarıqlarına yiyələnirlər.

6-cı çalışma ismin, 9, 11, 12-ci çalışmalar feilin qrammatik mənasının mənimsənilməsi, “Kəlmələrin dili”ni öyrənək” rubrikası və 7, 10-cu çalışmalar lüğət ehtiyatının artırılması üzrə iş aparmağa istiqamətləndirilmişdir.

Hikmət xəzinəsindən verilmiş hikmətli sözlərin mənaları mətnin məzmunu ilə əlaqələndirilir və şagirdlərdə əxlaqi keyfiyyətlərin formalaşdırılmasına yönəldilir.

***Məlumat mübadiləsi:*** Mətnin mövzusu üzrə şagirdlər fikir mübadiləsi edirlər. Başqalarını sevindirmək məqsədilə zəhmətinin bəhrəsi olan bir hədiyyə bağışlamağın nə qədər sevindirici olduğu və məmnunluq doğurduğu fikri ətrafında müzakirə aparılır.

***Nəticə:*** Uşaqlar Aqilin nümunəsində gördülər ki, öz əlinin zəhməti ilə əldə olunan hədiyyəni bağışlayaraq, insanları sevindirmək gözəl hərəkətdir. Ümumiyyətlə, insanların belə diqqətli olması yaxşı xüsusiyyətdir və uşaqlıqdan formalaşdırılmalıdır. Aqil kimi uşaqlar isə başqalarına örnək ola bilər. Bu hekayənin məzmunu və bu istiqamətdə aparılan tədqiqat uşaqlarda diqqətlilik, hörmət, başqasının problemlərinin həllinə kömək göstərmək kimi nəcib keyfiyyətlər aşılayır.

***Yaradıcı tətbiqetmə:*** Təbrik teleqramı yazmaq və onu təkmilləşdirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu plan əsasında danışmaq.

LAYİHƏ

## 22-ci dərs.
## § 20. Qoca tramvayçı (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətnin məzmunu ilə əlaqədar suallar verir. | 1.1.1. | |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | R.d. -2.2.2. |
| 4. | Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3 | |
| 5. | Mövzuya uyğun esse yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, klaster, debat.
***Resurslar:*** Dərslik, kompüter, proyektor, iş vərəqləri.
***Motivasiya:*** Müəllim tramvayla bağlı hazırladığı videoroliki nümayiş etdirir ( Парад трамваев (ВИДЕО) – RusAuto. rus-auto.net/articles/a.277.html). Tramvay şəkillərindən ibarət "Vikipediya" –slaydşou da göstərmək olar.
***Köməkçi sual***: 1) Hardasa tramvaya minmisinizmi?
2) Tramvay necə bir nəqliyyat vasitəsidir? Onun haqqında nə bilirsiniz?
3) Bakıda tramvay işlədiyi haqqında məlumatınız varmı?
4) Gələcəkdə hansı peşənin sahibi olmaq istərdiniz?
5) Tramvay sürücüsü olmaq istərdinizmi?

Şagirdlər fikirlərini söyləyirlər. Müəllim onların sərbəst cümlə qurmaq bacarıqlarına nəzarət edir, düzəlişlər edir. (Müəllim söz assosiasiyasından istifadə etməklə də motivasiya yarada bilər:




Burada nümunə üzrə bir-iki cavab variantı verilib. Qalan variantları şagirdlərdən almaq lazımdır).

***Tədqiqat sualı:*** 1) İstərdinizmi ki, yaşadığınız şəhərdə, qəsəbədə tramvaylar işləsin və niyə?

2) Necə bilirsiniz, insan bir peşəni sevmirsə, həmin peşə üzrə fəaliyyətini davam etdirə bilərmi?

LAYİHƏ

***Tədqiqatın aparılması:*** Tədqiqata "Qoca tramvayçı" mətninin oxusu ilə başlanır. Mətnin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası izah edilir və onlar cümlədə işlədilir.

Şagirdlər qruplara bölünür və hər qrupa mətnin məzmunu üzrə 10 sual tərtib etmək tapşırılır (çalışma 1). Tapşırığın yerinə yetirilməsi üçün verilmiş vaxt başa çatdıqdan sonra liderlər tərtib etdikləri sualları oxuyurlar və sualların sayı, dilin qrammatik normalarına düzgün əməl edilməsi baxımından qiymətləndirmə aparılır (1.1.1.). Bu tapşırığın yerinə yetirilməsi və mətnin məzmunu üzrə aparılan işlər şagirdlərin fikrini mətnin hissələri üzrə qruplaşdırmağa (2.1.4.) və mətnin tərkib hissələrini müəyyənləşdirməyə də imkan verir. Şagirdlər tərtib etdikləri suallara cavab verərkən fikirlərini həmin suallar ətrafında qruplaşdırmalı olurlar. Bu isə mətndəki fakt və hadisələrin qavranılmasını, seçilib ayrılmasını asanlaşdırır, diqqətin sualda qoyulmuş məsələnin üzərinə yönəldilməsini zəruri edir.

Mətnin tərkib hissələrini müəyyənləşdirmək bacarığının formalaşdırılması şagirdlərin özlərinin sərbəst rabitəli mətnlər tərtib etmələrinə, müvafiq bacarıqların inkişafına praktik kömək göstərir (3.1.3.). Dərslikdəki 9, 10-cu çalışmalar da bu istiqamətdə işlər aparılmasını nəzərdə tutur.

7, 8, 12-ci çalışmalardakı tapşırıqların icrası fellərin qrammatik mənasının izahına xidmət edir (3.1.1.) "Bunları bilirsinizmi?" rubrikası ilə tanış olmaqla şagirdlər inkar feillər haqqında məlumat əldə edir, verilmiş nəzəri bilikləri praktikaya tətbiq etməyi öyrənirlər.

"Kəlmələrin dili"ni öyrənək!" rubrikasında verilmiş sözlərin məna imkanları ilə tanışlıq və 2, 3, 4, 5, 6-cı çalışmalar şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsini və dəqiqləşdirilməsini nəzərdə tutur ki, bu imkanlardan məqsədyönlü istifadə olunmalıdır.

2.1.4. alt-standartının reallaşdırılmasını müəllim hazırladığı iş vərəqləri əsasında da həyata keçirə bilər.

Hər qrupa mövzuya uyğun suallar yazılmış iş vərəqləri verilir. Şagirdlər düşündüklərini iş vərəqlərində qeyd edirlər. Lövhədə çəkilmiş dairə şaxələndirilir.

**1-ci iş vərəqinin sualı:** Yaşlı nəsildən hansı xüsusiyyətləri öyrənmək olar?

**2-ci vərəqinin sualı:** Sizcə, nəyə görə müdrik sözlər məhz atalar sözləri adlanır?

**3-cü iş vərəqinin sualı:** Tanıdığınız hansı yaşlılar sizin üçün həyat nümunəsi ola bilər? (kitablardan oxuduğunuz, filmlərdən gördükləriniz də ola bilər).

Şagirldər onların hazırlıqlarına ayrılmış vaxt başa çatdıqdan sonra işlərini təqdim edirlər. Hər təqdimatdan sonra şagirdlər "Yaşlı insan" sözlərinin ətrafındakı dairəciklərdə yaşlı insanların səciyyəvi xüsusiyyətlərini qeyd edirlər. Nəticədə belə bir cədvəl alınır. Bu cədvəlin alınmasında müəllimin köməyi vacibdir. Sözlər tərcümə edilir, cümlə daxilində işlədilir. Fərqli cavablar qiymətləndirilir.




LAYİHƏ

10 №-li çalışmada qoyulmuş mövzu ətrafında təşkil edilən debat "Şərəfli əmək" mövzusunda rabitəli mətn qurmaq və onu esse formasında ifadə etməyə kömək edir.

***Məlumat mübadiləsi:*** Şagirdlər çalışma 11-də verilmiş hikmətli sözləri oxuyub, onların mətnin məzmunu ilə əlaqəsini araşdırır, nəticə çıxarır, fikir mübadiləsi aparırlar. Tramvay ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsi olduğu üçün onun şəhərimizdə işləməsinin əhəmiyyəti ətrafında müzakirə aparılır.

***Nəticə:*** Mətndən tanış olduqları qoca tramvayçının peşəsinə vurğunluğu, "Bakıda tramvayı birinci mən sürmüşəm" deyərək gəncliyini fəxrlə xatırlaması gənc sürücüdə olduğu kimi, şagirdlərdə də dərin təəssürat oyadır. Onun peşəsini qürurla xatırlaması, tramvaydan danışarkən gözlərinin yaşla dolması şagirdlərdə ona qarşı dərin hörmət hissi, tramvayçı peşəsinə isə maraq oyadır. Mətn və çalışmalar üzərində aparılan işlərlə şagirdlər belə bir nəticəyə gəlirlər ki, insan hansı peşənin sahibi olursa-olsun, gərək fəaliyyət göstərdiyi sahəyə hörmətlə yanaşsın, məşğul olduğu peşənin incəliklərinə bələd olsun. Bir sözlə, əgər sənətini qoca tramvayçı kimi sevmirsənsə, bu işlə məşğul olmasan yaxşıdır.

***Yaradıcı tətbiqetmə:*** "Şərəfli əmək" və ya "Şəhərimizdə tramvaylar işləsə..." mövzusunda esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu öyrənmək.

## 23-cü dərs.
## § 21. Pul tapmışdım (1-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Şagird mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d. -4.1.2. |
| 2. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 3. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2 | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə, rollu oyun.

***Resurslar:*** Dərslik, iş vərəqləri, proyektor, filmin diski.

***Motivasiya:*** Müəllim Azərbaycanfilmin istehsal etdiyi "Şərikli çörək" filmindən bir fraqment nümayiş etdirir: filmin balaca qəhrəmanı Vaqif çörək növbəsində dayanıb. Növbəsi çatanda aydın olur ki, o, çörək kartoçkalarını itirib.

***Köməkçi sual:*** Bu oğlanın keçirdiyi hissləri təsvir edə bilərsinizmi?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Ehtiyac olduqda müəllim onların nitqlərinə düzəlişlər edir.

LAYİHƏ

***Tədqiqat sualı:*** Vaqifin çörək kartoçkalarını tapsaydınız, siz necə hərəkət edərdiniz?

***Tədqiqatın aparılması:*** Bu haqda fikirlərini bölüşmək üçün müəllim şagirdləri 3 qrupa ayırır. Hər qrupa bu barədə fikirlərini yazmaq üzrə tapşırıq verilir. Tapşırıq üçün vaxt ayrılır.

Şagirdlər düşünürlər, vaxt tamam olanda hər qrupun təqdimatı dinlənilir. Fərqli cavablar qiymətləndirilir.

Tədqiqat "Pul tapmışdım" mətninin I hissəsinin oxusu ilə davam etdirilir. "Sözlük" və "Söz ehtiyat"ındakı yeni sözlərin mənası izah edilir, cümlələrdə işlədilir.

Şagirdlərin düzgün oxu bacarığı üzərində iş aparılır. Mətn rollarla oxudulur. Oxusu zamanı vurğudan düzgün istifadə izlənir, ritm və tempə diqqət yetirilir. Lazım gəldikdə düzəlişlər edilir. Mətnin oxusu zamanı əsas fakt və hadisələr üzərində dayanılır, faktları şagirdlərin nəzərinə çatdırmaq üçün lazım gələndə yönəldici suallardan istifadə edilir.

Mətnin hissələri arasındakı əlaqələrin müəyyənləşdirilməsi məqsədilə şagirdlərə keçid xarakterli suallar yönəldilir. Uşağın pul tapması, məktəbdə keçirdiyi hisslər, evə gəlib pulu anasına göstərməsi və anası ilə aralarındakı dialoq, haram pulun ev dağıtması haqqında nəsihət, ananın sözlərindən sonra uşağın keçirdiyi ruhi vəziyyət, ananın pulu külqabının içinə qoyması, atanın bu məsələyə necə baxacağı haqqındakı düşüncələr diqqəti cəlb edən məqamlardır. Bu hissələrin bir-biri ilə necə əlaqələndirilməsi imkanlarının araşdırılması şagirdlərin rabitəli nitq bacarıqlarının formalaşdırılmasına şərait yaradır.

1, 2, 3, 5, 6, 7-ci çalışmalar mətnin məzmununun və quruluş xüsusiyyətlərinin mənimsədilməsinə istiqamətləndirilmişdir.

10-cu çalışma ismin, 4, 5, 9, 11, 12, 13-cü çalışmalar isə feilin qrammatik mənası üzərində iş aparmaqla, müvafiq praktik bacarıqların tətbiqinə, həmçinin onların orfoqrafiyasının vərdişə çevrilməsinə imkan yaradır.

"Kəlmələrin dili"ni öyrənək!" rubrikasında verilmiş sözlərin məna imkanları ilə tanış olmaq şagirdlərdə dilin lüğət tərkibinə maraq oyadır, həm də öyrəndikləri sözlərdən nitqdə şüurlu istifadəyə zəmin yaradır. 8, 13-cü çalışmalarla bu istiqamətdə aparılan işlər inkişaf etdirilir.

***Məlumat mübadiləsi:*** Şagirdlər pulu tapan oğlanın davranışını müzakirə edirlər. "Haram pul ev dağıdar" ifadəsi müzakirə obyektinə çevrilir.

***Nəticə:*** Mətndəki hadisələrlə tanış olan şagirldlər gördülər ki, uşaq pul tapanda sevinsə də, sonra bu hadisə onun üçün çıxılmaz bir düyünə çevrilir və o, dərin sarsıntılar keçirir, pis vəziyyətdə qalır.

Şagirdlər hekayənin qəhrəmanı olan uşağın düşüncələri ilə tanış olduqca inanırlar ki, doğrudan da, tapılan pul hansısa bir yazığın, ehtiyac içində yaşayanın cibindən düşə bilər. Belə pula isə əl uzatmaq günahdır. Deməli, başqasının malına göz dikmək insana könül rahatlığı vermir, onu daha da bədbəxt edir. Odur ki, birinin itirdiyi bir şeyi tapan kimi, onu yiyəsinə qaytarmaq, yiyəsi tapılmadıqda isə onu müvafiq qurumlara təhvil vermək lazımdır.

***Yaradıcı tətbiqetmə:*** Məktəbin tərbiyə işləri üzrə direktor müavininə pulun tapılması ilə bağlı "İzahat" yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. Hekayəni davam etdirmək.

LAYİHƏ

## 24-cü dərs.
## § 22. Pul tapmışdım (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | R.d. -2.1.2. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki feilləri qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mövzuya uyğun hekayə yazır. | 4.1.1. | |
| 5. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, təqdimat, debat.
***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri.
***Motivasiya:*** Müəllim hekayənin davamını oxumağa maraq oyatmaq üçün köməkçi suallarla sinfə müraciət edir;

1) Keçən dərsdə oxuduğunuz “Pul tapmışdım” hekayəsinin yarımçıq qalması sizdə təəssüf hissi doğurdumu?
2) Hekayədəki hadisələrin necə davam edəcəyi sizi maraqlandırırmı?
3) Hekayədəki hadisələrin davamı ilə bağlı təxminləriniz varmı?
4) Hekayənin sonluğunun necə olmasını istərdiniz?

***Tədqiqat sualı:*** 1) Necə düşünürsünüz, tapılan pulla nə edəcəklərinə ata necə qərar verəcək?

2) Mətndəki nitq hissələrinin qrammatik mənasını başa düşməsəniz, oxuduğunuz mətndəki hadisələrin necə davam etməsini başa düşə bilərsinizmi?

***Tədqiqatın aparılması:*** Bu suala şagirdlərin münasibətini öyrənmək məqsədilə müəllim qruplarla iş formasından istifadə edir. Hər 3 qrupun tapşırığı eyni olur: Qruplardan “Hekayəni necə davam etdirərsiniz?” sualına cavab vermək tələb olunur. Şagirdlər təyin olunmuş vaxt ərzində iş vərəqlərində fikirlərini yazırlar. Vaxt bitdikdən sonra liderlər hekayənin ardını özləri təsəvvür etdikləri şəkildə təqdim edirlər. Təqdimatlar dinlənilir, qiymətləndirilir.

“Pul tapmışdım” hekayəsinin II hissəsi rollar üzrə oxutdurulur. Çətin sözlərin mənası izah edilir.

Tədqiqat sualı ətrafında axtarışlar aparmaq və qoyulan suala cavabın şüurlu şəkildə əsaslandırılması üçün 2, 3 və 6-cı çalışmalar üzərində iş aparılır, qoyulmuş tapşırıqlar yerinə yetirilir. 3-cü çalışmadakı tapşırıq üzrə aparılan debat, 6-cı çalışmada qoyulmuş sual ətrafında müzakirə şagirdlərin öz nitqlərində sözləri düzgün vurğu ilə tələffüz etmələrinə şərait yaradır. Şifahi nitq üzərində aparılan müşahidə nöqsanların üzə çıxarılmasına və praktik yolla aradan qaldırılmasına imkan verir. Mətnin rollar üzrə oxusu da bu bacarıqların təkmilləşdirilməsinə imkan verir.

LAYİHƏ

Debat və müzakirə apararkən şagirdlər, təbiidir ki, mətndəki müəyyən hadisələrə və faktlara istinad edir, fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırırlar. Mətndəki hadisələrlə bağlı fikir söyləmək və müvafiq bacarıq formalaşdırmaq məqsədilə aşağıdakı tapşırığın icrası tövsiyə olunur:

Mətndən seçilmiş aşağıdakı cümlələrdən hansı atalar sözlərinə bənzəyir? Həmin cümlənin mənasını izah edin.

1) Bizim ev haram götürməz. 2) Bir damcı murdar su böyük hovuzu korlayar.

3) Evini alın təri ilə abad eləyən adamdır. 4) Heç kəsin bir qəpiyini də bu halal əmlaka qatma ki, hamısı dağılıb gedər. 5) Yerə atmaqdansa, bir fağıra ver.

Şagirdlər verilmiş cümlələr içərisindən atalar sözlərini xatırladan cümləni səsləndirir və mənasını izah edirlər.

Şagirdlər tədqiqat sualının ikinci hissəsinə cavab vermək üçün 2, 4, 5, 7, 8, 9, 12-ci çalışmalar üzərində işləməlidirlər. Qoyulmuş tapşırıqların icrası müvafiq nitq hissələrinin qrammatik mənasını dərk etməyə imkan verir ki, bununla da oxunmuş materialın məzmunu başa düşülür (3.1.1.). 12-ci çalışma nitq hissələrinin qrammatik mənasının şüurlu mənimsənilməsinə imkan verməklə yanaşı, həm də şagirdlərin nitqinin hazır ifadələrlə zənginləşdirilməsi, eyni zamanda, onları xalqımızın düşüncə tərzinin məhsulu olan inanclarımızla tanış etmək məqsədini güdür.

Şagirdləri mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsi üzərində işlətmək üçün müəllim sinfi qruplara bölür və qrupların hamısına ümumi bir tapşırıq verir:

***İş vərəqinin tapşırığı:*** Mətnin hissələri arasında əlaqə yaradan cümlələri mətndən seçib yazın.

Tapşırığın icrası üçün vaxt ayrılır. Hər bir qrup ayrı-ayrılıqda tapşırığı yerinə yetirir və liderlər təqdimatları səsləndirirlər. Müzakirə aparılır. Düzgün variantlar müəyyənləşdirilir (4.1.2.). Bu istiqamətdə aparılan işlər şagirdlərin rabitəli mətn qurmaq bacarıqlarının inkişafına yönəldilməlidir. Bacarıqların praktikaya tətbiqi mövzu üzrə kiçik bir hekayə yazmaqla reallaşdırılır (4.1.1.).

***Məlumat mübadiləsi:*** "Əgər siz pulu tapmış uşağın dostu olsaydlnlz, ona nə məsləhət görərdiniz?" sualı ətrafında fikir mübadiləsi edilir. Atanın qərarına münasibət bildirilir.

***Nəticə:*** Uşaqlıq illərində yaşanmış bir hadisənin təəssüratları əsasında yazılmış hekayənin məzmunu şagirdlərdə müəyyən təsir oyadır. Bu əhvalatla tanışlıq uşaqları inandırır ki, haram tikə ev dağıdar. Hər kəs ruzisini öz halal zəhməti ilə qazanmalıdır. Hekayə qəhrəmanının anasının sözləri deyilənləri daha da inandırıcı edir: "Haram tikə bir damcı murdar su kimidir ki, bütün hovuzu korlaya bilər. Heç kəsin bir qəpiyini də halal əmlaka qatma ki, hamısı dağılıb gedər. Odur ki, atanın qərarını düzgün hesab etmək lazımdır.

***Yaradıcı tətbiqetmə:*** Hekayə qəhrəmanını və onun valideynlərini səciyyələndirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şagirdlərə mövzu üzrə yazdıqları hekayəni təkmilləşdirmək tapşırılır. Mətnin məzmunu üzrə plan tərtib etmək.

LAYİHƏ

## 25-ci dərs.
## § 23. Nil sularında (1-ci hissə-1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | R.d.- 3.1.3.<br>Coğ.-3.1.1.<br>Biol.4.1.1. |
| 2. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 3. | Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük qrupla iş.
***Dərsin üsulu:*** Əqli hücum, sual-cavab, müzakirə.
***Resurslar:*** Dərslik, dəftər, kompüter, proyektor, elektron lövhə.
***Motivasiya:*** Müəllim aşağıdakı tapmacanı səsləndirir:

Ağzın açar,
Qorxu saçar.
Onu görən
Qorxub qaçar.

Cavablar dinlənilir və elektron lövhədə timsahlardan bəhs edən maraqlı elmi-kütləvi filmlərdən fraqmentlər göstərilir və ya təsvirlər canlandırılır (www.google.az, youtube.com).

***Köməkçi sual:***
1) Timsahlar barədə hansı filmə baxmısınız?
2) Timsahın əsas qəhrəman olduğu hansı cizgi filmini xatırlayırsınız?
3) Cizgi filmindəki timsahın davranışları həqiqətə uyğundurmu?
Cavablar dinlənir.
(Müəllim Nil çayının görüntüləməklə də motivasiya qura bilər.
Köməkçi sual: Nil çayında hansı yırtıcı heyvanlar yaşayır?)

***Tədqiqat sualı:*** 1) Uşaqlar, timsahları nə üçün ovlayırlar?
2) Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirmək üçün əvvəlcə nə etməliyik?

***Tədqiqatın aparılması:*** Müəllim yeni mövzuya hazırlıq məqsədilə şagirdlərə suallar verir:
1) Timsahlar ovlanırmı? Onlar nə məqsədlə ovlanır?

Şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına şərait yaratmaq məqsədilə müəllim aşağıdakı suallar əsasında müsahibə apara bilər:
– Canlı timsah görmüsünüzmü?
– Timsahlar suda, yoxsa quruda yaşayır?
– Bakı Heyvanat parkında timsah saxlanırmı?
– Uşaqlar, başqa hansı yırtıcı heyvanların adlarını bilirsiniz?
– Nə üçün adlarını çəkdiyiniz heyvanlar yırtıcı hesab olunur?
– Yırtıcı heyvanların təbiətə xeyri varmı, varsa, nədədir?

LAYİHƏ

– Yırtıcı heyvanların ovlanması barədə nə bilirsiniz?

– Hansı yırtıcı heyvanları ovlamaq insanlara mənfəət gətirir? (müəllim mənfəət sözünün mənasını şagirdlərə izah edir).

– Sizcə, timsahları ovlamaq asandırmı?

– Timsahlar barədə daha nə bilirsiniz? (Timsahlar Afrika Respublikasında və Avstraliyada yaşayır. Ən iri timsahın kütləsi 600 kq-a çatır. Bu timsahların piyi yaşıl rəngdədir. Halbuki bütün heyvanların piyi sarıdır. Afrikalılara görə timsahların yaşını udduqları daşların sayı ilə təyin etmək olur. Yumurtadan çıxmış yeni timsah həmin yumurtadan üç dəfə böyük olur. Orta yaş dövründə (70 il) erkəklərin uzunluğu 5 m., dişilər isə 3,5 m. olur. Erkək timsahlar dişilərdən tez inkişaf edir. Cavan dişi timsah 15-17 ədəd, yaşlı dişi timsah isə 80 ədəd yumurta qoyur. Adətən, timsahlar yumurtanı isti qumun içinə qoyub üstünü örtür. Üç aydan sonra timsah balaları yumurtaların içində civildəşərək analarını köməyə çağırır. Ana isə yumurtanı qırmaqla onlara kömək edir. Yumurtadan çıxmış timsah balası tez suya keçir).

– Onlar daha çox hansı ərazilərdə (harada) yaşayırlar?

Şagirdlərin cavabları dinlənir.

Tədqiqat “Nil sularında” mətninin oxusu ilə davam etdirilir. Mətnlə tanışlıqdan sonra orada işlənmiş çətin söz və ifadələr şagirdlərə izah edilir.

Oxu prosesində məzmunun mənimsənilməsi ilə yanaşı, sözlərin düzgün vurğu ilə oxunması (3.1.2.) üzərində iş aparılır. Bu məqsədlə mətndə işlənmiş inkar feillərin tələffüzünə xüsusi diqqət yetirilir, şagirdlərin tələffüzündə yol verilmiş nöqsanlar düzəldilir və belə sözlərdə vurğunun inkar şəkilçisindən əvvəlki hecaya düşməsi praktik şəkildə izah edilir.

Mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi (3.1.3.) üzərində iş qruplarla aparılır. Işi daha cəlbedici qurmaq üçün hansı qrupun mətnin hansı hissəsi üzərində işləməsini müəyyənləşdirmək məqsədi ilə “giriş”, “əsas hissə”, “nəticə” yazılmış kağızlar qatlanaraq seçilmək üçün liderlərə təklif edilir. Liderlər qrupa qayıdır və onlara düşən hissə üzərində işə başlayırlar. Qruplara çəkdikləri püşkə uyğun özlərinə ad seçmək və ya qrupu rəsmlərlə simvolizə etmək təklif olunur (müəllim ideya üçün yönəldici iş aparır: girişi–kök, əsas hissəni–ağac, nəticəni–meyvə şəkilləri ilə rəmzləşdirməklə bağlı işarələr verir).

Mətnin hissələrinin müəyyənləşdirilməsi prosesində müəllimin fasilitator kimi rolu hiss olunmalıdır. Burada problem situasiyanın yaradılması zəruridir. Hekayənin nəticəsi ikinci hissədə olduğundan nəticəni müəyyənləşdirməli olan qrupun üzvləri problemlə üzləşirlər. Ancaq tələsik qərar çıxarılmasına yol vermək olmaz. Şagirdlər axtarış aparmalı və cavab variantlarını təqdim etməlidirlər. Dərsdə maraq doğuran cəhətlərdən biri də nəticənin necə müəyyənləşdirilməsidir.

Təqdimatların hazırlanmasına verilən vaxt bitdikdən sonra müzakirə aparılır.

Dərslikdəki 1, 4, 5, 7-ci çalışmaların yerinə yetirilməsi şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmağa kömək edir (2.1.4.). Aparılmış işlər öz növbəsində mətnin tərkib hissələri arasındakı əlaqələrin müəyyənləşdirilməsinə şərait yaratmış olur. Mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi prosesində qruplar məzmun üzərində işləmiş olduqlarından diqqət hissələr arasındakı əlaqələrə cəlb edilir.

Dərslikdəki 3, 9, 11, 12, 13-cü çalışmalar bilavasitə şagirdlərin lüğətinin genişlənməsi və dəqiqləşdirilməsi, 6, 8, 10-cu çalışmalar dilin qrammatik quruluşunun praktik şəkildə mənimsənilməsi, 13, 14-cü çalışmalar felin qrammatik mənasının qavranılmasına istiqamətləndirilmişdir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətnlə tanışlıqdan sonra müəyyən tapşırıqları yerinə yetirirlər. Onlar hekayədəki Nasiri və sahibkarı müqayisə edir, fikirlərini hər obrazın xarakterik xüsusiyyətləri üzərində cəmləşdirirlər.

***Nəticə:*** Şagirdlər bu hekayə üzərində işləməklə 20 ildən artıq timsah ovu ilə məşğul



LAYİHƏ

olan, qorxu nə olduğunu bilməyən Nasirlə tanış olur, onun hüququnu özünəməxsus şəkildə tələb etməsinin şahidi olurlar. Onlar öyrənirlər ki, ehtiyac insanları çox şeyə vadar edir: bir qarın çörək üçün gənc ovçu həyatını təhlükəyə atmaqdan çəkinmir.

Uşaqlar oxuduqları hekayədə Nasir ilə tanış olmaqla bərabər, həm də mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi ilə bağlı bacarıqlarını inkişaf etdirir, dilin qrammatik quruluşunu mənimsəyir, lüğət ehtiyatlarını zənginləşdirir və dəqiqləşdirirlər.

***Yaradıcı tətbiqetmə:*** Mətnin məzmunu üzrə suallar tərtib etmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnə aid plan tərtib etmək və mətnin məzmununu plan əsasında danışmağı öyrənmək.

## 26-cı dərs.
## § 24. Nil sularında (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.- 3.1.3.<br>Coğ.-3.1.1.<br>Biol.4.1.1. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 4. | Mövzuya uyğun esse yazır. | 4.1.1. | |
| 5. | Yazıda durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə, debat, Venn diaqramı.

***Resurslar:*** Dərslik, iş vərəqləri, proyektor, filmin diski.

***Motivasiya:*** Elektron lövhədə “Bir məhəlləli 2 oğlan” filmindən insanın ləyaqətini alçaldan kadrlar göstərilir. Bu film Şərq ölkələrindən birində müstəmləkəçiliyə qarşı mübarizəyə həsr olunmuşdur. (www.google/day.az. Bir məhəlləli iki oğlan (nəfər). “O olmasın, bu olsun” filmindən Qoçu Əsgərin satıcını döyməsi səhnəsi, Məşədi İbadın hambalın belinə minməsi səhnəsindən də istifadə etmək olar.

***Köməkçi sual:*** Gördüyünüz səhnələr sizə necə təsir etdi?

Şagirdlər fikirlərini söyləyirlər. Müəllim onların düzgün cümlə qurmaq qabiliyyətlərini izləyir, səhvlər varsa, onları aradan qaldırmağa kömək edir.

***Tədqiqat sualı:*** 1) Bəzi ölkələrdə varlı insanların pul qazanmaq xatirinə kasıbları incitməsinə necə baxırsınız? 2) Necə bilirsiniz, “o, bu” əvəzlikləri “kim?, nə?”, yoxsa “hansı?” sualına cavab verərkən onlardan sonra vergül işarəsi (,) qoyulmalıdır?

***Tədqiqatın aparılması:*** Tədqiqat aparmaq üçün müəllim şagirdləri qruplara bölür. Onlara iş vərəqləri paylayır.

***İş vərəqlərinin tapşırığı:*** Daha çox qazanmaq xatirinə sahibkarların yoxsulların haqqını tapdamasına münasibətinizi yığcam şəkildə ifadə edin.

LAYİHƏ

Verilən vaxt bitdikdə təqdimatlar lövhədən asılır və müzakirə aparılır. Qrupların təqdimatları qiymətləndirilə bilər.

Tədqiqat “Nil sularında” mətninin oxusu ilə davam etdirilir. “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlər və ifadələr izah edilir.

Mətnlə tanışlıqdan sonra çalışma № 3-ə əsasən şagirdlər əvvəlcədən bölündükləri qrup daxilində suallar tərtib edib, digər qrup üzvlərinə verirlər. Müəllim sualların təkrar olunmamasına nəzarət etməlidir. Tapşırığın yerinə yetirilməsi şagirdlərin dinlədiyini anlama səviyyəsinin aşkara çıxarılmasına və bununla bağlı onlara praktik kömək göstərilməsinə istiqamətləndirilir (1.1.1.). Bu istiqamətli çalışmaların icrası şagirdlərdə həmçinin dilin qrammatik normalarına əməl etməklə sual cümlələri qurmaq, eyni zamanda, onlarda durğu işarələrindən məqsədəmüvafiq şəkildə istifadə ilə bağlı bacarıqların formalaşdırılmasını təmin edir (4.1.3.).

Dərslikdəki 9, 12-ci çalışmalar, eləcə də oxuduqları əsərlər, baxdıqları filmlər əsasında şagirdlər mətndəki hadisələrə münasibət bildirir, fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırırlar.

Şagirdlərin oxuduqları mətnin məzmununu düzgün qavrama imkanlarını genişləndirmək üçün onlar çalışmalar üzərində işlədilir. Bu məqsədlə 1, 2, 4, 6, 7, 10-cu çalışmalardan istifadə oluna bilər. Çalışmalar üzərində işləyərkən şagirdlər fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmağı öyrənirlər ki, nəticədə onlarda rabitəli mətnlər qurmaq və fikirlərini rabitəli şəkildə ifadə edə bilmək bacarığı inkişaf edir (2.1.4).

Şagirdlərdə yazıda “o, bu” əvəzliklərindən sonra vergüldən düzgün istifadə bacarığını formalaşdırmaq və təkmilləşdirmək məqsədilə (4.1.3.) müəllim qruplarla iş aparır. Şagirdlərə iş vərəqləri paylayır. Qruplar eyni tapşırıq üzərində işləyirlər:

***İş vərəqlərinin tapşırığı:*** Verilmiş cümlələrdə lazım olan yerdə “o, bu” əvəzliklərindən sonra vergül qoyun.

1) Bu dəfə Nasir onu acıqlı-acıqlı süzüb dedi: “Mən o qiymətə suya girmərəm”. 2) O bircə anın içində Nilin bulanıq sularını üzə-üzə yarıb özünü timsaha yetirdi. 3) Pulun yarıyadək əskilməsi çoxlarını, o cümlədən Nasiri də narazı salmışdı. O iyirmi ildən artıq idi ki, bu peşədə işləyirdi. 4) Bəli, o zaman gənc, özü də naşı idi. 5) Nasir yenə də gəlməmişdi. Bu sahibkarı qəzəbləndirirdi. 6) Bu anamın toxuduğu əlcəkdir.

Verilmiş vaxt başa çatdıqda liderlər iş vərəqlərini təqdim edirlər. Müzakirə nəticəsində düzgün cavablar müəyyənləşir.

Şagirdlər oxuduqları mətn, yerinə yetirdikləri çalışmalar vasitəsilə müəyyən qənaətə gəlirlər və “ Bir çörək doldurar bağırsaqları,

Acgözü doydurmaz dünyanın varı”. (Sədi Şirazi) mövzusunda esse yazırlar.

5, 8, 10-cu çalışmalar cümlə qurmaq bacarıqlarının təkmilləşdirilməsini, “Kəlmələrin dili”ni öyrənək!” rubrikası və 11-ci çalışma lüğət ehtiyatının zənginləşməsini, 13-cü çalışma isə nitq hissələrinin qrammatik mənasının mənimsənilməsini nəzərdə tutur.

***Məlumat mübadiləsi:*** Çalışma 4-də qoyulan sual əsasında şagirdlər fikir mübadiləsi edirlər.

***Nəticə:*** Tədqiqat nəticəsində gəldikləri qənaət əsasında şagirdlər acgöz və gözütox insanları müqayisə edirlər, fikirlərini Venn diaqramından istifadə edərək ümumiləşdirirlər.




LAYİHƏ

Şagirdlər “acgöz” və “gözütox” sözlərinin yaranmasındakı məcaziliyə fikir verirlər. Baş qəhrəman Nasirin simasında mərd insana məxsus xüsusiyyətləri sadalayırlar. Çalışmalar üzərində iş şagirdlərin durğu işarələrindən istifadə bacarıqlarının inkişafına şərait yaradır.

***Yaradıcı tətbiqetmə:*** Mərdlik, qoçaqlıq, xeyirxahlıq mövzusunda atalar sözləri tapıb yazmaq. Hekayədəki Nasiri və sahibkarı səciyyələndirən cəhətləri seçib qruplaşdırmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Yazılmış esseni təkmilləşdirmək. Mətnin nəticəsini danışmağı öyrənmək.

## 27-ci dərs.
## § 25. H.Z.Tağıyev necə milyonçu oldu? (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | |
| 2. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | R.d. -2.2.1. A.t.-4.1.1. |
| 4. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 5. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim elekron lövhədə H.Zeynalabdin Tağıyevin şəkillərindən ibarət slaydlar, yaxud da onun haqqında çəkilmiş videoçarxdan hissələr nümayiş etdirir.

***Köməkçi sual:*** 1) Portretini gördüyünüz bu insan haqqında nə bilirsiniz? 2) Hansı keyfiyyətləri daşıyan insanlar yaddan çıxmır və yaddaşlarda yaşayır? 3) Təsəvvür edin ki, Tağıyevlə bağlı sizə hər hansı bir əhvalat danışırlar. Eşitdiyiniz məlumatlarla bağlı onu danışan şəxsə nə məqsədlə suallar verərsiniz?

Cavablar dinlənilir.

***Tədqiqat sualı:*** Necə düşünürsünüz, nə üçün Hacı Zeynalabdin Tağıyevin adı çəkiləndə insanlar ona rəhmət oxuyurlar? “Millət atası” adlandırılan, Hacı Zeynalabdin Tağıyev kimdir və biz onu nə üçün tanımalıyıq?

***Tədqiqatın aparılması:*** H.Z. Tağıyev haqqında şagirdlərin məlumat dairəsini genişləndirmək və bu mətn əsasında onlarda fikirlərini ifadə etməklə bağlı müəyyən həyati bacarıqlar formalaşdırmaq məqsədilə dərslikdə verilmiş mətn oxudulur. Məzmun və sözlük üzərində işlər aparılır. “Sözlük” və “Söz ehtiyatı”nda verilmiş sözlər cümlələrdə işlədilir.

Dərslikdəki 1-ci çalışma üzrə aparılan iş şagirdlərin həm mətndəki fakt və hadisələri seçib ayırmaları, həm də fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmaları üçün material verir. Çalışmadakı hər bir sual üzrə fikirlərini əsaslandırmaq üçün şagirdlər mətndən müəyyən faktlara müraciət etməli olurlar. Suallarda qoyulan məsələlərin mətnin məzmunu ilə bağlı

Layihə

olmadığını faktlarla əsaslandırırlar. Bu proses şagirdlərdə fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmaqla bağlı da bacarıqları inkişaf etdirir. 3, 4-cü çalışmalar da, öz növbəsində, qeyd olunan bacarıqların formalaşdırılmasına dolayısı ilə də olsa, kömək edir. Çalışmaların yerinə yetirilməsi zamanı şagirdlərin nitqlərində sözləri düzgün vurğu ilə tələffüz etmələrinə diqqət yetirilir, yol verilmiş nöqsanların aradan qaldırılması üzərində müvafiq iş aparılır.

Qeyd olunan bacarıqların tətbiqini təmin etmək məqsədilə müəllim qruplarla işə keçir. Qruplara iş vərəqləri paylanır.

**1-ci iş vərəqinin tapşırığı:** Oxuduğunuz mətn əsasında H.Z. Tağıyevin həyatının uşaqlıq dövrü barədə məlumat hazırlayın.

**2-ci iş vərəqinin tapşırığı:** Oxuduğunuz mətn əsasında H.Z. Tağıyevin sahibkarlıq fəaliyyətinə başladığı dövrün çətinlikləri barədə məlumat hazırlayın.

**3-cü iş vərəqinin tapşırığı:** Oxuduğunuz mətn əsasında H.Z. Tağıyevin neft quyusu fontan vurduqdan sonrakı fəaliyyəti barədə qısaca yazın.

Qeyd. Diferensial yanaşma əsasında iş aparmaq istədikdə müəllim təlim nəticələri yüksək olanlardan ibarət 4-cü qrup yarada bilər. Bu qrup aşağıdakı iş vərəqində qoyulmuş suallar əsasında yığcam təqdimat hazırlayır.

**4-cü iş vərəqinin tapşırığı:** 1) H.Z.Tağıyevin Bakı şəhərində tikdirdiyi binalar haqqında nə bilirsiniz?

2) H.Z. Tağıyevin xalqın maariflənməsi sahəsində göstərdiyi xidmətlər nədən ibarətdir?

3) H.Z.Tağıyevin işsizliyin aradan qaldırılması məqsədilə gördüyü işlər haqqında nə deyə bilərsiniz?

Verilən vaxt başa çatdıqdan sonra təqdimatlar əsasında müzakirə aparılır. Qruplar bir-birini qiymətləndirirlər.

Mətndə işlənmiş nitq hissələrinin qrammatik mənalarının mənimsədilməsi üzərində iş 10-cu çalışmanın icrası ilə həyata keçirilir. Çalışmanın yerinə yetirilməsi zərf haqqında anlayışın yaradılmasına hazırlıq rolunu oynayır. Şagirdlər əlamət bildirən sözlərin həm də hərəkətə aid olduğunu öyrənir, “Bunları bilirsinizmi?” rubrikasında zərfin qrammatik mənası haqqında verilmiş məlumatla tanış olurlar.

Həmrəylik bayramı ərəfəsi olduğundan dərslikdəki şeirin oxusu üzərində işlərlə də yuxarıda bəhs edilən bacarıqların formalaşdırılması həyata keçirilir.

Dərslikdəki 2, 5, 12, 14-cü çalışmalar şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzərində işlər aparılmasını nəzərdə tutur.

Qeyd. Sinfin səviyyəsindən asılı olaraq, ehtiyac duyulduğu halda, aşağıda verilmiş tapşırıqlar əsasında qruplarla iş aparıla bilər.

**1-ci iş vərəqinin tapşırığı:**

Aşağıda verilmiş hikmətli sözlərdən hansını H. Z. Tağıyevə aid etmək olar? Fikrinizi əsaslandırın. Bununla siz xeyirxah insanı xarakterizə etmiş olarsınız.

1) Böyük uğur dəyərli anaların yetişdirdiyi övladlar sayəsində olur. 2) Ağlamaq da gülmək qədər təbii olmalıdır. 3) Yüksəyə ucalmaq istəyirsənsə, ən aşağıdan başla. 4) Uğurun ilk şərti dediyini yerinə yetirməkdir. 5) Diqqətsizlik peşmançılığın başlanğıcıdır. 6) Səndən bir sözü soruşmasalar, demə. 7) Bacarıqlı olmaq üçün, ilk növbədə, intizamlı olmaq lazımdır.

**2-ci iş vərəqinin tapşırığı:**

Göy rəngdə verilmiş sözlərdən hansıları yalnız necə?, hansılar isə həm necə?, həm də hansı? sualına cavab verir? Səbəbini izah etməyə çalışın.

1) Yanaşı oturanlar bizim məktəbimizin şagirdləridir.
2) Yanaşı cərgələrdə oturanlar bizim məktəbimizin şagirdləridir.
3) Biz müstəqil və azad bir ölkədə yaşayırıq.
4) Müstəqil və azad yaşamaq üçün hələ də mübarizə aparanlar var.



LAYİHƏ

**3-cü iş vərəqinin tapşırığı:**

Şeirin məzmununa uyğun düzgün fikirləri seçin.

A) Bu bayramda bütün azərbaycanlılar birləşib, həmrəy, həmfikir olduqlarını bildirirlər.

B) Bütün azərbaycanlılar mütləq Azərbaycanda toplaşmalıdırlar.

C) Harada yaşamalarından asılı olmayaraq, bütün azərbaycanlılar bu bayramda bir-birlərinə arxa, dayaq olduqlarını nümayiş etdirirlər.

D) Həmrəylik bayramı ildə 2 dəfə keçirilir.

E) Həmrəylik bayramında xalqımız həmişə sülh tərəfdarı olduğunu, azad, müharibəsiz bir dünya içərisində yaşamaq arzusunu bildirir.

***Məlumat mübadiləsi:*** Şagirdlər H.Z.Tağıyev haqqında öyrəndiklərini müzakirə edir, tədqiqat sualı ətrafında fikir mübadiləsi aparılır.

***Nəticə:*** Mətnin və şeirin oxusu, çalışmalar üzərində işləməklə şagirdlər əldə etdikləri faktlar əsasında fikir yürütmək, fikirlərini oxuduqları mətnin hissələrinə müvafiq qruplaşdırmaq bacarıqlarını inkişaf etdirirlər.

Mətn və şeirin məzmunu ilə tanışlıq şagirdlərdə əxlaqi-mənəvi keyfiyyətlərin formalaşmasına da müsbət təsir göstərir. Onlar H.Z.Tağıyevin həyatı timsalında başladıqları işi axıra çatdırmağın, əzmkar olmağın insan həyatında necə bir müsbət əhəmiyyət kəsb etdiyinin şahidi olurlar. İnanırlar ki, uğur əldə etmək üçün zəhmət çəkmək, əziyyətlərə qatlaşmaq lazımdır. Çəkilən zəhmətlər isə heç vaxt hədər getmir: tikilən binalarda, fabrik və zavodlarda, açılan xəstəxanalarda, məktəblərdə onlara əmək sərf edənlərin, sərmayə qoyanların adları əbədiləşir. Belə insanlar həmişə ehtiramla, rəhmətlə yad edilir, ruhlarına daim dualar oxunur.

Şeirdəki əsas fikri müəyyənləşdirməklə şagirdlər dünyada sülhün, əmin-amanlığın bərqərar olmasında birliyin , həmrəy olmağın nə qədər mühüm əhəmiyyət kəsb etdiyi qənaətinə gəlirlər.

***Yaradıcı tətbiqetmə:*** Bəs xeyirxah insan, millət atası kimi tanınan H. Z. Tağıyev haqqında daha nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və fikirlərinizi yoldaşlarınızla bölüşün.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətn üzrə plan tərtib etmək və məzmununu öyrənmək.

## 28-ci dərs.
## § 26. Yaxşı yoldaş (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | R.d. -4.1.2.<br>X.d.-2.1.2. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3 | |
| 5. | Mövzuya uyğun yazı forması seçir və esse yazır. | 4.1.1. | |
| 6. | Əməli yazı – izahat yazır. | 4.1.4. | |

LAYİHƏ

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, şaxələndirmə, təqdimat, müzakirə.
***Resurslar:*** Dərslik, iş vərəqləri, plakat.
***Motivasiya:*** Müəllim lövhədən bir plakat asır. Orada yazılmışdır:




***Köməkçi sual:*** Bəs siz yaxşılıq deyəndə nə başa düşürsünüz?

Şagirdlərin fikirləri şaxələndirmə üsulu ilə dairənin ətrafında yazılır, "yaxşılıq" anlayışını onların necə başa düşdükləri qeydə alınır.

***Köməkçi sual:*** 1) Necə düşünürsünüz, insan etdiyi yaxşılıq üçün əvəz gözləməlidirmi?

2) Sizin üçün "yaxşı yoldaş" nə deməkdir və siz kimi özünüzə yaxşı yoldaş hesab edirsiniz?

***Tədqiqat sualı:*** 1) Hər biriniz özünüz haqqında "Mən yaxşı yoldaşam!" fikrini söyləyə bilərsinizmi? Fikirlərinizi fakt və hadisələrlə əsaslandıra bilərsinizmi?

2) Baş vermiş hər hansı bir hadisə barəsində sizdən izahat tələb etsələr, onu necə yazarsınız?

***Tədqiqatın aparılması:*** Dərslikdəki "Yaxşı yoldaş" mətni oxutdurulur. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər izah edilir və əlavə cümlələrdə işlədilir. Oxu prosesində şagirdlərin düzgün oxu bacarıqları izlənilir.

Mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi üzərində iş aparılır (3.1.3.) Bu məqsədlə şagirdlər qruplara bölünür və hər bir qrupa mətnin bir tərkib hissəsini müəyyənləşdirmək tapşırığı verilir. Şagirdlər fikirlərini onlara tapşırılan hissədə baş verən hadisələr üzərində cəmləşdirirlər. Tapşırıq şifahi yerinə yetirilir və hər qrupun lideri müəyyənləşdirdikləri hissə barədə yığcam məlumat verir. Məsələn,

Giriş hissəsi barədə təqdimat: Lalə səhər dərsə gələndə qələm götürməyi unutmuşdu. Yazı dərsi olduğu üçün o, Reyhandan ehtiyat qələmini ona verməsini xahiş etdi. Amma Reyhan bəhanə edərək qələmi yoldaşına vermək istəmədi.

Digər təqdimatlar da dinlənilir və müzakirə edilərək qiymətləndirilir.

1-ci çalışmada qoyulan suallar şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmağa (2.1.4.), 2-ci çalışma isə fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmağa (2.1.3.) imkan verir. "Hikmət xəzinəsindən" rubrikasında verilən aforizm əsasında təşkil

LAYİHƏ

edilən debat şagirdlərdə fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmaq bacarığını inkişaf etdirir. Aforizmlə mətnin məzmunu arasındakı uyğunluğu müəyyənləşdirmək məqsədilə şagirdlər əlavə fakt və hadisələrə əsaslanırlar. Bundan əlavə, 3, 5, 6, 7-ci çalışmaların icrası da şagirdlərdə müvafiq bacarıqların inkişafına əlverişli şərait yaradır. Qeyd olunan çalışmalardakı tapşırıqları yerinə yetirərkən şagirdlər həm zərfin qrammatik mənasını mənimsəyir, həm də bu prosesdə əlavə misallar söyləməklə fikirlərini əsaslandırmağı öyrənirlər. 9, 10-cu çalışmaların məzmunu da zərfin mənasının mənimsənilməsinə xidmət edir (3.1.1.)

Şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırma bacarıqlarının inkişafına şərait yaratmaq üçün qruplarla iş təşkil edilir. Qruplardan hər birinə N.Gəncəvinin aşağıdakı aforizmlərindən biri üzrə esse formasında təqdimat hazırlamaq tapşırılır və tapşırığın yerinə yetirilməsi üzrə vaxt verilir.

**1-ci iş vərəqinin tapşırığı:** Ağıllı adamla dostluq bağlasan,
Bilik və mərifət alarsan ondan. N.Gəncəvi

**2-ci iş vərəqinin tapşırığı:** Heç oturub-durma pis dostla, çəkin,
Şəninə əskiklik gətirər sənin. (Nizami Gəncəvi)

**3-cü iş vərəqinin tapşırığı:** Paxıllıq eyləsə dostuna hər kəs,
Onun yoldaşlığı torpağa dəyməz. (N.Gəncəvi)

**4-cü iş vərəqinin tapşırığı:** Çox gözəl olsa da eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək. (N.Gəncəvi)

Vaxt bitdikdə şagirdlərin təqdimatları dinlənilir və cavablar qiymətləndirilir.

"İzahat"la bağlı tədqiqat sualı ətrafında şagirdlərin axtarışları 14-cü çalışma əsasında həyata keçirilir. Sonra izahatın yazılma qaydasına diqqət cəlb edilir.

5, 11-ci çalışmalar şagirdlərin lüğət üzərində işləmələrini təşkil etməyi nəzərdə tutur.

***Məlumat mübadiləsi:*** Şagirdlər tədqiqat nəticəsində "yaxşı yoldaş" anlayışı barədə fikir mübadiləsi edir, Reyhanın hərəkətini müzakirə edərək müəyyən qənaətlə gəlirlər.

***Nəticə:*** Başqasının hərəkətlərinə qiymət vermək üçün, birinci növbədə, insan öz hərəkətlərinə də qiymət verməyi bacarmalıdır. Reyhanın qələmi yoldaşına vermədiyini müzakirə etməklə şagirdlər özlərinin də yoldaşları ilə davranışlarına sanki qiymət verirlər. Lalənin kinli olmaması, yoldaşlıq köməyini Reyhandan əsirgəməməsi Reyhanı utandırdığı kimi, nə vaxtsa yoldaşlarından öz köməyini əsirgəyən şagirdləri də öz hərəkətləri barədə düşündürür. Nəticədə, hər kəs Lalənin yaxşı yoldaş olduğunu təsdiq etməklə, həm də özünün necə yoldaş olması üzərində düşünməli olur.

"İzahat"ın yazılma qaydası ilə tanış olmaqla şagirdlər əməli yazı bacarıqlarına yiyələnir, ehtiyac duyulduqda izahat yazmağın zəruriliyini dərk edirlər.

***Yaradıcı tətbiqetmə:*** "Hikmət xəzinəsindən" rubrikasında verilmiş aforizm əsasında esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətni plan əsasında danışmaq.

LAYİHƏ

## 29-cu dərs.
## § 27. Bu gün təzə il gəlir! (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | R.d.- 1.2.3.<br>Coğ.-3.1.1.<br>Mus.3.2.1. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 4. | Fikirlərini şerin hissələrinə müvafiq qruplaşdırır | 2.1.4. | |
| 5. | Şeirdəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1 | |
| 6. | Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2 | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, təqdimat.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, mahnı yazılmış disk.

***Motivasiya:*** Müəllim sinifdə "Yeni il gəlir" mahnısını səsləndirir. Şagirdlərə mahnı tanış olduğundan hamı birlikdə oxuyur. Müəllim stolunun üstünə balaca yolka qoyulub. Yolkanın yanına Yeni ilin atributları olan Şaxta baba və Qar qız qoyulub. Müəllim qutudan bayraqlar, rəngbərəng oyuncaqlar, zərli lentlər çıxarıb şagirdləri sinfin bəzənməsinə dəvət edir. Uşaqların əhvali-ruhiyyəsi yüksəlir.

***Köməkçi sual:*** Mahnını birlikdə oxudunuz, sinfin bəzənməsinə kömək etdiniz.

1) Əhvalınızın yaxşılaşmasına nəyin səbəb olduğunu izah edə bilərsinizmi?

Cavablar dinlənilir.

Necə bilirsiniz, fikirlərinizi izah edərkən nitqinizdə ritm və tempə əməl etdinizmi?

Şagirdlər keçirdikləri hissləri izah edirlər, səbəbini aydınlaşdırırlar. Müəllim onların tələffüzündəki nöqsanları düzəldir.

***Tədqiqat sualı:*** 1) Necə bilirsiniz, nitqinizdə ritm və tempə əməl etməsəniz, sözləri düzgün vurğu ilə tələffüz etməsəniz, sizi dinləyənlər nə dediyinizi başa düşə bilərmi?

2) Yeni ilin gəlişini insanlar niyə bayram kimi qeyd edirlər?

***Tədqiqatın aparılması:***

Şagirdləri Yeni ilin tarixi, müxtəlif xalqlara aid yeni il inancları ilə tanış etmək və onların tələffüzü üzərində müşahidə aparmaq məqsədilə slayd şəklində monitorda canlandırılan məlumat və inanclar oxudulur.

Şagirdlərinin diqqətini fəallaşdırmaq üçün sinfə müraciət olunur:

Yeni il bayramının tarixi ilə əlaqədar hər hansı bir məlumatınız varmı?

Bildiklərinizi yoldaşlarınıza danışın.

Sonra müəllim slaydların oxusunu təşkil edir:

Bu bayramın öz tarixi var. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu bayram qədim german və romalılarla bağlanır. Başqa bir mənbəyə görə isə Yeni ili bayramla qarşılamaq ənənəsinin əsası eramızdan əvvəl III minillikdə Mesopotomiyada qoyulub. Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var.

LAYİHƏ

Yeni ilin başlanğıcının yanvarın 1-dən hesablanması eramızdan əvvəl 46-cı ildə Roma hökmdarı Yuliy Sezar tərəfindən təsis edilib. Romalılar bu günə Yanus allahının adını veriblər.

**İnanclar:**

1) Bolqarıstanda Yeni il axşamı uşaqlara alabəzək hədiyyələr və şirni bağışlamaq dəbdədir. Deyirlər ki, yeni il axşamı kim çox uşaq sevindirsə, təzə ildə onun o qədər fərəhli günləri olacaq.

2) Rumıniyada yeni il süfrəsi üçün içərisi sürprizlərlə dolu kökə bişirmək dəbdir. Yağlı kökənin içərisinə daha çox pul, gümüş üzük, acı istiot qoyurlar. Kökəsindən pul və üzük çıxanları xoşbəxtlik gözləyir.

Müəllim sinfə müraciət edir:

– Hansı ölkədəki adət daha çox xoşunuza gəldi?

– Sizin də bildiyiniz belə inanclar varsa, yoldaşlarınıza danışın.

Cavablar dinlənilir.

Tədqiqat dərslikdə verilmiş “Bu gün təzə il gəlir” şeirinin cütlərə oxutdurulması ilə davam edir. Oxu zamanı şagirdlərin sözləri düzgün vurğu ilə oxumaları, eyni zamanda, ritm və tempdən istifadə diqqətlə izlənir. Şeiri bütün uşaqlar oxuyurlar. “Sözlük” və “Söz ehtiyatı”nda verilmiş sözlərin izahı verilir. Şagirdlər həmin ifadələri cümlələrdə işlədirlər. Sonra müəllim şeirin məzmununu möhkəmləndirmək məqsədilə dərslikdəki çalışmalar üzərində iş aparır. Təbiidir ki, seçilmiş standartların tələbləri həm şeirin oxusu üzərində işlə, həm də çalışmalarda qoyulmuş tapşırıqların yerinə yetirilməsi ilə reallaşdırılır.

Şagirdlərin şeirin məzmun və ideyasını mənimsəmələrinə imkan və şərait yaratmaq, eyni zamanda, onların fikirlərini şeirin hissələrinə müvafiq qruplaşdırmaları və ifadə etmələrinə, fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına kömək məqsədilə 1, 2, 3, 4, 9-cu çalışmaların yerinə yetirilməsi məqsədəuyğun hesab edilir (2.1.3., 2.1.4.) . Bu bacarıqlar şeirdə işlənmiş nitq hissələrinin qrammatik mənalarının mənimsədilməsini nəzərdə tutan çalışmalarla da reallaşdırılır. Belə ki, 5-ci çalışma sifətin, 7-ci çalışma feilin qrammatik mənalarının qavranılması üzərində bilavasitə iş aparmağı nəzərdə tutsa da, bu tapşırıqları yerinə yetirən şagirdlər fikirlərini izah etdikləri dil hadisəsi üzərində cəmləşdirməli, əlavə faktlardan istifadə etməklə fikirlərini əsaslandırmalı olurlar ki, bu da öz növbəsində, seçilən altstandartların müxtəlif vasitələrlə reallaşdırılması imkanlarını genişləndirir.

Dərslikdəki 6, 8-ci çalışmalar və “Kəlmələrin dili”ni öyrənək!” rubrikası şagirdlərin lüğət ehtiyatlarını genişləndirməklə, 9-cu çalışma cümlə qurmaq bacarıqlarını təkmilləşdirməklə nitq inkişafı üzrə işlər aparılmasına xidmət edir.

Müvafiq bacarıqların formalaşdırılması üzrə diferensial iş aparmaq üçün aşağıdakı çalışmalar əsasında qruplarla iş aparmaq da tövsiyə olunur.

Lətifəni oxuyun, qırmızı rəngdə verilmiş sözlərin əşya, yoxsa hərəkət bildirən sözlərlə əlaqələndiyini müəyyənləşdirin. Sualların köməyi ilə həmin sözlərin nə bildirdiyini ( zaman, yer, kəmiyyət və s.) təyin edin.

## DİŞ AĞRISI

Deyirlər* ki, Mollanın çox tez-tez dişi ağrıyarmış. Həftələrlə* üzünü-gözünü sarıyıb ufuldaya-ufuldaya gəzərmiş, amma qorxudan gedib çəkdirməzmiş.

Bir gün yenə də üzünü böyük bir dəsmalla bağlayıb* gedirmiş. Dostların-

LAYİHƏ

dan* birisi görüb deyir:

— Ay Molla, bir diş çəkdirmək nədi ki, sən belə qorxursan? Əgər sənin o dişin mənim ağzımda olsaydı, mən elə bu saat gedib çəkdirərdim.

Molla deyir: — Sənin ağzında olsaydı, elə mən də çəkdirərdim. Dərd orasındadı ki, mənim öz ağzımdadı.

✽ Üzərində ulduz işarəsi qoyulmuş sözlərin düzgün tələffüzünü səsləndirin.

***Məlumat mübadiləsi:*** Şagirdlər şeirin məzmunu ilə tanış olduqdan və məzmuna əsasən tərtib olunmuş çalışmalarla biliklərini möhkəmləndirdikdən sonra Yeni ilin insanların əhvali-ruhiyyəsinə təsiri ilə əlaqədar fikir mübadiləsi edirlər.

***Nəticə:*** Yeni il bayramı dünyanın müxtəlif xalqları üçün ümumi bayram hesab olunur. Şeirin oxunması və mövzu ətrafında araşdırmalar nəticəsində şagirdlər Yeni ilin tarixi, müxtəlif xalqlarda yeni ili qarşılama ənənəsi barədə məlumatlar əldə etdiklərini söyləyirlər. Həmçinin mövzu üzrə aparılan işlərlə nitqlərində vurğudan, ritm və tempdən düzgün istifadə bacarıqlarını inkişaf etdirirlər.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə tapşırılır ki, dünya xalqlarının "Yeni ili" necə keçirdikləri haqqında məlumat toplasınlar və təqdimat hazırlasınlar.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeirin əzbər öyrənilməsi. Çətinlik çəkənlər şeiri nəsrə çevirib yaza bilərlər.

## 30-cu dərs.
## Özünüzü yoxlayın! (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 4. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 5. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 6. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |
| 7. | Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır. | 4.1.4. | |

***Dərsin tipi:*** Deduktiv.
***Dərsin forması:*** Böyük qrupla iş, fərdi iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, müstəqil iş.
***Resurslar:*** Dərslik, kompüter, proyektor, elektron lövhə.
***Motivasiya:*** Müəllim elektron lövhədə keçilmiş mətnlərin əlamətləri olan slaydları



LAYİHƏ

işıqlandırır. Slaydlardan bəzilərini lövhədə dondururaq hansı mətnə aid olduğunu soruşur. Şagirdlər cavab verirlər.

***Köməkçi sual:*** Bu slaydlarda gördükləriniz sizə hansı mətnləri xatırladır?

***Tədqiqat sualı:*** Bu mövzularla tanışlıq və mətnlərin oxusu sizdə hansı bacarıqları formalaşdırmışdır?

***Tədqiqatın aparılması:*** Müəllim "Özünüzü yoxlayın" bölməsində verilmiş tapşırıqların hərəsindən birini şagirdlərə verir, tapşırığın yerinə yetirilməsi üçün vaxt müəyyənləşdirir. Əgər sinifdə şagird azdırsa, hər şagirdə 2 tapşırıq də vermək olar. Vaxt tamam olandan sonra şagirdlər cavablarını təqdim etməyə başlayırlar. Hər bir şagirdin təqdimatında bütün sinif iştirak edir. Müəllim bütün cavabları istiqamətləndirir, tələffüz zamanı nitq səhvlərində düzəlişlər aparır.

1, 8, 10,11,12, 17, 29, 32,33-cü çalışmaları yerinə yetirən şagirdlər mətnlərdəki əsas fakt və hadisələri seçə bilir, 2, 3, 4, 5, 6, 8, 9,11, 12, 18, 19, 24, 26, 29,34-cü çalışmaları yerinə yetirən şagirdlər öyrəndikləri mətnlərə əsasən fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır, fikirlərini öyrəndikləri mətnin hissələrinə müvafiq qruplaşdırırlar.

7, 9, 13, 14, 15, 16, 20, 21,23, 25, 28, 31-ci çalışmaları yerinə yetirməklə şagirdlər öyrəndikləri mətnlərdəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir, 22-ci çalışmanı yerinə yetirməklə öyrəndikləri sözləri düzgün vurğu ilə oxuyurlar.

27-ci çalışmada isə şagirdlər mətnin hissələri arasında əlaqələri müəyyənləşdirə bilirlər. 30-cu çalışmanı yerinə yetirməklə şagirdlər əməli yazılar, 35, 36-cı çalışmaları yerinə yetirməklə inşa, esse yazmaq bacarıqlarını nümayiş etdirirlər.

***Məlumat mübadiləsi:*** Şagirdlər keçilmiş mətnlər əsasında əldə etdikləri bacarıqlar üzrə fikir mübadiləsi edirlər.

***Nəticə:*** Şagirdlər oxuduqları mətnləri mənimsədiklərini nümayiş etdirirlər:

- Keçilmiş mövzulara aid fikirlərini dəqiqləşdirmək məqsədilə suallar verir, əsas fakt və hadisələri seçə bilir və fikirlərini təqdim olunan mətnin hissələrinə müvafiq qruplaşdırırlar.
- Təqdim olunan mətndəki sözləri düzgün vurğu ilə oxuyur, nitqlərində sözləri düzgün vurğu ilə tələffüz edirlər.
- Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır, mətnlərin hissələrinə müvafiq qruplaşdırırlar.
- Dilin qrammatik normalarını mənimsədiklərini nümayiş etdirir, keçilmiş mətnlərdəki nitq hissələrini qrammatik mənasına görə izah edirlər.
- Keçilən mövzularla əlaqədar kiçik həcmli inşa, esse, hekayə yazırlar.

***Yaradıcı tətbiqetmə:*** "Azərbaycan dilindən öyrəndiklərim mənə nə verdi" mövzusunda inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

LAYİHƏ

## 31-ci dərs.
## § 28. Balaca aşpaz (1-ci hissə - 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d.- 2.2.1.<br>Tex.-1.3.3. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 4. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 5. | Mətnin giriş hissəsini müəyyənləşdirir. | 3.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş, fərdi iş.
***Dərsin üsulu:*** Əqli hücum, sual-cavab, müzakirə.
***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, sxem.

***Motivasiya:*** Müəllim əvvəlcədən hazırladığı videoçarxı işə salır (Azərbaycan mətbəxi / Azerbaijani cuisine ... – YouTube https://www.youtube.com/watch?v= v1Rpk7Aa1fs: sayta girməklə istənilən videonu seçməklə ) Azərbaycan mətbəxindən kadrlar göründükcə uşaqlara gördüklərini adlandırmaq tövsiyə olunur. Video ona görə maraqlıdır ki, burada Azərbaycan kulinariyası yığcam şəkildə yeməkləri, şirniyyatları, çörəkləri və içkiləri ilə əks etdirilib. Müəllim videodan istədiyi kadrları seçib göstərə bilər. Digər videolarda isə yeməklərin hazırlanma texnologiyası göstərilir. Müəllim hansı videonu istəsə seçə bilər.

***Köməkçi sual:*** Əgər evdə tək olsanız, yemək üçün özünüzə bir şey hazırlaya bilərsinizmi?

**Motivasiya: Müəllim lövhədən sxem asır. Sxemdə təsvir olunub:**




***Köməkçi sual:*** Bu insanların hər birinin sizin həyatınızdakı rolu nədən ibarətdir?

Şagirdlər ayrı-ayrılıqda adları yazılmış insanların onlar üçün hansı mənanı ifadə etdiyini söyləyirlər. Müəllim onların fikirlərini istiqamətləndirir.

***Tədqiqat sualı:*** Sizin öz yaxınlarınıza necə köməyiniz dəyə bilər?)

***Tədqiqat sualı:*** 1) Bir anlıq təsəvvür edin ki, ananız evə gec gələcək və yeməyi siz hazırlamalısınız. Nə edərdiniz? 2) Oxunan mətndə nədən bəhs edildiyini anlamaq və hadisələrin yadınızda qalması üçün nələrə diqqət yetirmək lazımdır?

***Tədqiqatın aparılması:*** Dərslikdəki “Balaca aşpaz” mətni oxunur. “Sözlük” və “Söz ehtiyatı”nda verilmiş çətin sözlər izah edilir və tədqiqat sualı üzrə axtarış aparmaq üçün mətn

LAYİHƏ

üzrə çalışmalar vasitəsi ilə işə başlanılır.

Mətn oxunduqdan sonra şagirdlərin fikirlərini mövzu ilə bağlı əlavə fakt və hadisələrlə əsaslandırmalarına şərait yaratmaq məqsədilə müəllim qruplarla iş apara bilər. Bunun üçün aşağıda verilmiş iş vərəqlərindən istifadə oluna bilər.

**1-ci iş vərəqinin məzmunu:** Ailə üzvlərinizə hansı işlərdə kömək edirsiniz?

**2-ci iş vərəqinin məzmunu:** Hansı ev işlərini xoşlayırsınız?

**3-cü iş vərəqinin məzmunu:** Ev işləri ilə məşğul olmaq dərslərinizə mane olurmu?

**4-cü iş vərəqinin məzmunu:** Ev işlərini sevərək, yoxsa məcburiyyətdən görürsünüz?

Şagirdlərə işləmək üçün vaxt verilir. Vaxt tamam olduqdan sonra şagirdlər işləri təqdim edirlər. Fərqli cavablar qiymətləndirilir.

1, 2, 3, 5-ci çalışmaların icrası mətnlə bağlı seçilmiş alt-standartların reallaşdırılmasına şərait yaradır. 1-ci çalışmadakı suallara cavab tapmaq üçün şagirdlər fikirlərini mətndəki fakt və hadisələrin üzərinə yönəldir, suala cavab verərkən fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalı olurlar (1.1.2., 2.1.3., 2.1.4.). Bu prosesdə həmçinin şagirdlərin nitqlərində vurğu, ritm və tempə düzgün əməl etmələri izlənilir, zəruri düzəlişlər edilir.

5, 6, 7, 8, 9, 11-ci çalışmalar istər mətnin məzmunu, istərsə də nitq hissələrinin qrammatik mənalarının dərk edilməsi istiqamətində şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına xidmət edir ( 2.1.3.). 6-cı çalışma əsasında şagirdlər sərbəst fikir söyləyir, nitqlərində sözün qrammatik mənalarından məqsədəmüvafiq istifadə bacarıqlarını nümayiş etdirirlər. Çalışmalar üzərində işi müəllim qruplarla, kollektivlə və ya fərdi qaydada həyata keçirə bilər. Bu, müəllimin iş metodundan, sinfin xüsusiyyətindən, hazırlıq səviyyəsindən asılıdır. Mətnin tərkib hissələri üzrə işi "Giriş" hissənin müəyyənləşdirilməsi əsasında aparmaq olar. Artıq əvvəlki dərslərdə bu istiqamətdə müxtəlif aspektli işlər aparıldığından şagirdlərin ayrı-ayrı tərkib hissələr üzərində işlədilməsi bacarıqların inkişafı baxımından əhəmiyyət daşıyır. 9, 11-ci çalışmalar nitq hissələrinin qrammatik mənaları üzərində iş aparmaqla (3.1.1) zəruri bacarıqları inkişaf etdirir. Bu çalışmalarla şagirdlərin diqqəti nitqdə inkar feillərin və zərflərin rolu üzərinə yönəldilir.

4, 8, 10-cu çalışmalar lüğət üzrə işlərə istiqamətləndirilmişdir.

***Məlumat mübadiləsi:*** Şagirdlər "Balaca aşpaz" hekayəsindəki Təranənin xörək hazırlamağa marağı və işgüzarlığı, valideynlərinə etdiyi kömək barədə fikir mübadiləsi edirlər. Müzakirələr əsasında nəticə ümumiləşdirilir.

***Nəticə:*** Hekayənin qəhrəmanı Təranə ilə tanışlıq və çalışmaların icrası şagirdlərin tədqiqat sualına cavab tapmalarına gətirib çıxarır:

6-cı sinifdə oxuyan hər bir məktəbli gücü çatan ev işlərində valideynlərinə kömək etməli, öz əşyalarını, kitab-dəftərini, otağını səliqəli saxlamalıdır. Lazım gəldikdə özünə, kiçik qardaş və bacılarına qulluq etməyi bacarmalı və bunun üçün zəruri bacarıqlara yiyələnməlidir. İstər oğlanlar, istərsə də qızlar tək olduqda müəyyən problemlərlə qarşılaşmamaq üçün kiçik yaşlarından sadə yeməklər hazırlamağı öyrənməli, müəyyən hallarda bu sahədəki bacarıqlarını ailə üzvlərinə göstərməyə cəhd etməlidirlər. Ailə üzvlərinin onlara ehtiyacı olduqda öz köməyini əsirgəməməlidirlər.

Şagirdlər mətnin məzmununu daha yaxşı mənimsəmək və yadda saxlamaq üçün sözlərin qrammatik mənalarını öyrənməyin, mətndəki fakt və hadisələrə diqqət yetirməyin zəruri olduğunu qeyd edirlər.

***Yaradıcı tətbiqetmə:*** Sadə bir salat və ya şirniyyat hazırlamaq və onu ailə üzvlərinə təqdim etmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. "Mənim valideynlərimə köməyim" mövzusunda kiçik inşa yazmaq.

LAYİHƏ

## 32-ci dərs.
## § 29. Balaca aşpaz (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.- 2.2.1.<br>Tex.-1.3.3.<br>Biol.3.2.1. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 4. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1 | |
| 5. | "Mən balaca aşpazam" mövzusunda inşa yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, debat.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, lüğət.

***Motivasiya:*** Müəllim sinfi 4 qrupa bölür. Hər qrupa hekayədəki hadisələrin necə davam etməsi ilə bağlı öz variantlarını hazırlayıb təqdim etməyi tapşırır.

***Köməkçi sual:*** 1) Təranə anasını gözləyəcək, yoxsa bişirdiyi xörəyi stola qoyacaq?

2) Təranənin bişirdiyi xörək atasının xoşuna gələcəkmi?

Cavablar dinlənilir.

3) Bəs hekayədə hadisənin necə davam etməsini bilmək istərdinizmi?

***Tədqiqat sualı:*** 1) Necə düşünürsünüz, Təranə xörəyi bişirərkən hər hansı bir səhvə yol vermişdimi?

2) Görəsən, Təranənin xörək bişirməsinə anasının münasibəti necə olacaq?

***Tədqiqatın aparılması:*** Şagirdlərin intizarına son qoymaq və tədqiqat üçün yaranmış əlverişli məqamı qaçırmamaq üçün mətnin davamının oxusu təşkil olunur. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir və tədqiqat sualı üzrə axtarış aparmaq üçün mətn üzrə çalışmalar vasitəsi ilə işə başlanılır.

Mətnin məzmununun daha yaxşı mənimsənilməsi və seçilmiş alt-standartlar üzrə nəzərdə tutulmuş bacarıqların formalaşdırılması üçün dərslikdə verilmiş çalışmaların qruplar şəklində icrası məqsədəuyğun sayılır. Qruplara bir-birinin təqdimatlarını qiymətləndirəcəkləri ilə bağlı xəbərdarlıq edilir.

Qruplar əvvəlcə 2-ci çalışma əsasında mətnə aid suallar tərtib etmə tapşırığı üzrə işləyirlər. Bu tapşırığın icrası mətnin məzmununun şüurlu şəkildə incələnməsini tələb edir. Çünki şagirdlərin tərtib etdikləri sualların orijinallığı, mətnin məzmununu nə şəkildə əhatə etməsi və qrammatik cəhətdən düzgünlüyü üzrə qiymətləndirmə aparılacaqdır. Bu tapşırığın yerinə yetirilməsi 1-ci çalışmanın icrasını asanlaşdırır. Belə ki, suallar tərtib edərkən mətn üzərində incələmə aparan şagirdlər artıq hadisələrin ardlcıllığı ilə tanış olur, əsas hadisələrin nədən ibarət olduğunu öyrənirlər. Mətnin planının tərtibi isə şagirdlərdə mətnin hissələri arasındakı əlaqələri müəyyən etmək, fikirlərini rabitəli və ardıcıl şəkildə təqdim etmək bacarığını inkişaf etdirir.

LAYİHƏ

3-cü çalışma şagirdlərə fikirlərini mətnin hissələri üzrə qruplaşdırmaq bacarığı formalaşdırır. Tapşırıq əsasında müzakirə şagirdlərin hadisələr arasındakı əlaqələri müəyyən etmək və fikirlərini əsaslandırmaq üçün əlavə fakt və hadisələrə müraciət etməyi tələb edir.

4, 5, 8-ci çalışmaların icrası şagirdlərin söylədikləri fikirləri əsaslandırmalarını tələb edir ki, bu da əlavə faktlara istinad etməklə mümkündür. "Hikmət xəzinəsindən" rubrikasında verilmiş aforizm əsasında debata qoşulmaq üçün də (çalışma 7) şagirdlər əlavə fakt və hadisələrə əsaslanmalı olurlar.

9, 10, 11-ci çalışmalar nitq hissələrinin qrammatik mənasının dərk edilməsi üzrə işlər aparmağı nəzərdə tutur. Şagirdlər bu tapşırıqları yerinə yetirərkən ismin, felin və zərfin qrammatık mənaları üzərində düşünür, ismin hal, feilin zaman və şəxs şəkilçilərindən, zərfin məna növlərindən nitqdə məqsədəmüvafiq istifadə sahəsində bacarıqlarını inkişaf etdirirlər.

12-ci çalışma şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirməklə yanaşı, sifətlərin nitqdəki rolunu dərk etməyə də kömək edir.

Hər iki dərsin motivasiyası və mətnin məzmunu üzərində aparılan işlər şagirdlərdə mövzuya maraq oyatdığından "Mən balaca aşpazam" mövzusunda inşa yazmaq yerinə düşür. Müəllim əlverişli emosional durumdan istifadə etməlidir.

Tədqiqat sualı ətrafında şagirdləri qruplar şəklində aşağıdakı iş vərəqləri üzrə də işlətmək olar. Iş vərəqlərində müxtəlif atalar sözləri verilmişdir. Qrupların hər biri onlara verilmiş atalar sözünün mənasını izah etməli və onun mətnin məzmunu ilə əlaqəsini göstərməlidirlər. Bu məqsədlə dərslikdəki 5-ci çalışmadakı atalar sözlərindən də istifadə oluna bilər.

**1-ci iş vərəqi:** Böyük tökəni kiçik yığar.

**2-ci iş vərəqi:** Böyük danışanı kiçik götürər.

**3-cü iş vərəqi:** Bilməmək ayıb deyil, soruşmamaq ayıbdır.

Şagirdlərə verilən vaxt bitdikdən sonra qruplar öz işlərini təqdim edirlər. Təqdimat zamanı müəllim onların tələffüzünə, ritm və tempə necə əməl olunduğuna fikir verməlidir. Cavablar qiymətləndirilə bilər.

***Məlumat mübadiləsi:*** Şagirdlər "Balaca aşpaz" mətninin qəhrəmanı Təranənin nədə səhvə yol verdiyi, anasının bu məsələyə münasibəti üzərində fikir mübadiləsi edirlər.

***Nəticə:*** "Balaca aşpaz" mətninin davamını oxumaqla şagirdlər Təranənin nədə səhvə yol verdiyini öyrənir, anasının bu məsələyə münasibəti ilə tanış olurlar. Onlar başa düşürlər ki, bir işi öyrənmək üçün cəhd etmək lazımdır. İnsan o vaxt səhvə yol vermir ki, o heç nə etmir. Hər hansı bir iş görərkən ilk uğursuzluqdan geri çəkilmək, həvəsdən düşmək doğru deyildir. Atalarımızın çox gözəl bir sözü var: "Uşaq yıxıla-yıxıla böyüyər". Başqa bir atalar sözümüzdə isə deyilir: "Yanlış da bir naxışdır". Təranənin işgüzarlığı, öyrənmək istəyi, özünü sınaması şagirdlər tərəfindən alqışlanır və təqdir olunur.

Şagirdlər onu da başa düşürlər ki, uşaqlar hər hansı bir yanlışlığa yol verdikdə bu, valideynlər tərəfindən anlayışla qarşılanır və səhvin düzəldilməsi üçün onlar hər zaman övladlarının yanında olurlar.

Mətn üzərində iş şagirdlərdə dildən istifadə sahəsində bir sıra həyati bacarıqların formalaşmasına və inkişafına da kömək edir. Onlar mətn üzrə suallar tərtib edir, mətnin planını qurur, fikirlərini əsaslandırmaq üçün uyğun fakt və hadisələrə müraciət edir, dil vasitələrindən məqsədəmüvafiq şəkildə istifadə edirlər.

***Yaradıcı tətbiqetmə:*** "Mən balaca aşpazam" mövzusunda " inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** "Çox yemək adamı az yeməkdən də qoyur" atalar sözünün mənasını şərh etmək, fikirlərini müvafiq fakt və hadisələrlə əsaslandırmaq.

LAYİHƏ

## 33-cü dərs.
## § 30. Uşun qoca oğlu Səgrək boyu (1-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir | 2.1.1. | R.d. -1.2.3.<br>A.t.-2.1.1. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3 | |
| 4. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 5. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə, debat.

***Resurslar:*** Dərslik, proyektor, disk.

***Motivasiya:*** Müəllim elektron lövhədə "Dədə Qorqud" filminin başlanğıcını nümayiş etdirir. Oradakı oğuzların şadyanalığa hazırlıq mərasimi, oğuz igidlərilə, oğuzların adət və ənənələri ilə tanışlıq səhnələrini canlandırılır.

***Köməkçi sual:*** 1) Gördüyünüz bu səhnələr barədə nə deyə bilərsiniz? Bu kadrlar hansı filmdəndir?

2) Bu filmin hansı əsər əsasında çəkildiyini bilirsinizmi?

3) Bu dastanın qəhrəmanlarından kimin adını çəkə bilərsiniz? 4-cü sinifdə dastanın hansı boyu barədə məlumat almışdınız?

Şagirdlər kadrlara baxdıqdan sonra öz təəssüratlarını bölüşürlər, suallara cavab verirlər. Müəllim onlarda oğuzlar barədə təsəvvür oyatmağa çalışır.

***Tədqiqat sualı:*** 1) Oğuz igidləri barədə nə bilirsiniz? Onların hər hansı bir xarakterik cəhəti barədə məlumatınız varmı?

2) İzah etmək istədiyiniz bir məsələni əsaslandıra bilməsəniz, o, inandırıcı olarmı?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki "Uşun qoca oğlu Səgrək boyu"nun oxusu ilə başlayır. Mətnin məzmunu üzrə iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası izah edilir. Söz və ifadələrin şagirdlərin lüğətinə daxil edilməsi, fəallaşdırılması məqsədilə ənənəvi qaydada onların cümlələrdə işlədilməsi həyata keçirilir. Sonra seçilmiş alt-standartlar üzrə bacarıqların inkişafı çalışmalarla davam etdirilir.

Dərsdə daha çox şagirdlərin həm mətnin oxusu zamanı, həm də nitqlərində sözlərin düzgün vurğu ilə tələffüzü, ritm və tempə əməl etmələri üzərində işlərə daha çox yer verilir və müvafiq bacarıqların formalaşdırılması və təkmilləşdirilməsi həyata keçirilir. Bu məqsədlə mətnin oxusu təşkil edilir. Müəllim yoldaşlarının tələffüzü üzərində şagirdlərin müşahidəsini təşkil edir, səhvlərin qeydə alınmasını tapşırır. Şagirdlərin şifahi nitqlərində müvafiq

Layihə

bacarıqların səviyyəsi digər çalışmaların yerinə yetirilməsi prosesində izlənir.

Belə ki, 1, 2, 3, 4, 5, 6, 7-ci çalışmaların hər biri şagirdlərdə nitq inkişafı baxımından müxtəlif bacarıqların formalaşdırılmasını nəzərdə tutsa da, bu çalışmalarda qoyulan tapşırıqların yerinə yetirilməsi şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarını tələb edir (2.1.3.), həmin prosesdə həm də "2.1.1., 2.1.2." alt-standartlarının tələbləri reallaşdırılır. 2-ci çalışma əsasında debata qoşulan şagirdlər fikirlərini əsaslandırmaq üçün müəyyən fakt və hadisələrə istinad edir, eyni zamanda, dilin düzgün tələffüz normalarına nə şəkildə yiyələndiklərini nümayiş etdirirlər.

Dərslikdəki 1, 2 və 9-cu çalışmalar şagirdlərin diqqətini mətnin məzmunu üzərində cəmləməyə, fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına şərait yaradır (2.1.4.).

4, 5, 6, 7, 8, 11-ci çalışmalar şagirdlərin nitq inkişafı baxımından çox mühüm bir istiqamət olan lüğət üzrə işlər aparmaq üçün tərtib edilmişdir ki, bu tapşırıqların yerinə yetirilməsi şagirdlərin lüğət ehtiyatının dəqiqləşdirilməsi və fəallaşdırılması baxımından əhəmiyyətlidir.

3-cü çalışma şagirdlərin mövzu ilə əlaqədar əlavə faktlarla, nitq etiketləri və alqışlarla tanış olmalarına xidmət edir.

***Məlumat mübadiləsi:*** Şagirdlər "Kitabi-Dədə Qorqud" dastanından "Uşun Qoca oğlu Səgrək boyu"ndan oxuduqları hissə əsasında oğuz igidlərinin xarakter xüsusiyyətləri – sözünün üstündə durmaq, böyüyə hörmət (görüşəndə atından enmək, əlini öpmək, boynunu qucaqlamaq), qorxmazlıq barədə müzakirə aparırlar. Bu məsələləri müzakirə edərkən fakt və hadisələrə müraciət etməyin fikirlərini əsaslandırmaq üçün zəruri olduğu qeyd olunur.

***Nəticə:*** Milli-mədəni sərvətimiz olan "Kitabi-Dədə Qorqud" dastanından "Uşun Qoca oğlu Səgrək boyu"nu oxumaqla şagirdlər oğuzların qəhrəmanlıq tarixinə səyahət edir, onların ailə dəyərlərini müqəddəs hesab etmələrinin şahidi olur, igidliklərinin nədən qaynaqlandığı barədə təsəvvürə yiyələnirlər. Fikirlərini əsaslandırmaq üçün dastandakı faktlara (Qardaşım tutulan qalaya getməyincə, onun ölü, ya diri olduğunu bilməyincə, ölübsə, qanını almayınca Qalın Oğuz elinə qayıtmaram) müraciət edirlər. Səgrəyin qardaşı üçün həyatını təhlükə qarşısında qoymaqdan çəkinməməsi, dediyindən dönməməsi şagirdlər üçün qorxmazlıq nümunəsi olur.

Bu dastan qəhrəman oğuz igidlərinin tarixi keçmişi ilə şagirdləri tanış edir, onları soy-kökümüzə daha çox bağlayır. 1300 illik tarixi yol keçmiş dastanda təsvir olunmuş hadisələr bu günümüzə də işıq salır.

***Yaradıcı tətbiqetmə:*** Oxunmuş hissədəki hadisələr əsasında Səgrəyi səciyyələndirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin I hissəsinin məzmununu danışmaq. Tərtib olunmuş planı təkmilləşdirmək.

LAYİHƏ

## 34-cü dərs.
## § 31. Uşun qoca oğlu Səgrəyin boyu (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2 | A.d. -2.2.3.<br>A.t.-2.1.1 |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3 | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1 | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2 | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3 | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qrupla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, rollu oyun, müzakirə.

***Resurslar:*** Dərslik, proyektor, disk.

***Motivasiya:*** Müəllim şagirdlərə I hissənin məzmununu səhnələşdirməyi təklif edir (şagirdlərin bu parçanı səhnələşdirmələri onların mətnin məzmununu daha da yaxşı mənimsəmələrini təmin etmək üçündür). Şagirdlər səhnəni göstərirlər. Rolları ifa edərkən müəllim onların sözləri düzgün tələffüz etmələrinə diqqət edir.

***Köməkçi sual:*** Uşaqlar, sizcə, bu hadisənin davamı necə olacaq?

Şagirdlərin fərziyyələri dinlənilir.

Qeyd. Motivasiya "Dədə Qorqud" filmindən Beyrəyin dustaqda olduğu kadrın nümayişi üzərində də qurula bilər.

***Tədqiqat sualı:*** 1) Necə düşünürsünüz, dastandan götürülmüş aşağıdakı parça Səgrəyin anasının, yoxsa nişanlısının dilindən deyilir? Fikrinizi əsaslandırın .

İgidim, mən səni bir il gözlərəm,
Bir ilə gəlməsən, iki il gözlərəm.
İki ilə gəlməsən, üç-dörd il gözlərəm.
Dörd il yox, beş-altı il gözlərəm.
Altı yolun ayrıcında çadır quraram,
Gedəndən, gələndən xəbər soruşaram.
Xeyir xəbər gətirənə at, don verərəm,
qaftanlar geydirərəm.

2) Mətnin hissələri bir-biri ilə əlaqələndirilməsə, hadisələrin ardıcıllığını izləmək mümkün olarmı?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki "Uşun Qoca oğlu Səgrəyin boyu" mətninin II hissəsinin oxusu ilə başlayır. Əvvəlcə mətnin sual qoyulmuş hissəyə qədər olan hissəsi oxudulur və mətnin oxusu dayandırılır. Bütün dərs boyu səsi azaldılmış "Dədə Qorqud" filmi nümayiş etdirilir ki, dastan qəhrəmanlarının surətləri şagirdlərin yaddaşlarında həkk olunsun. Çətin söz və ifadələrin mənası izah edilir, "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər cümlədə işlədilir, sinonimləri tapılır. Sonra şagirdlərin söz ehtiyatlarını artırmaq, düzgün cümlə qurmaq qabiliyyətlərini inkişaf etdirmək, öyrəndikləri dil materiallarını praktik yolla tətbiq etmək



LAYİHƏ

imkanlarını genişləndirmək məqsədilə çalışmalar yerinə yetirilir.

4.1.2. alt-standartı üzrə bacarıqların formalaşdırılmasını müəllim mətn üzrə işlə həyata keçirir. Bu məqsədlə mətnin birinci hissəsinin necə nəticələndiyini yada salmaq tövsiyə edilir. Sonra mətndə sual qoyulmuş yerə qədər olan hissənin məzmunu üzərində fikir mübadiləsi edilir, məzmun nəzərdən keçirilir. Nəhayət, diqqət yaşıl rəngdə verilmiş suala cəlb edilir ( Necə düşünürsünüz, Səgrək qardaşını xilas edə biləcəkmi? Əhvalatı necə davam etdirərdiniz?) və hadisələrin davamı ilə bağlı şagirdlərə versiyalarını təqdim etmək tapşırılır. Bunun üçün sinif tez qruplara bölünür və hər qrup öz variantını təqdim edir. Sonra mətnin davamı oxudulur və yenə də diqqət sonda qoyulmuş suala cəlb edilir (Necə düşünürsünüz, Əgrək kafirlərlə razılaşacaqmı? Bəs siz bu əhvalatı necə davam etdirərdiniz? Öz variantınızı təqdim edin). Göstərilən şəkildə aparılan işlərlə şagirdlər praktik şəkildə (qoyulmuş suallar əsasında) mətnin hissələri arasında əlaqələr yaradırlar ki, bu da, öz növbəsində, nəzərdə tutulan bacarığın inkişafına xidmət edir.

Dərslikdəki 1-ci çalışmanın yerinə yetirilməsi şagirdlərin diqqətlərinin mətndəki fakt və hadisələr üzərində cəmləşdirilməsini tələb edir. Belə ki, mətndəki fakt və hadisələr barədə aydın təsəvvürə malik olmadan sualların mətnin məzmununu ifadə etmədiyini əsaslandırmaq mümkün deyildir. Beləliklə, bu çalışma üzərində iş seçilmiş iki alt-standartın ( 1.1.2., 2.1.3.) paralel olaraq reallaşdırılmasını təmin edir. 4, 5-ci çalışmaların yerinə yetirilməsi qeyd olunan bacarıqların inkişafına təkan verir.

Dərslikdəki 2, 6, 8, 9-cu çalışmalar isim, say, fel kimi əsas nitq hissələrinin qrammatik mənasının dərk edilməsi, eyni zamanda, həmin nitq hissələri ilə bağlı düzgün yazılış qaydaları ilə bağlı bacarıqların təkmilləşdirilməsi üçün hazırlanmışdır (3.1.1., 4.1.3.).

Şagirdlərdə tərcümə bacarığının inkişafına şərait yaradan 3-cü çalışmadakı tapşırığın yerinə yetirilməsi düzgün yazılış qaydalarının praktik tətbiqinə və nitq hissələrinin qrammatik mənalarının mənimsənilmə səviyyəsinin praktik yolla üzə çıxarılmasını nəzərdə tutur. (Qeyd. Tərcümə nəticəsində aşağıdakı söz birləşmələri alınmalıdır: döyüş paltarı, Təkurun casusları, atın yüyəni, at kişnərtisi, üç yüz silahlı, bir alay atlı, qardaşının tutulduğu qoruq, kafirlərin hamısı, oğlanın qolu)

10-cu çalışmanın mətni şagirdləri mövzu ilə əlaqədar əlavə faktlarla tanış edir, onların nitqinə hazır ifadələrin daxil olmasını təmin edir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətndə rast gəldikləri “Oğuz oğlunu oğuz oğlu məğlub edə bilər” fikri və tədqiqat sualında səslənən şeir parçası ətrafında müzakirə aparırlar.

***Nəticə:*** Şagirdlər oxunmuş hissənin məzmunu əsasında tədqiqat sualına cavab tapır, fikirlərini dastandakı fakt və hadisələrlə əsaslandırırlar. Onlar Əgrək və Səgrəyin hekayəti əsasında həmçinin öyrənirlər ki, öğuz igidini oğuz igidindən başqa, heç kəs məğlub edə bilməz. Bir tək oğuz igidinin kafirlərin onlarla silahlısını məğlub etməsi faktı şagirdlərdə qürur hissi doğurur. Səgrəyin igidliyi, sözündən dönməməsi gənc nəsillərə bir örnək olduğu üçün alqışa layiq hesab olunur.

Bugünkü nəslin nümayəndələri Səgrək kimi oğuz igidlərindən nümunə götürür, Mübariz İbrahimov kimi oğullarımız torpaqlarımızı yağı düşmənin tapdağından qurtarmaq üçün canlarını belə əsirgəmirlər. Bu isə oğuzların qəhrəmanlıq tarixinin bitmədiyinin, davam etdiyinin əyani sübutudur.

Mətnin tərkib hissələri üzrə işləyərkən şagirdlər hadisələrin ardıcıl inkişafını izləmək üçün hissələr arasındakı əlaqələri müəyyənləşdirməyin əhəmiyyətini anlayırlar.

***Yaradıcı tətbiqetmə:*** Nitqinizdə işlətdiyiniz alqışlardan bir neçəsini dəftərinizə yazın, böyüklərdən yenilərini soruşub öyrənin, yeri gələndə onlardan istifadə edin.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** II hissənin məzmunu əsasında plan tərtib etmək .

LAYİHƏ

# 35-ci dərs.
# § 32. Uşun qoca oğlu Səgrəyin boyu (3-cü hissə - 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d.-2.2.2.<br>A.t.-2.1.1. |
| 2. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 4. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1 | |
| 5. | Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir. | 3.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük qrupla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, Klaster, rollu oyun, müzakirə.
***Resurslar:*** Dərslik, proyektor, filmin diski.
***Motivasiya:*** Proyektor vasitəsilə elektron lövhədə "Dədə Qorqud" filmindən Qaraca çobanın düşmənlərlə təkbaşına döyüşdüyü hissə canlandırılır.

***Köməkçi sual:*** Qaraca çobanın sözlərindən oğuz igidlərinin başqa hansı keyfiyyətlərini müşahidə etdiniz?

Cavablar dinlənir. (Oğuzlar intiqamlarını özləri almağı sevir, başqasının köməyindən sui-istifadə etmir, bunu qəhrəman üçün alçaqlıq hesab edirlər).

Müəllim məktəb kitabxanasından götürdüyü "Kitabi-Dədə Qorqud" dastanını şagirdlərə göstərərək deyir:

***Köməkçi sual:*** 1) Artıq 3-cü dərsdir ki, bir oğuz igidi Səgrəyin əhvalatı ilə tanış olursunuz. Dastanda oxuduğunuz boydan başqa daha neçə boy olduğunu bilirsinizmi?

2) Necə düşünürsünüz, bəs dastanın digər boylarında söhbət nədən gedə bilər? (Oğuz ididlərinin qəhrəmanlığından, yoxsa Dədə Qorqudun macəralarından?).

Şagirdlər fərziyyələrini söyləyirlər.

***Tədqiqat sualı:*** 3) Oxuduqlarınız və filmdən gördükləriniz əsasında oğuz igidləri haqqında sizdə necə bir qənaət hasil oldu? Oğuz igidləri üçün yüksək tutulan dəyərlər nədən ibarətdir?

2) Sizcə, bu kitab niyə məhz "Kitabi-Dədə Qorqud" adlanır? (Dastanın 1-ci hissəsi ilə əlaqədar verilmiş çalışmalardan birində buna işarə edilmişdi).

***Tədqiqatın aparılması:*** Şaxələnmə üsulu ilə söz assosiasiyası yaradılır. Lövhədə Dədə Qorqud sözü yazılır. Şagirdlər növbə ilə sözü şaxələndirirlər.

LAYİHƏ




Müəllim şagirdlərin düzgün assosiasiya yaratmasına nəzarət edir, köməkçi suallarla onları istiqamətləndirir.

***Köməkçi sual:*** 1) Dədə Qorqud kimdir?

2) Dədə Qorqud bütün boylarda iştirak edirmi?

3) Dədə Qorquda boylarda nə vaxt müraciət olunur?

4) Dədə Qorqudun müdrik olduğunu nədən bilmək olur?

5) Dədə Qorqudun oğuzların bilicisi olması haqqında haradan məlumat almaq olar?

6) Dədə Qorqudun Bayat boyundan olması barədə harada məlumat verilir?

7) Dədə Qorqudun Məhəmməd Peyğəmbərin zamanına yaxın yaşaması barədə harada məlumat verilir?

Şagirdlərin cavabları dinlənilir. Müəllim suallara haradan cavab tapacaqlarına işarə edərək şagirdləri istiqamətləndirir (dastanın 1-ci hissəsi ilə əlaqədar verilmiş 3-cü çalışmanın mətni). Müəllim yoldaşlarının cavablarını dinləyərkən nitqlərində vurğudan düzgün istifadə ilə bağlı şagirdləri diqqətli olmağa dəvət edir. Müşahidə olunan səhvlərin qeydə alınmasını tapşırır. Suallara cavablar yekunlaşandan sonra vurğu səhvləri təhlil olunur.

Tədqiqat "Uşun Qoca oğlu Səgrəyin boyu" mətninin III hissəsinin oxusu ilə davam etdirilir. 3-cü hissə ilə bağlı "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlər şagirdlərə izah edilir, onların mətndəki işlənmə yerlərinə diqqət yetirilir, bəziləri cümlə içərisində işlədilir.

Müəllim 1-ci çalışmaya şagirdlərin diqqətini cəlb edir, mətn üzrə tərtib edilmiş planda ardıcıllığın pozulmasını qeyd edərək, düzgün ardıcıllığı bərpa etmək lazım olduğunu bildirir. 2-ci çalışma şagirdlərin diqqətini mətndəki faktlara yönəldir. 3-cü çalışma əsasında təşkil edilən müzakirə şagirdlərə fikirlərini mətndəki faktlarla əsaslandırmalarına stimul verir. 4, 5, 7 və 9, 11-ci çalışmalar da mətnin məzmununun qavranılması yolu ilə seçilmiş alt-standartlar üzrə müvafiq bacarıqların (1.1.2., 2.1.1., 2.1.3.) formalaşdırılmasına şərait yaradır. 9, 11-ci çalışmalar həmçinin şagirdlərin nitqinin alqış və dualarla zənginləşdirilməsinə də xidmət edir.

3-cü hissənin oxusu ilə boyun tam oxusu başa çatdığından müəllim mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi üzrə qruplarla iş aparır. Qruplarla işdə şagirdlər hər bir tərkib hissənin qısa məzmunu barədə təqdimat etmək tapşırığı alırlar.

Şagirdlərin cavabları dinlənilir və qiymətləndirmə aparılır.

6-cı çalışma vasitəsi ilə şagirdlərin diqqəti zərflərin nitqdəki roluna və düzgün yazılışına yönəldilir ki, müəllimlər bu imkanlardan məqsədəmüvafiq istifadə etməlidirlər.

"Kəlmələrin dilini öyrənək!" rubrikası və 6, 8, 11-ci çalışmalar şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzərində işlər aparılmaqla onların lüğətinin dəqiqləşdirilməsinə, həmçinin fəallaşdırılmasına istiqamətləndirilir.

LAYİHƏ

***Məlumat mübadiləsi:*** Şagirdlər oxuduqları və filmdən gördükləri əsasında oğuz igidləri haqqında qənaətlərini və onların dəyər verdiyi məsələləri müzakirə edirlər.

Bu kitabın niyə məhz "Kitabi-Dədə Qorqud" adlanması barədə qənaətlərini bölüşürlər.

***Nəticə:*** "Uşun Qoca oğlu Səgrək boyu" ilə tanışlıq nəticəsində və çalışmalar üzərində axtarış aparmaqla şagirdlər öyrənirlər ki, "Kitabi-Dədə Qorqud" dastanı qəhrəmanlıq eposudur, tarixi keçmişimizi, oğuz tayfalarının tarixini əks etdirir. Oğuz igidləri elinə, ailəsinə, dostlarına, sevgilərinə sadiq insanlardır. Səgrək də, Əgrək də belə qəhrəmanlardandır.

Mətnin axırıncı hissəsinin məzmunu ilə tanışlıq "Oğuz oğlunu oğuz oğlu məğlub edə bilər" ifadəsinin məzmununun tam açılmasına imkan verir. Şagirdlər Səgrək və Əgrəyin nümunəsində dastan qəhrəmanları olan oğuz igidlərinin xarakterik xüsusiyyətləri (düşmənə qarşı amansızlıq, qorxmazlıq, andına sədaqətli olmaq, sözündən dönməmək, ata-anaya ehtiram, ailəyə, onun üzvlərinə bağlılıq və s.) ilə tanış olur, onlar üçün qiymətli olan dəyərlər (qopuz, torpaq, düşmən qabağından qaçmamaq, intiqamını özü almaq və s.) barədə təsəvvürə yiyələnirlər.

Şagirdlər tədqiqat nəticəsində Oğuz igidlərinin qəhrəmanlıqlarının şahidi kimi bütün hadisələri Dədə Qorqudun danışması, oğuzların kamil bilicisi olması, hər şeydən xəbər vermək qabiliyyətinin olduğunu və buna görə də "Kitabi-Dədə Qorqud" dastanının Dədə Qorqudun adı ilə əlaqələnməsini öyrənirlər.

***Yaradıcı tətbiqetmə:*** Səgrəyin ata-anasını, Səgrəyi və Əgrəyi ayrı-ayrılıqda səciyyələndirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** "Oğuz oğlunu oğuz oğlu məğlub edə bilər" fikri üzrə esse yazmaq.

III hissənin məzmununu danışmaq.

## 36-cı dərs.
## § 33. Vətən əbədi qoruqdur (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi şeirdəki əsas fakt və hadisələri seçir. | 1.1.2 | R.d. -3.1.2.<br>A.t. -2.1.2.<br>Coğ.3.1.2<br>Mus.2.2.1. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3 | |
| 3. | Fikirlərini şerin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4 | |
| 4. | Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2 | |
| 5. | Mövzuya uyğun esse yazır. | 4.1.1 | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə, debat.

***Resurslar:*** Dərslik, dəftər, proyektor, videoçarx.

***Motivasiya:*** Müəllim elektron lövhədə Mübariz Tağıyevin ifasında Faiq Sücəddinovun Cabir Novruzun sözlərinə bəstələdiyi "Vətəndən pay olmayır" mahnısını səsləndirir və videoçarxı göstərir. Şagirdlər musiqini dinləyirlər. (www.google.az Mubariz Tagiyev – Vetenden pay .... mp3)

LAYİHƏ

***Köməkçi sual:*** Mahnıda tez-tez təkrar olunan “Vətəndən pay olmayır” ifadəsini izah edə bilərsinizmi?

Şagirdlərin fərziyyələri dinlənilir.

***Tədqiqat sualı:*** Sizcə, babalarımızdan bizə miras qalan bu torpaqdan pay verməyə kiminsə haqqı varmı? Bu torpaqları göz bəbəyi kimi qorumasaq, babaların ruhu, tarix bizi bağışlayarmı?

***Tədqiqatın aparılması:*** Müəllim şagirdlərin rabitəli nitqlərini inkişaf etdirmək məqsədilə şagirdləri 3 qrupa bölür. Hər qrupa tapşırıqlar yazılmış iş vərəqləri paylayır.

**1-ci iş vərəqinin tapşırığı**: “Vətən viranə də olsa, yenə cənnətdir” atalar sözünün mənasını öz sözlərinizlə izah edin.

**2-ci iş vərəqinin tapşırığı:** “Gözsüz yaşamaq olar, Vətənsiz yox” atalar sözünün mənasını öz sözlərinizlə izah edin.

**3-cü iş vərəqinin tapşırığı:** “Qürbət yerdən Vətən olmaz!” atalar sözünün mənasını öz sözlərinizlə izah edin.

Şagirdlər üçün ayrılmış vaxt bitdikdən sonra təqdimatlar dinlənilir. Fərqli cavablar qiymətləndirilir. Şagirdlərin nitq səhvlərinə düzəlişlər edilir.

Tədqiqat dərslikdəki “Vətən əbədi qoruqdur...” şeirinin oxusu ilə davam etdirilir. Şeirin hər bəndi bir şagirdə oxutdurulur. Şeirin oxusu prosesində məzmun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlərin mənası izah edilir, cümlələrdə işlədilir.

Şeirin məzmunu üzrə işin ardınca sözlərin düzgün vurğu ilə oxunması üzərində işə yer verilir (3.1.2.) Şeir bənd-bənd ayrı-ayrı şagirdlərə oxudulur və onların tələffüzü üzərində müəllimin və yoldaşlarının müşahidəsi təşkil edilir. Oxuya ayrılmış vaxt bitdikdən sonra səhv vurğu ilə tələffüz olunan sözlər bir daha səsləndirilir və nöqsanların aradan qaldırılması üzərində praktik iş aparılır.

Şeirin məzmununun qavranılmasına və seçilmiş alt-standartlar üzrə bacarıqların formalaşdırılması məqsədilə çalışmaların icrasına başlanılır.

Dərslikdəki 1, 4-cü çalışmanın icrası “Vətən əbədi qoruqdur...” fikrinin dərk olunmasına, şeirin ideyasının qavranılmasına istiqamətləndirilmişdir. Çalışmalardakı testlərin cavab variantları ilə tanışlıq şagirdlərin diqqətini Vətənin müqəddəsliyi fikrinin şeirdə necə əks olunmasına cəlb edir, mövzunu anlamağı asanlaşdırır.

2, 5, 6-cı çalışmalar şagirdlərin fikirlərini şeirin müvafiq hissələri üzərində qruplaşdırmağa şərait yaradır ( 2.1.4.); 7, 9, 10, 11-ci çalışmalar isə onların fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmaları üçün material verir (2.1.3.). Yaxşı olar ki, vaxta qənaət etmək və müvafiq bacarıqların formalaşdırılmasını səmərəli təşkil etmək üçün çalışmaların icrasını qruplarla iş formasında təşkil etsin.

Dərslikdəki 3, 5, 8, 11-ci çalışmalar əsas nitq hissələri ilə bağlı leksik və qrammatik işlər aparılmasını, şeirdə işlənən sözlərin hər iki aspektdən mənalarının izahını nəzərdə tutur.

11-ci çalışma əsasında təşkil edilən debat şagirdlərin sərbəst fikir söyləməsi, fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmaları üçün real zəmin yaradır. Şəhid şairin dərslikdə adı çəkilən şerini sinifdəki şagirdlərlə eyni yaşda olarkən yazması faktı emosional vəziyyət yaratmaqla vətənpərvərlik duyğusunu daha da artırır.

“Kəlmələrin dilini öyrənək!” rubrikası şagirdlərin əvvəlcədən bildikləri ümumişlək sözlərin yeni mənalarını öyrənmələri məqsədilə verilmişdir.

Çalışma № 4-ü yerinə yetirməklə şagirdlər nitqdəki müəyyən qrup sözlərin suala cavab verə bilmədikləri ilə praktik yolla qarşılaşdırılırlar. “Bunları bilirisnizmi?” rubrikasında isə onlar əsas nitq hissələrindən, yəni leksik mənası olan sözlərdən başqa, nitqdə köməkçi vasitələrdən (köməkçi nitq hissələrindən) istifadə barədə sadə təsəvvür əldə edirlər. Nəzərə

LAYİHƏ

almaq lazımdır ki, bu məlumat şagirdləri köməkçi nitq hissələri ilə tanış etməyi nəzərdə tutmur. Əksinə, şagirdlərin əsas nitq hissələri ilə bağlı səhvlərə yol verməmələri üçün bu ümumi tanışlığın verilməsi məqsədəuyğun hesab edilmişdir. Şagirdlərin tədris dilindən biliklərinə istinad edərək, dildə suala cavab verməyən sözlərin də əhəmiyyəti xatırladılmalıdır ki, onlar əsas nitq hissələrinə aid olan sözlərin qrammatik mənasını köməkçi sözlərlə qarışdırmasınlar.

Müəllim şagirdlərə təklif edir ki, şeirin məzmunu üzərində aparılan işlərin doğurduğu təəssürat əsasında esse yazsınlar və yoldaşlarına oxusunlar. Şagirdlərin vətənpərvərlik duyğularını daha da coşdurmaq üçün aşağıdakı bayatılar səsləndirilir.

Aşağıdakı bayatıları oxuyun və əzbərləyin. "Vətənsiz insan qanadsız quşdur" başlıqlı esse yazın.

Qəribəm vətənim yox,
Bu yoldan ötənim yox,
Düşdüm dərin dəryaya,
Əlimdən tutanım yox.

Dağlar başı buz bağlar,
Dörd yanı yarpız bağlar,
Qürbət eldə ürəyim,
Dərddən, qəmdən buz bağlar.

***Məlumat mübadiləsi:*** Şagirdlər Vətən üçün, Vətənin müdafiəsi üçün canını qurban verənlərin müqəddəsliyə qovuşması, şəhidlik zirvəsinə ucalması fikrini müzakirə edirlər. C.Məmmədquluzadənin "Elə çalışmalısan ki, öləndən sonra da ölməyəsən – həyatın məqsədi məhz budur" aforizminin təhlili ilə aparılır.

***Nəticə:*** Şagirdlər şeirin oxusu və məzmunu üzərində aparılan işlərlə tədqiqat sualına cavab tapır,Vətənin nə üçün əbədi qoruq adlanmasını başa düşürlər. Vətənin hər qarış torpağı əcdadlarımızın qanı ilə suvarılıb, onun yolunda on minlərlə insan şirin canından keçib – çağdaşımız Mübariz İbrahimov kimi, kimi, 44 günlük II Qarabağ müharibəsində Vətən üçün canından keçən şəhidlərimiz və qazilərimiz kimi! Ona görə də Vətən torpağı hər bir kəs üçün, şairin dediyi kimi, ruhdan, candan irəlidir, gözdən əzizdir, qiymətlidir. Vətən torpağı indiki nəsillərə babalardan əmanətdir. Əmanətə xəyanət etməyə heç kəsin haqqı yoxdur. Torpağı əmanət alan nəsillərin borcu onu ən qiymətli əmanət kimi saxlayıb, qoruyub, gözəlləşdirib özündən sonrakı nəsillərə ötürməkdir.

***Yaradıcı tətbiqetmə:*** "Vətənsiz insan qanadsız quşdur" mövzusunda esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı***: Şeiri əzbərləmək.

LAYİHƏ

# 37-ci, 38-ci dərslər.
# § 34. Güclü oğlan (2saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d. -3.1.3. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, müzakirə, təqdimat, debat.

***Resurslar:*** Dərslik, kompüter, proyektor, iş vərəqləri, disk.

***Motivasiya:*** Müəllim elektron lövhədə Azərbaycan idmançılarının uğurlarını əks etdirən görüntüləri nümayiş etdirir. Azərbaycanın güləş üzrə dünya çempionları bayrağımızı yüksəkliyə qaldıran anlarda təsvir olunur.

***Köməkçi sual:*** 1) Sizcə, bu idmançılara şöhrət gətirən nədir?

2) Sevdiyiniz hər hansı bir idman növü varmı və onunla bağlı beynəlxalq yarışları televiziyada izləyirsinizmi?

3) Beynəlxalq yarışlarda haqsızlıq edilsə, buna münasibətiniz necə olar?

Şagirdlərin cavabları dinlənilir. Müəllim onların nitq səhvlərini diqqətə çatdırır.

***Tədqiqat sualı:*** 1) Haqsızlıqla razılaşırsınızmı? Sizə qarşı ədalətsizlik etsələr, özünüzü necə hiss edərsiniz? 2) Mürəkkəb sözlərin yazılışı ilə bağlı hansı çətinliklə qarşılaşırsınız?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki “Güclü oğlan” mətninin oxusu ilə başlanır. Oxu prosesində müəllim şagirdlərin sözləri düzgün vurğu ilə tələffüz etməsinə, ritm və tempə əməl olunmasına nəzarət edir, lazım gəldikdə müvafiq düzəlişlər edilir. Çətin söz və ifadələr tərcümə edilir, cümlələrdə işlədilir.

Sonra mətnin çalışmalarla mənimsənilməsi üzrə işə keçilir. Bu məqsədlə əvvəlcə 2-ci çalışma bütün siniflə yerinə yetirilir. Bu çalışmadakı testin düzgün cavabını tapmaq üçün şagirdlərin diqqəti mətndəki əsas hadisələrə yönəlir. Dərslikdəki 10-cu çalışmada isə verilmiş cümlələri mətnin məzmunu əsasında tamamlamaq tələb olunur. Beləliklə, hər iki çalışmadakı tapşırığın yerinə yetirilməsi şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına şərait yaradır ( 2.1.4.). Atalar sözləri üzərində qurulan 9-cu çalışma da qeyd olunan bacarığın inkişafına istiqamətləndirilir.

Bu çalışmalarla şagirdlərin diqqəti bir daha mətnin məzmununa yönəldildiyindən mətnin məzmunu üzrə suallar tərtib etmək (çalışma 5) və cümlələri mətnin məzmunu üzrə ardıcıl sıralamaq üçün (çalışma № 1) əlverişli məqam yaranır (1.1.1., 4.1.2.). Müəllim bu tapşırıqların qruplarla yerinə yetirilməsini təklif edir və sinfi 4 qrupa bölür. Müəllimin tövsiyəsi

LAYİHƏ

ilə qruplardan ikisi 1-ci, digər ikisi isə 6-cı tapşırıq üzərində işləyir.

Verilmiş vaxt başa çatdıqda qrupların variantları müzakirə edilir və qiymətləndirmə aparılır.

Mətn üzrə tərtib edilmiş 3, 4, 6, 7, 11, 12-ci çalışmalar şagirdlərdən fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmaq bacarığı tələb edir (2.1.3.). Dərslikdəki başqa çalışmalardan da ehtiyac olduqda bu məqsədlə istifadə etmək olar.

12, 13-cü çalışmalar və "Bunları bilirsinizmi?" rubrikası nitq hissələri ilə bağlı düzgün yazılış qaydalarının mənimsədilməsi və praktik bacarıqların formalaşdırılması üçün nəzərdə tutulmuşdur (4.1.3.). Nəzərə almaq lazımdır ki, qeyd olunan çalışmalar nəzəri məlumata hazırlıq rolu oynayır. Ona görə də bu çalışmalar üzrə iş aparılmadan "Bunları bilirsinizmi?" rubrikası ilə tanışlıq məqsədəuyğun hesab edilməməlidir. Rubrikadakı məlumatla tanışlıq şagirdləri mürəkkəb sözlərin yazılışı ilə bağlı praktik bacarıqlarının səviyyəsi üzərində düşünməyə sövq edir və onlar yol verdikləri nöqsanların səbəbini anlayırlar.

"Kəlmələrin dilini öyrənək!" rubrikası və 8, 11, 14-cü çalışmalarla şagirdlərin söz ehtiyatını zənginləşdirmək vəzifəsi həyata keçirilir.

**Qeyd.** Dərsdə ehtiyac duyularsa, müəllim hazırladığı aşağıdakı iş vərəqləri üzərində şagirdlərin təqdimat hazırlamalarını təşkil edə bilər.

**1-ci iş vərəqinin tapşırığı:** "Əgər birisi səndən fiziki cəhətdən zəifdirsə, onunla necə davranmalısan? " sualı ətrafında təqdimat hazırlayın.

**2-ci iş vərəqinin tapşırığı:** "Tanışlarından biri başqası ilə yarışarkən zəiflik göstərsə, tanışın olduğu üçün ona tərəfgirlik edərsənmi?" sualı ətrafında təqdimat hazırlayın.

**3-cü iş vərəqinin sualı:** "Yaxşı idmançı olmaq üçün insana yalnız gücmü lazımdır?" sualı ətrafında təqdimat hazırlayın.

Təyin edilmiş vaxt tamam olduqda şagirdlər təqdimatlarını təqdim edirlər. Savadlı şəkildə tərtib edilmiş, düzgün söz sırasına, cümlə quruluşuna malik təqdimat fərqləndirilir. Şagirdlərin rabitəli nitqlərinin inkişaf etdirilməsinə nəzarət edilir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətndəki uşaqların Elmara tərəfgirlik etməklə İlqara qarşı haqsızlığa yol verdikləri fikri ətrafında fikir mübadiləsi edirlər. Müzakirə şagirdlərin rabitəli nitqinin inkişafına kömək edir.

***Nəticə:*** İlqarın qarşılaşdığı hadisənin təhlili şagirdləri müəyyən nəticələrə gətirib çıxarır:

➢ Hansı sahədə olur-olsun, haqsızlıqla razılaşmaq yolverilməzdir. Hekayədəki hadisənin iştirakçıları bilərəkdən gücsüzü güclü sanmaq, güclünün isə haqqını tapdalamaqla ədalətsizlik edirlər. Ədalətsizliklə qarşılaşan hər kəs İlqar kimi pərt olar və özünü pis hiss edər. Ancaq ləyaqəti olanlar səhvlərdən nəticə çıxarmağı bacarır və bununla da insanların gözündə ucalırlar. Elmarın həqiqəti etiraf etməsi onun zəngin daxili aləmə malik olduğunu göstərir. Bu hərəkətlə o, İlqarın gözündə böyüyür, İlqarın pərtliyi aradan qalxır və onlar dostlaşırlar. Elmarın jesti başqa uşaqlar üçün də nümunə ola bilər.

➢ Mətnin oxusu, mövzu ilə əlaqədar çalışmalar üzərində iş, "Bunları bilirsinizmi?" rubrikası ilə tanışlıq yolu ilə şagirdlər mürəkkəb sözlərin yazılışı ilə bağlı praktik bacarıqlarının səviyyəsini müəyyənləşdirir, düzgün yazı qaydalarını öyrənir və yazılı nitqlərində ona əməl edirlər.

***Yaradıcı tətbiqetmə:*** "Əgər mən hakim olsam, ... (yarışda, məhkəmədə və s.)", "Mən güclü olmaq istəyirəm ki, ...", "Obyektivlik, ədalətli olmaq insanı başqalarının gözündə ucaldır!" mövzularından biri üzrə esse və ya inşa yazın.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətndəki əsas fakt və hadisələri seçib qruplaşdırmaq.

LAYİHƏ

## 39-cu dərs.
## § 35. Atın belindəki Kərəm idi ... (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d.-2.2.2.<br>A.t.-5.1.2. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 4. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 5. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Kiçik qrupla iş .
***Dərsin üsulu:*** Əqli hücum, müzakirə, debat.
***Resurslar:*** Dərslik, iş vərəqləri, kompüter, proyektor, videofilm, Qaçaq Kərəmin portreti. (QaçaqNəbifilmindənparça.mp4–YouTube www.youtube.com/watch?v=FLOYWjBoMao)
***Motivasiya:*** Müəllim Qaçaq Kərəmin portretini nümayiş etdirir.





***Köməkçi sual:*** 1) Bu şəkildə gördüyünüz insan haqqında nə deyə bilərsiniz? O, müəllimə, qaçağa, yoxsa kəndli bir çobana daha çox oxşayır?

2) Bu insan haqqında hər hansı bir məlumatınız varmı?

Müəllim M.Qorkinin sözləri yazılmış slaydı ekrana gətirir:

M. Qorki haqlı olaraq yazırdı; "Eşitdiyim külli miqdarda hekayələrdə Kərəm insanpərvər və özünə yaxın hesab etdiyi şəxslərə bacardığı qədər kömək göstərmək istəyən bir adam kimi verilir".

3) Hansı xalq qəhrəmanlarını tanıyırsınız? Şəkildə gördüyünüz hansı xalq qəhrəmanıdır?

(Müəllim qeyd edilən vasitələri tapmadıqda xalq qəhrəmanları ilə əlaqədar şaxələndirmə üsulundan ibarət motivasiya da qura bilər. Dairənin ortasında "Xalq qəhrəmanları" yazılır və şagirdlər şaxələndirir, xalq qəhrəmanlarının adlarını, hər qəhrəmanın özünü isə şaxələndirib

Layihə

ona məxsus xüsusiyyətləri sadalayırlar).

Fərziyyələr dinlənilir.

Müəllim aşağıdakı məlumatı slaydda canlandırır və səsləndirir:

Azərbaycanda qaçaq hərəkatının məşhur nümayəndələrindən biri də Qaçaq Kərəmdir. Qaçaq Kərəm 1860-cı ildə Qazax qəzasının Qıraq Kəsəmənli kəndində anadan olmuşdur. O, Yelizavetpol quberniyasında qaçaqçılığa başlamışdır. Kərəm Azərbaycanla yanaşı, Gürcüstan, Şimali Qafqaz və Osmanlı imperiyası ərazisində də fəaliyyət göstərmişdir. Kərəm tezliklə nəinki Azərbaycan və Dağıstanda, eləcə də bütün Zaqafqaziyada ümumxalq məhəbbəti qazandı. Bunun səbəbi həm onun cəsurluğu, həm də ədalət hissinin güclü olması idi.

Zaqafqaziyanın müxtəlif guşələrində Kərəmin igidliyi ilə bağlı xalq arasında bir sıra yer adları vardır; «Kərəm körpüsü», «Kərəm bazarı»; «Kərəm çalası», «Kərəm yolu», «Kərəm bulağı», «Kərəm meydanı» və s.

O, 1909-cu ildə Tehranda vəfat etmişdir. Onun haqqında üç dastan, çoxlu nəğmə və rəvayətlər yaranmışdır. Azərbaycan, rus, gürcü və başqa xalqların ədibləri ona əsərlər həsr etmişlər.

Sonra müəllim qaçağın xarici görkəminə, geyiminə diqqəti cəlb edir. Geyimində diqqəti cəlb edən cəhətləri qeyd etməyi təklif edir.

Şagirdlər qaçağın geyimində diqqəti papağa cəlb edəndə müəllim proyektor vasitəsilə "Azərbaycanda papaqçılıq sənəti" adlı videofilm göstərir.

***Köməkçi sual:*** 1) Gördüyünüz kadrlardan nə öyrəndiniz?

2) Bu kadrlarla portret arasında hər hansı bir bağlılıq görürsünüzmü?

Şagirdlər müəllimin sualına düşünərək cavab verirlər. Müəllim onları istiqamətləndirir.

***Tədqiqat sualı:*** 1) Milli-mənəvi dəyərlərimizdən sayılan milli geyimlərimiz haqqında nə bilirsiniz? 2) Milli geyimlərə münasibətiniz necədir?

3) Azərbaycanda kişi baş geyimi sayılan papağa münasibət barədə nə bilirsiniz? Necə bilirsiniz, azərbaycanlılar papağı başa yalnız soyuqdan qorunmaq üçünmü qoyurlar?

***Tədqiqatın aparılması:*** Müəllim verdiyi suala cavab almaq məqsədilə şagirldəri 3 qrupa bölür və hər qrupa iş vərəqləri paylayır.

**1-ci iş vərəqinin məzmunu:** Milli qadın geyimlərimiz haqqında söz assosiasiyası yaradın və fikrinizi şaxələndirmə vasitəsilə ifadə edin.

**2-ci iş vərəqinin məzmunu:** Milli kişi geyimlərimiz haqqında söz assosiasiyası yaradın və fikrinizi şaxələndirmə vasitəsilə ifadə edin.

**3-cü iş vərəqinin məzmunu:** Kişi və qadın baş geyimlərimiz haqqında söz assosiasiyası yaradın və fikrinizi şaxələndirmə vasitəsilə ifadə edin.

Şagirdlərə işləmək üçün vaxt verilir. Şagirdlər təqdimat hazırlayırlar. Müəllim nəzarət edir və istiqamətləndirir.

Vaxt bitdikdə hər qrup öz işini təqdim edir. Təqdimatda bütün qruplar iştirak etməlidir. Təqdimatlar müzakirə edilir.

Müəllim "Atın belindəki Kərəm idi ..." mətninin rollarla oxusunu təşkil edir. Mətn oxunduqdan sonra "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır. Verilmiş sözlərə sinonimlər, antonimlər tapılaraq əlavə cümlə daxilində işlədilir. Həm təqdimatlar, həm də mətnin oxusu prosesində nitqdə ritm və tempə düzgün əməl olunmasına nəzarət edilir və işlər digər çalışmalar üzrə işlərdə də nəzarətdə saxlanılır.

2-ci çalışma əsasında şagirdlər mətnin məzmunu üzrə suallara cavab verməklə mətn-

LAYİHƏ

dəki hadisələrin mahiyyətini qavrayırlar. 1, 3-cü çalışmalar şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına, bu yolla da mətnin hissələrinin qavranılmasına imkan yaradır. Müəllim bu tapşırıqların icrasını ayrı-ayrı qruplara da tapşıra bilər.

Mətn üzrə qoyulmuş tapşırıqların yerinə yetirilməsi prosesində şagirdlər fikirlərini fakt və hadisələrlə əsaslandıra bilmə bacarıqlarını inkişaf etdirirlər. Məsələn, 5-ci çalışmanın tapşırığını icra edərkən zərflərin aid olduğu feilləri hansı cəhətdən izah etdiyini əsaslandırmaq üçün şagirdlər əlavə faktlara (misallarla) ehtiyac duyurlar. Sualların köməyindən istifadə edir, onların cümlədəki rolunu sifətlərlə müqayisə etmək üçün analoji misallar göstərir və bu vasitələrlə fikirlərini əsaslandırmağa çalışırlar. Bütün bunlar istər-istəməz alt-standartda nəzərdə tutulan bacarıqların formalaşmasını təmin edir.

4, 5-ci çalışmalar şagirdlərin diqqətini bir daha nitq hissələrinin qrammatik mənaları üzərinə yönəldir, onlardan nitqlərində düzgün istifadə, həmin nitq hissələrinin yazılışı ilə bağlı praktik bacarıqların təkmilləşdirilməsini təmin edir.

6, 7, 8-ci çalışmalar şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi üzrə işlər aparılmasını nəzərdə tutur ki, bu çalışmalardan məqsədəmüvafiq şəkildə istifadə olunmalıdır. Bilavasitə lüğət üzərində işlər aparılması üçün nəzərdə tutulmasına baxmayaraq, qeyd olunan çalışmaların icrası, eyni zamanda, şagirdlərdə suallarla fikirlərini dəqiqləşdirmək, fikirlərini faktlarla əsaslandırmaq və izah olunan hadisələr üzərində cəmləşdirmək, nitqdə ritm və tempə əməl etmək üzrə də bacarıqların inkişaf etdirilməsinə şərait yaradır.

11-ci çalışma "Bunları bilirsinizmi?" rubrikasını mənimsəməyə hazırlıq məqsədilə hazırlanmışdır. Sözlərin orfoepik cəhətdən düzgün tələffüzü ilə bağlı şagirdlər müəyyən praktik bacarıqlara malik olsalar da, bu məsələlərə onların şüurlu münasibətini formalaşdırmaq üçün şagirdlər rubrikadakı müvafiq qaydalarla tanış edilirlər. Düzgün tələffüz qaydaları ilə tanışlıq şagirdlərin düzgün şifahi nitqinin formalaşmasına istiqamətlənsə də, bu biliklər düzgün yazı vərdişlərində də əhəmiyyətli rol oynayır.

***Məlumat mübadiləsi:*** Mətnin məzmunu ilə tanışlıqdan sonra şagirdlər Qaçaq Kərəmlə digər xalq qəhrəmanları arasında ümumiləşdirmə aparırlar. Xalq qəhrəmanlarını müqayisə etməyi öyrənirlər. Xalq qəhrəmanlarımızın xarakterik xüsusiyyətləri ilə bağlı fikir yürüdürlər.

***Nəticə:*** Müəllimin təqdim etdiyi materiallar və yerinə yetirilmiş çalışmalar əsasında şagirdlər öyrənirlər ki, öz igidliyi, cəsurluğu, həm də ədalət hissinin güclü olması ilə Azərbaycan və Dağıstanda, eləcə də bütün Zaqafqaziyada ümumxalq məhəbbəti qazanan xalq qəhrəmanlarından biri də Qaçaq Kərəmdir.

Fərman Eyvazlının "Qaçaq Kərəm" romanından oxuduqları kiçik bir mətndə onlar Kərəmin igidliyi barədə əyani təsəvvür əldə edir, onun xalq arasında sevilməsinin səbəbini anlayırlar. Öyrənirlər ki, xalqın azad yaşaması, onların zülmdən qurtarması yolunda əlindən gələni edən xalq qəhrəmanları heç vaxt unudulmur, onlar həmişə xalqın ürəyində yaşayırlar.

Oxuduqları parçada həmçinin azərbaycanlı kişisi üçün papağın əhəmiyyətini başa düşür və onun nə üçün həmişə hündür bir yerə qoyulmasının səbəbini anlayırlar.

***Yaradıcı tətbiqetmə:*** Azərbaycan qəhrəmanları haqqında məlumat toplamaq və təqdimat hazırlamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

LAYİHƏ

# 40-cı dərs.
# § 36. Qəhrəmandır Azərbaycan! (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Şeirin məzmunu üzrə fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | R.d.- 1.2.3.<br>A.t.-1.1.2.<br>X.d.-3.1.2. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Şeirdəki nitq hissələrinin qrammatik mənasını izah edir. | 3.1.1. | |
| 4. | Şeirin hissələri arasında əlaqələri müəyyənləşdirir . | 4.1.1. | |
| 5. | Əməli yazı – İzahat yazır. | 4.1.4. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplar.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, BİBÖ.

***Resurlar:*** Dərslik, iş vərəqləri, dəftər, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim elekton lövhədə şagirdlərə S.Vurğunun "Azərbaycan" şeirinin video klipini təqdim edir.

***Köməkçi sual:*** 1) Gördüyünüz kadrlar, dinlədiyiniz şeir sizdə hansı təəssüratları oyadır?
2) Doğma Vətənimizi səciyyələndirən cəhətlər nədən ibarətdir?

Şagirdlər düşündüklərini söyləyirlər. Müəllim şagirdlərin cavablarını istiqamətləndirir, onların nitq səhvlərinə düzəlişlər edir.

***Tədqiqat sualı:*** Bilirsiniz ki, qəhrəmanlıq, yaradıcılıq, qonaqpərvərlik insana xas olan xüsusiyyətlərdir. Necə düşünürsünüz, bu xüsusiyyətlər hər hansı bir ölkəyə, əraziyə aid edilə bilərmi?

***Tədqiqatın aparılması:*** Tədqiqat sualı şagirdləri maraqlandırdığına görə müəllim sual ətrafında tədqiqat aparmağı təklif edir. "Qəhrəmandır Azərbaycan" şeiri oxunur, məzmunu üzərində iş aparılır, şeirin sözlüyü, "Sözlük" və "Söz ehtiyatı" nəzərdən keçirilir.

Sonra çalışmalar üzrə işə başlanır. Şagirdlər qruplara (sinifdə şagirdlərin sayından asılı olaraq) və ya cütlərə bölünür. Əvvəlcə bütün qruplar dərslikdəki 2-ci çalışmadakı tapşırığı yerinə yetirirlər. 2-ci çalışmanı yerinə yetirərkən şagirdlər şeirin hissələri arasında əlaqələri müəyyənləşdirirmək üzərində işləyirlər (4.1.2). Sonra isə hər qrupa "Qəhrəmandır Azərbaycan" şeirinin bir bəndi üzrə fikirlərini təqdimat formasında ifadə etmək tapşırılır. Bu məqsədlə 2-ci çalışmadakı planın maddələrindən istifadə olunur. Bu həm şagirdlərin fikirlərini şeirin tərkib hissələri üzərində qruplaşdırmağa (2.1.4.) və bunun üçün axtarış aparmağa imkan verir (6-cı çalışma da bu bacarığa istiqamətləndirilib) , həm də onları fikirlərini əsaslandırmaları üçün əlavə fakt və hadisələrə (2.1.3.) müraciət etməyə (1, 8-ci çalışmalar həmçinin) sövq edir.

**1-ci iş vərəqinin tapşırığı:** "Yaradıcı məmləkət" mövzusu ətrafında fikirlərinizi ifadə edin (şeirin müvafiq bəndi üzrə).

**2-ci iş vərəqinin tapşırığı:** "Sinəsi ulduzlu qəhrəman" mövzusu ətrafında fikirlərinizi ifadə edin (şeirin müvafiq bəndi üzrə) .

LAYİHƏ

**3-cü iş vərəqinin tapşırığı:** “Varlı ölkə” mövzusu ətrafında fikirlərinizi ifadə edin (şeirin müvafiq bəndi üzrə).

**4-cü iş vərəqinin tapşırığı:** “Mehriban diyar” mövzusu ətrafında fikirlərinizi ifadə edin (şeirin müvafiq bəndi üzrə).

**5-ci iş vərəqinin tapşırığı:** “Gözəl məkan” mövzusu ətrafında fikirlərinizi ifadə edin (şeirin müvafiq bəndi üzrə).

Verilmiş vaxt başa çatdıqda şagirdlərin cavabları dinlənir. Hər qrup şeirdən onlara təklif olunan bəndin mənasını izah etməyə, fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmağa çalışır.

Təqdimat zamanı şagirdlərin nitqlərində olan nöqsanlara (düzgün tələffüz, düzgün vurğu, ritm və tempə əməl etmə) diqqət yetirilir və praktik kömək göstərilir.

3-cü çalışma şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsinə xidmət edir. Müəllim şeirdə işlənmiş müxtəlif nitq hissələrinə aid nümunələrin mənasını izah etmək məqsədilə (3.1.1.) qruplara 5, 7-ci çalışmaları yerinə yetirməyi tapşırır. Bu çalışmalar şagirdlərdə fikirlərini əsaslandırma bacarıqlarını formalaşdırmaqla yanaşı, həm də onların lüğət ehtiyatlarının genişləndirilməsində əhəmiyyətə malikdir.

“Bunları bilirsinizmi?” rublikasında verilmiş məlumat şagirdlərin düzgün tələffüz və yazı bacarıqlarının təkmilləşdirilməsi məqsədilə nəzərdə tutulmuşdur. Məlumatın şüurlu mənimsədilməsi onun üzərində praktik işlər aparılmasını nəzərdə tutur ki, bu məqsədlə 9-cu tapşırıqdan istifadə olunmalıdır. 10-cu çalışmanın mətni də bu bacarıqların təkmilləşdirilməsinə imkan verir. 11-ci çalışma əsasında şagirdlərin əməli yazı bacarıqları inkişaf etdirilir (4.1.4.).

***Məlumat mübadiləsi:*** Şagirdlər “Qəhrəmandır Azərbaycan” şeiri ilə tanış olduqdan sonra vətənimizin təkrar olunmaz gözəlliyi, əzəmət və vüqarı, mənəvi sərvətləri üzərində bir daha fikir mübadiləsi edir, şairin vətən torpağı ilə nə üçün canlı bir insan kimi danışması ilə bağlı müzakirə aparırlar.

***Nəticə:*** Şeirin məzmunu üzərində işləmək və çalışmaları yerinə yetirməklə şagirdlər başa düşürlər ki, Vətənimiz Azərbaycanın hər bucağı əsrarəngiz gözəlliklərə malikdir. Onun zəhmətkeş insanları daim qurub-yaradır, qəhrəmanlıqlar göstərir, Vətənin hər qarış torpağını gülüstana çevirirlər. Bütün bunları yaradarkən insanlarımız Vətən torpağından güc, qüvvət alırlar. Şair bu torpağın hər qarışında Vətənimizin insanlarının zəhmətini, qonaqpərvərliyini, mehribanlığını və s. gördüyündən onunla insan kimi danışır.

Bugünkü məktəblilər Vətənin gələcək qurucuları olduğu üçün onun sərvətləri ilə öyünməklə, qəhrəman keçmişi ilə fəxr etməklə kifayətlənməməlidirlər. Onlar öz vəzifələrini indidən dərk etməli, Vətənimizin gələcəyi üçün yaxşı vətəndaş kimi yetişməyə çalışmalıdırlar.

Şagirdlər mövzu üzərində işləyərkən fikirlərini mətnin müvafiq hissələri üzərində qruplaşdırmağı öyrənir, lazımi fakt və hadisələrdən fikirlərini əsaslandırmaq üçün istifadə edir, şeirdəki nitq hissələrinin qrammatik mənasını izah edirlər.

***Yaradıcı tətbiqetmə:*** “İzahat”ın forması ilə tanışlıqdan sonra şagirdlərə tapşırılır ki, öyrəndikləri əsasında hər hansı bir hadisə ilə bağlı “İzahat” yazsınlar.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək.

LAYİHƏ

## 41-ci dərs.
## § 37. Qarğa dili (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Oxuduğu mətndə və şeirdə əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d.-3.1.2.<br>X.d.-3.1.4. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır; mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3.<br>2.1.4. | |
| 4. | Mətndəki və şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, səs assosiasiyası.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim B.Vahabzadənin "Latın dili" şeirini səsləndirir. Şeiri bir aktyor, ya da müəllim özü oxuya bilər.

***Köməkçi sual:*** Ölü dil dedikdə siz nəyi başa düşürsünüz? Ölü dil ola bilərmi?

Şagirdlər şeirə qulaq asdıqlarına görə onlara verilmiş sualı cavablandırırlar. Müəllim onların fikirlərini istiqamətləndirir, tələffüzlərindəki nöqsanları düzəldir.

***Motivasiya 2:*** Müəllim Heydər Əliyevin beynəlxalq tribunadan çıxışlarından fraqment göstərə bilər.

***Köməkçi sual:***1) Dövlət başçısısnın öz doğma dilində beynəlxalq tribunadan çıxışını izləyərkən hansı hissləri keçirdiniz?

2) Hər hansı bir ölkənin prezidenti, dünyada məşhur hər hansı müğənni , yaxud da xarici qonaq (məs. Yaponiyanın, yaxud Amerikanın Azərbaycandakı səfiri və s.) sizin ana dilinizdə danışarkən bu, niyə sizə xoş təsir bağışlayır?

3) Kimsə sizin diliniz haqqında xoşagəlməz ifadələr işlətsə, dilinizi təhqir etsə, bu, niyə sizi özünüzdən çıxarır? Bu barədə heç düşünmüsünüzmü?

Tədqiqat sualı: 1) "Dilimiz – mənliyimizdir" aforiziminin mənasını necə başa düşmək lazımdır?

2) "Bir xalqın dilini əlindən alsalar, o xalq məhv olar!" fikri ilə razılaşmaq olarmı?

Tədqiqatın aparılması: Tədqiqat dərslikdəki "Qarğa dili" mətninin oxunması ilə başlayır. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir, cümlələrdə işlədilir. Mətnin oxusu prosesində şagirdlərin müvafiq ritm və tempə əməl etmə, sözləri düzgün vurğu ilə oxunma bacarığı (2.1.2. ,3.1.2.) izlənilir, lazımi düzəlişlər edilir və praktik kömək göstərilir.

Tədqiqat dərslikdəki çalışmalar üzrə işlə davam etdirilir. 1-ci çalışma bütün siniflə yerinə yetirilir (1.1.2.).

Hər iki alt-standart üzrə bacarıqların inkişafı müsahibə yolu ilə də davam etdirilir. Müsahibədə bütün sinif iştirak edir. Müəllim sinfə aşağıdakı suallarla müraciət edir:

LAYİHƏ

1) Nə üçün dilimiz milli-mənəvi dəyərlərimizdən sayılır? Fikirlərinizi əsaslandırın.

2) Çox dil bilməyin xeyri nədir? Fikirlərinizi əsaslandırın.

Şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına (2.1.3.), eyni zamanda onların seçilmiş digər alt-standartlarla bağlı bacarıqlarının inkişafına şərait yaratmaq məqsədilə müəllim sinfi 4 qrupa bölür və onlara iş vərəqləri üzərində işləməyi tövsiyə edir. İş vərəqləri paylanır, tapşırıqların yerinə yetirilməsi üçün vaxt verir:

**1-ci iş vərəqinin məzmunu:** 1) Dərslikdəki 3-cü çalışmanı yerinə yetirmək.

2) Mətndə yaşıl rəngdə verilmiş qoşmaları aşağıdakılardan hansı ilə əvəz etmək olar?

A) - dək, ötrü B) - tək, ötrü C) qədər, görə

3) Verilmiş atalar sözlərinin mənasını izah etməyə çalışın:

Doğru söz acı olar, nəticəsi şirin.

**2 -ci iş vərəqinin məzmunu:** 1) Necə düşünürsünüz, dilimizi necə qorumalıyıq? Bunun üçün nə etməliyik? Fikirləriniz əsasında təqdimat hazırlayın.

2) Dərslikdəki 2-ci çalışmanı yerinə yetirmək.

3) Verilmiş atalar sözlərinin mənasını izah etməyə çalışın:

Eşitmək istəmədiyini başqasına eşitdirmə!

**3-cü iş vərəqinin məzmunu:** 1) Aşağıdakı cümlənin dəqiq tərcüməsi hansı variantda verilmişdir?

В ноябре 1999 года на конференции в ЮНЕСКО было принято решение, о том, что 21 февраля – Международный День Родного языка.

A) 1999-cu il noyabr ayında YUNESKO-da belə qərara gəldilər ki, 21 fevral Ana dili günü elan edilsin.

B) YUNESKO-nun 1999-cu il noyabr qərarına əsasən 21 fevral Ana dili günü kimi qeyd olunur.

C) 1999-cu ilin noyabrında YUNESKO-nun konfransında 21 fevralın Beynəlxalq Ana dili günü elan edilməsi qərara alındı.

2) Dərslikdəki 4-cü çalışmanı yerinə yetirmək.

3) Verilmiş atalar sözlərinin mənasını izah etməyə çalışın:

Xəbərçi yalançı olar, yalançı—xəbərçi!

**4-cü iş vərəqinin məzmunu:** 1) Aşağıda verilmiş hikmətli sözlərdə qəsdən müəyyən səhvlərə yol verilmişdir. Diqqətli olun, səhvləri düzəldərək köçürün.

1) Əgər danışmaq fikrindəsənsə, bilmədiyin mövzularda danış, bildiyin şeylər haqqında fikir yürütmə. 2) Söylədiyiniz acı sözlərin meyvəsini geridə görərsiniz.

3) Qazanmaq çətindir, onu qorumaq isə asandır.

2) Verilmiş atalar sözlərinin mənasını izah etməyə çalışın:

Acı danışan şirin söz eşitməz.

Verilmiş vaxt başa çatdıqdan sonra təqdimatlar müzakirə olunur. Təqdimatların müzakirəsi prosesində 2.1.2. alt-standartının tələbləri izlənilir. Cavablar qiymətləndirilir.

Tədqiqat dərslikdəki "Ana dili" şerinin oxutdurulması və oxu prosesində şagirdlərin düzgün tələffüz, ritm və tempdən düzgün istifadə bacarıqları üzərində işlə davam edir. Şeirin məzmununun mənimsənilməsi şagirdlərin fikirlərini əlavə faktlarla əsaslandırmalarına, mövzu üzərində cəmləşdirməyə imkan verir.

7 və 8-ci çalışmalar bütün siniflə yerinə yetirilir (2.1.3. və 2.1.4.). Şagirdlər şeirin motivləri əsasında və müvafiq konstitusiya maddəsi ilə mülahizələrini əsaslandırırlar.

LAYİHƏ

Sonra dərslikdəki tapşırıqlar qruplar arasında bölünür və tapşırıqların icrası üçün vaxt müəyyənləşdirilir.

5-ci və 12-ci çalışma üzərində bütün qrupların işlədilməsi məqsədəuyğun hesab olunur (2.1.4). Müəllim bu tapşırıqların yerinə yetirilməsinə diferensial yanaşmalıdır. Belə ki, sinfin səviyyəsindən asılı olaraq bu çalışmaları hər bir qrup bütövlükdə , yaxud da hər çalışmadan müəllimin tövsiyə etdiyi hissəni ( ola bilər ki, 5-ci çalışmadan 2 cümlə, 12-cidən 2 söz birləşməsi və s. şəklində) yerinə yetirə bilər. Çalışmaların icrası şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına imkan verməklə yanaşı, onların lüğət tərkibinin dəqiqləşdirilməsinə, həmçinin verdikləri cavabları əsaslandırma bacarıqlarının inkişafına da xidmət edir.

**1-ci qrup:** Çalışma 5, 12, 9

**2 -ci qrup:** Çalışma 5,12, 10

**3-cü qrup:** Çalışma 5, 12, 11

**4-cü qrup:** Çalışma 5, 12,

Cavablar dinlənilir və qiymətləndirilir.

***Məlumat mübadiləsi:*** "Qarğa dili" mətninin və "Ana dili" şeirinin oxusu, eyni zamanda çalışmalar üzərində iş ana dilinin milli-mənəvi dəyər hesab olunması ilə bağlı şagirdlərin fikirlərinin durulmasına şərait yaradır, fikir mübadiləsinə imkan verir.

***Nəticə:*** Dili yaşadan xalqdır, o dildə danışanlardır. Doğru deyirlər ki, bir xalqın dilini əlindən alsalar, o xalq məhv olar! Hər hansı bir xalq danışdığı dillə başqalarından seçilir. Əgər bir dil yoxdursa, o xalq da yoxdur. Bax elə buna görə də dilimiz—mənliyimiz, kimliyimiz, milli mənsubiyyətimizin yeganə göstəricisi kimi qiymətlidir və heç bir şeyə dəyişdirilə bilməyən mənəvi sərvətimizdir.

Azərbaycan dili qədim dillərdəndir. İndi dünyada 50 milyondan artıq azərbaycanlı bu dildə danışır. Tarix boyu bu dilin inkişafına yad təsirlər olsa da, Azərbaycan dili özünəməxsusluğunu, varlığını qoruyub saxlaya bilmiş, zaman keçdikcə onun lüğət tərkibi genişlənərək zənginləşmiş, qrammatik quruluşu cilalanmış, əsas üslubları təkmilləşmişdir. Bu gün Azərbaycan dili dünyanın ən inkişaf etmiş dillərindən hesab olunur.

Bu gün Azərbaycan dilinin dövlət dili statusu konstitusiya maddəsi ilə təsbit olunur. Dilimiz müstəqilliyimizin rəmzi kimi, beynəlxalq tribunalardan səslənir.

Azərbaycan dövləti dövlət dilinin inkişafına hər cür şərait yaratmaqla bərabər, bu ölkədə yaşayan bütün xalqların dillərinə hörmətlə yanaşır, onların da inkişafı qayğısına qalır.

Azərbaycan dövlətinin hər bir vətəndaşı, o cümlədən bu gün məktəb partası arxasında oturan hər bir şagird bu dilin qorunması, onun inkişafı üçün əlindən gələni etməyə borcludur. Çünki Azərbaycan dili Azərbaycan xalqının varlığının simvolu, dövlətimizin dövlət rəmzlərindən biridir.

***Yaradıcı tətbiqetmə:*** "Bu gün azad dilli Azərbaycanam!" mövzusunda kiçik esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək.

LAYİHƏ

## 42-ci dərs.
## § 38. Balaca girovlar (I hissə - 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | R.d. – 4.1.2.<br>A.t. – 1.1.2. |
| 2. | Ffikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4. | İkihecalı isimlərin yazılışı ilə bağlı orfoqrafiya qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, problemli vəziyyət.

***Resurslar :*** Dərslik, iş vərəqləri, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim elektron lövhədə Ağarəhim Rəhimovun çəkdirdiyi “Qırmızı qar” filmindən müvafiq səhnəni (Növrəstənin silah ələ keçirərək əsirləri azad etməsi və uşaqlarla qaçması səhnəsini) nümayiş etdirir --(www.youtube.com/watch?v=zbmE7SxnXy4)

***Köməkçi sual:*** 1) Bu kadrlarda gördüyünüz hadisələr hansı dövrdə baş verib?

2) Necə düşünürsünüz, əsirlər quduz düşmənlərin əlindən qaçıb xilas ola biləcəklərmi?

***Motivasiya 2:*** Elektron lövhədə “Fəryad” filmindən kadrlar nümayiş etdirilir.

***Köməkçi sual:*** 1) Gördüyünüz kadrlar hansı filmdəndir?

2) Bu filmdə nədən danışılır?

Şagirdlərin cavabları dinlənilir.

***Tədqiqat sualı:*** 1) Əgər hər hansı bir səbəbdən düşmən əlinə keçsəniz, nə edərsiniz: düşmənə təslim olarsınız, yoxsa xilas olmaq üçün yollar axtararsınız?

2) Ən çox istifadə etdiyiniz “sinif” sözünün yazılışında müəyyən hallarda kökdəki ikinci hecadakı saitin niyə ixtisar olunmasının səbəbini bilirsinizmi?

Tədqiqat dərslikdəki “Balaca girovlar” mətninin 1-ci hissəsinin oxusu ilə başlanır. Mətnin məzmunu və sözlüyün mənimsədilməsi üzərində iş aparılır.“Sözlük” və “Söz ehtiyatı”ndakı sözlərin mənaları izah edilir.

1 və 2-ci çalışmalar bütün siniflə yerinə yetirilir. Müəllim mətn üzərində işi cütlərlə davam etdirir. 5, 8-ci çalışmalar cütlərlə iş formasında yerinə yetirilir. Cütlərdən hər birinə 5-ci çalışmadakı bir söz birləşməsini tərcümə edib cümlədə işlətmək və 8-ci çalışmadan bir cümləni mətnin məzmunu əsasında tamamlamaq tapşırılır (2.1.4.).

Sonra müəllim şagirdləri 4 qrupa bölür. Hər qrupa fərdi iş verilir.

**1-ci qrup:** 3-cü çalışma.

**2-ci qrup:** 6 və 13-cü çalışmalar.

**3-cü qrup:** 4 və 7-ci çalışmalar.

**4-cü qrup:** 9-cu çalışma.

Verilmiş vaxt bitdikdən sonra təqdimatların müzakirəsi təşkil olunur.

1-ci qrupun təqdimatının müzakirəsi şagirdlərin fikirlərini mətnin hissələri üzrə

LAYİHƏ

qruplaşdırmalarına (2.1.4.), 2-ci, 3 və 4-cü qrupların təqdimatları isə mətndəki müvafiq nitq hissələrinin leksik və qrammatik mənalarının (3.1.1.) izahına və mənimsənilməsinə xidmət edir.

Müzakirə və qrupların təqdimatlarının qiymətləndirilməsi başa çatdıqdan sonra müəllim yenidən cütlərlə işə keçir. Hər cütə 10-cu tapşırıqdakı bir söz birləşməsi üzərində işləmək tapşırılır. Bu çalışmanın icrası nitq hissələrinin qrammatik mənasının dərk edilməsinə (3.1.1) istiqamətləndirilmişdir. Bunun ardınca qruplarla iş şəklində 14-cü çalışmanın tapşırığı əsasında şagirdlərin mətn üzrə müşahidəsi təşkil edilir, yaranmış problemin həllinə kömək göstərmək üçün 15-ci çalışmanın icrası tapşırılır. Yaranmış problemli vəziyyətdən istifadə edərək müəllim şagirdləri “Bunları bilirsinizmi?” rubrikası ilə tanış olmağa dəvət edir. Rubrika ilə tanışlıq şagirdlərin qarşılaşdıqları çətinliklərin səbəbinin dərk edilməsini asanlaşdırır.

***Məlumat mübadiləsi:*** Şagirdlər erməni qəsbkarlarının xalqımızın başına gətirdiyi faciələri “balaca girovlar” ın hekayəti vasitəsilə bir daha müzakirə edir, ikihecalı sözlərin yazılışı üzərində düşünürlər.

***Nəticə:*** Adlı-sanlı qəhrəmanlar hər zaman böyüyən nəsillər üçün bir igidlik, cəsurluq məktəbi olub. Zaman-zaman onların adı, qəhrəmanlıqları ilə öyünür, onlara bənzəmək istəyirik. Bu hekayədə şagirdlərin tanış olduqları balaca girovlar isə kiçikyaşlı uşaqlardır. Onlar təcrübəsiz olmalarına baxmayaraq, çətin vəziyyətdə necə hərəkət etmək yollarını düzgün seçməklə nümunə göstərirlər. Şagirdlər bu balaca girovlarla tanış olmaqla tədqiqat sualına cavab tapırlar. Onlar başa düşürlər ki, heç bir halda ümidsizliyə qapılmaq olmaz. Nə qədər ağır olsa da, əziyytə dözmək və çıxış yolunu tapmağa cəhd göstərmək lazımdır.

Şagirdlər bu hekayə üzərində işləmək və “Bunları bilirsinizmi?” rubrikası vasitəsilə həm də ikihecalı isimlərin düzgün yazılış qaydaları ilə tanış olur, həmin sözlərin kökündə baş verən dəyişikliyin səbəbini öyrənirlər.

***Yaradıcı tətbiqetmə:*** “Balaca girovları” səciyyələndirmək (11-ci çalışma).

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 43-cü dərs.
## § 39. Balaca girovlar (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətn üzrə suallar verməklə fikirlərini dəqiqləşdirir, mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.1<br>1.1.2 | R.d. – 4.1.4<br>A.t. – 4.1.2 |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3 | |
| 3. | Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.3 | |
| 4. | Mövzuya uyğun esse yazır və ikihecalı isimlərin düzgün yazılış qaydalarına əməl edir. | 4.1.1.<br>4.1.3. | |



LAYİHƏ

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, debat.

***Resurslar:*** Dərslik, dəftər, iş vərəqləri, kompüter, proyektor, "Babək" filminin diski.

***Motivasiya:*** Müəllim elektron lövhədə "Babək" filmindən Babəkin xalqın qarşısında andiçmə səhnəsinin görüntüləri olan kadrları nümayiş etdirir.

***Köməkçi sual:*** Babək nə üçün and içir? Nəyə görə bir gün azad yaşamağı qırx il qul kimi yaşamaqdan üstün tutur?

Şagirdlər fərziyyələrini söyləyirlər.

***Tədqiqat sualı:*** 1) Xocalı faciəsində əsir və itkin düşmüş soydaşlarımızın taleyi ilə bağlı nə bilirsiniz? 2) Hansı xüsusiyyətlərinə görə Xocalı faciəsi soyqırım hesab olunmalıdır?

***Motivasiy2:*** Müəllim hekayənin davamı ilə bağlı sinfə suallarla müraciət edir.

***Köməkçi sual:*** 1) Keçən dərsdə oxuduğunuz "Balaca girovlar" hekayəsinin yarımçıq qalması sizdə təəssüf hissi doğurdumu?

2) Hekayədəki hadisələrin necə davam edəcəyi sizi maraqlandırırmı?

3) Hekayədəki hadisələrin davamını siz necə təxmin edirsiniz? Variantlarınızı təqdim edin.

4) Hekayənin sonluğunun necə olmasını istərdiniz?

***Tədqiqat sualı:*** 1) Necə düşünürsünüz, balaca girovların köməyinə gəlib, onları quduz düşmənlərin zülmündən xilas edən olacaqmı, yoxsa onlar əsirlikdə məhv olacaqlar?

2) Xocalı faciəsi hansı xüsusiyyətlərinə görə soyqırım hesab olunmalıdır?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Balaca girovlar" mətninin 2-ci hissəsinin oxusu ilə başlanır. Mətnin məzmununun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlər izah edilir, cümlələrdə işlədilir.

Mətnin oxusu və dərslikdəki çalışmalar seçilmiş alt-standartların reallaşdırılması üçün kifayət qədər material verir. Belə ki, 1, 2, 3, 8, 10, 11-ci çalışmalar mətnin məzmununun mənimsədilməsinə kömək etməklə yanaşı, şagirdlərdə suallar verməklə fikirlərini dəqiqləşdirmək (1.1.1.), fakt və hadisələri seçib ayırmaq (1.1.2.), eyni zamanda, fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırma (2.1.3.) bacarıqlarının inkişafını da təmin edir. Birinci çalışma əsasında şagirdlər suallara cavab verməklə mətnin məzmununu mənimsəyir və danışır, bu prosesdə müəllim onların nitqi üzərində müşahidə aparır və zəruri düzəlişlər edir. Şagirdlərin sual tərtib etmə bacarığının inkişafını təmin etmək üçün müəllim onlara mətn üzrə suallar tərtib etməyi də tapşıra bilər. Bu işi qruplar la iş formasında da təşkil etmək olar. Hər qrupun tərtib etdiyi suallar əsasında qiymətləndirmə aparılır.

2-ci çalışma əsasında mətnin məzmunu üzrə plan tərtib etməklə mətnin məzmunu mənimsədilir, həmçinin mətnin hissələri arasında əlaqələrin qavranılmasına şərait yaranır. 9, 10, 12 çalışmalar üzərində iş bilavasitə şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına istiqamətləndirilmişdir (2.1.3.). Bunlarla yanaşı, 3, 7, 11-ci çalışmalar da şagirdlərdə göstərilən bacarıqları inkişaf etdirir.

Dərslikdəki 6-cı çalışma əvvəlki dərsdə üzərində iş aparılmış orfoqrafiya qaydasının mənimsədilməsi, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üzərində iş aparmaq üçün nəzərdə tutulmuşdur (4.1.3.).

Mətnin hər iki hissəsinin oxusu başa çatdığından müəllim mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi üzərində iş apara bilər. Bununla bağlı şagirdlərin təcrübələri var. Odur ki, müəllim sinfi 4 qrupa bölür. Qruplardan hər biri mətnin bir tərkib hissəsi üzərində (giriş, əsas hissə və nəticə) işləyir, bir qrup isə hissələr arasındakı əlaqələri nəzərdən keçirməklə mətn üzrə plan tərtib edir (3.1.3.).

Çalışmalar üzrə işi müəllim öz mülahizəsinə əsasən qruplar, yaxud cütlərlə iş



LAYİHƏ

formasında da təşkil edə bilər.

Təlim göstəriciləri yüksək olan şagirdləri aşağıdakı iş vərəqləri üzrə də tədqiqat sualı ətrafında işlətmək olar:

**1-ci iş vərəqinin məzmunu:** Xalq qəhrəmanlarımızdan hansının həyatında, fəaliyyətində əsirliklə bağlı hadisələr haqqında eşitmisiniz?

**2-ci iş vərəqinin məzmunu:** 1941-1945-ci il 2-ci Dünya müharibəsi illərində şücaət göstərən qəhrəman oğullarımızdan hansı öz həyatında əsir günləri yaşamışdır?

**3-cü iş vərəqinin məzmunu:** Vətənimizin başının üstünü alan Qarabağ müharibəsində əsirlik həyatı yaşayan oğul və qızlarımız haqqında nə bilirsiniz?

Təqdimat üçün vaxt ayrılır. Vaxt tamam olduqda şagirdlərin hazırladıqları təqdimatlar müzakirə edilir. Təqdimatda qrupların bütün üzvlərinin iştirakına müəllim nəzarət etməlidir. Cavablar qiymətləndirilir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətnlə bütövlükdə tanış olduqlarından erməni quldurlarının kiçikyaşlı uşaqların başına gətirdikləri işgəncələr haqqında fikir mübadiləsi edir, əldə etdikləri əlavə faktları müzakirə edirlər.

***Nəticə:*** "Balaca girovlar" mətnindən tanış olduğunuz girovlar bu faciələri yaşamış uşaqların taleyini bizim gözlərimiz qarşısında canlandırır. Hekayədəki girovların taleyini yaşamış yüzlərlə soydaşımızdan isə üzərindən 20 ildən artıq vaxt keçməsinə baxmayaraq, hələ də bir xəbər yoxdur. Mənfur düşmənlərin əlinə keçmiş, əsir götürülmüş vətəndaşlarımızın hansı şəraitdə saxlanılması, onlarla necə rəftar edilməsi, onlardan nə məqsədlə istifadə edilməsindən xəbərsizik. Beynəlxalq təşkilatlar isə hadisələrə ikili münasibət bəsləyir, bir çox hallarda haqsıza haqq qazandırır, onlara havadarlıq edirlər.

Mətndəki hadisələrin təsviri və 12-ci çalışmanın mətni vasitəsilə şagirdlər yeddi min əhalisi olan bir şəhərin yer üzündən silinməsini öyrənir, Xocalı faciəsinin genosid olduğunu anlayırlar. Balaca girovlardan isə dözümlülük, ümidsizliyə qapılmamaq, sabaha nikbin baxmaq nümunəsi götürür, çətinliklə qarşılaşdıqda onlara bənzəməyə çalışırlar.

***Tətbiqetmə:*** "İnsan da öz Vətənində girov olarmı?" mövzusunda esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq. Xocalı faciəsi ilə bağlı əlavə məlumat toplamaq və təqdimat hazırlamaq.

## 44-cü dərs.
## § 40. Peşmançılıq (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, ritm və tempdən düzgün istifadə edir. | 2.1.1.<br>2.1.2. | R.d. – 3.1.2<br>Biol. – 4.2.1. |
| 2. | Mətndəki əlamət bildirən sözləri seçir və mənasını izah edir. | 3.1.1. | |
| 3. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |



LAYİHƏ

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, şaxələndirmə, rollu oyun.

***Resurslar:*** Dərslik, dəftər, kompüter, elektron lövhə, proyektor.

***Motivasiya:*** Müəllim elektron lövhədə "Dəli Kür" filmindən bir fraqment göstərir. Kadrda Əşrəflə Rus Əhmədin görüşdüyü səhnə təsvir edilmişdir.

***Köməkçi sual:*** 1) Gördüyünüz kadr hansı filmdəndir? Bu filmə baxmısınızmı?

2) Bu filmdəki hadisələr hansı dövrdə cərəyan edir?

3) Filmdəki hansı personajları tanıyırsınız?

4) Əşrəflə Rus Əhmədin görüşü sizə necə təsir bağışladı?

Şagirdlər müəllimin suallarını cavablandırırlar. Müəllim onları istiqamətləndirir.

***Tədqiqat sualı:*** Əşrəfi və Rus Əhmədi necə səciyyələndirərsiniz?

***Təqdiqatın aparılması:*** Tədqiqat "Peşmançılıq" mətninin rollar üzrə oxunması ilə başlanır. Oxu prosesində sözlərin düzgün vurğu ilə oxusuna diqqət yetirilir (3.1.2.), zəruri düzəlişlər edilir. Dialoqda iştirak edən şagirdlərin nitqlərində ritm və tempə əməl olunması izlənilir (2.1.2.). Mətnin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası izah edilir, cümlələrdə işlədilir.

Müəllim 1-ci və 4-cü çalışmaların icrasını cütlərlə iş formasında həyata keçirir. 1-ci çalışmanın icrası yolu ilə şagirdlər fikirlərini faktlarla əsaslandırmağa səy göstərirlər. 4-cü çalışma vasitəsilə mətndəki hadisələrin ardıcıllığını bərpa etməklə mətnin hissələri arasında əlaqələri müəyyənləşdirirlər (4.1.2.).

2-ci çalışma üzərində iş qruplarla aparılır. Müəllim şagirdləri 4 qrupa bölür. Qruplar işləyərkən müəllim onların nitqi üzərində müşahidə aparır, şagirdlərin şifahi nitqində sözlərin düzgün vurğu ilə tələffüz edilməsinə nəzarət edir, qeydlər götürür (2.1.1.). Müəllim həmçinin şagirdlərin özlərinin də bir-birlərinin nitqindəki səhvləri qeydə almağı tapşırır.

3-cü və 6-cı çalışmalar müzakirə şəklində bütün sinfin fəallığı ilə yerinə yetirilir. Bu çalışmaların icra edilməsində da müəllimin məqsədi şagirdlərin sərbəst nitqlərində sözlərin düzgün vurğu ilə tələffüzünü izləməkdir (2.1.1.).

8-ci çalışma mətndə işlənmiş əlamət bildirən sözlərin qrammatik mənalarının mənimsənilməsini nəzərdə tutur (3.1.1). Müəllim bu çalışmanın icrasını da qruplarla iş formasında həyata keçirə bilər.

Dərslikdəki digər çalışmalar şagirdlərin lüğətinin fəallaşdırılması, lüğət ehtiyatının dəqiqləşdirilməsini həyata keçirmək üçün hazırlanmışdır. Müəllim vaxta qənaət etmək üçün 7, 9, 10, 11, 12-ci çalışmalar üzərində işi cütlərə tapşırır. Nəticələr müzakirə olunur və düzgün cavab müəyyənləşdirilir. Təqdimatlar zamanı şagirdlərin nitqi seçilmiş alt-standartların tələbi baxımından izlənilir və yol verilmiş nöqsanlar onların nəzərinə çatdırılır.

***Məlumat mübadiləsi:*** Şagirdlər "Dəli kür" filmindən fraqmentlərə baxdıqdan, "Peşmançılıq" mətni ilə tanış olduqdan sonra oradakı obrazlar haqqında sərbəst fikir yürüdür, mətndəki iştirakçıların xarakter xüsusiyyətlərini müzakirə edirlər.

***Nəticə:*** Mətn üzrə aparılan işlərin yekunu olaraq şagirdlər belə bir fikrə gəlirlər ki, təbiət bizimdir-hamımızındır, Əşrəfin dediyi kimi, ayrı-ayrı adamlara məxsus deyil.

Təbiət, torpaq bizim hamımızın həm beşiyi, həm də son mənzilidir. Əgər hər kəs bu həqiqəti dərk etsə, insan xislətində yersiz təkəbbür, lovğalıq, eqoizm özünə yer almaz, yuva salmaz. İnsanlar bir-birinə dost əli uzadar, kin-küdurət, ədavət, düşmənçilik aradan qalxar.

Əşrəf gəncdir, təkəbbürlüdür, dünyanı hələ yaxşı dərk etmir. O elə bilir ki, hər şey onun istədiyi kimi olmalıdır. Çünki o, Cahandar ağanın oğlu olduğu üçün ağalıq edib, həmişə onun istədiyini ediblər.

Əşrəfin təkəbbürünün qarşısında onunla çox sadə davranan Rus Əhməd istədiyinə nail

LAYİHƏ

olur. Əşrəf sakitləşir, quşu əlinə alanda onun hərəkətlərində bir peşmanlıq duyulur. Şagirdlər şaxələndirmə əsasında hər iki obrazı səciyyələndirirlər.

***Yaradıcı tətbiqetmə:*** “Niyə Əşrəfə bənzəmək istəməzdim? ” yaxud “Rus Əhməddən nə öyrəndik?” mövzularından biri üzrə inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 45-ci dərs.
## § 41. Hophop (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | Biol. - 4.2.1.<br>X.d. - 2.1.1 |
| 2. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən istifadə edir. | 2.1.1.<br>2.1.2. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 4. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücum, təqdimat, müzakirə, anlayışın çıxarılması.

***Resurslar:*** Dərslik, dəftər, internetə qoşulmuş kompüter, proyektor.

***Motivasiya:*** Müəllim elektron lövhədə oxuyan hophopun görüntülərini əks etdirən kadrlar (Huppe fasciée (Upupa epops) – YouTube www.youtube.com/watch?v=u9aMNDUWQkU) nümayiş etdirir. Kadrlarda hophopun yem əldə etməsi, balalarını yemləməsi və s. əks olunur (əgər müəllim bunu təşkil etməkdə çətinlik çəkərsə, quşun şəkillərini də göstərə bilər ).





LAYİHƏ

Kadrların nümayişi zamanı müəllim dairə çəkir, dairənin içərisini boş saxlayır və şagirdlərə gördükləri quşun əlamətlərini sadalamağı təklif edir. Şagirdlərin söylədikləri əlamətləri (uzun nazik dimdiyi var, tez-tez yerini dəyişir, oxuyur, həşəratlarla qidalanır, başındakı tüklər cərgə ilə düzülüb və s.) dairənin kənarlarında qeyd edir.

***Köməkçi sual :*** 1) Hansı əlamətlər bu quşu başqalarından fərqləndirir?

2) Dairənin içərisinə hansı quşun adı (hophop –latınca adı: Upupa epops) yazılmalıdır?

3) Bu quşun baş görünüşündəki qeyri-adilik nədədir?

***Motivasiya 2:*** Müəllimin əlində başqa vasitələr olmasa, hophop haqqındakı əfsanəni ( Deyirlər ki, hop-hop əvvəllər bir gəlin imiş. Həmin gəlin bir dəfə başını yuyan zaman qayınatası gəlib onu görür. Gəlin utandığından üzünü göyə tutub deyir:

– İlahi, sən məni bir quş elə, uçum gedim çöllərə. Bir də qayınatamın gözünə görünməyim.

O saat gəlin quş olur. Uçub qalxır göylərə. Gəlinin iki uşağı var imiş. Biri oğlan, biri qız. Oğlunun adı Hop-hop, qızının adı Gültop imiş. O vaxtdan bəri gəlin övlad həsrəti çəkir, həmişə onları çağırır: – Hop-hop, Gültop...) danışa bilər. Sonra isə “anlayışın çıxarılması” üsulundan istifadə ilə motivasiyanı davam etdirə bilər:

***Tədqiqat sualı:*** 1) Gördüyünüz bu quş haqqında nə bilirsiniz?

2) Görəsən, bu quşu niyə həm də şanapipik adlandırırlar?

***Təqdiqatın aparılması:*** Müəllim tədqiqat sualı ətrafında axtarışı dərslikdəki “Hophop” mətninin oxusu ilə başlayır. Oxu prosesində sözlərin düzgün vurğu ilə tələffüzünə nəzarət edilir, ritm və tempdən istifadə izlənilir. Mətnin məzmununun asan mənimsənilməsi üçün yeni sözlər izah olunur, cümlələrdə işlədilir. Qırmızı rənglə fərqləndirilmiş sözlərə şagirdlərin diqqəti cəlb olunur.

Şagirdlərin şifahi nitqlərində sözləri orfoepik və vurğu cəhətdən düzgün tələffüz etmə, ritm və tempi gözləmə bacarığının səviyyəsini müəyyənləşdirmək məqsədilə şagirdlərə fikirlərini şifahi şəkildə ifadə etməyə şərait yaradılır. Bu məqsədlə 1-ci çalışmada qoyulmuş suallardan birinin mətnə aid olmadığını əsaslandırmaq tələb olunur. Bununla yanaşı, 3, 5, 7, 9, 10-cu çalışmaların icrası zamanı da şagirdlərin müvafiq bacarıqları üzərində zəruri təkmilləşdirmə aparmaq imkanları vardır. Bu çalışmalar üzərində iş həmçinin şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarını da nəzərdə tutur.

8, 10, 11-ci çalışmalar şagirdlərin nitq hissələrinin qrammatik mənalarının və onlarla bağlı düzgün yazı qaydalarının mənimsənilməsinə, 2,4, 6-cı çalışmalar onların fikirlərini mətnin hissələri üzərində qruplaşdırmaqla cümlə və söz birləşmələri qurmaq və tərcümə bacarıqlarının təkmilləşdirilməsinə, dilin qrammatik normalarının tətbiqinə istiqamətləndirilmişdir. Qeyd edək ki, çalışmalar üzərində işi müəllim istədiyi şəkildə (qruplarla və ya cütlərlə, həmçinin fərdi tapşırıqvermə və s.şəklində) təşkil edə bilər.

Şagirdlərin fikirlərini qrammatik baxımdan düzgün formalaşdırmaq imkanlarının reallaşdırılması üçün ehtiyac olarsa, müəllim aşağıdakı mətnin tərcüməsi üzərində qruplar şəklində iş təşkil edə bilər.

Удóд (лат. Upupa epops) — небольшая яркоокрашенная птица с длинным узким клювом и хохолком, иногда раскрываемым в виде веера. Широко распространён в южных и центральных областях Европы и Азии, а также почти на всей территории Африки. Излюбленным местом обитания является открытая местность с редким кустарником или деревьями, такая как саванна, луг или пастбище. Также встречается на культивируемых ландшафтах во фруктовых садах и виноградниках. Осторожна, но не пуглива — как правило, сторонится человека и улетает при его приближении. Много времени проводит на земле, охотясь на насекомых.

***Məlumat mübadiləsi:*** Motivasiya zamanı göstərilən kadrlar, mətnin oxusu və

LAYİHƏ

çalışmalar üzərində iş əsasında şagirdlər hophop quşunun özünəməxsus xüsusiyyətləri, onun başqa quşlardan fərqli cəhətləri üzərində fikir mübadiləsi edirlər.

Azərbaycanın görkəmli şairi M.Ə.Sabirin hophop quşunun adı ilə -- “Hophop” təxəllüsü daşımasının səbəbini aşağı siniflərdən aldıqları bilgilər əsasında anlamağa çalışırlar.

***Nəticə:*** Uşaqlar tədqiqat nəticəsində hophop haqqında maraqlı məlumatlar əldə edirlər. Bu quşların həyat tərzi, qidalanması, zahiri əlamətləri barədə kadrlar əsasında əyani təsəvvürə malik olur, mətn vasitəsilə yeni məlumatlara yiyələnirlər . Öyrənirlər ki, hophoplar bütün Afrika ərazisində, Avropa və Asiyanın mərkəz və cənub hissələrində geniş yayılmış, saatlarla oxumaqdan yorulmayan, insandan qorxmayan, insan məskənlərinə yaxın məskunlaşan köçəri quşlardandır. Maraqlı baş quruluşuna malik olması onu digər quşlardan fərqləndirən ən başlıca əlamətdir. Eşitdikləri əfsanə və müəllimin izahı nəticəsində şagirdlərə məlum olur ki, “şana”-- daraq deməkdir. Hophopun başındakı tüklər bir cərgə şəklində düzüldüyünə görə başa sancılmış daraq təsiri bağışlayır. Elə ona görə də hophopa həm də şanapipik deyirlər.

M.Ə.Sabir öz dövrünün nadan insanlarını qəflət yuxusundan ayıltdığı üçün, məhz hamını öz xoş nəğmələri ilə erkən yuxudan oyadan hophop quşunun adını təxəllüs seçmişdir.

Şanapipik haqqında məlumat əldə edərkən şagirdlər həm də oxu zamanı və danışarkən sözləri düzgün vurğu ilə tələffüz etmək, fikirlərini əsaslandırmaq üçün əlavə fakt və hadisələri seçib ayırmaq və s. kimi bacarıqlara da yiyələnirlər.

***Yaradıcı tətbiqetmə:*** İnternetdən hophop quşu barədə əlavə məlumat toplamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 46-cı dərs.
## § 42. Faydalı məsləhət (1saat)

<table>
<tr><th>№</th><th>Təlim nəticələri</th><th>Məzmun standartı</th><th>Fənlərarası inteqrasiya</th></tr>
<tr><td>1.</td><td>Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir.</td><td>1.1.1.</td><td rowspan="4">R.d. – 4.1.1.<br>Biol. 4.2.1</td></tr>
<tr><td>2.</td><td>Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.</td><td>3.1.1.</td></tr>
<tr><td>3.</td><td>Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.</td><td>3.1.2.</td></tr>
<tr><td>4.</td><td>Mətnin tərkib hissələrini müəyyənləşdirir.</td><td>3.1.3.</td></tr>
<tr><td>5.</td><td>Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir.</td><td>4.1.2.</td><td></td></tr>
</table>

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Resurslar:*** Dərslik, dəftər, kompüter, proyektor, elektron lövhə.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Motivasiya:*** Müəllim elektron lövhədə bol məhsullu tarlaların, bostanların, zəmilərin təsvirini canlandırır (internet xidmətindən istifadə etməklə).

***Köməkçi sual:*** Gördüyünüz bu əkin sahələrində yetişdirilən tərəvəzlər haqqında nə bilirsiniz? Bunların içərisində paxlalı bitkilər varmı?



LAYİHƏ

Şagirdlərin cavabları dinlənilir.

***Tədqiqat sualı:*** 1) Paxlalı bitkilərdən hansılarını tanıyırsınız?

2) Bu bitkilərin yığılması qaydaları haqqında hər hansı bir məlumatınız varmı?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki mətn üzərində işlə başlayır. "Faydalı məsləhət" mətni şagirdlərə hissə-hissə oxutdurulur. Mətnin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. Şagirdlər üçün yeni olan söz və ifadələrin mənası izah edilir, həmin sözlər cümlə içərisində işlədilir.

Oxu prosesində şagirdlərin sözləri düzgün vurğu ilə oxumalarına (3.1.2.), həmçinin ritm və tempə əməl etmələrinə nəzarət edilir.

Mətnin məzmununun qavranılmasını asanlaşdırmaq və seçilmiş alt-standartlarla bağlı müvafiq bacarıqlar formalaşdırılması məqsədilə 1-ci çalışma icra olunur (1.1.1.). 2, 5, 9-cu çalışmaların yerinə yetirilməsi isə həmin istiqamətdəki işləri bir qədər də dərinləşdirir.

10-cu çalışma əsasında aparılan işi qruplarla təşkil etmək səmərəli olar. Qruplar ayrı-ayrılıqda mətndə işlənmiş feillərin zamanını müəyyənləşdirib müvafiq sütunlarda yazdıqdan sonra şagirdlərin fəallığı ilə təqdimatlar müzakirə olunur, düzgün cavablarla bağlı vahid fikir formalaşır (3.1.1.). 12-ci çalışma isə isimlərin hal şəkilçilərinin mənimsənilmə səviyyəsini aşkara çıxarmaq və lazım olduqda bununla bağlı təkmilləşdirmə işləri aparmaq üçün nəzərdə tutulmuşdur.

Müəllim mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi istiqamətində işi də qruplarla təşkil edə bilər. Hər qrupa müvafiq tapşırıq və təqdimatların hazırlanması üçün vaxt verilir. Müəllimin mülahizəsindən asılı olaraq, hər bir qrup mətnin hər üç tərkib hissəsinin, yaxud da tərkib hissələrindən məsləhət bilinən hər hansı birinin müəyyənləşdirilməsi üzərində işləyə bilər. Bu işlər isə başqa bir bacarığın—mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsini aktuallaşdırır.

Dərslikdəki 2, 6, 13-cü çalışmalar kollektivlə şifahi şəkildə yerinə yetirilir. 3, 4, 7, 8, 11-ci çalışmalar isə kiçik qruplarla və ya sinifdəki şagirdlərin sayından asılı olaraq, cütlərlə də icra oluna bilər. Bu çalışmaların icrası şagirdlərin lüğət ehtiyatının genişlənməsinə və dəqiqləşdirilməsinə xidmət edir, dilin qrammatik normalarını tətbiq etməklə söz birləşmələri və cümlə qurmaq bacarıqlarının təkmilləşdirilməsini həyata keçirməyə imkan verir.

Dərslikdəki "Kəlmələrin dili"ni öyrənək!" rubrikası mətndə işlənmiş "yetişmək" sözünün məna imkanları ilə şagirdlərin hərtərəfli tanış olmalarına şərait yaradır, dilin lüğət tərkibinə maraq oyadır.

"Hikmət xəzinəsindən" rubrikasında verilmiş aforizm mətnin məzmunu ilə bağlı tərbiyəvi iş aparmağı nəzərdə tutur, həmçinin şagirdlərin fikirlərini əsaslandırmaları üçün əlavə fakt və material verir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətnin məzmunu əsasında "Bilməmək eyib deyil, öyrənməmək eyibdir " atalar sözünü müzakirə edir, oxuduqları mətn vasitəsilə paxlalı bitkilərdən biri haqqında əldə etdikləri məlumat barədə fikir mübadiləsi aparırlar.

***Nəticə:*** Tədqiqat sualına cavab axtaran şagirdlər paxlalı bitkilərdən olan lobya haqqında maraqlı məlumat əldə edir, öyrənirlər ki, yetişmiş paxlaları yığarkən onların kökünü torpaqda saxlamaq lazımdır. Çünki onların kökündə olan yumrucuq bakteriyaları torpağı azot gübrəsi ilə zənginləşdirir. Mətn və çalışmalar üzərində işləyərkən şagirdlər sözləri düzgün vurğu ilə oxuyur, mətnin tərkib hissələrini və hissələr arasındakı əlaqələri müəyyənləşdirir, mətndə işlənmiş nitq hissələrinin leksik və qrammatik mənası ilə tanış olurlar. Mətnin sözlüyü hesabına şagirdlərin lüğət ehtiyatları zənginləşir. Onlar inanırlar ki, bilmədikləri şeyi öyrənmək iki cəhətdən faydalıdır: ya bildiyin şeyi təcrübədən keçirmiş olursan, ya bilmədiyin şeyi öyrənirsən.

***Yaradıcı tətbiqetmə:*** Paxlalı bitkilərdən birinin yetişdirilməsi və onlara qulluq haqqında



LAYİHƏ

əlavə məlumat toplamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu plan əsasında öyrənmək.

## 47-ci dərs.
## § 43. Qara şanı (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətnin məzmununa aid suallar verir. | 1.1.1. | R.d. – 2.2.2.<br>Biol. – 4.2.2 |
| 2. | Fikrlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 3. | Əsas nitq hissələrinin qrammatik mənasını izah edir. | 3.1.1. | |
| 4. | Əsas nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük qrupla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, anlayışın çıxarılması.

***Resurslar:*** Dərslik, dəftər, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim lövhəyə ətrafinda sözlər yazılmış dairə şəkli çəkir.




***Köməkçi sual:*** Tapmacanın cavabını tapsanız, əlamətləri yazılmış əşyanın adını dairəyə yaza bilərsiniz.

Salxım-salxım sallanar,
Çox qaldıqda ballanar.
Göydə nərdivan olsa,
Çıxar ordan sallanar.

Şagirdlər müxtəlif cavablar söyləyirlər: “Üzüm” sözü tapılır və dairəciyə yazılır.

***Tədqiqat sualı:*** Abşeronda ən çox sevilən və yetişdirilən üzüm sortları hansılardır? Bu sortlar barədə hər hansı bir məlumatınız varmı?

***Tədqiqatın aparılması:*** Dərslikdəki “Qara şanı” mətni şagirdlərə oxutdurulur. Mətnin məzmununun mənimsədilməsi üçün çətin söz və ifadələrin mənası izah edilir, cümlə içərisində işlədilir.

Şagirdlərin dinlədikləri mətnə dair fikirlərini dəqiqləşdirmələri üçün 1-ci çalışma üzərində iş aparılır. Bu çalışma 1.1.1 alt-stardartının reallaşdırılmasına xidmət edir.

2, 3, 5-ci çalışmalar şagirdlərin fikirlərini mətnin hissələrinə muvafiq qruplaşdırmalarına

LAYİHƏ

( 2.1.4.), 4-cü çalışma onların fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına şərait yaradır. 6, 7, 9, 10, 14-cü çalışmalar isə şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək və dəqiqləşdirmək, tərcümə bacarığını inkişaf etdirmək məqsədilə nəzərdə tutulmuşdur.

3.1.1 alt-standartı dərslikdə 8, 11, 12-ci çalışmaların icrası ilə reallaşdırılır. Bu çalışmaların icrası prosesində şagirdlər feillərin əsas qrammatik göstəricisi olan zaman və şəxs şəkilçilərinin müəyyənləşdirilməsi, sifətlərin dərəcə əlamətlərini qəbul etməsi üzərində işləyirlər. Tapşırığın yerinə yetirilməsi zaman və şəxs şəkilçilərinin, dərəcə əlamətlərinin qrammatik mənasının başa düşülməsinə və nəticədə nitqdə düzgün istifadəsinə imkan verir.

11-ci çalışma köməkçi nitq hissələrinin orfoqrafiyası üzərində müşahidə aparmağa, 13-cü çalışma mürəkkəb isimlərin düzgün yazılış qaydalarına dair bacarıqların formalaşdırılmasına (4.1.3.) və tətbiqinə istiqamətləndirilir.

***Məlumat mübadiləsi:*** Tədqiqat zamanı şagirdlər qara şanı, ağ şanı kimi üzüm növləri, onların xüsusiyyətləri, yerinə yetirilən çalışmaların nəticələri barədə müzakirə aparırlar.

***Nəticə:*** Şagirdlər tədqiqat sualına cavab axtararkən mətn və dərslikdəki əlavə materiallar əsasında belə bir qənaətə gəlirlər ki, həqiqətən çəkilən zəhmət hədər getmir. Əgər bağa yaxşı qulluq edilsə, bol məhsul da alınır. “Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar” atalar sözü təsadüfən yaranmayıb. Şagirdlər insan əməyi sayəsində qurumuş budağın barlı meynəyə çevrilməsinin şahidi olurlar. İnanırlar ki, torpağın şirəsini, günəşin nurunu özündə toplayaraq Bakı bağlarının yaraşığına çevrilən qara şanı, ağ şanı, həqiqətən, əmək itirən deyil: bir verdiyinin əvəzində on qaytarır.

Çalışmalar üzərində işləməklə şagirdlərdə fikirlərini dəqiqləşdirmək üçün sual vermək, müvafiq nitq hissələrinin qrammatik mənasını izah etmək və yazılış qaydalarına əməl etmək bacarıqları formalaşır.

***Yaradıcı tətbiqetmə:*** “Mən Bakı bağlarının
Şöhrətiyəm, şanıyam!” mövzusunda kiçik inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq, söz ehtiyatındakı sözləri cümlələrdə işlətmək.

## 48-ci, 49-cu dərslər.
## § 44. Bahar gəlsin! (2saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1 | R.d. – 4.1.2.<br>Mus. – 2.2.1. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 3. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır və şeirin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3<br>2.1.4 | |
| 4. | Şeirdəki əsas nitq hissələrinə aid sözlərin qrammatik mənasını izah edir. | 3.1.1 | |
| 5. | Mövzuya aid inşa yazır. | 4.1.1 | |
| 6. | İsimlərin və sayların yazılış qaydalarına riayət edir. | 4.1.3 | |

LAYİHƏ

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, debat, BİBÖ.

***Resurslar :*** Dərslik, dəftər, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim kompüterdə "Bahar gələndə" mahnısını ( mus.: Ələkbər Tağıyevin, ifa edir: N. Qasımova) səsləndirir. Tanış mahnı olduğundan şagirdlər birlikdə ifa edirlər.

***Köməkçi sual:*** Əhvalınız necədir? Niyə?

Şagirdlərin cavabları dinlənilir.

***Tədqiqat sualı:*** 1) Nə üçün bahar fəslini hamı sevir? Niyə başqa fəsillərin deyil, məhz yazın gəlişini bayram edirik?

2) Sözlərin qrammatik mənasını başa düşməsəniz və onları orfoqrafik cəhətdən düzgün yaza bilməsəniz, fikirlərinizi başqalarına yazılı şəkildə çatdıra bilərsinizmi?

***Tədqiqatın aparılması:*** "Bahar gəlsin!" şeiri şagirdlərə oxutdurulur. Şeirin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. Şerin oxusu prosesində düzgün intonasiya, sözlərin orfoepik və vurğu baxımından düzgün tələffüzü, ritm və tempdən istifadə izlənilir (2.1.1., 2.1.2.), nöqsanlara diqqət cəlb edilir və lazımi tövsiyələr verilir.

Qeyd. Bu mövzu iki dərs saatı üçün nəzərdə tutulduğundan yaxşı olar ki, birinci saatda şeirin oxusu prosesində intonasiya, düzgün tələffüz və movzunun mahiyyətinin açılması fonunda şifahi nitq bacarıqlarının inkişafına, ikinci saatda isə nitq hissələrinin qrammatik mənasının və onların orfoqrafiyasının mənimsədilməsi, hımçinin rabitəli yazı bacarıqlarının formalaşdırılması üzərində işlərə çox yer verilsin.

Müəllim şagirdləri fəsillərin adına uyğun olaraq 4 qrupa bölür və 1, 2-ci çalışma üzərində işləməyi tapşırır. Qrup üzvləri əvvəlcə 1-ci çalışmanın tapşırığı əsasında bölüşür, sonra şeirdən götürülmüş parçaların motivi əsasında fikirlərini əlavə fakt və hadisələrlə əlaqələndirir və şeirin hissələrinə müvafiq olaraq (2.1.3., 2.1.4.) təqdimat hazırlayırlar. Vaxt bitdikdən sonra qruplar işlərini təqdim edirlər. Fərqli cavablar əvvəl qrup üzvləri, daha sonra müəllim tərəfindən qiymətləndirilir.

Qruplar sonra 4, 5, 11-ci çalışmalar üzərində işləyirlər. Bu çalışmaları yerinə yetirərkən şagirdlər movzu ətrafında fikir və mülahizələrini bölüşdürür, əməkdaşlıq edir, əlavə fakt və hadisələrə əsaslanaraq fikirlərini formalaşdırır və dilin müvafiq normalarına əməl etməklə təqdim edir, debata qoşulurlar. Şagirdlərin təqdimatları dinlənilir və qiymətləndirilir.

Şeirin məzmunu və yerinə yetirilmiş çalışmalar əsasında qazanılmış bacarıqlar üzrə ümumiləşdirmə aparılır.

Evə şeirin əzbər öyrənilməsi tapşırılır.

Dərsin ikinci saatında tədqiqat şerin bir neçə nəfərə əzbər danışdırılması ilə başlaya bilər. Burada məqsəd şagirdlərin sözlərin düzgün intonasiya və vurğuya əməl etmək bacarıqlarının izləmək olmalıdır.

Dərslikdəki çalışmaların yerinə yetirilməsi üçün şagirdlər qruplara bölünür.

6-cı çalışma üzərində iş bütün qruplara tövsiyə olunur.

**1-ci qrup** – çalışma 6, 7

**2-ci qrup** – çalışma 6, 8

**3-cü qrup** – çalışma 6, 9

Bu çalışmaları yerinə yetirməklə şagirdlər lüğət ehtiyatlarını zənginləşdirir və dəqiqləşdirir, tərcümə bacarıqlarını nümayiş etdirirlər. 9-cu çalışmanın yerinə yetirilməsi felin qrammatik mənasının mənimsənilməsini də nəzərdə tutur.

Çalışmaların icrası üçün qruplara verilən vaxt başa çatdıqda təqdimatlar müzakirə olunur.

LAYİHƏ

10, 12-ci çalışmalar bütün siniflə icra olunur. Müəllim 10-cu çalışmadakı tapmacanı oxutdurur, açması tapılır, sonra sonu “q” ilə bitən isimlərin yazılış qaydaları izah edilir (4.1.3) və nəzərdə tutulan sözlər ismin müxtəlif halları üzrə dəyişdirilərək yazılır. 12-ci çalışmadakı sayların sözlə yazılması sayın orfoqrafiyasının mənimsədilməsinə xidmət edir. Bu tapşırıqların yerinə yetirilməsində bütün qruplar iştirak edə bilərlər.

13, 14-cü çalışmaların yerinə yetirilməsindən məqsəd şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına və şeirin hissələrinə müvafiq qruplaşdırmalarına şərait yaratmaqdır.

Sonra 16 və 17-ci çalışmalar üzərində qrupların işi təşkil olunur. Bu çalışmaların icrası daha çox əlamət bildirən sözlərin qrammatik mənasının qavranılmasına və orfoqrafiyasının mənimsənilməsinə istiqamətləndirilməlidir. Qrupların hamısı eyni çalışmalar üzərində işləyir və təqdimatların müzakirəsində fəal iştirak edirlər.

Müəllim əvvəl ayrı-ayrı şagirdləri, daha sonra qrupları qiymətləndirir.

***Məlumat mübadiləsi:*** Şagirdlər “Bahar gəlsin!” şeiri və çalışmalar üzrə işləyərkən əldə etdikləri məlumatları bölüşür, mövzuya uyğun fikirlərini əsaslandırırlar.

***Nəticə:*** Yurdumuzun baharı çox gözəldir. Çünki bu bayram gül, çiçək, təbiətin oyanışından başqa, həm də gözəl əhval-ruhiyyə, bayram sevincləri gətirir.

Novruz- yeni gün deməkdir. Bu bayram ərəfəsində il təzələnir, qış öz yerini yaza verir. Təbiət oyanır. Hər tərəfdə canlanma hiss olunur. Əkin-biçin işləri başlanır. Bolluğun, firavanlığın bünövrəsi məhz yazın gəlişi ilə başlanır. Xalqımız bu təzələnməni, təbiətin oyanmasını böyük hadisə --bayram şəklində qeyd edir. Bayrama qədər qeyd edilən çərşənbələrdə suyun, havanın, torpağın oyanmasının sevinci yaşanır, ilaxır çərşənbəsindən bayrama hazırlıq işləri yekunlaşır və martın 20, 21-də bütün ölkədə bayram coşqusu hökm sürür.

Bu bayram səmimiyyət, mehribanlıq bayramıdır. Bu bayramda bütün küsülülər barışır, ürəklərdən kin-küdurət silinir. Hamı sevinir, şadlanır.

Şagirdlər belə qənaətə gəlirlər ki, sözlərin qrammatik mənasını başa düşməsələr və onları orfoqrafik cəhətdən düzgün yaza bilməsələr, fikirlərini başqalarına şifahi və yazılı şəkildə çatdıra bilməzlər.

***Yaradıcı tətbiqetmə:*** “Novruz gəlir, yaz gəlir” başlıqlı inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Türkiyə, İran, Əfqanıstan, Qazaxıstan, Tacikistan və Türkmənistan kimi ölkələrdən birində Novruzu qarşılama adətləri barədə təqdimat hazırlamaq.

## 50-ci dərs.
## Özünüzü yoxlayın! (1saat)

LAYİHƏ

## 51-ci dərs.
## § 45. Pələng ovu! (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2 | R.d. – 2.2.1.<br>Biol. – 4.2.1. |
| 2. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4 | |
| 3. | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir və mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4. | Mövzuya uyğun esse yazır. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.1<br>4.1.2 | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.
***Resurslar:*** Dərslik, kompüter, elektron lövhə.
***Motivasiya:*** Müəllim elektron lövhədə proyektor vasitəsilə şagirdlərə "Mauqli" cizgi filmindən pələng Şirxanın məğrur duruşu olan kadrları nümayiş etdirir.

***Köməkçi sual:*** Gördüyünüz kadr hansı filmdəndir? Pələng Şirxanın şahanə duruşunu təsvir edə bilərsiniz?

Şagirdlər müəllimin sualını cavablandırmağa çalışırlar. Müəllim onları istiqamətləndirir.

***Tədqiqat sualı:*** Heyvanların şahı sayılan pələng haqqında nə bilirsiniz?

***Tədqiqatın aparılması:*** Müəllim şagirdləri 3 qrupa bölür və dərslikdəki "Pələng ovu" mətnini oxutdurur. Mətnin məzmununun, "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənimsədilməsi üzərində iş aparılır.

Mətnin məzmununun mənimsədilməsi məqsədilə 1-ci çalışma bütün siniflə yerinə yetirilir. Şagirdlər qoyulmuş sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırmaq üçün mətndəki fakt və hadisələrə diqqət yetirir, onlardan istifadə edərək fikirlərini sübuta yetirməyə səy göstərirlər.

Şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmaları ( 2.1.4.) və təqdim etmələri üçün şagirdlər 4 qrupa bölünür və müəllimin tövsiyəsi ilə 2, 3, 4, 5-ci çalışmalardan biri üzərində işləyirlər. Çalışmaların icrası üzərində iş şagirdlərin rabitəli nitqinin və müzakirə mədəniyyətinin inkişafına şərait yaratmaqla yanaşı, onların lüğət ehtiyatının genişlənməsi və dəqiqləşdirilməsini də nəzərdə tutur, həmçinin mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsinə kömək edir.

Şagirdlərin təqdimatları müzakirə olunduqdan sonra onlar müvafiq olaraq 6, 7, 9-cu çalışmalardakı tapşırıqları yerinə yetirirlər. Bu çalışmalar şagirdlərin mətnin məzmununu daha hərtərəfli qavramalarına imkan verir, eyni zamanda, mətndə işlənmiş nitq hissələrinin qrammatik mənalarını dərk etmələrinə və sözdən yerində istifadə, cümlə qurmaq bacarıqlarının inkişafına da şərait yaradır.

Hər bir qrupun təqdimatı digər qrupların üzvlərinin iştirakı ilə müzakirə olunur və nəticələr ümumiləşdirilir.

LAYİHƏ

11, 12, 13, 14-cü çalışmalar mətndəki əsas nitq hissələrinin qrammatik mənasının mənimsədilməsi məqsədilə nəzərdə tutulmuşdur. Şagirdlər bu çalışmaları yerinə yetirərkən mətndə altından xətt çəkilmiş sözlərin suala cavab verə bilmədiyini və ona görə də onların əsas nitq hissəsi olmadığını müəyyənləşdirir, 12-ci çalışmadakı müxtəlif nitq hissələrinə mənsub sözlərin kökünü sualların köməyi ilə təyin edirlər.

Bu tapşırıqların icrası zamanı düzəltmə və mürəkkəb sözlərin mənası ilə yanaşı, yazılış xüsusiyyətlərinə də diqqət yetirilir.

"Kəlmələrin dilini öyrənək" rubrikasındakı sözün müxtəlif mənaları ilə tanışlıq şagirdlərin lüğət ehtiyatının genişlənməsinə müsbət təsir göstərir.

***Məlumat mübadiləsi:*** Şagirdlər " Pələng ovu" mətninin oxusu və çalışmalar üzərində işləməklə təbiətimizdə nəsli kəsilməkdə olan və "Qizmizi kitab"a düşən pələng haqqında müəyyən məlumat əldə edir, əldə etdikləri fakt və hadisələri müzakirə edirlər.

***Nəticə:*** Azərbaycan fauna və florası ilə zəngin olan bir ölkədir. Bu zənginliyi əldə saxlamaq, qorumaq, artırmaq hər bir azərbaycanlının mənəvi borcudur.

Kərim babanın danışdığı əhvalat həm onun özünü uşaqların gözündə böyüdür, həm də nəsli kəsilməkdə olan pələngin məğrur xüsusiyyətləri ilə onları tanış edir və bu igid heyvana rəğbət oyandırır. Uşaqlar başa düşürlər ki, nəinki insanlardan, yeri gələndə heyvanlardan, digər canlılardan da nümunə götürmək olar. Hekayədə haqqında söhbət gedən pələng isə məhz belə canlılardandır. O, igidlik, qorxmazlıq, məğrurluq rəmzidir.

***Yaradıcı tətbiqetmə:*** "Azərbaycan igidlər diyarıdır " mövzusunda kiçik esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 52-ci dərs.
## § 46. Qırqovulam, təkəm mən... (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Oxuduğu şeirdən əsas fakt və hadisələri seçir. | 1.1.2 | R.d. – 3.1.2.<br>Biol. – 4.2.1. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır, şeirin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3<br>2.1.4 | |
| 3. | Şeirdən əsas nitq hissələrini seçərək qrammatik mənasına görə izah edir və şeirin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.1<br>3.1.3 | |
| 4. | Əməli yazı – teleqram yazır. | 4.1.4 | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Resurslar:*** Dərslik, iş vərəqləri, plakat, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim proyektor vasitəsilə qırqovul haqqında videoçarx nümayiş etdirir. Əgər bu olmasa, lövhədən müxtəlif quşların şəkli olan plakat asır. Yaxşı olar ki, bu quşlardan bəziləri "Qırmızı kitab"a düşən quşlar olsun. Bunların içərisində qırqovul şəkli də olmalıdır.

LAYİHƏ

***Köməkçi sual:*** Bu quşlardan hansılarını tanıyırsınız?

Şagirdlər şəkildə gördükləri quşlardan tanıdıqlarının adlarını deyirlər. Müəllim onları istiqamətləndirir.

Müəllim qırqovul və kəklik şəkillərini göstərib aşağıdakı atalar sözlərini səsləndirir və mənalarını izah etməyi təklif edir.

***Köməkçi sual:*** 1) "Qırqovul başını soxar kola, deyər heç kəs məni görmədi" atalar sözü, görəsən, qırqovulun hansı əlaməti əsasında yaranıb?

2) Bəs "Kəklik səsini çıxartmasa,

Qaraquş onu tuta bilməz" atalar sözü kəkliyin hansı əlaməti əsasında formalaşıb?

3) Necə bilirsiniz, hansı heyvan və quşların adı "Qırmızı kitab"a düşür?

***Tədqiqat sualı:*** 1) Qırqovulu kökü kəsilməkdə olan quşlar siyahısına daxil etmək olarmı? Onun adı "Qırmızı kitab"a düşə bilərmi?

2) Soyqırım nədir və azərbaycanlıların soyqırımı haqqında nə bilirsiniz?

***Tədqiqatın aparılması :*** Müəllim "Qırqovulam, təkəm mən..." şeirini hissələrə ayıraraq şagirdlərə oxutdurur. Oxu zamanı şagirdlərin ritm və tempdən istifadə, həmçinin sözləri düzgün vurğu ilə tələffüz etmələrinə diqqət yetirilir. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənası izah edilir, cümlələrdə işlədilir.

Müəllim şagirdləri 3 qrupa bölür. Hər qrupa iş vərəqləri paylayır.

**1-ci iş vərəqinin məzmunu:** "Qırmızı kitab" haqqında nə bilirsiniz?

**2-ci iş vərəqinin məzmunu:** Hansı quşların nəsli kəsilmək üzrədir?

(Qeyd. 36 quş növü "Qırmızı kitab"a düşüb: Talış qırqovulu, Qara leylək , Qıvrımlələk qutan, Ağquyruq Dəniz qartalı , Məzar qartalı, Çöl qartalı, Berkut, Laçın, Turac, Qafqaz tetrası, Bəzgək, Dovdaq, Sultan toyuğu, Ərsindimdik, Qızılqaz, Qırmızıdöş qaz, Fısıldayan qu və s.)

**3-cü iş vərəqinin məzmunu:** Quşları qorumaq üçün nə etməliyik?

Şagirdlərə təqdimat hazırlamaq üçün vaxt verilir. Vaxt başa çatdıqdan sonra şagirdlər öz yazdıqlarını təqdim edirlər. Müəlim onları dinləyir, tələffüzlərindəki nöqsanları düzəldir və fərqli cavabları qiymətləndirir.

Sonra şagirdlər qruplar şəklində çalışmalar üzərində işləyirlər.

Şagirdlər şeirin məzmunu ilə tanış olduqlarından bütün sinfə şeirdəki əsas fikri müəyyənləşdirmək məqsədilə (1-ci çalışma) qruplar şəklində öz aralarında müzakirə aparmaq tapşırılır. Müzakirə yekunlaşdırıldıqda liderlərin cavabları dinlənilir, nitq qüsurları ilə bağlı lazımi tövsiyələr verilir. Şagirdlərin qırqovulun əlamətləri ilə daha yaxından tanış olmaları üçün müəllim aşağıdakı testi onlara təqdim edir. Bu tapşırığın icrası həm də şagirdlərin əlavə faktlar əldə etməsi üçün nəzərdə tutulub.

* Qırqovul haqqında deyilənlərdən biri yanlışdır. Düzgün hesab etdiyiniz cavabı əsaslandırın.

A) Qanadının uzunluğu 22-25 sm, kütləsi 0,8-1,3 kq-dır. Toxum, bitki, giləmeyvə, cücülər və onurğasız heyvanlarla qidalanır.

B) Lələk örtüyü erkəklərdə yaşıl, qırmızı, narıncı, qarışıq əlvan, dişilərdə az parlaq bozumtul rəngdədir. Dimdiyi möhkəm olub üst hissəsi aşağıya doğru bir az əyridir; qanadı qısa və enlidir.

C) Ətyeyən quşlardandır, əti yeyilmir və ona görə də ovlanmır.

D) Son illərdə sayı çox azaldığından ovlanması qadağan edilib.

E) Yerdə düzəltdiyi yuvaya 8-18 yumurta qoyur. Yalnız dişisi 24-25 gün kürt yatır.

• Cavab variantlarında deyilənlərdən istifadə etməklə qırqovul haqqında danışın.

Şeirdəki əsas fakt və hadisələri seçmək (çalışma 4), şeirin tərkib hissələrini müəyyənləşdirmək (çalışma 2, 5), fikirlərini şeirin hissələrinə müvafiq qruplaşdırmaq (çalışma 6), fikirlərinin əlavə fakt və hadisələrlə əsaslandırmalarına (çalışma 3) şərait yaratmaq



LAYİHƏ

məqsədilə kiçik qruplar 2, 3, 4, 5, 6-cı çalışmaları yerinə yetirirlər. Qrupların təqdimatlarının müzakirəsi şeirin ideyasının hərtərəfli qavranılması, həmçinin seçilmiş alt-standartlar ( 2.1.2., 2.1.3, 2.1.4., 3.1.3.) üzrə müvafiq bacarıqların formalaşdırılmasını təmin edir.

7, 8, 10-cu çalışmalar böyük qruplarla yerinə yetirilir. Müzakirələr şeirdə işlənmiş əvəzliklərin və bəzi isimlərin qrammatik mənasının qavranılması və tərcümə bacarıqlarının inkişafı ilə yanaşı, dilin qrammatik normalarının praktik yolla mənimsənilməsini nəzərdə tutur.

"Kəlmələrin dilini öyrənək!" rubrikası və 9, 10, 11-ci çalışmalar şagirdlərin lüğət ehtiyatı üzərində iş aparmağa imkan verir.

Tədqiq etdikləri problemə şagirdlərdə daha şüurlu münasibət formalaşdırmaq, nəsli kəsilməkdə olan heyvan və quşlara onların diqqətini cəlb etmək və əməli yazı bacarıqları formalaşdırmaq məqsədilə 12-ci çalışmanın mətni bütün sinfin müzakirəsinə verilir. Teleqramın forması şagirdlərin nəzərinə çatdırılır, onlara müxtəlif mövzularda bir-birinə teleqram göndərmək tövsiyə olunur.

Şeirin məzmunu üzərində aparılan tədqiqat mövzunu azərbaycanlıların soyqırımı ilə əlaqələndirməyə imkan verir. 13-cü çalışma vasitəsilə şagirdlər mövzu ilə bağlı əlavə faktlarla tanış olur ( 2.1.3.), fikirlərini əsaslandırmaq üçün bu faktlardan lazımi məqamlarda istifadə edirlər.

***Məlumat mübadiləsi:*** Şagirdlər tədqiqat zamanı əldə etdikləri məlumatlar əsasında nəsli kəsilməkdə olan heyvan və quşlar problemini azərbaycanlıların soyqırımı ilə əlaqələndirərək fikir mübadiləsi edirlər.

***Nəticə:*** Şagirdlər "Qırqovulam, təkəm mən..." şeirinin oxusu və çalışmalar üzrə işləməklə nəsli kəsilməkdə olan quşlar, o cümlədən qırqovul haqqında müəyyən məlumat əldə edirlər. Öyrənirlər ki, qırqovulların sayı getdikcə azalır, hətta Talış qırqovulunun nəsli kəsilmək təhlükəsi olduğu üçün onun adı "Qırmızı kitab"a daxil edilib.

Şagirdlərə aşılanır ki, təbiətdəki digər canlılar içərisində quşların özünəməxsus yeri var. Kənd və meşə təssərüfatında quşlar çox böyük fayda verir. Onlar ağacları, torpağı həşəratlardan təmizləyir, bitkilərin toxumlarının yayılmasına yaxından kömək edirlər.

Quş əti həm də qiymətli qida məhsuludur. Quşların tükündən məişətimizdə, bəzi quşların lələk və dərilərindən isə yüngül sənayedə geniş istifadə edilir. Onlardan bəzək əşyaları düzəldilir. Ümumiyyətlə, quşlar canlı təbiətin yaraşığıdır. Odur ki, təbiətin yaraşığı olan canlıları, o cümlədən quşları qorumaq, onların çoxalıb artmasının qayğısına qalmaq hər bir şüurlu insanın borcu olmalıdır.

Təbiətin yaraşığı canlılar olduğu kimi, dünyanın yaraşığı isə insandır! Şagirdlər mövzu ilə əlaqəli şəkildə öyrənirlər ki, soyqırım – etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsidir. Təkcə 1918-ci ildə az vaxt içərisində 50 mindən artıq azərbaycanlı soyqırıma məruz qalıb.

***Yaradıcı tətbiqetmə:*** Azərbaycanlıların soyqırımı haqqında əlavə məlumat toplamaq və təqdimat hazırlamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeirdən bir hissə əzbərləmək.

LAYİHƏ

## 53-cü dərs.
## § 47. Daşyığan əmi (1 hissə - 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətn üzrə fikirlərini dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1 | R.d. – 3.1.2<br>Biol.- 4.1.1 |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır, mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3<br>2.1.4 | |
| 3. | Mətndə işlənmiş əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1 | |
| 4. | Mövzuya uyğun inşa yazır. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.1.<br>4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, debat.

***Resurslar:*** Dərslik, dəftər, kompüter, proyektor.

***Motivasiya:*** Müəllim elektron lövhədə "Kərpickəsən kişinin dastanı" cizgi filmini nümayiş etdirir (w.w.w nizamigencevi az.com/ 167258815)

***Köməkçi sual:*** Gördüyünüz bu kadrlar hansı əsərdəndir? Əsərin müəllifi kimdir?

Şagirdlər düşünür, sualı cavablandırırlar. Müəllim onları istiqamətləndirir. Kərpickəsən kişinin xarakterik xüsusiyyətləri ilə bağlı şagirdlər müzakirədə iştirak edirlər, öz fikirlərini bildirirlər.

2) Həyatda bu cür insanlara tez-tezmi rast gəlirsiniz?

3) Kərpickəsən kişi kimi yaşlı insanlar uşaqlara hansı cəhətdən nümunə ola bilər?

***Tədqiqat sualı:*** Təbiətin gözəlləşdirilməsi, ekologiyanın qorunması üçün indiyə qədər hər hansı bir iş görmüsünüzmü? Necə düşünürsünüz, bu sahədə sizin də üzərinizə hər hansı bir məsuliyyət düşürmü?

2) "–Dan, -dən" şəkilçisinin hansı məqamlarda [-nan, –nən] kimi tələffüz olunduğunu bilirsinizmi?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Daşyığan əmi" hekayəsinin I hissəsinin oxutdurulması ilə başlanır. Oxuda sinfin bütün şagirdləri iştirak edirlər. Mətnin məzmunu və sözlüyü üzərində iş aparılır.

Məzmunun daha yaxşı qavranılması üçün çalışmalar üzərində işə keçilir. Dərslikdəki çalışmalar üzərində işi səmərəli təşkil etmək üçün müəllim şagirdləri 4 kiçik qrupa bölür və onlara icra edəcəkləri çalışmaların nömrələrini elan edir.

**1-ci qrup:** Çalışma --1,3;

**2-ci qrup:** Çalışma--2, 5;

**3-cü qrup:** Çalışma --7, 11;

**4-cü qrup:** Çalışma --6,12.

1-ci çalışma üzərində işləyərkən şagirdlər həm mətn üzrə qoyulmuş suallara cavab verir, həm də fikirlərini dəqiqləşdirmək məqsədilə özləri suallar verirlər (1.1.1).

2, 7-ci çalışmalar həm şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına (2.1.4), həm də mətnin hissələri arasında əlaqələri müəyyənləşdirməyə

LAYİHƏ

( 4.1.2.) istiqamətləndirilir. 12-ci çalışma fellərin qrammatik mənalarının izahını və nitqdə düzgün istifadə bacarıqlarının formalaşdırılmasını nəzərdə tutur (3.1.1.). 3, 5, 6, 11-ci çalışmalar şagirdlərin lüğət ehtiyatı üzərində iş aparmaqla yanaşı, onların fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına da imkan yaradır.

Varilmiş vaxt başa çatdıqda təqdimatlar müzakirə olunur, düzgün cavablar müəyyənləşdirilir və qiymətləndirilir.

9-cu çalışma üzrə təşkil olunan debat qrupların fikirlərini mətnin hissələri üzrə cəmləməyə kömək edir, şagirdlərin müstəqil fikir yürütmələrinə, fikirlərini əsaslandırmalarına şərait yaradır.

Nitq hissələrinin qrammatik mənalarının (çalışma 8) və onlarla bağlı düzgün tələffüz və yazı qaydalarının mənimsədilməsinə yönəlmiş çalışmaların icrasında bütün sinif iştirak edir. Qruplar ayrı-ayrılıqda mətndən götürülmüş sözlərin qrammatik mənalarını müəyyənləşdirir və sualları ilə birlikdə yazırlar (3.1.1). Sonra 10-cu çalışma əsasında ismin çıxışlıq hal şəkilçisinin tələffüz xüsusiyyəti izah olunur.

***Məlumat mübadiləsi:*** Ekologiyanın qorunmasında hər bir şagirdin üzərinə düşən vəzifənin nə dərəcədə dərk edilməsi mövzusuna müzakirələr prosesində aydınlıq gətirilir. Bəzi sözlərin yazılış və tələffüz qaydaları üzərində müşahidə aparılır və nəticə çıxarılır.

***Nəticə:*** Təbiəti qorumaq, onu yaşıllaşdırmaq, küçələri, bağ- bağçaları zibilliklərdən, tullantılardan təmizləməkdə hər bir məktəbli əlindən gələni edə bilər.

Yalnız ağac əkmək azdır; əkilmiş ağacları qorumaq, onlara qayğı göstərmək, vaxtında suvarmaq, suyun, havanın çirklənməsinin qarşısını almaq vətəndaşlıq borcudur. Bu gün təbii ehtiyatlardan israfçılıqla istifadəyə göz yuman məktəbli gələcəkdə məsuliyyət onun üzərinə düşdükdə vəzifə borcunu yerinə yetirməkdə çətinlik çəkəcəkdir.

Şagirdlər anlayırlar ki, təbiət ana kimi min illərdir, insanlara qayğı göstərir. İnsan da bir övlad kimi, təbiətə borcunu qaytarmalı, məsuliyyətdən yaxasını kənara çəkməməlidir.

***Yaradıcı tətbiqetmə:*** 4-cü çalışmanın şərtinə uyğun inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 54-cü dərs.
## § 48. Daşyığan əmi (2 hissə - 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən istifadə edir. | 2.1.1.<br>2.1.2. | R.d. – 3.1.2<br>Biol. – 4.1.1 |
| 2. | Sözləri düzgün vurğu ilə oxuyur.<br>Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.2.<br>3.1.3. | |
| 3. | Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 4.1.2. | |
| 4. | Əsas nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

LAYİHƏ

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Resurslar :*** Dərslik, iş vərəqləri, plakatlar.

***Motivasiya:*** Müəllim lövhədən 2 plakat asır. Plakatlardan birində təbiətə kobud münasibət bəsləyənlər təsvir olunmuşdur.

**2-ci plakatda isə :** "Dünya dövlətlərinin təşəbbüsü ilə 1948-ci ildə "Beynəlxalq Təbiəti Mühafizə İttifaqı", 1963-cü ildə isə Azərbaycanda "Təbiəti Mühafizə Cəmiyyəti" yaradılmışdır" fikri yazılmışdır.

Köməkçi sual: 1) Gördüyünüz plakatlar diqqətinizi hansı problemə yönəldir ?

2) 1-ci hissəsini oxuduğunuz hekayədəki hadisələrin necə davam edəcəyi ilə maraqlanırsınızmı?

3) Necə bilirsiniz, Elşən "daşyığan əmi"nin təklifini qəbul edəcəkmi?

4) "Daşyığan əmi"nin daşları nə üçün yığmasının səbəbini təxmin edirsinizmi? Bunu öyrənmək üçün nə etməlisiniz?

***Tədqiqat sualı:*** Necə düşünürsünüz, ətraf mühitə münasibət necə olmalıdır? Siz bu suala hekayədə cavab tapa biləcəksinizmi?

2) Hekayəni bütövlükdə oxumasanız, onun tərkib hissələrini düzgün müəyyən edə bilərsinizmi?

***Tədqiqatın aparılması:*** Tədqiqat sualına mətndəki cavabla tanış olmazdan əvvəl müəllim şagirdlərin problemə münasibətini öyrənmək istəyir. Bu məqsədlə şagirdləri qruplara bölür və onlara iş vərəqləri paylayır, qoyulmuş suallar barədə fikirlərini qısaca ifadə etməyi tövsiyə edir.

**1-ci iş vərəqinin məzmunu:** Ətraf mühitin qorunmasını necə dərk edirsiniz?

**2-ci iş vərəqinin məzmunu:** Ətraf mühiti niyə qoruyuruq?

**3-cü iş vərəqinin məzmunu:** Ətraf mühiti necə qorumaq olar?

**4-cü iş vərəqinin məzmunu:** Ətraf mühitin qorunmasına məktəblilər necə kömək edə bilərlər?

Şagirdlərə verilən vaxt bitdikdə liderlərin təqdimatları dinlənilir. Bütün qruplar müzakirədə iştirak edir, fikirlərini bildirirlər. Cavablar qiymətləndirilir.

Şagirdlərin məsələyə münasibəti öyrənildikdən sonra "Daşyığan əmi" mətninin II hissəsinin oxusu təşkil olunur. Oxu prosesində sözlərin düzgün vurğu ilə oxusu izlənilir, lazımi düzəlişlər edilir. Mətnin məzmununun düzgün başa düşülməsi üçün "Sözlük" və "Söz ehtiyatı"ndakı, eləcə də qırmızı rənglə fərqləndirilmiş sözlərin mənası üzərində iş aparılır. Sonra tədqiqat çalışmalar üzərində işlə davam etdirilir.

Müəllim çalışmaları qruplara paylayır. 1-ci çalışmanı yerinə yetirən qrup mətnin məzmunu üzrə plan tərtib etməklə onun hissələri arasında əlaqələri müəyyənləşdirir (4.1.2.). 2-ci çalışmanı yerinə yetirən qrup digər qruplara vermək məqsədilə mətnin məzmunu üzrə suallar hazırlayır. 3-cü çalışmanı yerinə yetirən qrup üzvləri "daşyığan əmi"nin həyatini öz sözləri ilə təsvir etməyə hazırlaşırlar. 4-cü qrup mətnin məzmunu ilə səsləşməyən atalar sözlərini seçib səsləndirir. Hər üç çalışmanın icrası şagirdlərin nitqlərində sözləri düzgün vurğu ilə tələffüz etmə, ritm və tempdən düzgün istifadə bacarıqlarının formalaşdırılmasına yönəldilir ( 2.1.1, 2.1.2.) .

Qrupların cavabarı qiymətləndirilir.

Dərslikdəki 5, 7, 8, 9-cu çalışmalar şagirdlərin lüğət ehtiyatı üzərində müxtəlif istiqamətli işlər aparmağa, həmçinin "2.1.1., 2.1.2." alt-standartının reallaşdırılmasına imkan verir.

Müəllim tədqiqat sualı ətrafında şagirdlərin fikir və mülahizələrini, problemə emo-



LAYİHƏ

sional münasibətlərini, eyni zamanda nitqlərində vurğudan düzgün istifadə bacarıqlarını izləmək üçün 6-cı çalışma üzrə müzakirə aparılmasını təklif edir. Sonra qruplara mətnin tərkib hissələrini müəyyənləşdirmək tapşırığı verilir.

10, 11-ci çalışmalar 4.1.3. alt-standartı üzrə işləri nəzərdə tutur.

***Məlumat mübadiləsi:*** Müəllim şagirdlərin mövzunu necə qavradıqlarını təyin etmək məqsədilə sinfə suallarla müraciət edir:

1) Bu gün nə öyrəndiniz!
2) Dərsdə nədən razı qaldınız?
3) Hansı hissləri keçirirsiniz?

Şagirdlər suallara cavab verirlər.

***Nəticə:*** Mətnin məzmunu ilə tanışlıq və çalışmalar üzərində işləməklə şagirdlər ətraf aləmə münasibətin necə olmasını öyrənirlər. “Daşyığan əmi”nin nümunəsində onlar inanırlar ki, başqalarının lazımsız hesab etdikləri, zibil deyib atdıqları tullantılardan da zövq oxşayan maraqlı və gözəl şeylər yaratmaq olar. Əgər hamının ətraf aləmə münasibəti Səməd müəllimin düşündüyü kimi olsa, həm ana təbiət gözəlləşər, ətraf aləm çirklənməz, həm də insan təbiətə borclu olduğunu dərk edər.

Çalışmalar üzərində işləyərkən onlara aydın olur ki, hekayəni bütövlükdə oxumasalar, onun tərkib hissələrini düzgün müəyyən edə bilməzdilər.

***Yaradıcı tətbiqetmə:*** 6-cı çalışmadakı suallar üzrə düşüncələriniz əsasında kiçik esse yazın.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu danışmaq.

## 55-ci dərs.
## § 49. Gəlin elə edək ki... (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir, nitqində ritm və tempdən istifadə edir. | 2.1.1.<br>2.1.2. | R.d. – 1.2.3.<br>Biol. – 4.1.1. |
| 2. | Mövzu ilə əlaqədar fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır, şeirin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3.<br>2.1.4. | |
| 3. | Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 4. | Movzuya uyğun esse və inşa yazır. | 4.1.1. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, karusel.

***Resurslar:*** Dərslik, iş vərəqləri, plakat, kompüter, proyektor, videoçarx.

***Motivasiya:*** Lövhədən “Azərbaycanda 125 fəsiləyə mənsub 4100-dən çox bitki növü,

LAYİHƏ

97 növ məməli heyvan, 346 növ quş, sularda isə 95 növ balıq yaşayır" məlumatı yazılmış plakat tərsinə asılır. Müəllim köməkçi suallarla sinfə müraciət edir:

***Köməkçi sual:*** 1) Deyə bilərsinizmi, Azərbaycanda nə qədər bitki növü mövcuddur?

2) Vətənimizdə neçə məməli heyvan növü yaşayır?

3) Azərbaycan sularında neçə növ balıq yaşayır?

4) Vətənimizdə neçə növ quş yaşadığını bilirsinizmi?

Şagirdlərin cavabları dinlənildikdən sonra müəllim plakatı düz üzünə çevirir və uşaqlar nədə səhvə yol verdiklərini özləri təhlil edirlər.

Müəllim elektron lövhədə aşağıdakı kimi gözəl təbiət mənzərələrindən, meşələrdən, hər hansı vəhşi heyvan və quşlardan bəhs edən videoçarx nümayiş etdirir. Sonra şagirdləri qruplara bölür və karusel üsulundan istifadə edərək "Gəlin elə edək ki,..." cümləsi yazılmış vatman kağızı şagirdlərə verir, cümləni istədikləri kimi tamamlamağı və bir-birinə ötürməyi tapşırır.



Şagirdlər elə istiqamətləndirilir ki, onların ifadə etdikləri fikirlər təbiətə, heyvan və bitki aləminin qorunmasına yönəlsin.

Kağız dövr edərək əvvəlki qrupa qayıdır. Variantlar içərisindən uyğun cavablara diqqət cəlb edilir və tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** Görəsən, nə etsək, quşlar budaqdan enib çiynimizdə oxuyar, maral sərin çeşmə başında bizə qonaq olar, ceyran düzləri keçib insanın arxasınca şəhərə gələr?

***Tədqiqatın aparılması:*** Müəlim şagirdləri qruplara bölür və hər qrupa iş vərəqi verərək təklif edilmiş mövzularda kiçik esse yazmağı tövsiyə edir.

**1-ci iş vərəqinin məzmunu:** "Doğma diyarımın heyvanlar aləmi".

**2-ci iş vərəqinin məzmunu:** "Doğma diyarımın bitki aləmi".

**3-cü iş vərəqinin məzmunu:** "Doğma diyarımın təbiəti".

Tapşırığın icrasına ayrılan vaxt bitdikdə qruplar öz işlərini təqdim edirlər. Təqdimatların müzakirəsində bütün qruplar iştirak edir. Cavablar qiymətləndirilir. Uşaqların nitqindəki nöqsanlar müəllim tərəfindən düzəldilir.

Tədqiqat dərslikdəki "Gəlin elə edək ki...." şerinin oxusu ilə davam etdirilir. Şeirin oxusu zamanı şagirdlərin ritm və tempdən (2.1.2) düzgün istifadə, sözləri düzgün vurğu

LAYİHƏ

ilə oxuma (3.1.2) bacarıqlarının inkişafına diqqət yetirilir. Şeirin məzmununun şüurlu mənimsənilməsi üçün sözlük üzərində iş aparılır, yeni sözlər cümlədə işlədilir.

Şagirdlər şeirdəki əsas fakt və hadisələrə diqqət yetirməklə onu nəsrə çevirərək danışırlar ki, bu prosesdə də onların nitqində vurğudan düzgün istifadə izlənilir.

2, 3, 5, 9-cu çalışmalar üzərində iş qruplar şəklində yerinə yetirilir. Qoyulan tapşırıqlar şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına, şerin müvafiq hissələri üzrə qruplaşdırmağa, həmçinin nitqlərində vurğudan düzgün istifadə üzrə bacarıqların inkişafına şərait yaradır.

6, 7, 8, 11-ci çalışmalar lüğət üzərində iş aparılmasını, 7-ci çalışma şagirdlərdə məntiqi təfəkkürün, 10-cu çalışma isə orfoqrafik bacarıqların inkişafını nəzərdə tutur.

4-cü və 11-ci çalışmalar şagirdlərin nitqin hissələri arasında əlaqələri düzgün qurmaqla yazılı rabitəli nitq bacarıqlarının formalaşdırılmasına imkan verir. Yaxşı olar ki, bu çalışmalardan hər biri iki qrup tərəfindən yerinə yetirilsin, nəticələr müzakirə olunsun.

Qrupların cavabları qiymətləndirilir.

***Məlumat mübadiləsi:*** Qruplar yerinə yetirdikləri çalışmalar əsasında mövzunu müzakirə edirlər. Fikir mübadiləsi onların doğma Vətənin təbii gözəlliklərinin qorunması ilə bağlı müəyyən qənaətə gəlmələrinə və fikirlərini ifadə etmələrinə kömək edir.

***Nəticə:*** Ölkəmizin əlverişli mövqeyi, mülayim iqlimi, zəngin təbii sərvətləri vardır. Lakin əsas məsələ təbii sərvətlərin zənginliyi yox, onlardan qənaətlə və səmərəli şəkildə istifadə olunmasıdır. Biz bu təbii zənginliyi qorumalı və gələcək nəsillərə ötürməliyik. Bu məqsədlə ölkəmizdə "Ətraf mühitin mühafizəsi haqqında" və "Ekoloji təhlükəsizlik haqqında" qanunlar qəbul edilmişdir. Dövlətimiz flora və faunamızın qorunması üçün lazımi tədbirləri vaxtında həyata keçirir. Bu sahədə dövlətin həyata keçirdiyi layihələrlə yanaşı, hər bir Azərbaycan vətəndaşı yaşından və tutduğu mövqedən asılı olmayaraq doğma diyarın təbii gözəlliklərinin qorunub saxlanması və daha da zənginləşdirilməsi üçün əlindən gələni etsə, hər kəs yaşıllıq olmayan yerdə bir ağac, kol və ya bircə çiçək əkib yetişdirsə, gözəl nəğmələr oxuyan bir quşu saxlayıb nəslini artırsa, bunları etməsə belə təbiətin verdiklərini məhv etməsə, o zaman tədqiqat sualında deyilənlər həyata keçə bilər.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə yazdıqları inşa və esselər üzərində işləməklə yazdıqlarını təkmilləşdirmək (4.1.1) tövsiyə olunur.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbər öyrənmək.

## 56-cı dərs.
## § 50. Çəkil, İlan gəlir! (1ci hissə – 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d. - 4.1.2. |
| 2. | Oxuduğu mətn üzrə fikrlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Mətndə işlənmiş zərflərin və feillərin qrammatik mənasını izah edir. | 3.1.1. | |
| 4. | Əməli yazı – izahat yazır. | 4.1.4. | |

LAYİHƏ

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması***: Cütlərlə, böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, akvarium.

***Resurslar***: Dərslik, dəftər, kompüter, proyektor, elektron lövhə.

***Motivasiya:*** Müəllim elektron lövhədə "Qaraca qız" filmindən bir fraqment göstərir. Fraqmentdə Ağca xanımı ilan çalması səhnəsi təsvir olunmuşdur.

***Köməkçi sual:*** 1) İlanlar haqqında nə bilirsiniz?

2) Yoldaşınızla gedərkən qarşınıza ilan çıxsa, necə hərəkət edərsiniz?

Cavablar dinlənir.

***Tədqiqat sualı:*** "Ehtiyat igidin yaraşığıdır!" atalar sözünün mənasını necə başa düşürsünüz? Bu atalar sözündən hansı məqamlarda istifadə olunur?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki "Çəkil, ilan gəlir!" mətninin birinci hissəsini şagirdlərə oxutdurulması isə başlanır. Mətndəki situasiyanın düzgün qavranılması və sözlük üzərində iş aparılır.

Əvvəlcə 1-ci çalışma cütlərlə iş formasında yerinə yetirilir. Müəllim cütlərdən hər birinə çalışmadakı suallardan birinin nömrəsini deyir və cavab hazırlamağı tapşırır. Sinifdə şagirdlərin sayı çox olsa, müəllim 4-cü çalışmadan da bu məqsədlə istifadə edə, yaxud 2 cütlüyə eyni sualı təklif edə bilər. Cütlüklər onlara təklif edilən sualın mətnin məzmununu əks etdirmədiyini mətndəki fakt və hadisələrlə əsaslandırmalıdırlar (1.1.2.) .

Cütlərin cavabları, əsaslandırmaları diqqətlə dinlənilir və lazım gələrsə, digər cütlüklərin variantları üzərində fikir mübadiləsi aparılır.

2-ci çalışma üzrə işi müəllim "akvarium" üsulundan istifadə etməklə təşkil edə bilər. 3, 4, 5, 7, 8, 9-cu çalışmaların kiçik qruplarla icra edilməsi məqsədəuyğundur. 6-cı çalışma isə bütün qrupların üzvləri tərəfindən yerinə yetirilməlidir.

**1-ci qrup:** çalışma 3, 6; **2-ci qrup:** çalışma 4, 6; **3-ci qrup**: çalışma 5, 6;

**4-cü qrup:** çalışma 8, 6; **5-ci qrup:** çalışma 7, 9, 6

Tapşırıqların yerinə yetirilməsində, müzakirədə bütün şagirdlər iştirak etməli, öz fikirlərini bildirməlidirlər. Çalışmaların icrası mətnin məzmunu əsasında dilimizdəki bəzi atalar sözlərinin mənasının qavranılmasına, lüğət tərkibindəki sözlərin çoxmənalılıq imkanları ilə praktik tanışlığa, mətndə işlənmiş zərflərin, tapmacadakı feillərin qrammatik mənalarının düzgün izah olunmasına, şagirdlərdə cümlə qurmaq bacarıqlarının inkişafına şərait yaradır.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətnin məzmunu və çalışmalar əsasında məlumat mübadiləsi edir, hər iki oğlanın hərəkətini müzakirə edirlər.

***Yaradıcı tətbiqetmə:*** 10-cu çalışmanın şərtinə əsasən izahat yazmaq (4.1.4).

***Nəticə:*** Mətnin oxusu və çalışmalar üzərində işləməklə şagirdlərə aydın olur ki, cəld tərpənib, çeviklik göstərib hər hansı təhlükədən qurtarmaq olar. Ancaq belə hallarda da ehtiyatlı olmaq lazımdır. Etdiyi qoçaqlığa görə öyünmək, diqqətsizlik göstərmək olmaz. Doğrudan da, yaşlı kişinin dediyi kimi, ola bilərdi ki, ilan ölməmiş olsun. Onda Kamalın həyatı təhlükə qarşısında qala bilərdi. Deməli, ehtiyatlı olmaq, hadisəni düzgün təhlil etmək, düzgün qərar qəbul etmək çox vacibdir. Bax elə atalarımız belə məqamlarda deyirlər ki, "Ehtiyat igidin yaraşığıdır!"

Baş vermiş hadisə ilə əlaqədar şagirdlər izahat yazırlar ki, bununla da onların əməli yazı bacarıqları inkişaf edir. Çalışmaları yerinə yetirməklə şagirdlər həm də feil və zərf kimi nitq hissələrinin qrammatik mənaları ilə daha yaxından tanış olurlar.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətni danışmağı öyrənmək.

LAYİHƏ

## 57-ci dərs.
## § 51. Çəkil, ilan gəlir! (2 hissə - 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir. | 1.1.1. | R.d. – 3.1.2.<br>Biol. 4.1.1. |
| 2. | Məzmuna aid fikirlərini əlavə fakt və hadisələrlə əsaslandıraraq mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3<br>2.1.4 | |
| 3. | Əsas nitq hissələrinə aid mətndən seçilmiş nümunələrin qrammatik mənasını izah edir. | 3.1.1 | |
| 4. | Əsas nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3 | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, debat.

***Resurslar:*** Dərslik, dəftər, plakat, iş vərəqləri.

***Motivasiya***: 1) "Çəkil, ilan gəlir!" hekayəsinin I hissəsi ilə tanışsınız. Necə düşünürsünüz, Nadir Kamalın əlində ilanı görəndə necə hərəkət edəcək?

2) Bu hekayəni siz necə davam etdirərdiniz?

3) Heç elə bir vəziyyətə düşmüsünüzmü ki, demək istədiyinizi deyə bilməmisiniz?

***Tədqiqat sualı:*** Necə düşünürsünüz, kiminsə eybini açmaq hünər, qoçaqlıq sayıla bilərmi?

***Tədqiqatın aparılması:*** Müəllim qrupları müəyyənləşdirir və hər qrupa bir atalar sözü yazılmış iş vərəqi verir. Qruplara təqdim edilmiş atalar sözünün mənasını izah etmək təklif olunur.

**1-ci iş vərəqinin məzmunu:** "Doğru yolla gedən yorulmaz".

**2-ci iş vərəqinin məzmunu:** "Yalan ayaq tutar, yeriməz".

**3-cü iş vərəqinin məzmunu:** "Yalan ilə dünyanı gəzmək olar, amma qayıtmaq olmaz".

Şagirdlərin cavabları dinlənilir və tədqiqat davam etdirilir.

"Çəkil, ilan gəlir!" mətninin II hissəsi şagirdlərə oxutdurulur. Mətnin oxusu zamanı qırmızı rəngdə verilmiş, həmçinin "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin qavranılması üzərində iş aparılır.

Mətnin məzmununun daha yaxşı qavranılmas üçün müəllim şagirdləri cütlüklərə ayırır. Cütlüklərdən hər biri mətnin məzmununa əsasən 1-ci çalışmadakı bir sualın cavabını əsaslandırmalı və və 3-cü calışmadakı bir atalar sözünün düzgün şəklini tapıb yazmalıdırlar.

Tapşırığın yerinə yetirilməsi üçün verilən vaxt başa çatdıqdan sonra cütlüklərin təqdim etdikləri variantlar dinlənilir və müzakirə olunur.

Şagirdlər mətnin məzmunu ilə tanış olduqlarından müəllim onları iki böyük qrupa bölür və 2-ci çalışmadakı tapşırıq əsasında debata qoşulmağı təklif edir.

Sinifdə canlanma yaranır, fikirlərin toqquşması şagirdləri fəallaşdırır: kimi Kamalın doğru hərəkət etdiyini, belə məqamda başqa cür hərəkət etməyin düzgün olmadığını, kimi isə həqiqəti söyləməyi vacib hesab etdiyini əsaslandırmağa çalışır.

LAYİHƏ

4, 5, 6, 9-cu çalışmalar kiçik qruplarla icra olunur.

7, 8, 10-cu çalışmalar mətndə işlənmiş isim, əvəzlik və  zərf kimi əsas nitq hissələrinin qrammatik mənasının mənimsənilməsi üzərində iş aparılması üçün nəzərdə tutulur.

***Məlumat mübadiləsi:*** Şagirdlər  Kamalın və Nadirin doğrumu hərəkət etdiyi barədə müzakirə aparır, nəticəyə gəlməyə, seçilmiş  standartların reallaşmasına yaxınlaşırlar.

***Nəticə:*** Mətnin oxusu və çalışmalar üzərində işləməklə uşaqlar  başa  düşürlər ki, bəzən elə situasiya yaranır ki, insan demək istədiyini söyləməyə macal tapmır. Bu isə yalanla razılaşmaq kimi qiymətləndirilə bilər. Əslində  belə deyil. Bu hekayədə Kamal doğru hərəkət edir. Çünki Nadir istəmədən belə vəziyyət yaranmışdı. Kamalın onu pərt etməsi doğru olmazdı. Bu  nəticəyə gəlməkdə mətnlə bərabər, Sədi Şirazinin aforizmi də şagirdlərə təsir edir.

***Yaradıcı  tətbiqetmə:*** “Doğru söz acı olar”, “Yalan söz üz qızardar” atalar sözlərindən biri üzrə  kiçik esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun  aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu  danışmaq

## 58-ci dərs.
## § 52. Səttar Bəhlulzadə (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir və mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.1.<br>1.1.2. | R.d. – 1.2.3.<br>T.i. – 1.3.1. |
| 2. | Mətndəki əsas nitq hissələrinin qrammatik mənasını izah edir. | 3.1.1. | |
| 3. | Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.3. | |
| 4. | Əsas nitq hissələrinin düzgün yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük  və kiçik qruplarla,  cütlərlə iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, internetə qoşulmuş  kompüter, elektron lövhə, “Bu, Səttar Bəhlulzadədir” filminin diski.

***Motivasiya:*** Müəllim elektron lövhədə müxtəlif  rəssamların  -- Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Tahir Salahov, Toğrul Nərimanbəyovun portretlərini, sonra isə  S.Bəhlulzadənin bir neçə əsərini (Bu əsərləri “Bu, Səttar Bəhlulzadədir “ (film, 1969) – YouTube www.youtube.com/watch?v=BaPiV6CsA4Y) filmindən fraqmentlər şəklində, yaxud tabloların özünü  göstərir) nümayiş etdirir.

Nümayiş dayandırılır və müəllim  sinfə suallarla müraciət edir:

LAYİHƏ







LAYİHƏ

***Köməkçi sual:***

1) Portretini gördüyünüz rəssamlardan hansılarını tanıyırsınız?

2) Bu rəsm əsərlərini görmüsünüzmü?

3) Necə bilirsiniz, portretini gördüyünüz rəssamların içərisində bu rəsm əsərlərinin müəllifi varmı?

Şagirdlərin cavabları dinlənilir.

Müəllim filmdən Səttar Bəhlulzadənin rəsm üzərində işlədiyi kadrları nümayiş etdirir və tədqiqat sualı formalaşdırılır:

***Tədqiqat sualı:*** – Mənzərə ustası rəssam Səttar Bəhlulzadə haqqında nə bilirsiniz?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki "Səttar Bəhlulzadə" mətni üzərində işlə başlayır. Şagirdlər mətni oxuyurlar. Oxu prosesində müəllim şagirdlərin sözləri düzgün vurğu ilə tələffüz etmələrinə nəzarət edir. Şagirdlərin söz ehtiyatını artırmaq məqsədilə mətnə dair yeni söz və ifadələrin mənası izah edilir.

1-ci çalışma cütlərlə iş formasında yerinə yetirilir. Cütlərdən hər biri tapşırığın bir sualını cavablandırırlar. Bunun üçün mətndəki fakt və hadisələr nəzərdən keçirilir və lazım olanlar seçilib fikirlərin əsaslandırılması üçün istifadə olunur. (1.1.1., 1.1.2.).

2-ci çalışmanın böyük qrupla icrası daha səmərəli olar. Bu tapşırığın icrası şagirdlərin mətnin tərkib hissələrini müəyyənləşdirmələrinə kömək edir.

3, 4, 7 və 8-ci çalışmanın icrası üçün ( 3.1.1.) sinif qruplara bölünür və hər qrupa çalışmalardan birini yerinə yetirmək təklif edilir.

Tapşırıqların yerinə yetirilməsi üçün verilən vaxt bitdikdə qrupların təqdimatları müzakirə olunur, düzgün cavablar müəyyənləşdirilir və qiymətləndirilir.

"Bunları bilirsinizmi?" rubrikasında verilmiş tələffüz qaydasının mənimsənilməsi üçün hazırlıq çalışmaları ( çalışma 5, 6) bütün siniflə icra olunur, sonra qayda oxunub şagirdlərin fəallığı ilə izah olunur.

9-cu çalışmanın qruplarla yerinə yetirilməsi ( 4.1.3.) tövsiyə olunur. Nəticələr müzakirə olunur, düzgün cavablar əsaslandırılır.

***Məlumat mübadiləsi:*** Mətnin oxusu və çalışmalar üzərində iş fikir mübadiləsinə imkan yaradır. Şagirdlər rəssamın yaradıcılığında mənzərə janrına daha çox yer verilməsi fikrini müzakirə edirlər.

***Nəticə:*** Şagirdlər oxuduqları mətn, nümayiş etdirilən film və rəssamın əsərləri vasitəsilə S. Bəhlulzadə haqqında ətraflı məlumat əldə edirlər. Doğma Vətəninin təbiət gözəlliklərini vəsf edən əsərlərin adları ilə tanışlıq həmçinin şagirdləri rəssamın, həqiqətən, vətənpərvər bir insan olduğuna inandırır. Dahi rəssamın bütün şüurlü ömründə Azərbaycan təbiətini sevə-sevə tərənnüm etməsi şagirdlərdə vətənpərvərlik hisslərini gücləndirir, onlarda rəssamlıq sənətinə maraq oyadır.

(Müəllim üçün qeyd. Səttar Bəhlulzadənin əsərləri: "Yaşıl xalı", "Payız", "Bağlar arasında", "Şahdağ vadisi", "Payız küləyi", "Qızıl axşam ", "Bahar", "Meyvə bağı", "Dağlar", "Çinarlar", "Yol kənarında", "Almalar çiçəkləyəndə", "Qürub çağı", "Xəzər üzərində axşam", "Xəzər gözəli", "Əbədi məşəllər", "Kəpəzin göz yaşları", "Vətənimin baharı", "Azərbaycan nağılı", "Suraxanı atəşgahı" , "Əfsanəvi torpaq", "Qudyalçay vadisi", "Qızılbənövşəyə gedən yol", "Naxçıvan. Axşamçağı Ordubad bağlarında", "Bakıda atəşfəşanlıq", "Əmircan", "Neft daşları", "Şamaxı üzümlükləri" və s.)

Şagirdlər bu dərsdə həmçinin dilimizin müəyyən tələffüz və yazı qaydaları ilə tanış olmaqla praktik bacarıqlarını inkişaf etdirir, nitq hissələrinin qrammatik mənasını mənimsəyirlər.

***Yaradıcı tətbiqetmə:*** S.Bəhlulzadənin əsərlərindən alınan təəssürat əsasında esse yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətni plan əsasında danışmaq.

LAYİHƏ

## 59-cu dərs.
## § 53. Milli Ordumuz (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | R.d. – 1.2.3.<br>A.t. – 1.1.1. |
| 2. | Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Şeirdə işlənmiş əvəzliklərin qrammatik mənasını izah edir. Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4. | Şeirin mövzusuna uyğun inşa yazır və sayların düzgün yazılış qaydalarına əməl edir. | 4.1.1.<br>4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Əqli hücüm, müzakirə, BİBÖ.

***Resurslar:*** Dərslik, dəftər, proyektor, internetə qoşulmuş kompüter.

***Motivasiya:*** Elektron lövhədə bəstəkar C. Quliyevin “Əsgər marşı”nın sədaları altında Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyinə həsr olunmuş paradda (26 iyun 2013-cü il tarixində keçirilən) Milli Ordumuzun hərbi keçidindən kadrlar göstərilir.

***Köməkçi sual:*** 1) Siz bu kadrları izləyərkən hansı hissləri keçirdiniz?

2) Paradda hansı hərbi hissələrin keçidi daha çax xoşunuza gəldi?

3) Deyə bilərsinizmi, hərbi paradlar nə məqsədlə keçirilir?

Şagirdlər bildiklərini söyləyirlər. Müəllim onların düzgün cümlə qurmaq bacarıqlarını izləyir və istiqamətləndirir.

***Tədqiqat sualı:*** Azərbaycan Silahlı Qüvvələr günü və Milli Ordumuz haqqında nə bilirsiniz?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikdəki “Milli Ordumuz” şeirinin oxusu ilə başlanır. Oxu prosesində şagirdlərin sözləri düzgün vurğu ilə oxumalarına (3.1.2.) nəzarət edilir, yol verilmiş nöqsanlarla bağlı metodik kömək göstərilir. Bu məqsədlə şeir bir neçə şagirdə oxutdurulur. Çətin söz və ifadələrin mənası izah edilir. Həmin sözlərin sinonimləri tapılır, cümlələrdə işlədilir. Şeirin məzmununun mənimsədilməsi üzərində iş aparılır. Onu nəsrə çevirib danışmaq təklif edilir. Bu prosesdə şagirdlərin nitqində vurğuya düzgün əməl etmə bacarıqları izlənir və lazımi düzəlişlər edilir (2.1.1.). Dərslikdəki 1, 2, 3-cü çalışmalar üzərində işlər də bu alt-standartın reallaşdırılmasına şərait yaradır. Belə ki, şagirdlər fikirlərini əsaslandırarkən, Milli Ordunun xidmətləri barədə fikirlərini yoldaşları ilə bölüşərkən onların nitqində vurğudan düzgün istifadə izlənir, səhvlərin aradan qaldırılması istiqamətində praktik işlər aparılır.

2, 4, 6, 8, 10, 11-ci çalışmalar şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmasını tələb edir ki, nəticədə 2.1.3. alt-standartının reallaşdırılması üçün zəmin yaranır.

7, 10 və 12-ci çalışmalar müvafiq olaraq 3.1.1. , 4.1.3., 4.1.1. alt-standartlarının

LAYİHƏ

reallaşdırılması üçün nəzərdə tutulmuşdur. Çalışmalar üzərində işi müəllim öz mülahizəsinə və sinfin səviyyəsinə uyğun olaraq kiçik və ya böyük qruplarla iş formasında həyata keçirə bilər.

3, 5, 9, 11-ci çalışmalar şagirdlərin fikirlərini fakt və hadisələrlə əsaslandırmalarına şərait yaratmaqla bərabər, onların söz ehtiyatlarının zənginləşdirilməsində də əhəmiyyətli rol oynayır.

***Məlumat mübadiləsi:*** Şagirdlər Azərbaycan Silahlı Qüvvələri ilə əlaqədar əldə etdikləri məlumatlar əsasında fikir mübadiləsi edir, "Silahı bərk tutsa, Milli Ordumuz

Heç zaman basılmaz ana yurdumuz!"-- misraları ətrafında müzakirə aparırlar.

***Nəticə:*** Tədqiqat sualına cavab axtararkən şagirdlər Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi, heyətin tərkibi, düşmən tapdağı altında olan Şuşa şəhərinin işğalı ilə bağlı məlumat əldə edir, Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı olduğunu öyrənirlər.

Şeirin məzmunu ilə tanış olan şagirdlər Milli Ordumuzla qürur duyur, inanırlar ki, "Silahı bərk tutsa, Milli Ordumuz

Heç zaman basılmaz ana yurdumuz!".

Şeirin oxusu və çalışmalar üzərində iş şagirdlərin söz ehtiyatlarının zənginləşdirir, düzgün yazı bacarıqlarını təkmilləşdirir, onların rabitəli nitqləri inkişaf edir.

***Yaradıcı tətbiqetmə:*** Azərbaycan Silahlı Qüvvələri haqqında əlavə məlumat toplamaq və yazılan inşanı təkmilləşdirmək.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Şeiri əzbərləmək.

## 60-cı dərs.
## § 54. Xilaskar (1-ci hissə – 1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Oxuduğu mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d.- 4.1.2.<br>Biol.-3.1.1. |
| 2. | Nitqində ritm və tempdən istifadə edir. | 2.1.2. | |
| 3. | Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.4. | |
| 4. | Mətndəki sifət və zərflərin qrammatik mənasını izah edir. Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir. | 3.1.1.<br>4.1.2. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.

***Dərsin üsulu:*** Beyin həmləsi, klaster, müzakirə, karusel.

***Resurslar:*** Dərslik, dəftər, kompüter, videoçarx, proyektor.

***Motivasiya:*** Müəllim lövhəyə "xilaskar" sözünü yazır. Şaxələnmə üsulundan istifadə edir.

***Köməkçi sual:*** 1) Bu söz sizdə hansı fikirləri yaradır? Xilaskar dedikdə nə başa düşürsünüz?

LAYİHƏ

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Söylənilən fikirlər dairənin ətrafında qeyd olunur:




2) Təsəvvür edin ki, ot biçilən sahədəsiniz. Burada hansı xoşagəlməz hadisə baş verə bilər?

Ob biçini ilə əlaqədar hər hansı bir mənzərəni də şagirdlərə göstərmək pis olmaz. Şagirdlərin bəziləri həmin prosesi heç təsəvvür də etmirlər. Bu, mətnin qavranılmasını da asanlaşdırar.

***Köməkçi sual:*** Heç ot biçilən yerdə olmusunuzmu? Ot biçilmə prosesini yaxından izləmisinizmi?

***Tədqiqat sualı:*** Necə düşünürsünüz, hər hansı bədbəxt hadisənin (avtomobil qəzası, ağacdan yıxılma, ilan çalması, it dişləməsi, qolun, qıçın sınması, bədənin hər hansı hissəsinin yaralanması və s.) baş verməsinə nə səbəb olur?

***Tədqiqatın aparılması:*** Müəllim "Xilaskar" mətnini rollar üzrə şagirdlərə oxutdurur. Mətnin məzmununun qavranılması üzərində iş aparılır: çətin söz və ifadələrin mənası izah edilir, cümlə içərisində işlədilir. Mətnin oxusu prosesində şagirdlərin ritm və tempə düzgün əməl etmə (2.1.2.) bacarığı üzərində müşahidə aparılır, zəruri düzəlişlər edilir, konkret nümunələr göstərilir.

1.1.2 alt-standartının reallaşdırılması üçün şagirdlər iki qrupa bölünür. Qruplara mətndəki fakt və hadisələri müəyyənləşdirmək tapşırığı verilir. Hər bir qrup mətndən müəyyənləşdirdikləri fakt və hadisələri qeyd etdikləri vərəqləri lövhədən asır. Bu tapşırıq kiçik qruplarla karusel üsulundan istifadə əsasında da yerinə yetirilə bilər.

Nəticələr müzakirə olunur və cavablar qiymətləndirilir.

Bu tapşırığın icrası 2.1.4 və 4.1.2. alt-standartları üzrə işlər aparılmasını asanlaşdırır. Şagirdlər 1-ci çalışmanın tapşırığı əsasında plan üzrə mətnin məzmununu danışırlar. Plan üzrə məzmunun danışılması 4.1.2. alt-standartı üzrə bacarıqların inkişafına şərait yaradır. Belə ki, şagirdlər planın hər bir maddəsi ətrafında danışmaq üçün hissələr arasındakı əlaqə və münasibətlərə də istər-istəməz diqqət yetirməli olurlar ki, nəticədə nəzərdə tutulmuş alt-standartın reallaşdırılması təmin edilir.

8-12- ci çalışmaların icrası da dolayısı ilə şagirdlərin fikirlərini mətnin hissələri üzərində cəmləməyə şərait yaradır. Belə ki, bu çalışmalar daha çox mətnin sözlüyünün qavranılmasına, şagirdlərin lüğət ehtiyatının genişləndirilməsi və dəqiqləşdirilməsinə istiqamətləndirilsə də, onların mənasının dərk edilməsi istər-istəməz diqqətin mətndə həmin sözlərin işləndiyi hissəyə yönəlməsini zəruri edir.

Şagirdlərin lüğət ehtiyatının genişləndirilməsi və dəqiqləşdirilməsi, həmçinin 3.1.1. alt-standartı üzrə bacarıqların formalaşdırılması işi kiçik qruplarla aparılır. Şagirdlər dörd qrupa bölünür və hər qrupa üzərində işləyəcəkləri çalışmaların nömrələri elan olunur:

1-ci qrup: çalışma – 2, 6, 11 2-ci qrup: çalışma – 3, 4, 13

3-cü qrup: çalışma--7, 8, 12 4-cü qrup: çalışma—10, 9, 5

Verilmiş vaxt bitdikdən sonra qrupların təqdimatları müzakirə olunur və qiymətləndirilir.

"Kəlmələrin dilini öyrənək!" rubrikası vasitəsilə "çəkmək" sözünün daha bir

LAYİHƏ

neçə mənası ilə şagirdlər tanış edilir. Bu, şagirdlərin lüğətinə daxil olan sözlərin daha da fəallaşdırılması və dəqiqləşdirilməsinə, həmçinin lüğət ehtiyatının zənginləşdirilməsinə kömək edir.

***Məlumat mübadiləsi:*** Şagirdlər mətnin I hissəsini oxuduqdan sonra mətndə tanış olduqları xoşagəlməz hadisənin səbəbi üzərində fikir mübadiləsi edir, tapşırıqları yerinə yetirməklə nitq hissələrinin qrammatik mənası və sözlərin quruluşu üzrə müzakirələr aparırlar.

***Nəticə:*** Şagirdlər oxuduqları mətni mənimsədiklərini nümayiş etdirirlər. Onlar mətnin məzmunu ilə bağlı öz mülahizələrini sərbəst şəkildə ifadə etməyi, üzərində iş aparılmış sözləri cümlə içlərisində işlətməyi bacarırlar. Dilin qrammatik normalarının mənimsədilməsi üzrə aparılan işlərin nəticəsində sifət və zərflərin qrammatik mənasını izah edir, cümlələrdə sözləri düzgün əlaqələndirirlər.

Mətndəki hadisənin baş vermə səbəbi üzərində aparılan müzakirələr nəticəsində şagirdlərə aydın olur ki, hər hansı bədbəxt hadisənin baş verməsinin əsas səbəbi diqqətsizlik və ehtiyatsızlıqdır. Bədbəxt hadisələrlə üzləşməmək üçün harada və hansı işlə məşğul olmasından asılı olmayaraq, insan gərək ehtiyatlı və diqqətli olsun. Əks halda bədbəxt hadisələrlə üzləşəcəyimiz qaçılmazdır.

***Yaradıcı tətbiqetmə:*** Mətndəki hadisəyə bənzər hər hansı xoşagəlməz hadisə ilə qarşılaşmısınızmı? Gördüklərinizi öz sözlərinizlə təsvir edin.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin I hissəsinin məzmununu danışmaq.

## 61-ci dərs.
## § 55. Xilaskar (2-ci hissə -1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Dinlədiyi mətndəki əsas faktları seçir. | 1.1.2 | R.d. – 1.2.3.<br>Biol. – 3.1.1. |
| 2. | Mətni oxuyarkən ritmdən, tempdən istifadə edir. | 2.1.2 | |
| 3. | Fikirlərini mətnin hissələri üzrə qruplaşdırır. | 2.1.4 | |
| 4. | Nitq hissələrinin qrammatik mənasını izah edir, onların yazılış qaydalarına əməl edir. | 3.1.1<br>4.1.3 | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Böyük və kiçik qruplarla iş.
***Dərsin üsulu:*** Beyin həmləsi, müzakirə, debat.
***Resurslar:*** Dərslik, dəftər, tibbi ləvazimatlar, plakat.

***Motivasiya:*** Müəllim dərsin əvvəlində şagirdlərin bir neçəsini lövhənin önünə çağırır. Müəllim stolunun üstündə tənzif, pambıq, bir neçə dərman şüşəsi və s. əşyalar var ( Bu əşyalar məktəbin tibb otağından gətirə bilər).

***Köməkçi sual:***
1) Bir insana hansı hallarda bu əşyalar vasitəsilə kömək göstərmək olar?
2) Yanınızda hər hansı bədbəxt hadisə baş versə, birinci növbədə nə etməlisiniz?

LAYİHƏ

3) Qan itirən yaralı insana necə yardım etmək olar?

Şagirdlər müxtəlif cavablar söyləyirlər. Hər kəs gördüyü vasitənin nə üçün işləndiyi barədə fikir söyləyir. Müəllim onların düzgün cümlə qurmalarına nəzarət edir.

(Qanaxmalar və yaralanmalar zamanı ilk yardımı, yaxud sarğı qoyulmasını əks etdirən kadrlarının nümayişi və ya plakatlardan istifadə ilə də motivasiya yaratmaq olar).

***Tədqiqat sualı:*** Yanınızda kimsə yaralanarsa, yaxud çətin vəziyyətə düşərsə, ona ilk yardım göstərə bilərsinizmi? Belə bir vəziyyətdə necə hərəkət etməlisiniz?

***Tədqiqatın aparılması:*** Tədqiqat "Xilaskar" mətninin II hissəsinin oxusu ilə başlanır. Mətnin oxusundan sonra çətin söz və ifadələrin mənaları izah edilir, onların sinonimləri, antonimləri (əgər varsa) tapılır, həmin sözlər cümlələrdə işlədilir.

Oxu prosesində şagirdlərin ritm və tempi gözləmələrinə diqqət yetirilir (2.1.2.). Bu alt-standartın reallaşdırılması 1, 2, 3, 4-cü çalışmalar üzərində iş zamanı da diqqətdə saxlanılır.

1 , 2, 3, 4, 6, 7-ci çalışmalar "1.1.2., 2.1.2., 2.1.4." alt-standartlarının reallaşdırılmasına xidmət etməklə yanaşı, mətnin məzmununun qavranılmasını da təmin edir. Şagirdlər çalışmaları yerinə yetirərkən mətndəki əsas fikri müəyyənləşdirir, əsas və ikinci dərəcəli faktları seçib ayırır, Şəfiqəni xilaskara çevirən səbəb üzərində debat aparırlar ki, bütün bu işlər zamanı onların şifahi nitq bacarıqları inkişaf edir, dilin qrammatik normalarından istifadə, rabitəli yazı bacarıqları təkmilləşir. Bu çalışmaların icrasının bütün siniflə və ya böyük qruplarla yerinə yetirilməsi məqsədəuyğundur.

Şagirdlərin düzgün tələffüz və yazı bacarıqlarının formalaşdırılması (4.1.3) dərslikdəki "Bunları bilirsinizmi?" rubrikası və 9, 10-cu çalışmalar vasitəsilə həyata keçirilir. 10-cu çalışma əsasında şagirdlər mətndən üzərində ulduz işarəsi qoyulmuş qoşasaitli və qoşasamitli sözləri dəftərlərinə köçürür və düzgün tələffüzlərini qarşılarında qeyd edirlər. Köçürdükləri sözlərin tələffüz qaydaları ilə şagirdlər artıq tanış olduqlarından tapşırığın yerinə yetirilməsi çətinlik törətməməlidir. Mətndəki "saqqal" sözünün tələffüzünün müəyyənləşdirilməsi dərslikdəki müvafiq tələffüz qaydasının mənimsənilməsinə marağı artırır. Tapşırığın icrasından sonra dərslikdəki qayda izah olunur və praktik işlərlə möhkəmləndirilir.

Dərslikdəki 5, 11-ci çalışmalar nitq hissələrinin qrammatik mənasının mənimsənilməsini (3.1.1.) nəzərdə tutur. 5-ci çalışmanı icra edərkən şagirdlər müxtəlif nitq hissələrinə mənsub sözlər içərisindən feillərlə omonimlik təşkil edən sözləri seçməlidirlər. Bunun üçün bütün əsas nitq hissələrinin qrammatik mənası, əsas əlamətləri yada salınır, düzgün cavablar müəyyənləşdirilir. Bu prosesdə şagirdlər, eyni zamanda, nitq hissələri arasındakı qrammatik omonimliklə də praktik şəkildə tanış olurlar.

11-ci çalışma vasitəsilə müxtəlif nitq hissələrinə mənsub sözlərin orfoqrafiyasına diqqət yönəldilir. Testin düzgün cavabını müəyyənləşdirmək üçün şagirdlər həmin sözlərin həm qrammatik mənası, həm də orfoqrafiyası üzərində düşünür, ümumiləşdirmə və müqayisə aparırlar ki, nəticədə həm 3.1.1, həm də 4.1.3. alt-standartlarının reallaşdırılmasına imkan yaranmış olur.

12-ci çalışma və "Kəlmələrin dilini öyrənək!" rubrikası bilavasitə şagirdlərin lüğət ehtiyatının genişləndirilməsi və dəqiqləşdirilməsinə istiqamətləndirilib.

"Kəlmələrin dilini öyrənək!" rubrikası "yaymaq" sözünün beş çoxişlək mənasına şagirdlərin diqqətini cəlb edir, onların nitqində bu sözün fəallaşmasına şərait yaradır.

Müəllim 5-12 çalışmalar üzərində işi özünün məsləhət bildiyi şəkildə, istər cütlərlə, istərsə də kiçik qruplarla təşkil edə bilər. Sonda yerinə yetirilmiş tapşırıqlar üzrə qiymətləndirmə aparılır.

***Məlumat mübadiləsi:*** Şagirdlər 4-cü çalışmada qoyulmuş sual ətrafında fikir mübadiləsi edir, 6-cı çalışma əsasında (hər hansı bir hadisədə ehtiyac duyulursa, ilk yardım göstərə biləcəkləri barədə) müzakirə aparır, fikirlərini yoldaşları ilə bölüşürlər.

LAYİHƏ

***Nəticə:*** Mətnin məzmunu ilə tanışlıq və çalışmalar üzərində işləməklə şagirdlər inanırlar ki, çətin vəziyyətə düşən hər hansı insana kömək etmək lazım gəldikdə özünü itirməmək, soyuqqanlı olmaq, vəziyyəti düzgün qiymətləndirib hərəkət etmək ən düzgün yoldur. Onlar həmçinin xilaskara çevrilən Şəfiqənin çeviklik göstərərək ilk yardım barədə kitabdan oxuduğunu necə operativ şəkildə tətbiq etməyindən nəticə çıxarırlar.

Mətn vasitəsilə şagirdlər yaralanmış şəxslərə turna qoymaq qaydasını öyrənir, kimsə yaralanarsa, yaxud çətin vəziyyətə düşərsə, dərhal müvafiq telefon nömrələrinə zəng etmək lazım olduğunu dərk edirlər.

Tədqiqat zamanı şagirdlər qoşa "qq" ilə yazılan sözlərin düzgün tələffüz qaydasını öyrənir, bu qayda ilə əlaqədar praktik bacarıqlara yiyələnirlər.

***Yaradıcı tətbiqetmə:*** "İlk yardım" mövzusunda kiçik həcmli inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin II hissəsinin məzmununu danışmaq.

## 62-ci dərs.
## § 56. Ən qiymətli hədiyyə (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Mətndəki əsas fakt və hadisələri seçir. | 1.1.2. | R.d. -3.1.2.<br>Biol.-3.2.1. |
| 2. | Mətnə aid fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | 2.1.3. | |
| 3. | Mətndəki əsas nitq hissələrinin qrammatik mənalarını izah edir. | 3.1.1. | |
| 4. | Mətnin tərkib hissələrini müəyyənləşdirir. | 3.1.3. | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.

***Dərsinforması:*** Böyük və kiçik qruplarla, cütlərlə iş.

***Dərsin üsulu:*** Əqli hücum, müzakirə.

***Resurslar:*** Dərslik, dəftər, gül dibçəyi, torpaq.

***Motivasiya:*** Müəllim sinfə boş dibçək, gül əkmək üçün torpaq, hər hansı bir otaq bitkisinin rişəli budağını gətirə bilər. Bir qrup şagirdə onu əkməyi təklif edir (əgər imkan yoxdursa, hazır gül əkilmiş dibçək də gətirmək olar).

***Köməkçi sual:*** 1) Dibçəkdə gül becərməyin faydası nədir?

2) Gül və çiçəklərin əhəmiyyəti barədə nə bilirsiniz?

3) Hər hansı bir yarışda iştirak etmisinizmi?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Müəllim onları istiqamətləndirir.

***Tədqiqat sualı:*** Özünüzün becərdiyiniz, yoxsa sizə bağışlanan gülləri daha çox qiymətləndirərsiniz?

***Tədqiqat aparılması:*** Tədqiqat dərslikdəki "Ən qiymətli hədiyyə" mətni üzərində



LAYİHƏ

aparılır. Müəllim mətni rollar üzrə şagirdlərə oxutdurur. Oxu prosesində şagirdlərin sözləri orfoepik normalara uyğun və vurğunu gözləməklə düzgün tələffüz etmələrinə, intonasiyaya fikir verilir, zəruri düzəlişlər edilir.

Sonra mətn üzrə seçilmiş alt-standartların reallaşdırılması çalışmalar üzrə işlərlə davam etdirilir. Əvvəlcə şagirdlərə 1-ci çalışmanı cütlərlə iş formasında yerinə yetirmək təklif olunur. Hər cütlüyə çalışmada qoyulmuş bir suala cavabı əsaslandırmaq tapşırılır.

Cütlüklərin cavabları dinlənildikdən sonra şagirdlər dörd kiçik qrupa bölünür və onlara müəllimin tövsiyə etdiyi çalışmaları icra etmək üçün vaxt verilir. Tapşırıqların icrası "1.1.2., 2.1.3., 4.1.3." alt-standartlarının reallaşdırılmasına xidmət edir.

**1-ci qrup:** çalışma -- 2 **2-ci qrup:** çalışma -- 3

**3-cü qrup:** çalışma --8 **4-cü qrup:** çalışma—9, 10

Verilmiş vaxt bitdikdə qrupların təqdimatları dinlənilir və müzakirə olunur, cavablar qiymətləndirilir.

11-ci çalışmanın icrası üçün sinif iki böyük qrupa bölünür. Qrup üzvləri Gül bayramının keçirilməsi ilə əlaqədar fikirlərini əvvəlcə öz aralarında müzakirə edir, sonra gəldikləri yekun fikri təqdim edirlər. Bu tapşırığın icrası da 2.1.3 alt-standartının reallaşdırılmasını nəzərdə tutur.

Sonra qruplardan biri dərslikdəki 4-cü, digəri 6-cı çalışmada qoyulmuş tapşırıq üzərində işləyir. Bu çalışmalar seçilmiş 3.1.1. alt-standartı üzrə bacarıqların inkişafına istiqamətləndirilir. 1-ci qrup mətndə ulduz işarəsi ilə fərqləndirilmiş sözləri aid olduğu sözlərlə birgə dəftərlərinə köçürür, həmin sözlərin hansı nitq hissəsinə aid olduğunu və nə bildirdiyini izah edir. İkinci qrup isə altından xətt çəkilmiş sözlərlə bağlı eyni istiqamətli başqa bir tapşırıq yerinə yetirir. Nəticədə qruplar sifət və zərflərin qrammatik mənasını izah etməklə həmin nitq hissələri arasındakı fərqli xüsusiyyətləri mənimsədiklərini nümayiş etdirirlər.

Mətnin tərkib hissələrinin düzgün müəyyənləşdirilməsi ( 3.1.3.) istiqamətində şagirdlər qruplarla işləyirlər. Formalaşdırılmış üç qrupdan biri mətnin giriş, biri əsas, biri isə nəticə hissəsi üzərində işləyir və gəldikləri qənaəti təqdim edirlər. Müzakirələr nəticəsində düzgün fikir formalaşdırılır.

Dərslikdəki 5, 7,12, 13-cü çalışmaların icrası mətndə işlənmiş sözlərin mənasının dəqiqləşdirilməsinə və şagirdlərin lüğətində fəallaşdırılmasına şərait yaradır .

***Məlumat mübadiləsi:*** Dərslikdəki mətnlə tanışlıq və çalışmalar üzərində işlər respublikamızda Gül bayramının keçirilməsi barədə şagirdlərin fikir mübadiləsi ilə yekunlaşır.

***Nəticə:*** Tədqiqat sualına cavab axtaran şagirdlər ən qiymətli hədiyyənin nə olduğunu başa düşürlər. Bilirlər ki, əmək sərf olunan hər bir şey hazır əldə olunandan daha dəyərlidir. Mətndə təsvir edilən uşaqların hədiyyəsi qeyri-adi gözəlliyə, dəbdəbəyə malik olmasa da, əmək sərf edildiyi, sevgi və qayğı ilə başa gəldiyi üçün daha dəyərli hesab olunur. Şagirdlər də münsiflər heyəti üzvlərinin qərarını ,öz növbələrində, ədalətli qərar hesab edirlər.

Çalışmalar üzərində işləməklə şagirdlər sifət və zərflərin nitqdə rolunu daha yaxşı dərk edir, mətndə işlənmiş qoşasaitli və qoşasamitli sözlərin düzgün yazılışı və tələffüzü bacarıqlarını inkişaf etdirirlər.

***Yaradıcı tətbiqetmə:*** "Hər il keçirilən Gül bayramı insanlara nə verir?" mövzusunda inşa yazmaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Mətnin məzmununu öyrənmək.

LAYİHƏ

## 63-cü dərs.
## § 57. Gül (1saat)

| № | Təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1. | Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir. | 2.1.1. | R.d. – 3.1.2.<br>Biol. – 3.2.1. |
| 2. | Mövzuya aid fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır və şeirin hissələrinə müvafiq qruplaşdırır. | 2.1.3.<br>2.1.4. | |
| 3. | Mətndəki əsas nitq hissələrinin qrammatik mənalarını izah edir. | 3.1.1. | |
| 4. | Mətndəki sözləri düzgün vurğu ilə oxuyur. | 3.1.2. | |
| 5. | Əsas nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

***Dərsin tipi:*** İnduktiv.
***Dərsin forması:*** Kiçik qruplarla və fərdi iş.
***Dərsin üsulu:*** Əqli hücum, müzakirə , sual-cavab.
***Resurslar:*** Dərslik, dəftər, internetə qoşulmuş kompüter, proyektor.

***Motivasiya:*** Elektron lövhədə Azərbaycanda keçirilən Gül bayramını əks etdirən kadrlar nümayiş etdirilir. (google.az/....)

***Köməkçi sual:*** İlin ən gözəl fəslində, yazın ən təravətli çağında belə bir bayramın keçirilməsinə səbəb nədir?

Şagirdlər müxtəlif cavablar söyləyirlər. Bəziləri güllərin faydası, bəziləri may ayında ümummilli liderimiz H.Əliyevin doğum gününün xatırlanması məqsədilə keçirildiyini söyləyirlər. Müəllim onları dinləyir, düzgün cümlə qurmaq bacarıqlarına nəzarət edir.

2) Özünüz hər hansı bir gül və ya çiçək yetişdirib ona qulluq etmisinizmi?

3) Sevə-sevə bəslədiyiniz bir bitkinin (meyvə ağacı, gül-çiçək, dibçəkdəki gül və s.) məhv edildiyini gördükdə hansı hissləri keçirərsiniz?

2) Xarı-bülbül gülü haqqında nə bilirsiniz?

Şagirdlərin cavabları dinlənir və tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** 1)Yaşıllıqlara ziyan vuran, gül-çiçəkləri yerli-yersiz məhv edən dəcəl uşaqlara münasibət necə olmalıdır?

***Tədqiqatın aparılması:*** Tədqiqat dərslikləri “Gül” şeirinin oxusu ilə başlayır. Müəllim oxu prosesində şagirdlərin intonasiyasına, sözləri düzgün vurğu ilə tələffüz etmələrinə, nitqlərində ritm və tempdən istifadə etmələrinə (2.1.1, 3.1.2.) diqqət yetirir, zəruri düzəlişlər edir. Şeirin məzmununun mənimsənilməsi üzərində iş aparılır. Qırmızı rəngdə verilmiş söz və ifadələrin mənası şagirdlər tərəfindən izah olunur.

Dərslikdəki 1, 2, 3-cü çalışmalar üzərində işlədilmək üçün sinif qruplara bölünür və hər qrupa bir çalışmanı icra etmək tövsiyə olunur. Şagirdlər çalışmalar üzərində iş prosesində tədqiqat sualı ətrafında düşünür, qoyulmuş suallar ətrafında yoldaşları ilə bölüşür, sərbəst fikir yürüdür, düşüncələrini təqdim edirlər. Bu isə “2.1.3. və 2.1.4.” alt-standartlarının reallaşdırılmasını təmin edir.

Dərslikdəki 6, 7, 8, 9-cu çalışmalar şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi və

LAYİHƏ

dəqiqləşdirilməsi üçün nəzərdə tutulur. Bu çalışmalardakı tapşırıqların yerinə yetirilməsi, eyni zamanda, şagirdlərin fikirlərini əsaslandırma bacarıqlarının inkişafı üçün (2.1.3., 2.1.4.) material verməklə yanaşı, şeirin məzmununun düzgün dərk olunmasını da asanlaşdırır.

5-ci çalışma feil və ismin qrammatik mənasının izahı (3.1.1.), 10-cu çalışma isə mürəkkəb isim və sifətlərin yazılış xüsusiyyətlərinin (4.1.3.) mənimsənilməsi üçün istifadə olunmalıdır.

Verilmiş vaxt bitdikdə qrupların hazırladıqları cavablar dinlənilir və müzakirə olunaraq qiymətləndirilir.

12-ci çalışma tərcümə bacarığını inkişaf etdirmək yolu ilə şagirdlərin xarı bülbül gülü haqqında maraqlı məlumat əldə etmələri üçün hazırlanıb. Bu mətn həmçinin tərbiyəvi əhəmiyyət daşıyır, şagirdlərin vətənpərvərlik duyğularına təsir edərək emosional vəziyyət yaradır. Müəllim bu məqamdan istifadə edərək bir daha şagirdlərin diqqətini Vətənimizin dilbər guşəsi olan Şuşanın işğalına cəlb etməli, beynəlxəlq ictimaiyyətin bu işğal faktına göz yummasının pislənilməsinə nail olmalıdır.

Tapmacaların cavabının tapılması şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək baxımından əhəmiyyətlidir.

Vaxt imkan verdikdə müəllim 13-cü çalışma üzrə şagirdlərin fərdi işini təşkil edə bilər. Tapşırığın icrası şagirdlərin rabitəli nitqinin formalaşmasına xidmət edir.

***Məlumat mübadiləsi:*** Mövzu şagirdlər üçün yeni olmadığından onlar tədqiqat nəticəsində gəldikləri qənaətlərini müzakirə edirlər.

***Nəticə:*** Gül-çiçəklər təbiətin ən zərif, ən gözəl möcüzələrindəndir. Onların yetişdirilməsi böyük zəhmət tələb edir. Mövzu üzərində işləməklə şagirdlər belə bir nəticəyə gəlirlər ki, təbiəti gözəlləşdirən, insanlara xoş ovqat bəxş edən gül-çiçəkləri qorumaq hər bir şüurlu insanın, o cümlədən məktəblilərin borcu olmalıdır. Güllük və çiçəklikləri genişləndirməklə dünyanı gözəlləşdirmək istəyiriksə, onları qorumalı, gül-çiçəkləri yersiz qıranlara, məhv edənlərə qarşı mübarizə aparmalı, onları maarifləndirməliyik.

***Yaradıcı tətbiqetmə:*** Güllərdən birini təsvir edən təqdimaq hazırlamaq.

***Qiymətləndirmə:*** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

***Ev tapşırığı:*** Adlarını bildiyiniz güllərdən birinə aid əfsanə tapıb oxumaq, şeiri əzbərləmək.

## 64-cü dərs.
## Özünüzü yoxlayın! (1saat)

LAYİHƏ

## I. ÖZÜNÜZÜ YOXLAYIN

1. Rəvayəti oxuyun və keçmiş zamanda işlənmiş feilləri seçib göstərin. Sonra indiki zamanda işlənmiş feilləri dəftərinizə köçürün. Həmin feillərdəki indiki zaman şəkilçilərini keçmiş zaman şəkilçiləri ilə əvəz edib qarşılarında yazın.

### BƏS KİŞİLƏR HANI

Teymurləng qoşunu ilə gəlib Azərbaycana çatır. O, qarşıdakı kəndə çapar göndərir ki, qızlar, gəlinlər, analar qiymətli şeylərini götürüb kənddən çıxsınlar. Bizim işimiz kişilərlədir, onlarla vuruşmağa gəlmişik. Qoşun çöldə gecələyir. Sübh tezdən əsgərlər kəndə girirlər*. Teymurləng kəndi bomboş görüb mat qalır. Əsgərlər ev-ev gəzib bir qoca tapırlar*. Onu Teymurləngin hüzuruna gətirirlər*. Teymurləng qocadan soruşur:

— Hanı bu kəndin kişiləri?

Qoca deyir:

— Hörmətli hökmdar, siz xəbər göndərdiniz ki, qızlar, gəlinlər, analar ən qiymətli şeylərini götürüb kənddən aralansınlar. Onlar da sizin əmrinizə əməl etdilər.

Teymurləng qocanın sözünün canını başa düşməyib qeyzlə deyir:

— Bəs kişilər hanı?

Qoca aramla deyir:

— Ey böyük hökmdar, dünyada qıza qardaşdan, anaya övladdan, qarıya öz ömür-gün yoldaşından qiymətli nə ola bilər ki?

Qocanın bu cavabından Teymurləng dərin fikrə gedir və sonra qoşunun kənddən çıxmasına əmr verir.

**SÖZ EHTİYATI**

qeyzlə — гневно, яростно
sözümün canı — суть моих слов в том...

2. Mətn üzrə plan tərtib edin.
3. Aşağıdakı sualların hamısına mətndə cavab tapa bildinizmi? Fikirlərinizi əsaslandırın.
   1) Teymurləng kəndə nə üçün çapar göndərir?
   2) Kənd niyə bomboş idi?
   3) Qocanı nə üçün Teymurləngin hüzuruna gətirirlər?
   4) Teymurləng nə üçün fikrə gedir?
   5) Qoca niyə danışmaq istəmirdi?
   6) Teymurləng qocaya hansı hədiyyəni verdi?

4. Mətndə qırmızı rəngdə verilmiş söz və ifadələrin mətnə uyğun mənasını izah edin.
5. Mətndən cəmdə işlənmiş bir neçə isim tapın və onları ismin müxtəlif hallarında işlədərək yazın.
6. Mətndə yaşıl rəngdə işlənmiş sözləri köçürün və düzgün tələffüz şəklini qarşılarında qeyd edin.
7. Mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin tələffüzü ilə bağlı mülahizənizi söyləyin.
8. Cümləni mətnin məzmununa uyğun tamamlayın.
Hörmətli hökmdar, siz xəbər göndərdiniz ki, ... .



LAYİHƏ

9. Mətndə çəhrayı rəngdə verilmiş sözlərin sinonimlərini cümlələrdə işlədin.

10. **“Qoca, söz, qarşı, cavab, yol, dərin”** sözlərindən biri feil olmaq şərti ilə eyniköklü sözlər düzəldin. Sözlərdən bir neçəsini birləşmə və cümlələrdə işlədin.

11. Aşağıdakı sözlərin yazılışında yol verilmiş səhvləri tapıb düzəldin.

mədəniyət, devlət, ürəy, gimn, vuqar, qənt, qidalılığ, sağlamlığ, çətinnik, qanatdar, əziyət çəkmək, dəvə quşu, üç rəngli bayrax, səhərrər, azadlıqa çıxmax

12. Azərbaycan Respublikasının Konstitusiyasından aşağıdakı maddəni oxuyun və BİBÖ üsulundan istifadə edərək qiymətləndirmə aparın, cədvəli doldurun.

**Maddə 23. Azərbaycan dövlətinin rəmzləri**

II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç **üfüqi** zolaqdan ibarətdir. **Yuxarı** zolaq **mavi**, **orta** zolaq **qırmızı**, **aşağı** zolaq **yaşıl** rəngdədir və **qırmızı** zolağın ortasında bayrağın hər iki üzündə **ağ** rəngli aypara ilə **səkkizguşəli** ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət Himninin musiqisi və mətni Konstitusiya Qanunu ilə müəyyən edilir.

**SÖZLÜK**

üfüqi – горизонтальный

✿ Yaşıl rəngdə verilmiş sözdə qoşa “yy” samitlərini necə tələffüz etməlisiniz? Fikrinizi əlavə misallar göstərməklə əsaslandırın.

✿ Mavi rəngdə verilmiş sözlərə suallar verməklə hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin. Bu sözlərin içərisində quruluşca düzəltmə və mürəkkəb olanı varmı?

13. Aşağıdakı mətndə söhbətin mövzusunu müəyyənləşdirin. Söhbət hansı dövlət bayrağından gedir və o harada salınmışdır?

İnşa olunmuş dayağın hündürlüyü 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə təqribən 350 kiloqramdır. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da ______ dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir.

14. “Lovğa” sözünü cümlədə işlədin, sonra sinonimlərini və antonimlərini deyin.

15. “ İftixarla” sözünün sinonimlərini deyin və cümlələrdə işlədin.

16. “Yoldaşı yolda tanı” atalar sözünü necə başa düşmək lazımdır? İzah edin.

17. Birləşmələri Azərbaycan dilinə tərcümə edin.

знакомый голос, сладкие песни, весенняя пора, звук реки, песня птиц, в родную школу, один из фонарей, грандиозный праздник, бедных птиц, в тесных клетках , водопровод, городское население, на конкурсе красоты

18. “Mən də təyyarəçi olacağam” hekayəsindəki Kamal hansı hadisədən təsirlənib təyyarəçi olmaq istəyir?

A) Kamalın valideynləri daim onu təyyarəçi olmağa həvəsləndirirdilər.

B) Kamal təyyarəçinin paraşütlə yerə necə endiyini öz gözləri ilə görmüş və bu mənzərəyə heyran olmuşdu.

C) Kamalın düzəltdiyi təyyarə modeli yarışda qalib gəlmişdi və bu hadisə onu ruhlandırmışdı.

19. “Əks-səda” haqqında hansı mətndə söhbət gedir və bunu ata oğluna necə izah edir?

LAYİHƏ

Atanın izahını öz sözlərinizlə qısaca danışın.

20. Əmir, Hüseynin onu sağaltmasının təsadüf olmadığını nədən başa düşür?

A) Hüseyn tez-tez məşhur həkimlərin adını çəkir, ona ağıllı suallar verirdi.

B) Hüseynin ona təyin etdiyi pəhriz yaxşı nəticə vermişdi.

C) Saraydakı həkimbaşı Hüseyni çox tərifləmişdi.

Ç) Hüseyn saray kitabxanasında kitab oxumaq istədiyini bildirmişdi.

21. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin aşağıdakı aforizmini tamamlayın. Bu aforizm oxuduğunuz hansı mətnlə səsləşir?

Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
...

22. Həsəni siz hansı mətndən tanıdınız? Onun yumşaq qəlbli bir uşaq olduğunu nədən başa düşmək olur? Fikrinizi əsaslandırın.

23. Cümlələrin Azərbaycan dilinə tərcüməsində yol verilmiş səhvləri tapıb düzəldin.

1) Население Баку страдало от нехватки воды.-- Bakı su sarıdan çox əziyyət çəkir. 2) Учреждение Муниципалитета, чтобы предотвратить это, с 1880-го года стало проводить разные мероприятия.-- Bələdiyyə idarəsi bunu aradan qaldırmaq üçün hələ 1880-ci ildə tədbirlər gördü. 3) Сначала на окраинах Баку стали искать источник питьевой воды.-- Əvvəl Bakıda su mənbəyi axtarılır. 4) Все усилия шли впустую. -- Bütün səylər boşa çıxır.

24. Küçə fənərləri haqlı idimi: Bayraq insanların ömür yolunu necə işıqlandıra bilər? Fikirlərinizi əsaslandırın.

25. Şeiri oxuyun, variantlardan hansını ona başlıq seçmək istərdiniz?

A) ilin sağ əli B) fəsillərin gözəli C) payız Ç) bağların barı

Yayın ömrü bitmişdi,
Payız gəlib yetişdi.
Ucaldaraq səsini,
Oxudu nəğməsini:
“Mən gələndə, hər səhər
Sərin küləklər əsər.
Köynəyi sarı mənəm,
Bağların barı mənəm.
Heyva məndə, nar məndə,
Hər nə desən, var məndə.
Çəhrayı və ağ alma,
Qırmızıyanaq alma,
Sarı, şirin armudlar,
Məndə əzgil, üzüm var.
Bahar nədir, yay nədir?
Bol meyvələr məndədir.
Ağappaq pambıqlar da
Açılır tarlalarda.
Mənəm ilin sağ əli,
Fəsillərin gözəli!”

**Nigar Rəfibəyli**

26. Şeirdə göy rəngdə verilmiş sözlər haqqında nə deyə bilərsiniz: bunlar necə sözlərdir? Bu sözlərin hər birini ayrı-ayrı mənalarda cümlədə işlədin.

27. Şeirdə altından xətt çəkilmiş sözləri vurğunu həm birinci, həm də ikinci hecaya salmaqla tələffüz edin. Necə düşünürsünüz, tələffüz etdiyiniz sözlər eyni, yoxsa fərqli mənalar ifadə etdi? Fikirlərinizi əsaslandırın.

28. Şeirdə keçmiş zamanda işlənmiş feilləri seçib səsləndirin. Bu feillərin quruluşca növünü müəyyənləşdirin.

29. Şeirdə indiki zamanda işlənən feil varmı? Fikrinizi əsaslandırın.

30. Şeirdə neçə əlamət bildirən söz (sifət) işlənmişdir? Həmin sözləri seçib sadalayın və düzgün variantı göstərin.

A) səkkiz B) doqquz C) on Ç) on bir

31. Şeirdə iyirmidən çox isim işlənmişdir. Onlardan ən azı 15 dənəsini tapıb səsləndirin.



LAYİHƏ

Kim daha artıq tapa bilər? Özünüzü yoxlayın.

32. Şeirdən əlamət bildirən sözləri aid olduğu sözlərlə birlikdə seçib yazın, bir neçəsini cümlələrdə işlədin.

33. Şeirdə düzəltmə və mürəkkəb söz işlənmişdirmi? Fikrinizi əsaslandırın.

34. Cümlələrin Azərbaycan dilinə tərcüməsində yol verilmiş səhvləri tapıb düzəldin.

1) Потом на территории Шамахи велись разведывательные работы. – Sonra Şamaxı qəzasında kəşfiyyat işləri aparılır. 2) В 1892-1898-ых годах был подготовлен проект проведения водопровода с Куры в город Баку – 1892-1898-ci illərdə Kür çayından Bakıya su kəməri çəkmək layihəsi hazırlanır. 3) Но этот проект был очень дорогой, и поэтому муниципалитет не подтвердил его. – Lakin bu layihə çox baha başa gəldiyinə görə bələdiyyə idarəsi bunu təsdiq etmir.

35. Necə düşünürsünüz, lüğətlərdə feillər ayrı-ayrı zamanlarda verilir, yoxsa məsdər formasında? Mülahizələrinizi söyləyin.

36. Aşağıda gördüyünüz təsvir nəyə həsr olunub və bu nədir? Bu hadisə ilə əlaqədar fikirlərinizi yığcam şəkildə təqdim edin.




37. “O, bu” əvəzliklərindən sonra lazım olan yerdə vergül qoymaqla cümlələri köçürün.

1) O uzaqdan kərtənkələyə oxşayan iri timsahlara həvəslə baxırdı. 2) Bu bayram mənim üçün çox əzizdir. 3) O adamların toplaşdığı yerdən ötüb keçmək istərkən sahibkar onu səslədi. 4) Quşlar bu xəbəri eşidib aqil qocanın yanına gəlir. 5) O papiros yandırıb damağına qoydu. 6) Bu dostumun bağışladığı hədiyyədir.

38. Aşağıdakı sözlərin yazılışında yol verilmiş səhvləri tapıb düzəldin.

qırmızı-yanax, maraxlı, ürəydən, dirəylər, bulaxlarımız, çubux, kötügdən, yazmax, küləg, baxça, gözləyiriy, toyux, soyuxlar, tüfənk, pələnk, torpaxın

39. Cümlələri köçürün və məsdərləri tapıb altından xətt çəkin. Sonra onların ismin hansı halında işləndiyini müəyyənləşdirin və məsdər formasında yazın.

1) Mən heç nə öyrənməmişəm. Mən nə uçmağı bilirəm, nə üzməyi, nə də nəğmə oxumağı, qaçmağı. O ağlamağa başladı. 2) Təranə otağı qaydaya salmağı, döşəməni yumağı, paltar ütüləməyi, paltarın düyməsini, sökülən yerini tikməyi də bacarırdı. O həmişə bacarmadığı işləri anasından öyrənməyə can atırdı. Ancaq xörək bişirmək Təranəni hər şeydən çox maraqlandırırdı.

Məsdər şəkilçilərindəki son səsin yazılışında baş verən dəyişikliyin səbəbini izah edin.

LAYİHƏ

## II. ÖZÜNÜZÜ YOXLAYIN!

1. Aşağıdakı şeiri oxuyun və əsas fikri müəyyənləşdirin.

### LEYLƏK VƏ BÜLBÜL

Leylək çox qəzəbliydi,
Hikkəsini udurdu.
Onun sarı* bülbülə
Bərk* qəzəbi tuturdu.

Bir gün dedi:-- A Bülbül,
Bir keç dayan qarşımda.
De kim mənə tay olar
Gözəllik yarışında?

Qanadımın ucunda
Kömür qaralığı var.
Yupyumşaq tüklərimdə
Bəyaz* qar ağlığı var.

**Səma**larda uçanda
Ağ* buluda **bənzərəm**.
Göylərin yaxasını
Zanbaq kimi bəzərəm.

Sənsə adicə quşsan,
Ancaq gözəl* səsin var.
Nə üçün ürəkləri
Oxşayan nəfəsin var?

**Nəğmə** paylanan zaman
Ünvanımız tərs düşüb.
Mən gözəllikdə quşa
Eybəcər* bir səs düşüb.

Bülbül güldü: – A Leylək,
Sözlərimə qulaq as:
Xəyalında qurbağa
Mahnı oxumaq olmaz.

Mən ötmək istəyəndə
Gülümü düşünürəm.
Obamı düşünürəm,
Elimi düşünürəm.

Hər **əzaba** hazıram,
Sevdiyim güldən ötrü.
Ona görə səsimdən
Gəlir gül-çiçək ətri ...

**Rafiq Yusifoğlu**

**SÖZLÜK**
hikkə – упрямство
bəyaz – белый
eybəcər – некрасивый

2. Şeirdə qırmızı rəngdə verilmiş söz və ifadələrin kontekstə uyğun mənalarını izah edin.

3. Şeirdə çəhrayı rəngdə verilmiş sözlər arasındakı münasibəti necə qiymətləndirirsiniz? Əlavə misallarla fikrinizi əsaslandırın.

4. Şeirdə göy rəngdə verilmiş sözləri sinonimləri ilə əvəz edib cümlələri yenidən oxuyun. Həmin sözlərin yerinə düşüb-düşmədiyi barədə öz fikrinizi bildirin.

5. Şeirdə altından xətt çəkilmiş misralarda ifadə edilmiş fikirləri həqiqi mənada başa düşmək olarmı? Fikirlərinizi əsaslandırın.

6. Şeirdə yaşıl rəngdə verilmiş sözün omonimi hansı mənada işlənir? Burada bu söz hansı sözün sinonimi kimi işlənib? Fikrinizi misallarla əsaslandırın.

7. Üzərində ulduz işarəsi qoyulmuş sözlərdəki əlaməti necə çoxalda bilərsiniz? Bəs həmin sözlərdəki əlaməti azaltmaq üçün nə edərdiniz? Bütün sözlərdəki əlaməti bu qaydada artırmaq mümkündürmü? Özünüzü yoxlayın.

8. Şəhərimizi bəzəyən yaraşıqlı binalardan birinin Bakıya qastrola gəlmiş xanəndə xanımın şərəfinə tikilməsi barədə hansı mətndə danışılır? Həmin mətnin məzmununa uyğun gələn atalar sözünü seçin.
1) Dünya malı dünyada qalacaq.
2) Kişi öz sözünün ağası olar.
3) Qonaq sevənin süfrəsi boş olmaz.

Bəs bu binanı tikdirən Bakı milyonçusu kim idi?
A) Hacı Zeynalabdin Tağıyev B) Ağa Musa Nağıyev C) Mayılov

LAYİHƏ

9. Şərqdə ilk opera yazan qadın bəstəkarın əsərləri sırasına daxil olmayanı göstərin.

A) "Leyli və Məcnun" operası

B) "Gəlin qayası" operası

C) "Ev bizim, sirr bizim" musiqili komediyası

D) "Mehriban olaq", "Yaşa ürəyim", "Həyat sən nə şirinsən" mahnıları

❁ Yaşıl rəngdə verilmiş sözlərdən biri feil kimi də işlənir. Həmin sözü tapıb kök və şəkilçiyə ayırın, şəkilçinin nə bildirdiyini təyin edin.

10. "Qarışqanın sərgüzəşti" nə ilə nəticələndi?

A) Tənbəlliyin daşını atıb zəhmətkeş oldu.

B) Bütün dostlarının hörmətini qazandı.

C) Dostları onu evlərindən qovdular.

11. "Tənbəlliyin daşını atdı" ifadəsini necə başa düşmək lazımdır? Düzgün cavabları seçib səsləndirin.

A) işləməyə başladı B) tənbəlliyə daş tulladı

C) daha tənbəllik etmədi D) tənbəllikdən qorxdu

12. "Bizə haram yapışmaz, atan bilsə, qiyamət qoparar" cümləsi hansı mətndəndir? Bu mətndə söhbət nədən gedir və haram hesab olunan nədir?

❁ Qırmızı rəngdə verilmiş feillərin kontekstə uyğun mənalarını izah edin və hansı zamanda işləndiyini söyləyin.

13. Əmək hüququ ilə bağlı Konstitusiya maddəsini oxuyun və yaşıl rəngdə verilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.

I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

**SÖZLÜK**

fərdi – индивидуальный

ictimai – общественый

rifah – благополучие

14. Verilmiş feilləri elə dəyişin ki, I və II şəxslərin cəmində işlənsin.

məcbur etdi, zədələmişdir, xatırladı, gözlərini zillədi, cəlb etdi, təqib edirdi

❁ Hər şəxsdə işlənmiş bir feili cümlədə işlədin.

15. Aşağıdakı feillərin sinonimlərini tapıb, cümlələrdə işlədin. Cümlələri dəftərinizə yazın.

**özünü yetirdi, hərlənməyə başladı, səslədi, işığa qərq oldu**

16. Verilmiş sözlərdən birinə necə? sualından başqa, hansı? sualını da vermək olar. Həmin sözü tapın və hansı nitq hissəsi olduğunu müəyyənləşdirin.

A) çətinliklə B) günbəgün C) canla-başla D) nəhəng

17. Aşağıdakı bənd hansı şeirdən götürülmüşdür və mavi boşluğun yerinə hansı bayramın adı yazılmalıdır?

Birləşək, birgə olaq,
Kürək-kürəyə duraq.
Sülhlü bir dünya quraq,
__________ bayramında.

A) Novruz B) Yeni il C) Həmrəylik D) Dirçəliş

LAYİHƏ

18. Aşağıdakı şeirdə nöqtələrin yerinə uyğun sözlər artırıb cümlələri tamamlayın və oxuyun. Altından xətt çəkilmiş sözlərin hansı sözlərlə əlaqələndiyini və sualını müəyyənləşdirin.

## Mübarək Yeni il

Gəlir xoş qədəmlə, arzu, diləklə,
Gəlir halallıqla, duzla - ...
Doldurub qucağın güllə - ...
Mübarək Yeni il doyür qapını.

Nəğmələr bəzəyir hər yeni ili,
Dolanır evbəev obanı, ...
Qarabağ düyünü tapacaq həlli,
Mübarək Yeni il döyür qapını.

**Oqtay Zəngilanlı**

19. "Mübarək Yeni il" şeirində qırmızı hərflərlə verilmiş cümlənin mənasını necə izah edərsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

20. "Mübarək Yeni il" şeirində yaşıl hərflərlə verilmiş sözlərin sinonimlərini tapın, hər sözün hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

21. "Mübarək Yeni il" şeirində feillərin zamanını müəyyənləşdirin və həmin feilləri başqa zamanlarda da işlədin.

22. Şeirdəki hansı sözlərin vurğusunu dəyişsəniz, mənası da dəyişəcəkdir? Həmin sözləri tapıb, mənalarını izah etməyə çalışın.

23. Şeirdəki mürəkkəb sözləri tapıb dəftərinizə yazın, onların necə əmələ gəldiyini izah edin və hər birini bir cümlədə işlədib yazın.

24. Nasir hansı hekayənin qəhrəmanıdır və o hansı cəhətləri ilə yadınızda qalıb? Necə düşünürsünüz, zəmanəmizdə Nasir kimi insanlar çoxdurmu? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

25. Aşağıdakı sözlərdən biri feil olmaq şərti ilə eyniköklü sözlər düzəldib yazın və hər birini birləşmə içərisində işlədin.

yeni, qorx(maq), tərs, qəzəb, ov, pul, uşaq, hirs, zədə, tük, duz, düyün, bəzə(mək)

26. Sahibkar Hacı Zeynalabdin Tağıyevlə "Nil sularında" hekayəsindəki sahibkarı müqayisə edin. Tağıyev niyə hələ də yaddaşlarda yaşayır və rəhmətlə anılır?

27. "Yaxşı yoldaş" mətnindən götürülmüş aşağıdakı parçada mavi boşluqların yerinə uyğun gələn sözləri "Köməkçi"dən tapıb yerinə yazın və cavablarınızın düzgünlüyünü mətnlə yoxlayın.

Reyhan, müəllimin onu Laləyə tapşırdığını eşidəndə başını aşağı ______. Laləyə qələm vermədiyi gözünün qabağına ______. Yanaqları qıpqırmızı ______ və ürəyi şiddətlə ______ başladı. O özlüyündə belə fikirləşdi ki, Lalə indicə ayağa ______ bu məsələni müəllimə deyəcək və ona kömək etməkdən boyun ______.

Köməkçi: saldı, endirdi, dikdi, canlandı, gəldi, göründü, qızardı, oldu, pörtdü, döyünməyə, vurmağa, titrəməyə, qalxıb, durub, düşüb, qaçıracaqdır, əyəcəkdir

28. Aşağıdakı sözləri həm isimlərlə, həm də feillərlə əlaqələndirərək birləşmələr düzəldib yazın. Həmin sözlərin hansı birləşmələrdə sifət, hansılarda zərf vəzifəsində işləndiyini izah edin.

cəld, pulsuz, uzun, qanunsuz, düşüncəsiz, aşağı, xeyli, seyrək , doğru, başıaşağı

29. Aşağıdakı fikirləri oxuyun və onların nəyə aid olduğunu təyin edin.

1) Macarlar yeni il süfrəsinə qaz, **ördək**, **toyuq** bişirib qoymazlar. Guya yeni ildə quş əti yeyənin səadəti uçub gedə bilər.

2) Havanada hər adam axşam saatın zəngləri vurduqda on iki gilə üzüm yeməlidir. Bu o deməkdir ki, ilin on iki ayında həyat həmin adam üçün üzüm kimi şirin olacaq.

A) alqış B) sınama C) öyüd D) yeni il inancları

LAYİHƏ

Göy rəngdə verilmiş sözləri ismin müxtəlif halları üzrə dəyişib yazın və sözlərdəki son samitlərin yazılışında baş verən dəyişikliyin səbəbini izah edin.

30. Mayılov xanəndə xanıma hansı məzmunda teleqram vurmuşdu? Həmin teleqramın mətnini tərtib edin.

31. Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözlərin nə məqsədlə işləndiyini və nə bildirdiyini izah etməyə çalışın.

Bakıdakı opera teatrı üçün tikilən binanın tarıxı çox maraqlıdır. 2) Bir ildən sonra bizim şəhərə gəlin, münasib bina hazır olacaq. 3) O, kitab-dəftərini qoyduğu yerə sarı addımladı. 4) Haram pul kibrit kimi şeydir. 5) Evini alın təri ilə abad eləyən adamdır. 6) İlqar fikirli-fikirli evə tərəf gedirdi.

32. Tapmacanı oxuyun və cavabını tapın. Tapmacada neçə say işlənmişdir?

Babamın bir çuxası var on iki cibi,
Cibin hərküncündə otuz düymə,
Hər düymənin bir üzü ağ, bir üzü qara. (İl, ay, gün)

Tapmacadakı əlamət bildirən sözləri elə dəyişin ki, əlamət normadan həm az, həm də çox olsun. Düzəltdiyiniz sözləri birləşmə içərisində işlədin.

33.Aşağıdakı aforizmdəki fikri indiyə qədər keçilmiş hansı mətnlərə aid etmək olar?

**Mal-dövlət yaşamaq üçündür, yaşamaq mal-dövlət yığmaq üçün deyil.**

**Sədi Şirazi**

34. Aşağıdakılardan biri "münasib" sözünün sinonimi deyil.

A) uyğun B) əlverişli C) hesabdar D) yararlı E) layiq

35. "Əmək insanı ucaldır" və ya "Çalışqan əl nəyə dəysə, qızıl olar" mövzusunda yığcam inşa yazın.

36. Əməksevərlik, zəhmətdən qorxmamaq mövzusunda esse yazın və aşağıdakı atalar sözlərindən birini başlıq seçin.

**Cəfa çəkməyən səfa görməz!**
**Əməksiz yemək olmaz.**

## III. ÖZÜNÜZÜ YOXLAYIN!

1. Şeiri oxuyun, mavi rəngdə verilmiş feillərin zamanını və şəxsini müəyyənləşdirin.

Əlində sədəfli saz,
Budur, gəldi gözəl yaz.
Ucaldıb şən səsini,
Oxudu nəğməsini:
"Mən baharam, mən yazam,
Şux nəğməli bir sazam.
Məndə açar gül-çiçək,
Əlvan rəngli kəpənək
Qanad çalar sinəmdə,
Hər nə desən, var məndə!

Bağçaları gəzərəm*,
Ağacları bəzərəm*.
Açar lalə, bənövşə,
Yaşıl don geyər meşə.
Sular daşar, sel gələr,
Tamaşaya el gələr –
Hamı çıxar çəmənə,
Bahar deyərlər mənə.
Sağ gözüyəm mən ilin,
Fəsillər, bunu bilin!"

**Nigar Rəfibəyli**

2. Aşağıdakı adlardan hansını oxuduğunuz şeirə başlıq seçərdiniz? Fikrinizi əsaslandırın.

A) Mən baharam B) İlin sağ gözü C) Bahar deyərlər mənə D) Gözəl yaz

3. Şeirdə altından xətt çəkilmiş ifadəni aşağıdakılardan hansı ilə əvəz etmək olar?



LAYİHƏ

A) bəzəyər B) uçar C) qonar D) qaçar E) gizlənər

4. Şeirdə qırmızı rəngdə verilmiş misranın mənasını necə başa düşmək lazımdır?

A) sağ tərəfdə duran gözü B) çox istəklisi, əzizi C) görən gözü

5. Şeirdə bir əvəzlik altı dəfə işlənmişdir. Həmin əvəzliyi tapıb köçürün və ismin hansı hallarında işləndiyini qarşısında qeyd edin.

6. Şeirdə yaşıl rəngdə verilmiş sözlərdən eyniköklü sözlər düzəldib sualları ilə birlikdə yazın. Düzəltdiyiniz sözlərdən bir neçəsini birləşmə və cümlə içərisində işlədin.

7. Şeirdə üzərində ulduz işarəsi qoyulmuş feilləri həm təsdiq, həm də inkarda şəxslər üzrə dəyişib yazın. 2-ci və 3-cü şəxslərin inkar formalarında diqqətli olun!

Köməkçi: sən açmazsan, siz açmazsınız, o açmaz, onlar açmazlar

8. Birləşmələri tərcümə edib dəftərinizə yazın və cümlələrdə işlədin.

дрожащие под ударами пущек, под лозой, черная пень, темно-синие тонкие ветки, напоив землю досыта, угол двора, деревянные палочки, пригодные дощечки и проволока, когда сделали навес, следующей весной, в середине июня, оживщая лоза

9. Aşağıdakı cümlələrdə qırmızı rəngdə verilmiş sözlərlə bağlı düzgün cavab hansıdır?

1) Ikisi də dərsə səhər gedirdi. 2) O, evə zəng edib gec qayıdacağını Təranəyə xəbər verdi. 3) Təranə dərslərini hazırlayıb təzəcə ayağa durmuşdu. 4) Hafiz dinməzcə mətbəxdən çıxdı. 5) Təranə dərhal nimçəyə xörək töküb atasının qabağına qoydu.

A) isim B) sifət C) zərf D) feil

10. Mürəkkəb sözlərin yazılışında yol verilmiş səhvləri tapıb düzəldin və köçürün.

kontradmiral, oberleytenant, qeyriadi, qeyrisəmimi, ara bir, axşam tərəfi, dəmir dümür, yavaş yavaş, qızıl gül, dəvə-quşu, gedişgəliş, başdan başa, xoruz-quyruğu

11. “Balaca aşpaz ” hekayəsi necə başlayır, orada nədən bəhs olunur və necə qurtarır?

12. “Uşun qoca oğlu Səgrəyin boyu” hansı dastandandır?

A) “Koroğlu” B) “Qaçaq Nəbi”
C) “Kitabi- Dədə Qorqud” D) “Qaçaq Kərəm”

13. Cümlələri Azərbaycan dilinə yazılı tərcümə edin.

1) Кто из них впереди идущий в бою, ваш хан, герой взявший большой флаг? 2) Два брата встали, обнялись и поздоровались 3) Эйрек поцеловал шею младшего, а Сейрек руку старшего брата. 4) Сейрек послал гонца с хорошей вестью старику-отцу.

14. Mətni oxuyun. Altından xətt çəkilmiş sözlərin içərisindən əsas nitq hissələrinə aid olanları qruplaşdırıb müvafiq sütunlarda, köməkçi nitq hissələrinə aid etdiyinizi isə bir sütunda yazın.

## Danquşu

Yaz gecələrində göllərin, yaxud bataqlıqların üzərində tez-tez <u>bərk</u> çığırtı eşitmək olar. Bu, <u>dimdiyini</u> suya salmış <u>danquşunun</u> səsidir. Onu “su öküzü” <u>də</u> adlandırılar. Ola bilər ki, gündüz <u>sən</u> bu “öküz”ə baxmaq istəyəsən. <u>Lakin</u> ən təcrübəli təbiətçi, <u>yaxud</u> ovçu <u>da</u> quşun yanından keçərək onu görməyə bilər.

Quş gündüzləri qamışlıqda keçirir <u>və</u> <u>kiçicik</u> təhlükə hiss etdikdə özünü büruzə verməmək <u>üçün</u> astaca bütün bədəni boyu <u>yerə</u> sərilir. Başını <u>elə</u> qaldırır <u>ki</u>, dimdiyi tərpənən <u>kimi</u> qamışı <u>xatırladır</u>. Ona <u>lap</u> yaxından baxa bilərsən, <u>ancaq</u> quş olduğu ağlına da gəlməz. Bədəni boyu gedən uzun zolaqları <u>və</u> alabəzəkliyi <u>ona</u> qamışlıqda gizlənməkdə <u>kömək</u> <u>edir</u>.



LAYİHƏ

Təhlükə sovuşur, quş yenə əvvəlki görkəmini alır. Lakin bundan sonra da sıx qamışların arasında sakitcə gizlənməkdə davam edir.

Gecələr danquşu tamam başqalaşır. Yorulmaq bilmədən bataqlığı dolaşaraq dimdiyi ilə sudan qurbağa, balaca balıqlar tutur. Gündüz o, yenidən qamışlıqda bir neçə saat dalbadal hərəkətsiz dayanacaq.

**SÖZLÜK**

danquşu- выпь

büruzə vermək-проявлять, проявить

13. "Danquşu" mətnində yaşıl rəngdə verilmiş sözlərin sualını və hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

A) sifət--necə? B) zərf –nə vaxt?, necə? C) feil--nə edir? D) əvəzlik--niyə?

14. "Danquşu" mətnində qırmızı rəngdə verilmiş sözlərin quruluşunu və hansı nitq hissəsinə mənsub olduğunu müəyyənləşdirin. Sonra həmin sözləri kök və şəkilçiyə ayırıb yazın. Sualların köməyi ilə köklərin hansı nitq hissəsinə aid olduğunu təyin edin.

15. Mətndən əlamət bildirən bir neçə söz tapıb, aid olduğu sözlə birlikdə yazın. Birləşmələrdə hər iki tərəfdə duran sözlərin hansı nitq hissəsinə aid olduğunu və nə bildirdiyini izah edin.

16. Tay-tuşları arasında hələ heç kəsin kürəyini yerə vura bilmədiyi on iki yaşlı oğlan hansı hekayənin qəhrəmanıdır? Bu hekayə necə bir sonluqla bitir? Yadınıza salın və danışın.

17. "Papağı başa isti-soyuqdan ötrü qoymurlar" atalar sözü hansı mətnin məzmunu ilə səsləşir?

A) "Peşmançılıq" B) "Uşun qoca oğlu Səgrək"
C) "Atın belindəki Kərəm idi..." D) "Güclü oğlan"

18. Əjdər əminin məsləhətinə qulaq asan Rizvan nəticədə nəyi öyrəndi?

A) Paxlalı bitkiləri qışda toplamaq lazımdır.
B) Paxlalı bitkiləri elə yığmaq lazımdır ki, kökləri torpaqda qalsın.
C) Paxlalı bitkiləri yetişəndə toplamaq lazımdır.
D) Əjdər əmi Rizvana heç nəyi öyrədə bilmədi.

19. Qarabağ müharibəsinin ürək ağrıdan səhnələrindən biri ilə hansı mətndə tanış olursunuz?

A) "Pələng ovu" B) "Qəhrəmandır Azərbaycan!"
C) "Balaca girovlar" D) "Peşmançılıq"

20. "Görəsən, quş dərdimə
Şərik çıxan olarmı?..." – deyən quş hansıdır? Onu dərdə salan nədir?

21. Aşağıdakı mətni necə adlandırardınız? Fikrinizi əsaslandırın.

A) Ağıllı məsləhət B) İnanclarımız C) Bildiklərimiz

***

"Bir azdan yağış yağacaq", – deyə müdrik qoca lap aşağıdan uçan qaranquşları göstərir. Yarım saat keçir. Gurultu eşidilir. Ilk yağış damlaları yerə düşür.

– Ay baba, sən elə bil barometrə baxmısan!

– Düz deyirsən. Ancaq mənim barometrim canlıdır. Qaranquşlar həmişə yağışdan qa-

LAYİHƏ

baq yerə qısılırlar.

– Bəs bu nə ilə bağlıdır?

– Yağışdan qabaq hava rütubətli olur, cücülər islanır, qanadları ağırlaşır. Artıq onlar yüksəkdə uça bilmirlər. Qaranquşlar da bu cücüləri ovladıqları üçün yerə yaxınlaşırlar.

Xalqın çoxəsrlik təcrübəsinə əsaslanan çoxlu belə əlamətlər məlumdur.

22. Mətndə işlənmiş feillər hansı zamandadır?

A) indiki və gələcək  B) keçmiş  C) gələcək  D) ancaq indiki

23. Mətndə yaşıl rəngdə verilmiş sözlər hansı nitq hissəsinə aiddir? Həmin sözlərin əvəzinə hansı sözləri işlətmək mümkündür?

A) isim  B) sifət  C) feil  D) zərf

24. Mətndə altından xətt çəkilmiş sözlərin əsas nitq hissələrinə aid olmadığını əsaslandırmağa çalışın. Bunu necə müəyyən etmək olar? Mülahizənizi söyləyin.

25. Mətndə qırmızı rəngdə verilmiş sözlərin və birləşmələrin kontekstə uyğun mənalarını izah edin.

26. "Kitabi-Dədə Qorqud" dastanından oxuduğunuz boy üzrə sualları cavablandırın.

1) "Kitabi-Dədə Qorqud" dastanından oxuduğunuz boy necə adlanır və o, dastanda neçənci boydur?

2) Səgrəyin cəsur, qorxmaz bir igid olduğunu nə ilə əsaslandıra bilərsiniz?

3) Onu yolundan saxlaya bilməyən ata-anasına Səgrək necə cavab verir?

4) Əgrək yatan gəncin oğuz elindən gəldiyini nədən anlayır?

5) Uşun Qocaya nə üçün muştuluqçu göndərirlər, dastan necə sona çatır?

27. Ömürdən pay verərlər,

Vətəndən pay olmayır ..." misralarının mənasını necə başa düşmək lazımdır? Müzakirə edin və fikirlərinizi əsaslandırın.

28. Aşağıdakı şeiri oxuyun və ona ad seçin.

Cığırından, yollarından keçmədim,
Bulağından əyilmədim, içmədim.
Anam köçən yaylağına köçmədim,
Dağlar məndən inciməsə yaxşıdı.

Yorğun-yorğun yoxuşunu çıxmadım,
Heyrət ilə zirvəsindən baxmadım.
Çaylarına qoşulmadım, axmadım,
Dağlar məndən inciməsə yaxşıdı.

Güllərini dərəmmədim dağların,
Xoş çağını görəmmədim dağların.
Görüşünə gedəmmədim dağların,
Dağlar məndən inciməsə yaxşıdı.

**Gəray Göyyurd**

29. Şeirdə işlənmiş feillər təsdiqdədir, yoxsa inkarda ? Fikrinizi əsaslandırın və düzgün cavabı göstərin.

A) hamısı təsdiqdədir  B) həm təsdiqdə, həm də inkardadır

C) hamısı inkardadır  D) çoxu inkardadır, bəziləri isə təsdiqdədir

30. Şeirdə qırmızı rəngdə verilmiş sözlərin və birləşmələrin mənasını izah edin.

31. Birləşmələri Azərbaycan dilinə tərcümə edin və bir neçəsini cümlədə işlədin.

сильный крик, опытный охотник, малейшая опасность, длинные полосы, прежний вид, тихонько спрятаться, среди камышей, над болотами

32. Sözlərin yazılışında yol verilmiş səhvləri tapıb düzəldin və köçürün.

LAYİHƏ

təccüblə baxmaq, şayirin hədiyəsi, dayirə, sinifimizin uşaxları, şəkilin ölçüsü, qapının ağızı, qış fəsili, gəminin burunu, oğulun qazancı, çobanın ağılı, çiçəkin ətiri

33. Uyğun sözləri artırmaqla cümlələri tamamlayın.

1) Səhəngi doldurub -- döndü. 2) Qızcığaz -- məktəbli paltarını geyinmək istədi, ancaq qıymadı. 3) Xoşbəxtlikdən anası bu gün işdən -- gəldi. Qıza elə gəlirdi ki, anası onu -- danlayacaq. 4) Axşam stolun başından asdığı paltarını -- əyninə keçirib eyvana çıxdı. 5) Çətin də olsa, qızcığaz anası ilə -- ayaqlaşırdı. 6) Qızcığaz anasının əlindən -- tutub buraxmaq istəmirdi. Bir əlində isə evlərinin açarlarını tutmuşdu və -- anasına deyirdi: “Ana, açarları itirməmişəm”. Ana isə -- deyirdi: “Əhsən, mənim balam!”

Köməkçi: geri, dala, qabağa, yenə, gec, vaxtında, tez, bərk, çox, təkrar-təkrar, tələsik, güclə, çətinliklə, birtəhər, zorla, bərk-bərk, tez-tez, nəvazişlə, hörmətlə

34. Aşağıdakı cümlələri oxuyun . Qara şriftlə fərqləndirilmiş sözlərin yazılışında yol verilmiş səhvləri tapıb düzəldin və köçürün.

**Fəsllər** bir-biri ilə mübahisə edirdi. Yaz özünü **fəsllərin** gözü sayır və deyirdi: “**Fəsllər**, bunu bilin ki, mən ilin sağ gözüyəm!” Yay isə buna dözmədi və dedi: “İlin sağ əli, **fəsllərin** gözəli mənəm!” Payız da, qış da özünü **fəsllərin** gözəli, ilin sağ əli hesab edirdi. Günəş bunların davasını eşidib gülümsədi və dedi: “Hər **fəsilin** öz gözəlliyi var. Bütün **fəsllər** öz yerində gözəldir”.

35. Aşağıdakı aforizmdəki fikri hansı mətnə aid etmək olar?

**Elə yaşamalısan ki, öləndən sonra da ölməyəsən – həyatın məqsədi məhz budur.**

**Cəlil Məmmədquluzadə**

36. Altından xətt çəkilmiş mürəkkəb sözlərin yazılışında yol verilmiş səhvləri tapıb düzəldin və köçürün.

İnnab ağacı 200-300 il yaşayır. Altı-səkkiz metr hündürlüyü olan bu ağacın budaqları tikanlı, gövdəsi əyri üyrüdür. Lələk şəkilli yarpaqları hamar, parlaq və qayış kimidir. Ulduzşəkilli xırda, qızılısarı çiçəkləri, qırmızı qəhvəyi rəngli parlaq şirin meyvələri olur. Üçdördillik ağacları bar verməyə başlayır.

## IV. ÖZÜNÜZÜ YOXLAYIN !

1. Mir Möhsün Nəvvabın aşağıdakı nəsihətini oxuyun. Bu nəsihət oxuduğunuz hansı mətnin məzmunu ilə səsləşir?

**Halal zəhmətdə tənbəllik eləmə, bu sənin zərərinədir.**

A) Səbrin olmasa, heç nə öyrənə bilməzsən. B) Peşmançılıq.
C) Qarışqanın sərgüzəşti. D) Ən qiymətli hədiyyə.

2. Dərslikdə oxuduğumuz hansı hekayədə uşaqların aşağıda qeyd olunan hüquqlarının pozulması faktı ilə qarşılaşdınız?

1989-cu ildə BMT tərəfindən “Uşaq Hüquqları Haqqında Konvensiya ” qəbul olunmuşdur. Bu Konvensiyanın müddəalarına (положение) əsasən uşaqlar tərbiyə, təhsil almaq, təhlükəsiz həyat şəraiti ilə təmin olunmaq, kobud münasibətə etiraz etmək, öz fikirlərini söyləmək və öz baxışlarını bildirmək kimi hüquqlara malikdirlər.

A) Pul tapmışam B) Balaca girovlar
C) Güclü oğlan D) Mən də təyyarəçi olacağam

LAYİHƏ

3. Sözlərin düzgün yazılış variantını müəyyənləşdirin və köçürün.

aş(k, g) ar, lo(q, ğ)man, yadi(y, g)ar, ifti(h, x)arla, bıç(q, k)ı, sa(h, x)ibkar, (e, ö)vlad , (k, g)übrə, qırq(o,ov)ul, n(ü, u)bar, xeyri(y, yy)ə, sə(kk,kg)iz, hədi(y, yy)ə, təmt(ə, a)raq, mə(h, x)arət, sər(g, q)üzəşt, cı(q, ğ)ır, q(e, i)yrət, bəd(x,h)ah, qoça(q,x)

4. Hekayəni rollar üzrə oxuyun və səhnələşdirin.

## Hıçqırıq

Gülbəstə xala oğlu Mehdini səslədi:

- Ay oğul, get bibingildən süd* gətir.

Mehdi evə girib bir parça çörək* kəsdi. Yeyə-yeyə yola düşdü. Kənar yola çıxmayıb arxadan bibisigilin bağına adladı. **İrigövdəli** ağacın altına düşmüş qırmızı almalar uzaqdan* onun diqqətini* cəlb etdi. Çatan kimi iki alma götürüb hərəsini bir cibinə saldı. Elə bil hıçqırıq* onun əyilməsini gözləyirdi. Qalxan kimi hıçqırmağa başladı: hıq-hıq. Elə hıçqıra-hıçqıra da bibisinin yanına gəldi. Süd* aldı. Getmək* istəyirdi ki, gözləmədiyi bir hadisə baş verdi. Bibisi üzünü Mehdiyə tutub dedi:

– Bala, niyə oğurluq* etmisən, ayıb deyilmi?

Mehdi tutuldu. Ordundakı çörəyi güclə uddu.

"Yox, mən oğurlamamışam*, yerə düşmüşdü, götürdüm, onsuz da çürüyəcəkdi", – deyib utana-utana cibindəki almaları çıxartdı.

Bibi gülümsündü. Onun sözü necə də yerinə düşmüşdü. Mehdinin az qala ağlayacağını görüb əlavə etdi:

– Eybi yoxdur, götür, oğlum, mən bunu dedim ki, sən hıçqırmayasan. Axı belə bir qayda var: kim ki, hıçqırdı, onu nə iləsə təəccübləndirmək lazımdır. Təəccüb* hıçqırığı unutdurur. Bir də yadında saxla ki, adam yol gedə-gedə çörək yeməz. Çörək nəfəs borusuna düşə bilər. Elə hıcqırıq da bundan* yaranır.

Mehdi, doğrudan da, daha hıçqırmırdı.

**Əjdər Ağayev**

**SÖZLÜK**

hıçqırıq - икание, икота

5. Mətndəki əsas fikri müəyyənləşdirin və mətnə aid plan tərtib edin.

6. Aşağıdakı suallar mətnin məzmununu əks etdirirmi? Fikrinizi mətndəki faktlarla əsaslandırmağa çalışın.

1) Mehdi nə üçün bibisigilə getmək istəmədi?
2) Mehdinin ağacdan yıxılmasını bibisindən başqa kim görmüşdü?
3) Bibisi Mehdinin almaları oğurladığını necə başa düşdü?
4) Mehdi nə üçün götürdüyü almaları bibisinə vermək istəmədi?
5) Nə üçün Mehdinin hıçqırığı heç kəsmədi?

7. Mətndən keçmiş zamanın hər iki növündə işlənmiş 10 feil seçib yazın. 3-cü abzasdakı keçmiş zaman şəkilçilərini indiki zaman şəkilçiləri ilə əvəz edərək mətni bir daha oxuyun. Mətnin məzmununda hər hansı bir dəyişiklik müşahidə etdinizmi? Mülahizələrinizi söyləyin.

8. Mətndə mavi rəngdə verilmiş söz haqqında deyilənlərdən biri səhvdir. Fikrinizi əsaslandırın.

LAYİHƏ

A) Nitq hissəsinə görə sifətdir.
B) Necə? sualından əlavə, hansı? sualına da cavab verir.
C) Cümlədə ismin əvvəlində işlənmişdir.
D) Düzəltmə sifətdir.

9. Mətndə altından xətt çəkilmiş feillərlə bağlı deyilənlərdən biri doğru deyil.
A) Hər üç feil inkarda, həm də müxtəlif şəxslərdə işlənmişdir.
B) Feillərin hər üçü gələcək zamanda işlənmişdir.
C) Feillərdən biri 1-ci, biri 2-ci, biri isə 3-cü şəxsdə işlənmişdir.
D) Feillərin hər üçü quruluşca sadədir.

10. Mətndə qırmızı rəngdə verilmiş feillərin kontekstə uyğun sinonimlərini tapıb səsləndirin və bir neçəsini cümlələrdə işlədin.

11. Üzərində ulduz işarəsi qoyulmuş sözləri mətndən seçib dəftərinizə köçürün və düzgün tələffüz şəklini qarşılarında qeyd edin. Həmin sözlərin düzgün tələffüzü ilə bağlı öyrəndiyiniz qaydaları yadınıza salın və söyləyin.

12. Mətnin 3-cü abzasında işlənmiş feilləri seçib inkarda işlədin və müxtəlif şəxslərdə dəftərinizə yazın. İnkar feillərin necə düzəldilməsini izah edin.

13. Mətndə yaşıl rəngdə verilmiş sözlərin hansı nitq hissəsi olduğunu müəyyənləşdirib ayrı-ayrı sütunlarda yazın.

14. Təsəvvür edin ki, bu hadisə Mehdinin bibisigilin bağında deyil, yad bir adamın bağında baş verib. Bağın sahibi Mehdi oxuduğu məktəbin direktoruna bu barədə şikayət edib. Direktor Mehdini yanına çağırtdırır və ondan izahat tələb edir. Mehdinin əvəzinə bu dəfə "İzahat"ı siz yazın. Yazarkən qaydalara əməl etməyi unutmayın.

15. Aşağıdakı sözlər cərgəsini onlarla eyni kökdən olan sözlər hesabına zənginləşdirin. Özünüzü sınayın: hər cərgəyə neçə söz artıra bilərsiniz?

təəccüb – təəccübləndir(mək) – ?; hıçqır(maq) – hıçqırıq – ? ; unut(maq) – unutdur(maq) – ?; güclə – güclü – ? ; maraq – maraqlan(maq) – ?; çiçək – çiçəklə(mək) – ?; yuxu – yuxusuz – ?; uca – ucalıq – ?; hazır – hazırla(maq) – ?; ağır – ağırlaş(maq) – ?

16. Sözlərin düzgün yazılış variantını müəyyənləşdirib köçürün və qarşılarında düzgün tələffüz variantını qeyd edin.

odun(c, ç)aq, m(u, ü)sabiqə, m(ü, u)kafat, təşə(kk, kg)ür etmək, tı(qq kq)ıltı, əlbə(tt,td)ə, m(üa, a)sir, cam(aa, a)t, ibtid(ai,ayi), ş(ü, u)ar, fə(si,s)llər, si(ni, n)fimiz, təb(ii, yi), bəd(yi,ii), məhə(ll, l)ə, ə(vv, v)əlcə, a(mm, m)a, t(əə,ə)ccüblə, xoşbə(h,x)t

17. Aşağıdakı məlumatı oxuyun və BİBÖ cədvəlini doldurun.

## Azadlıq abidəsi

Bu gün dünyada ABŞ-ın rəmzi kimi tanınan Azadlıq abidəsi Fransa – ABŞ dostluğunun ən bariz nümunəsidir. Bu abidə Nyu -York yaxınlığındakı Havay adasında ucalır. Pyedestalla birlikdə 91,5 metr hündürlüyü olan abidənin gövdəsi möhkəm dəmir konstruksiya üzərində **düzəldilmişdir**. Heykəlin ağırlığı (pyedestalsız) 204 tondur.

Abidənin daxilindəki metal konstruksiyanı Eyfel qülləsinin layihəsini hazırlamış fransalı mütəxəssis Eyfel hazırlamışdır. Heykəlin əsas müəlliflik hüququ isə fransalı memar Frederika Oqyust Bartolda məxsusdur.

LAYİHƏ

Fransızlar bu abidəni amerikalılara hədiyyə kimi hazırlamışlar. Onu bütov halda "Yeni dünya"ya apara bilmədikdə isə hissələrə bölərək gəmi ilə Nyu-Yorka daşımışlar. Nyu-York yaxınlığındakı adada **quraşdırıldıqdan** sonra 1886-cı ildə abidənin təntənəli açılış mərasimi keçirilmişdir.

**SÖZLÜK**

bariz – ясный, наглядный

mərasim – церемония

18. Mətndə işlənmiş sayları seçib sözlə yazın. Onların əşyanın miqdarını, yoxsa sırasını bildirdiyini izah edin.

19. Mətndə qırmızı hərflərlə verilmiş sözlərin mətnə uyğun sinonimlərini tapıb yazın və cümlələri hər iki variantla səsləndirin.

20. Mətndə yaşıl rəngdə verilmiş sözlər üçün ümumi cəhət nədən ibarətdir? Doğru olanları seçib göstərin.

A) Sözlərin hamısı adlıq haldadır və nə? sualına cavab verir.
B) Sözlərdən ikisi yazıldığı kimi, ikisi isə yazılışından fərqli tələffüz olunur.
C) Sözlərin hamısı isimdir və quruluşca sadədir.
D) Hamısı eynicinsli qoşasamitli sözdür, biri isə həm də qoşasaitlidir.

21. Mətndə göy rəngdə verilmiş sözlər arasında hər hansı bir əlaqə görürsünüzmü? Bu sözlər biri-birinin əvəzində işlədilə bilərmi? Fikrinizi söyləyin.

22. Aşağıdakı cümlələri oxuyarkən bu il öyrəndiyiniz hansı mətni xatırladınız? Haqqında danışılan mətndə söhbət kimdən gedir? Həmin mətndən öyrəndiklərinizi yadınıza salın və danışın.

Azərbaycan təsviri sənətinin tarixi çox qədimdir. Qədim rəssamlar insanları və ovladıqları heyvanları yüksək bədii ustalıqla təsvir etmişlər. Rəsssamlıq Azərbaycan incəsənətinin ən inkişaf etmiş sahələrindəndir.

23. Şərqdə ilk opera yazan qadın bəstəkar kimdir və onun yazdığı opera necə adlanır? Bəstəkar haqqında bildiklərinizi danışın.

A) Firəngiz Əlizadə -- "Boş beşik"　　B) Ağabacı Rzayeva -- "Vətən"
C) Şəfiqə Axundova-- "Gəlin qayası"　　C) Şövkət Məmmədova -- "Layla"

24. Aşağıdakı fikirlər hansı hekayənin qəhrəmanı haqqında deyilmişdir? Həmin qəhrəmanın müsbət keyfiyyətləri nədən ibarətdir? Fikirlərinizi faktlarla əsaslandırın.

**"Böyük oğlan olsun! Boya- başa çatsın! Necə də gözəl düzəldib!.. Əlləri lap qızıldır..."**

25. "Əlləri lap qızıldır" ifadəsi haqqında deyilənlərdən biri səhvdir.

A) Mahir usta və ya sənətkara işarə məqsədilə işlədilir.
B) Əlindən hər iş gələn, bacarıqlı, qabiliyyətli adam haqqında işlədilir.
C) Hər gün qızılla işləyən adamlar haqqında işlədilir.
D) Bu ifadədə "qızıl" sözü həqiqi mənada işlənmir.

26. Cümlələrin Azərbaycan dilinə tərcüməsində yol verilmiş səhvləri tapıb düzəldin.

1) Конкурс проводился в нашем квартале. – Müsabiqə qonşu məhəllədə keçirilirdi. 2) Фуад и Лала купили красивый букет цветов. – Fuad və Lalə əkdikləri güllərdən gözəl

LAYİHƏ

bir dəstə düzəltdilər. 3) Завернув цветы в красивые бумаги дети отнесли их на конкурс. – Onu gözəl gül kağızlarına büküb müsabiqəyə təqdim etmək üçün apardılar. 4) Кажется, их букет был намного меньше других. – Amma bu gül dəstəsi başqalarının gətirdikləri gül dəstələrindən kiçik idi.5) Тихонько положив цветы на стол, они вернулись в свой квартал. – Onlar gülü dinməzcə qoyub, həyətlərinə qayıtdılar.

27. İl ərzində öyrəndiyiniz hansı hekayə və şeirlər sizi tənbəllik etməməyə, əməksevər olmağa həvəsləndirdi?

A) "H.Z.Tağıyev necə milyonçu oldu", "Cırcırama və qarışqa"
B) "Daşyığan əmi", "Balaca aşpaz", "Xilaskar"
C) "Faydalı məsləhət", "Pələng ovu", "Balaca girovlar"
D) "Azadlıq", "Küçə fənərinin nağılı", "Qarışqanın sərgüzəşti"

28. Qarşıdan Milli Ordumuzun yaranma gününün qeyd edildiyi tarix yaxınlaşır. Milli Orduda xidmət edən hər hansı bir əsgərimizə bu sözlərdən istifadə etməklə təbrik teleqramı hazırlayın.

şərəfli iş, ləyaqətlə qorumaq, Vətənin keşiyində, ayıq-sayıq olmaq, hərbi xidmət, torpaqlarımızın bütövlüyü, qorxmaz, layiqli övladlar

29. Öz yanında daim polietilen torba gəzdirən yazıçını uşaqlar necə çağırırdılar?

A) usta əmi B) daşyığan əmi C) təmizkar əmi D) yazıçı əmi

30. Necə düşünürsünüz, aşağıda deyilənlərdən hansı yol gedən zaman ayağa ilişən, yaxud da hasarların kənarına atılan daşları özü ilə gəzdirdiyi polietilen torbaya yığan yazıçının məqsədi ola bilməz?

A) daşları yığmaqla insanların diqqətini cəlb etmək və tanınmaq
B) təbiətdə lazımsız bir şey olmadığına insanları inandırmaq
C) ekologiyaya öz töhfəsini vermək və onun qayğısına qalmaq
D) lazımsız daşlardan, tullantılardan bağında gözəlliklər yaratmaq

31. Aşağıdakı cümlələr hansı mətndəndir və "atasının yaxın köməkçisi" kimdir?

**Torpağı belləyir, sahədəki alaq otlarını vurur, bitkiləri suvarırdı. Bir sözlə, hər bir işdə atasının yaxın köməkçisi idi.**

A) "Ən qiymətli hədiyyə" – Fuad B) "Çəkil, ilan gəlir" -- Kamal
C) "Faydalı məsləhət"-- Rizvan D) "Azadlıq"-- Həsən

32. Atalar deyib ki, "Evində nökər ol ki, kənarda ağa ola biləsən". Necə düşünürsünüz, uşaq yaşlarından təsərrüfat işlərində valideynlərinə kömək etmək uşaqların gələcək müstəqil həyatlarında müsbət rol oynaya bilərmi? Debat təşkil edin və fikirlərinizi öyrəndiyiniz hekayələrə istinad etməklə əsaslandırmağa çalışın.

33. Dərslikdəki hansı şeiri oxuduqdan sonra boşluqların yerində öz təəssüratlarınızı yaza bilərsiniz?

Mən öyrəndim ki, ____________________________________________

____________________________________ şeir mənim çox xoşuma gəldi. Çünki

______________________________________________________________

Mən böyüyəndə Milli Qəhrəman ______________________________ kimi Vətənə qulluq edəcəyəm.

Mən Vətəminiz Azərbaycan haqqında ___________________________ bilmək istəyirəm.

LAYİHƏ

A) Ölkəmin çiçəkləri B) Gözəl Vətən
C)Təzə il gəlir D) Gəlin elə edək ki ...

34. İl ərzində öyrəndiyiniz hansı mətnlərin əsas ideyasını əmək, zəhmət mövzusu təşkil edir?

A) “Ən qiymətli hədiyyə” , “Qarışqanın sərgüzəşti” , “Balaca girovlar”
B) “Deyəsən tapmışıq”, “Balaca aşpaz”, “Çəkil, ilan gəlir”
C) “Qarışqanın sərgüzəşti”, “Faydalı məsləhət”, “Qara şanı”
D) “Azadlıq” , “Qarğa dili”, “H.Z.Tağıyev necə milyonçu oldu”

35. İl ərzində öyrəndiyiniz hansı hekayə və şeirlər sizdə qəhrəmanlıq hissləri oyadır?

A) “Əmir və loğman”, “Azadlıq”, “Qəhrəmandır Azərbaycan”
B) “Uşun Qoca oğlu Səgrəyin boyu”, “Milli ordumuz”, “Vətən əbədi qoruqdur”
C) “Balaca girovlar”, “Atın belindəki Kərəm idi...”, “Ölkəmin çiçəkləri”
D) “Nil sularında”, “Qırqovul”, “Ən qiymətli hədiyyə”, “Azadlıq”

36. İl ərzində öyrəndiyiniz hansı hekayə və şeirlərin əsas ideyasını vətənə sevgi,vətənpərvərlik təşkil edir? Düzgün cavabı göstərin və cavabınızı əsaslandırın.

A) “Qəhrəmandır Azərbaycan”, ” Ölkəmin çiçəkləri”, “Vətən əbədi qoruqdur”
B) “Deyəsən tapmışıq”, “Küçə fənərinin nağılı”, “Yaxşı yoldaş”
C) “Ucalmışıq”, “Gözəl vətən”, “Pul tapmışam”, “Aqilin hədiyyəsi”
D) “Milli ordumuz” , “Mən də təyyarəçi olacağam”, “Daşyığan əmi”

37. Azərbaycan Respublikası Silahlı Qüvvələr günü hansı tarixdə qeyd edilməlidir? Aşağıdakı məlumatı oxuyun və fikrinizi əsaslandırın.

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə oktyabrın 9-u Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edildi. 22 may 1998-ci il tarixli prezident fərmanı ilə həmin fərman qüvvədən düşürülərək 26 iyun tarixi Silahlı Qüvvələr günü elan edilmişdir.

A) 26 iyun B) 9 oktyabr C) 12 noyabr D) 28 may

38. Mətni Azərbaycan dilinə tərcümə edin.

К празднику мы часто дарим цветы маме, бабушке, учительнице. Чудесные розы можно вырастить самому. Осенью наш класс обрезал розы в теплицах. Черенки роз ребята собрали и посадили в горшочки. Поздней весной они пересадят свои саженцы в цветник.

**SÖZLÜK**

теплица – istixana
черенки – çubuq

39. Bildiyiniz gül adlarını sadalayın, onların quruluşca növünü müəyyənləşdirin və bir neçəsini cümlələrdə işlədərək yazın.

LAYİHƏ

## Fənlərarası inteqrasiya

Fənlərarası inteqrasiya zamanı ayrı-ayrı fənlər üzrə müraciət edilmiş məzmun standartları:

## Azərbaycan tarixi fənni üzrə

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müəyyənləşdirir.
1.1.2. Mühüm hadisə, proses və təzahürləri zaman oxunda təsvir edir.
1.2.2. İllüstrasiya və yaxud muzey eksponatları əsasında sadə tədqiqatlar aparır.
1.3.1. İnsanların birgə yaşayışının müxtəlif formalarını fərqləndirir.
2.1.1. Qədim insanların həyat tərzini və məşğuliyyətlərini Azərbaycan ərazisinin təbii-coğrafi şəraiti ilə əlaqələndirir.
2.1.2. Xəritələrdə Azərbaycan ərazisində ilk insan məskənlərini, dövlət qurumları və qədim dövlətlərin yerini müəyyənləşdirir.
3.1.1. Azərbaycanda dövlət qurumları və qədim dövlətlərin yaranmasını, idarə olunmasını, sosial-iqtisadi münasibətləri təsvir edir.
4.1.1. Dövlətlərin yaranmasında, inkişafında tarixi şəxsiyyətlərin (İranzu, Tomiris, Atropat, Oroys və b.) rolunu dəyərləndirir.
4.1.2. Tarixi şəxsiyyətlər haqqında kiçik hekayə qurur.
5.1.1. Sivilizasiyayaqədərki və sivilizasiya dövrünün mədəniyyətlərini izah edir.
5.1.2. Azərbaycan mədəniyyətinin müxtəlif xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələrini izah edir.

## Rus dili fənni üzrə

1.1.2. Обобщает выслушанную информацию в краткой форме.
1.2.1. Определяет, в какой форме представлять информацию.
1.2.3. Правильно использует ритм и интонацию в своей речи.
2.1.2. Различает прямое и переносное значение слов по контексту.
2.2.1. Подчеркивает важные моменты, с целью выразить основную мысль текста.
2.2.2. Разделяет текст на содержательные части.
2.2.3. Выражает своё отношение к суждениям и мыслям; высказанным в тексте.
3.1.2. Обогащает текст дополнительной информацией по заданной теме.
3.1.3. Связывает части и абзацы текста.
4.1.2. Объясняет грамматическое значение слова согласно контексту.
4.1.4. Следует правилам правописания самостоятельных частей речи.

## Xarici dil üzrə

2.1.1. Öyrəndiyi yeni söz və ifadələrdən mövzuya uyğun istifadə edir.
2.1.2. Müxtəlif mövzulu dialoqlarda iştirak edir.
3.1.2. Mətndəki sözləri düzgün vurğu ilə oxuyur.
3.1.4. Mətnin məzmununa uyğun suallar verir.

LAYİHƏ

## Coğrafiya fənni üzrə

2.1.3. Yerin hava qatını şərh edir.
3.1.1. Dünya xalqlarının fərqli xüsusiyyətlərini təsvir edir.
3.1.2. Kontur xəritədə ilk yaşayış məntəqələrini qeyd edir.
3.2.1. Ölkələri müxtəlif əlamətlərinə görə müqayisə edir.

## Biologiya fənni üzrə

2.1.2. Maddələr mübadiləsinin pozulma hallarını izah edir.
3.1.1. Canlıların təsnifat sistemində insanın yerini müəyyənləşdirir.
3.2.1. Bitki və heyvanların insan sağlamlığında rolunu izah edir.
4.1.1. Canlıların ətraf mühitlə və bir-birilə əlaqəsini izah edir.
4.2.1. Canlıların qorunması ilə bağlı topladığı məlumatları təqdim edir.
4.2.2. Bitki və heyvanlara qulluq qaydalarına əməl edir.

## Musiqi fənni üzrə

1.1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndələri (Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Fikrət Əmirov, Vasif Adıgözəlov, Tofiq Quliyev, Soltan Hacıbəyov, İohan Sebastiyan Bax, Frans Şubert, Sergey Raxmaninov, Rimski Korsakov) və onların əsərlərləri haqqında biliklərini izah edir.

2.2.1. Musiqi əsərlərindəki emosional obrazların yaranmasında melodiya, ritm və tempin rolunu şəhr edir.

3.2.1. Mahnını qrup və kollektiv tərkibində ikisəsli (unison) oxuyur.

## Təsviri incəsənət fənni üzrə

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Əcəmi Əbubəkir oğlu Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan) və onların əsərləri haqqında məlumatları şərh edir.

2.1.1. Həyati görüntüləri natürmort, mənzərə, portret janrlarında real və abstrakt tərzdə təsvir edir.

## Texnologiya fənni üzrə

1.3.3. Qrup tərkibində müxtəlif məmulatlar hazırlayarkən birgə fəaliyyət bacarıqları nümayiş etdirir.

4.2.1. Müxtəlif formalı detalları olan məmulatların qrafik təsvirini, çertyojunu, texnoloji xəritəsini çəkir və oxuyur.

LAYİHƏ

# QİYMƏTLƏNDİRMƏ CƏDVƏLLƏRİNDƏN NÜMUNƏLƏR

## MƏZMUN XƏTLƏRİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

**Şagirdin adı, soyadı** ____________________________________

**Tarix** ____________________________________

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| **Dinləyib-anlama** | | | |
| Dinlədiyi fikri anladığını nümayiş etdirir; | | | |
| Dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar verir; | | | |
| Dinlədiyi mətndəki əsas fakt və hadisələri seçir. | | | |
| **Danışma** | | | |
| Şifahi nitq bacarıqları nümayiş etdirir; | | | |
| Nitq prosesində sözləri düzgün vurğu ilə tələffüz edir; | | | |
| Nitqində ritm və tempdən istifadə edir; | | | |
| Fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır; | | | |
| Fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırır. | | | |
| **Oxu** | | | |
| Mətni mənimsədiyini nümayiş etdirir; | | | |
| Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir; | | | |
| Mətndəki sözləri düzgün vurğu ilə oxuyur; | | | |
| Mətnin tərkib hissələrini müəyyənləşdirir. | | | |
| **Yazı** | | | |
| Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir; | | | |
| Mövzuya uyğun yazı forması (inşa, esse, hekayə) seçir; | | | |
| Mətnin hissələri arasında əlaqələri müəyyənləşdirir; | | | |
| Əsas nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir; | | | |
| Müxtəlif əməli yazılar (teleqram, izahat) yazır. | | | |

LAYİHƏ

**Müəllim şagirdlə birlikdə qiymətləndirməni həyata keçirir.**

***Cədvəl 1. Qrupları qiymətləndirmək üçün meyarlar:***

| Qrupların №-si | Əməkdaşlıq | Dinləmə | İntizam | Əlavələr | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Dərsin əvvəlindən sonunadək qrupun işindən asılı olaraq hər meyarın altında “+” və ya “-” yazılır. Sonuncu sütunda “+” və ya “-”lar hesablanır.

***Cədvəl 2. Müəllim meyarlar üzrə qrupların fəaliyyətini qiymətləndirir.***

| Meyarlar<br>Qruplar | Müzakirədə iştirak edir | Tapşırıqları yerinə yetirir | Öz fikirlərini aydın ifadə edir | Yoldaşlarını dinləyir və suallar verir | Nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Dərsin əvvəlindən sonunadək müəllim təyin edilmiş ballar üzrə qrupun fəaliyyətini qiymətləndirir.

***Cədvəl 3. Şagirdin özünüqiymətləndirməsi***

| Sıra №-si | Adı, soyadı, atasının adı | Meyarlar | | | Nəticə |
|---|---|---|---|---|---|
| | | Müzakirədə iştirakı | Bir-birini dinləməsi | Mühüm fikirlərin irəli sürülməsi | |
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Cədvəldə hər şagird həm özünə, həm də yoldaşına 1 baldan 10 bala qədər qiymət yazır.

LAYİHƏ

*Cədvəl 4. Müəllim qrupların fəaliyyətini onların dərsdə iştirak etmə səviyyəsinə görə qiymətləndirir.*

| Meyarlar | Fikrini sərbəst ifadə edir | | | | Nəticə çıxarır | | | | Mühakimə yürüdür | | | | Əməkdaşlıq edir | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Səviyyə Qrup №-si | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV |
| 1. | | | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | | | |
| 4. | | | | | | | | | | | | | | | | |

Müəllim qiymətləndirməni 1-10 bal əsasında aparır.

*Cədvəl 5. Şagirdin özünüqiymətləndirmə cədvəlləri:*

| Meyarlar Şagird | Təqdim edir | Cümlə qurur | Fərqləndirir | Nəticə çıxarır |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |

*Cədvəl 6. Birinci dərs üzrə qiymətləndirmə cədvəlinə dair nümunə.*

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Şeirin mövzusu üzrə fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırır. | | | |
| Şeirdəki sözləri düzgün vurğu ilə oxuyur. | | | |
| Şeirin hissələri arasında əlaqələri müəyyənləşdirir. | | | |
| Sonu “q” və “k” samitləri ilə bitən isimlərin yazılış qaydalarına əməl edir. | | | |

LAYİHƏ

# AZƏRBAYCAN DİLİ 6

Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
dərsliyin metodik vəsaiti

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Həvva Abdullayeva,**<br>**İradə Əfəndiyeva,**<br>**Məlahət Ələsgərova** |
| İxtisas redaktoru: | **İsmayıl Kazımov**<br>*filologiya elmləri doktoru, professor* |
| Naşir | **Xəlil Həsənoğlu** |
| Redaktor | **Hafiz Rüstəm** |
| Texniki redaktor | **Jalə Kərimova** |
| Bədii redaktor | **Ləsfət Talıbova** |
| Korrektor | **Billurə Ələkbərova** |
| Dizayner | **Abdullah Rüstəmov** |

**Təhsil Nazirliyinin qrif nömrəsi:**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2021.**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi 10,0. Formatı 70x100 1/16.
Səhifə sayı 160. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tirajı.      Pulsuz. Bakı-2021.

**"KÖVSƏR" NƏŞRİYYATI**
**Bakı, AZ 1010, Dilarə Əliyeva küç., 251A/8A**

LAYİHƏ

**AZƏRBAYCAN DİLİ 6**

Ümumtəhsil məktəblərinin 6-cı sinifi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə dərslik


**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | Hava Abdullayeva,<br>İradə Əfəndiyeva,<br>Məlahət Ələsgərova |
| Naşir | Xəlil Həsənoğlu |
| Redaktor | Hafiz Rüstəm |
| Bədii redaktor | Jalə Kərimli |
| Texniki redaktor | Hüseyn Abdullayev |
| Dizayner | Abdullah Rüstəmov |



**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 039-2021**



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2021.**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Fiziki çap vərəqi **10,0.** Formatı **70x100 1/16.**
Səhifə sayı **160.** Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tirajı . Pulsuz. Bakı-2021.

**"KÖVSƏR" NƏŞRİYYATI**
**Bakı, AZ 1010, Dilarə Əliyeva küç., 251A/8A**



LAYİHƏ

PULSUZ

